Eunkyung Oh

XX YÜZİL TÜRKİYƏ VƏ KOREYA ROMANLARINDA QADIN

EUNKYUNG OH

XX YÜZİL TÜRKİYƏ VƏ KOREYA ROMANLARINDA QADIN

Feminist təhlil

Bakı-2020

Elmi redaktoru və ön sözün müəllifi:
Prof.dr.Vaqif Sultanlı

Türkiyə türkcəsindən çevirəni:
Aygün Ali

Rəyçi:
Dos.dr.Samirə Məmmədli

Eunkyung Oh.
XX yüzil Türkiyə və Koreya romanlarında qadın (Feminist təhlil), Bakı: "Nurlar" nəşriyyatı, 2020, 240 s.

Monoqrafiyada XX yüzil Türkiyə və Koreya romanlarında qadın problemi müqayisəli ədəbiyyat araşdırmaçılığı kontekstində – feminist yöntəmdə təhlil obyektinə çevrilmişdir.

ISBN: 978-9952-528-54-1

© Ankara: Kemal Yayınları, 2005
© Bakı: "Nurlar" nəşriyyatı, 2020

ƏDƏBİYYATLARIN MÜQAYİSƏSİ FEMİNİST TƏHLİL FONUNDA

Ədəbiyyatların qarşılaşdırılmasında feminist yöntəmdən yararlanma ilə aparılan təhlillərə son illərin araşdırmalarında çevik şəkildə müraciət olunmaqdadır. Bu metod bədii əsərlərdə qadın obrazlarının daxili-mənəvi dünyasını, yaradılış tərzini aşkarlamağa, həmçinin qadının həyatda və sənətdə fərqli təzahürlərini müşahidə etməyə imkanlar açır.

Yazar olaraq qadına yönəlik ilk təhlil Virciniya Vulf tərəfindən 1924-cü ildə yayınlanan "Özünə aid bir otaq" ("A Room of One's Own") kitabında verilmişdir. Bütövlükdə feminizm hərəkatının klassik örnəyi kimi dəyərləndirilən bu kitab "Qadınlar arasında niyə Şekspir yoxdur?" deyə soranlara mükəmməl cavab verən qaynaqlardan biridir. Virciniya Vulf cəsarətlə qadınlara səslənərək: "Pul qazanın, özünüzə aid bir otaq və boş zaman ayırın. Və yazın, kişilərin nə deyəcəyini düşünmədən yazın" - deyə onları mübarizəyə çağırırdı.

Sonrakı dönəmlərdə isə qadına yönəlik təhlillərə örnək olaraq Simone de Beauvoirin "İkinci cins" ("The Second Sex") və Mary Ellmannın "Qadınlar haqqında düşünmək" ("Thinking About Women") adlı əsərləri göstərilə bilər.

Feminist təhlil metodu 1960-cı illərdə Amerika, İngiltərə, Fransa və başqa ölkələrdə ictimai-siyasi mübarizə kimi yenidən canlanan qadın hərəkatının ədəbiyyat sahəsinə sızmasının sonucu olaraq ortaya çıxmışdır. Bu təhlil metodu ilk dövrlərdə ədəbiyyatda qadının aşağılanmasına etiraz kimi meydana gəlsə də, daha sonra başqa problemləri də içərisinə alaraq tədqiqat hüdudlarını xeyli dərəcədə genişləndirmişdir.

Feminist metoda söykənən təhlillər oxucu və yazar kimi qadına yönəlik olmaqla iki istiqamətdə gerçəkləşməkdədir: Birinci istiqamətdə qadının cinsəl fərqliliyindən daha çox kültürə dayanan qadınlıq anlayışı əsas tutulur. Bu kontekstdə bədii əsəri oxumaq üçün sadəcə qadın olmaq deyil, qadınlığın nə olduğunu gerçək mənada dərk etmək zərurətidir. Əsas diqqət yetirilən məsələ kişi yazarlar tərəfindən yazılan əsərlərdə yaradılan qadın tiplərinin qadın oxucular tərəfindən (feminist baxış bucağından) təhlil və yozumunu

gerçəkləşdirməkdir. Burada ədəbiyyatdakı qadın tipləri ilə həyatdakı qadınlar arasında müqayisə əsas tutulur. Bu cür yanaşma həyatda və ədəbiyyatda kişilərin qadınlara baxışlarını üzə çıxarmaq baxımından olduqca əhəmiyyətlidir. Qadın yazarların əsərlərinə gəlincə, burada bir qədər fərqli məqamlar ortaya çıxmaqdadır. İlk növbədə onların əsərlərinin mövzu, problem, xarakterlərin canlandırılması baxımından nə dərəcədə özəlliyə sahib olduğu maraq doğurur.

Bütövlükdə feminist təhlil metodu sosial mühit və yaranan ədəbi əsərlər bağlamında qadını bütün yönlərilə (oxucu, yazar, xarakter, funksiya və s.) dəyərləndirməyə çalışır. Bu baxış tərzi təbii olaraq qadını bütün yönlərilə dərk etməyə imkan verir.

Tanınmış Koreya türkoloqu, Dongduk Qadınlar Universitetinin professoru Eunkyung Ohun oxucuların mühakiməsinə verilən "XX yüzil Türkiyə və Koreya romanlarında qadın" monoqrafiyası qarşılaşdırmalı ədəbiyyat (feminist təhlil) müstəvisində aparılan araşdırma kimi diqqəti çəkir. Ciddi yaradıcılıq axtarışlarının bəhrəsi olan tədqiqat işi nəzəri təhlil səviyyəsi ilə yanaşı, forma-struktur özəlliyi ilə də fərqlənməkdədir.

İlk dəfə 2005-ci ildə Ankarada yayınlanan monoqrafiyada feminist yöntəmdə aparılan təhlillər iki ölkənin bədii nəsr örnəkləri – roman janrında yaranan örnəklər fonunda gerçəkləşmişdir. Müəllif istər Türkiyə, istərsə də Koreya ədəbiyyatında qadın problemlərini səciyyələndirmək üçün ən uyğun yazarları və əsərləri seçməyə çalışmışdır. Belə ki, araşdırıcı Xalidə Ədib Adıvar, Rəşad Nuri Güntəkin, Orxan Kamal, Yaşar Kamal, Ədalət Ağaoğlu, Ayla Kutlu, Əminə İsınsu kimi Türkiyə nasirlərinin əsərlərinə müraciət etmişdir. Eyni zamanda, XX əsr Koreya nəsrinin İncik Yi, Gvangsu Yi, Kyungri Park, Hun Shim, Seokyung Kang, Vanu Kim, Jiyong Gong kimi görkəmli nümayəndələrinin romanları müqayisəli təhlilə cəlb olunmuşdur.

Monoqrafiyada təhlilə çəkilən hər bir romanın qısa özəti verilmiş, daha sonra əsər bəlli problem işığında araşdırmaya cəlb olunmuşdur. Müəllif feminist təhlil kontekstində həmçinin digər yaradıcılıq metodlarının prinsiplərindən də yetərincə yararlanmış, bu isə məsələyə fərqli baxış bucağından yanaşma imkanları yaratmışdır.

Tədqiqatçı Türkiyə və Koreyada qadınların təhsili, hüquqları, ailə inkişafı ilə bağlı dövlət qanunlarına diqqət yetirmiş, onların məzmunu və mahiyyəti haqqında bilgi vermiş və bu yöndə də müqayisələr aparmışdır. Romanlarda yaranan qadın obrazlarının dəyərləndirilməsində ölkədə qadınlara yönəlik fəaliyyətin bədii mətnə yansımasını səciyyələndirmişdir.

Təhlil prosesində tədqiqatçı mövcud araşdırmalara söykənərək yalnız Türkiyə və Koreya ədəbiyyatında deyil, bütövlükdə Şərq və Qərb ədəbi-estetik fikrində qadının yeri və sosial statusu ilə bağlı düşüncələrini sərgiləmişdir.

Zəngin qaynaqlar əsasında yazılan monoqrafiya elmi-nəzəri tutumu ilə qarşılaşdırmalı ədəbiyyat araşdırmaçılığının mükəmməl örnəklərindən biri kimi səciyyələnir. Araşdırıcının qadın olması təhlilə çəkilən problemin ən incə və qapalı məqamlarının üzə çıxarılmasına imkan vermişdir.

Əsərin Azərbaycan türkcəsində nəşr edilməsinin səbəbi ilk növbədə bu sahədə araşdırmalara ciddi ehtiyacın olmasından qaynaqlanır. Həmçinin monoqrafiyada qaldırılan problemlərin Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı ortaq özəlliklərə malik olduğu unudulmamalıdır. Bununla yanaşı, qadın probleminin çağdaş dünyanın aktual mövzularından biri olması da tədqiqata olan marağı artırmaqdadır.

Monoqrafiya Azərbaycan türkcəsinə çevrilərkən araşdırmanın dil və üslubunun mümkün qədər qorunmasına çalışılmışdır. Habelə müəllifin iştirakı ilə mətndə bəzi düzəlişlər və dəqiqləşdirmələr aparılmışdır.

Şübhəsiz ki, Eunkyung Ohun "XX yüzil Türkiyə və Koreya romanlarında qadın" monoqrafiyası Azərbaycan ədəbi tənqidi tərəfindən gərəyincə dəyərləndiriləcək, bu səpkili araşdırmaların aparılmasına təkan verəcəkdir.

Prof.dr.Vaqif Sultanlı
Bakı, Azərbaycan

Onlar üçün həyat, çalışmaq deməkdi.
Onlar üçün həyat, xidmət etmək deməkdi.
Onlar üçün həyat, sevmək deməkdi.
Onlar üçün həyat, özünü yox saymaq deməkdi.

Özünü ailəsinə həsr edən nənəm və anama…
Və öz qabığından sıyrılmaq istəyən bütün qadınlara…

AZƏRBAYCAN NƏŞRİNƏ ÖN SÖZ

Hər hansı bir ölkənin qadınlarının həyat şəraitinə nəzər salsaq, bizdə həmin ölkənin necə bir yer olduğu haqqında müəyyən təsəvvürlər formalaşır. Çünki bir ölkədə qadınlar xoşbəxt deyilsə, bu o ölkədə, cəmiyyyətdə problemlər olduğunu göstərir. Qadınların həyat şəraiti ölkənin siyasi, iqtisadi, sosial və hüquqi reallığının göstəricisidir.

Türkoloq olsam da, Azərbaycanı başqa türk ölkələri ilə müqayisədə gec tanıdım. Azərbaycana ilk səfərim 2016-cı ilin fevralında olmuşdur. Bakı ilə bağlı gözəl təssüratlarım hələ də gözlərimin önündədir. Xəzər dənizi boyunca qədim binaların gözəl mənzərəsi sanki bir rəsm əsəri idi. 2018-ci ildə ikinci dəfə Bakıda oldum, keçən dəfə qışda gördüyüm mənzərə ilə bu dəfəki mənzərə çox fərqli idi. Bakı küləyi altında şəhər bir sənət əsəri kimi görünürdü. Küçədə insanın üzünə toxunan külək, yayın istisini yuyub, insanı sərinlədən yağışdan daha sərin külək... Xəzər dənizinin qoynunda yerləşən Bakının yayı küləklə ahəngli şəkildə özünü tamamlayır.

Belə gözəl bir şəhərin qadınları necə yaşayır? Mənim görüşdüyüm qadınların hamısı gözəl, aktiv, intellektual səviyyələri yüksək olan peşəkar iş qadınları və ya tələbələr idi. Ancaq mən Azərbaycanda yaşayan koreyalılardan eşitdiyim qədəri ilə qadınların hamısı mənim gördüyüm kimi xoşbəxt və aktiv deyillər. Düzdür, digər müsəlman ölkələrindən fərqli olaraq, Azərbaycan cəmiyyəti dünyəvi cəmiyyətdir və İslam dini qadınların həyatının çox böyük hissəsini təşkil etmir və qadınların hüquqlarının müdafiəsi istiqamətində intensiv işlər görülür. Bütün bunlara baxmayaraq, ölkədə qadın hüquqları ilə bağlı problemlər hələ də qalmaqdadır. Bəzi qadınlar "erkən nigah"ın qurbanı olurlar. Yüksək akademik və ya peşə təcrübəsi olan qadınlar belə, evlilikdən sonra çoxu hamiləlik, uşaqların böyüdülməsi və tərbiyəsi ilə əlaqədar olaraq bəzən öz iş yerlərini tərk edirlər. Həmçinin ailə həyatı qurmamış qadınlar "cəmiyyətdə kök salması çətindir" kimi milli-mental dəyərlərlə qarşıqarşıya gəlirlər. Bu vəziyyət hər bir ölkədə özünü fərqli şəkildə bürüzə versə də, bu problemlərlə ən çox Asiya qadınları üzləşirlər.

Əgər hər hansı bir cəmiyyətdə qadınlardan yalnız "bioloji varlıq" kimi yaşamaqları tələb edilirsə, o cəmiyyətin yetkin və dünyəvi bir cəmiyyət olmasından danışmaq bir qədər çətindir. Qadına biloji bir varlıq kimi

baxmaq əvəzinə, ilk öncə qadının da bir insan olduğunu unutmamaq lazımdır. Qadınların sadəcə bioloji xüsusiyyətlərini önə çəkib, qadına sadəcə uşaq dünyaya gətirən və onun tərbiyəsi ilə məşğul olan bir varlıq kimi baxıldığı müddətcə qadından bir insan olaraq bütün arzu və istəklərindən sadəcə "qadın" olduğu üçün əl çəkərək yaşaması tələb edilir. Uzun illər boyunca qadınlar "qadın yaxşı ana, yaxşı həyat yoldaşı olmalıdır" ideologiyası ilə yaşayıblar. Onlar ətrafdan daima "qadın hər zaman müdrik və ən yaxşı qadın olmalıdır" sözlərini eşidib. Bir qadın sadəcə qadın olduğu üçün arzu və istəklərini həyata keçirə bilmirsə, əgər bütün ailə və uşaqların tərbiyəsi problemləri qadınların problemləri kimi qiymətləndirilirsə, qadınların cəmiyyətdə özlərinə layiqincə yer tutmalarına maneələr törədilirsə, belə bir cəmiyyətə ədalətli cəmiyyət demək olmaz.

Bu kitab konfutsiçilik ideologiyasının kök saldığı Koreyada qadın olaraq doğulmuş və formalaşmış bir alim kimi həyatım boyunca şahidi olduğum Konfutsi mədəniyyətinə məxsus olan Koreya qadınlarının və türkoloq kimi təhsil aldığım islam mədəniyyətinə məxsus Türkiyə qadınlarının, habelə 20-ci əsrdə islam və konfutsiçiliyin Qərbin təsirinə məruz qalaraq müasirləşdiyi bir zamanda qadınların həyatının necə dəyişdiyini özündə əks etdirən bir kitabdır. Mənim bu kitabı yazmağımdan artıq iyirmi il ötmüşdür. Bu müddət ərzində təbii ki, Koreya və Türkiyə cəmiyyətləri böyük dəyişikliklərə məruz qalmışdır. Bu kitabın məzmununda hazırkı dövrlə uyğun gəlməyən nüanslara rast gəlmək mümkündür. Əgər kitabı oxuyarkən bu nüansları hiss edirsinizsə o deməkdir ki, hər iki cəmiyyətdə müəyyən dəyişiklər olmuşdur və bu sevindirirci haldır.

Bu kitabın azərbaycanlı oxucular üçün əlçatan olması məni çox sevindirir. Multikultural dəyərlərə sahib olan Azərbaycanın tarixi və bu yolda qazandığı təcrübələr gender bərabərliyi probleminin həlli baxımından əhəmiyyətli rol oynayacaq və Azərbaycan cəmiyyətinin inkişafına böyük töhfə verəcəkdir. Bundan əlavə, kitab islam və konfutsiçilik ənənələri ilə yaşamış qadınlara həmin ənənələrdən şüurlu şəkildə qoparaq cəmiyyətdə özlərinə layiqli yer tapmalarına stimul verəcəkdir. Azərbaycan kimi ənənələrə sadiq olan cəmiyyətin qadınlarının da digər Asiya ölkələrindəki qadınlar kimi ənənələrdən qurtulub öz daxili mənini dərk etməsi arzusundayam. Çünki yer kürəsinə sülhün gəlişi qadınların xoşbəxt olduğu cəmiyyətdə mümkündür.

***Eunkyung Oh*,**
15 noyabr 2019, Seul, Koreya

TÜRKİYƏ NƏŞRİNƏ ÖN SÖZ

Ötən əsrin 80-ci illərindən sonra daha çox gündəmə gəlməyə başlayan qadın problemləri günümüzdə çeşidli sahələrdəki incələmələrin mövzusu olmuşdur. Ədəbiyyatın toplumu əks etdirən bir hissə olmasından hərəkət edərək keçmişdəki və günümüzdəki qadınların yaşamını ədəbi əsərlərdə tapmaq mümkündür. Qadın xarakterlərin yaşamları ən konkret şəkildə daha çox romanlarda işlənmişdir. Bir "qadın" araşdırmaçı olaraq özümü tanımaq baxımından bu mövzunu tədqiq etmənin yararlı olacağını düşündüm.

Ədəbiyyatda "qadın" mövzusunda dünya miqyasında çalışmalarda üç metod tətbiq olunmaqdadır: Birincisi, bir oxucu olaraq qadının əsər içindəki qadına baxışını incələmək; ikincisi, qadın yazarları incələmək; üçüncüsü isə, qadınların yazma şəklinin fərqliliyini və ya "qadın sayağı yazma"nın nə olduğunu kəşf etməkdir. Şovalter feminist təhlili iki növə ayırır və birinci növ təhlildə bir qadın oxucu olaraq kişi yazarların əsərlərini ələ alaraq bunu "feminist təhlil" (feminist critigue) adlandırır. İkincisi, qadını yazar olaraq ələ alır və bunu da "qadın tənqidçilər" (gyno critics) olaraq adlandırır (Showalter 1985: 128).

Bu kitabda yuxarıdakı təhlil metodlarına əsaslanaraq Türkiyə və Koreya romanlarındakı qadın xarakterləri incələnmişdir. Türkiyə və Koreya XIX yüzildən etibarən qərbləşmə və müasirləşmə doğrultusunda siyasi, iqtisadi, ictimai və mədəni olaraq bir-birinə bənzəyən bir dəyişim xüsusiyyətinə sahibdir. Bu ictimai dəyişimi ədəbi əsərlərdə də görmək mümkündür. Xüsusilə, Türkiyə və Koreyanın islam və konfutsiçilik mədəniyyəti olmaq üzrə dəyişik mədəniyyətə əsaslanmaq, fərqli ənənə və özəlliyə sahib olmaq baxımından daşıdıqları fərqliliklərə baxmayaraq qadın problemləri məsələsində ortaq özəlliklərə sahib olmasının böyük anlam daşıdığına inanmaqdayam.

Qarşılaşdırmalı araşdırma metoduna görə ana dilim olan Koreya dili və sonra da öyrəndiyim yabançı dilim türkcəylə yazılmış XX yüzil romanlarında qadınların mövqeyiylə yazımı hüdudlandırdım. Bu sərhədləmə Frank Vankenin müdafiə etdiyi qarşılaşdırmalı araşdırma metoduna söykənməkdədir.

XX yüzildə yazılan Türkiyə və Koreya romanlarından dönəmin özəlliklərini və qadın problemini əks etdirən səkkiz romanı

seçdim. Əsəri seçərkən yazarlar arasında qadın-kişi fərqi qoymadım. Bu, ədəbiyyatda qadın çalışması mövzusunda günümüzdə tətbiq olunan metodların əksinə ola bilər. Fəqət sadəcə qadın yazarların əsərlərini təhlil etmək müəyyən mənada ayrı-seçkiliyə əsaslanan bir yanaşma ola biləcəyini düşündüyüm üçün birtərəfli olmayan, həm qadın, həm də kişi yazarların əsərlərini incələməyi uyğun gördüm.

Əsərləri seçərkən Türkiyə və Koreya romanındakı qadın xarakterlərin ictimai dəyişməyə uyğun bir paralellikdə olmağını istədim. İki ölkənin tarixi, sosial və estetik özəlliklərinə diqqət etdim, amma daha çox toplumun dəyişimini əks etdirən qadın xarakterləri seçməyə və iki ölkənin romanında mümkün olduğu qədər bənzərlikləri göstərməyə diqqət etdim.

İki ölkənin müəyyən bir mədəniyyət və mühit içərsində xarakterizə edilmiş qadın xarakterlərini mətnə bağlı incələmə yöntəminə görə təhlil etdim. Təhlil edərkən bəzi romanlarda qadını zaman və məkan ünsürlərilə dəyərləndirməyi də sınadım. Sonra da iki ölkənin romanındakı qadın xarakterlərin fiziki xüsusiyyətlərini, dil-üslub və içərisində olduğu mühit fonunda üç mərhələdə incələdim.

Təhlildə istifadə etdiyim romanların bəzilərinin ilk nəşrlərini oxumaq imkanı olmadığından və bəziləri ilk nəşrlərindən fərqli olmadığından son nəşrlərdən bəhrələndim. Bu kitab giriş nəzərə alınmazsa iki bölümdən ibarətdir:

"Giriş" qismində Türkiyə və Koreyanın ənənəvi, ictimai və modernləşməklə dəyişən qadın statusu haqqında danışılmışdır.

Birinci bölümdə Türkiyə və Koreya romanlarında qadın xarakterləri təhlil edilmişdir.

İkinci bölümdə iki ölkənin romanlarındakı qadın xarakterlərin özəllikləri fiziki xüsusiyyət, dil-üslub və qadının içərisində olduğu vəziyyət olmaq üzrə üç mərhələdə incələnmişdir.

Ətək yazıları və biblioqrafiyadan da göründüyü kimi, bu kitabı hazırlayarkən ən çox Koreya, türk və ingilis qaynaqlarından yararlandım. Qaynaq toplama sırasında Türkiyə və Koreyadakı ədəbiyyat dərgilərini nəzərdən keçirdim. Ankarada Milli Kitabxana, Koreyada Milli Kitabxana, Sukmyung Universiteti və Yonsei Universiteti kitabxanalarından, Amerikada Nyu-York Əyalət Universiteti kitabxanasından yararlandım. Bundan əlavə, Koreyada oldu-

ğum son bir il yarım müddətində Qadın Araşdırmaları Mərkəzində və Sukmyung Qadınlar Universitetində təşkil olunan seminarlara qatılaraq qadın ədəbiyyatına yönəlik metodları müəyyən etdim.

Araşdırmada mövzu ilə bağlı olmayan ünsürlərə mümkün olduğu qədər yer verməməyə çalışmışam. Yenə də elmi baxımdan və digər yönlərdən əskikliklərimin ola biləcəyi düşüncəsindəyəm. Məni bu mövzuyla bağlı çalışmalara təşviq edən və hər cür yardımı əsirgəməyən hörmətli elmi rəhbərim Prof. Dr. Bilge Ercilasuna, ayrıca çalışmalarımda məni dəstəkləyən dəyərli müəllimim Prof. Dr. Dursun Yıldırıma və Dos. dr. Abide Doğana, dəyərli dostum Dr. Gonca Gökalpa yardımlarından dolayı təşəkkürlərimi bildirmək istəyirəm.

Xüsusilə, bu çalışma müddətində bütün fədakarlığıyla yardım göstərən dəyərli arkadaşım Melahat Hamzaya da təşəkkür edirəm.

Ayrıca qaynaqları əldə etmə məsələsində yardım edən Prof. dr. Oya Çitçiyə, Ankara Universiteti hüquq fakültəsindən Prof. dr. Ülker Gürkana, Ankara Universiteti İletişim fakültəsindən Dos. dr. Serpil Üşürə, Hacettepe Universiteti Ədəbiyyat fakültəsindən Dos. dr. Dilek Yalçına və Koreya Sukmyung Qadınlar Universitetindən Song Kyungrana təşəkkür etmək istəyirəm.

Bu müddət içində hər cür maddi və mənəvi dəstəklərilə hər zaman yanımda olan ailəmə də sonsuz təşəkkürlərimi ifadə etməyi bir borc bilirəm.

Eunkyung Oh
Oktyabr, 2005

GİRİŞ

1.İKİ ÖLKƏDƏ ƏNƏNƏVİ VƏ İCTİMAİ BAXIMDAN QADININ STATUSU

1.1.Türk qadınının ənənəvi və ictimai statusunun tarixi inkişafı

İslam dininin qəbul edilməsindən öncəki köçərilik dövründə türk qadını dövrün kişi tipinə uyğundur. Bu dövrdə ailədə matriarxat quruluş mövcuddur. Toplumda təkarvadlı evlilik əsasdır. Ancaq idarəçi zümrəyə mənsub ailələrdə çox evliliyi də görməyimiz mümkündür.

Əski türklərdə ana və ata soyu dəyər baxımından bir-birinə bərabər tutulmuşdur. Hər iki tərəf ailə mülkündən haqqını öncədən alıb mallarını birləşdirərək ortaq bir ev sahibi olurdu. Beləliklə, əski türklərdə ev yalnız ərin mülkü olmayıb qadınla kişinin ortaq malıdır. Yenə bu səbəblə evin kişisinə ev ağası deyildiyi kimi, evin xanımına da ev xanımı deyilmişdir. Ziya Gökalpa görə əski türklər nisbi olaraq demokrat və feminist sayıla bilərlər (Unat 1982: 7).

Orta Asiyada Hun hakimiyyətinin hökm sürdüyü dövrlərdə, Hun dövlətini başqan (xaqan) ilə xanımı (xatun) birlikdə təmsil edirlər. Xalqdan olan Hun qadınları, kişilərin yanında döyüşə bilmək üçün yaxşıca öyrədilirlər, təpədən dırnağa silahlandırılırlar (Orhonlu 1968: 120 ; Duyğu 1973: 618).

Hunlardan sonra türk qadınını türk qövmləri tərəfindən Asiyanın çeşidli yerlərində qurulmuş olan irili-xırdalı türk feodallıqlarında görmək mümkündür (Doğramacı 1997: 3).

VIII əsr Orxan kitabələrində türk qadınından sayğı ilə bəhs edilməkdə, Oğuz şahzadələrinin sosial və siyasi sahələrdəki çalışmalarına da toxunulmaqdadır. Kitabələrdə qadının sosial həyatdakı dəyərindən bəhs olunur (Tekin 1988: 17). Əski türk ailələrində bir qız övladın dünyaya gəlişi digər bəzi qövmlərdə olduğu kimi bədbəxt bir olay və ya şərəfsizlik sayılmaz, əksinə bəzi qadınlar onlara bir qız övlad verməsi üçün Oğuz şahzadələrindən Tanrıya yalvarmalarını dilərlər (Doğramacı 1997: 3).

Üstəlik Orxan kitabələrində bu iki cümləni daima bərabər görürük: "Dövləti idarə edən Xan" və "Dövləti bilən Xatun". Ənənələrə

görə, sadəcə "Xan əmr edir" sözləri ilə başlayan bir əmrnamə çıxarırlarsa, keçərli sayılmaz, ancaq "Xan və Xatun əmr edir" şəklində başlarsa keçərli olur. Yabançı diplomatik elçilər Xan təkbaşına olarsa hüzura qəbul edilməzlər, ancaq hər ikisinin də olduğu təqdirdə hüzura gələ bilər və sağda duran Xan və yanındakı Xatunla tanış edilərlər. Savaşda, siyasi iclaslarda, sosial münasibətlərdə qadınlar hər zaman ərlərinin yanında yer alırlar (Doğramacı 1997: 4).

Ailə qadın və kişi üçün Od Ata (Ata Tanrı) və Od Ana (Ana Tanrı) deyə adlandırılmışdır. Evli qadın müqəddəs sayılır, ona təcavüz edənlər şiddətlə cəzalandırılırdı. Qızlar onlarla evlənmək istəyən kişilərlə güləşir və qalib gəldikdə evlənməzdilər. Bu ənənə qadınların da kişilər kimi yaxşı qılınc, qalxan işlətmək üzrə yetişdirildiklərini və kişilər kimi döyüşdüklərini, yəni hər sahədə kişilərə tay olduqlarını bizə isbat etməkdədir (Doğramacı 1997: 4).

Köçlərdən sonra Anadoluya yerləşən türklərin islam dinini X yüzildə qəbul etdikləri halda XIV yüzilə qədər islam öncəsi dəyər və törələrə sayğı göstərdiklərini ortaya qoyan önəmli bir əsər "Kitabi-Dədə Qorqud" dastanıdır.

"Dədə Qorqud" hekayələrinə görə toplumda olduğu qədər kişidə və qadında axtarılan ən yüksək dəyər qəhrəmanlıqdır. Daima hərəkət halında olan toplumda qadın gördüyü işlər baxımından kişidən fərqsizdir (Kaplan 1976: 41). Kişi kimi ata minər, ox atar, gərəkdiyi zaman savaşar. Qadın bir obyekt kimi ələ alınmamaqdadır. Əski türk dastanlarında olduğu kimi qadına yüksək dəyər verilir, ailəyə xoşbəxt yuva anlayışıyla baxılır; bu səbəbdən qadın müqəddəsdir. Qadın ailə bağlarını gücləndirir; uşaqların tərbiyəsilə məşğul olur. Türk uşağının anası olan qadın, ana türk kişiləri tərəfindən dərin sayğıyla qarşılanır.

Əski türklərdə evlilik zamanı oğlan tərəfi qız tərəfinə kalıng deyilən bir pul və mal verirdi. Boşanma halında qadın günahkar isə, kalıng kişiyə verilir, kişi günahkar isə qadında qalırdı (Kurnaz 1992: 10).

Əski türklərdə ölən qardaşın dul qalan yoldaşıyla və ögey anayla evlənmə adəti (leviratus) də görünməkdədir. Bunun məqsədi həm dul qadınları himayə etmək, həm də ailə mülkünün parçalanmasının qarşısını almaqdır. Ancaq qadın zəngindirsə, evlənən zaman aldığı kalıngı təhvil verərək bu evliliyi rədd etmək haqqına sahibdir (Kurnaz 1992: 10).

İslamın X əsrdən etibarən yeni bir din olaraq mənimsənməsi Türk ailə nizamında bəzi dəyişikliklərə zəmin hazırlamışdır. İslamda bir qadınla evlilik məqbul sayılmaqla birlikdə, qadının xəstə olması, uşaq sahibi ola bilməməsi kimi hallarda kişinin yenidən evlənməsinə icazə verilməkdədir. Ancaq bu zaman tərəflər arasında bərabər davranma şərt qoyularaq, tək evlilik tövsiyə edilməkdədir (Kurnaz 1992: 10).

Türklər islamı əvvəllər tək-tək, VIII əsrin ortalarından etibarən də toplu olaraq qəbul etməyə başlamışlar. Müsəlman olduqdan sonra belə, xalq uzun zaman əski adət və ənənələrinə bağlı qalmış, oturaq həyata keçişlə bərabər, islam qanunlarını da yavaş-yavaş qəbul etmişdir. Beləcə, keçmişdə türk qadınının sahib olduğu sosial haqları İslamiyyət içərisində çox məhdud qalmışdır. Sonunda İslam mədəniyyəti içində kişilərin durumu inkişaf etmiş, qadınlar da atalarından əldə etmiş olduqları haqların önəmli bir qismini itirmişdir. Sadəcə, Xəlifə Ömər zamanında niqab istifadəsi qadağan olunmuş, sonradan Abbasilərlə birlikdə niqab təkrar rəğbət qazanmış və xalqın siniflərə bölünməsi, möminlərin sayının artması sonunda çox yayğın bir hala gəlmişdir. Mədrəsələrin olduğu böyük şəhərlərdə isə dini təhsil təsirilə niqab istifadəsi daha da geniş yayılmışdır (Doğramacı 1997: 3).

İslamın qəbulu ilə birlikdə bu yeni əsaslar türk qadınının həyatında bəzi dəyişikliklərə yol açmışdır. Bu dəyişiklik içində təmas edilən Bizans, İran və ərəb mədəniyyətlərinin də təsirlərini unutmamaq gərəkdir. Ancaq bu yeni ünsürlərin Türk qadınının sosial, siyasi və iqtisadi fəaliyyətlərini davam etdirməsinə əngəl təşkil etmədiyi görünməkdədir.

Osmanlılar dövründə Bizans və İran təsirlərinin daha aydın hala gəldiyi söylənə bilər. Başda şəhərlər olmaq üzrə qadınlarda çarşaf və niqabın geyim olaraq yayğınlaşması, geyim və küçəyə çıxmaq kimi xarici mühitlə bağlı davranışlar ölkənin hər yanında qanunlar daxilinə salınmış, bu yöndə fərmanlar çıxarılmışdır (Kurnaz 1992: 12).

Bununla birlikdə, Osmanlılarda çox qadınla evliliyə təsadüf olunsa da, bu düşünüldüyü qədər geniş yayılmamışdır (Taşkıran 1973: 24).

Həmçinin bu dönəmdə qız uşaqları ancaq Sübyan Məktəbi səviyyəsində təhsil alırdılar. Fəqət maddi vəziyyəti yaxşı olan

ailələrin qızları özəl təhsil imkanı olduğu üçün şair, xəttat, bəstəkar ola bilirdilər. Vəqf sahibi olan qadınlar da yenə bu vəziyyətdəki ailələrdən hesab olunmaqdadır. Qadınların qurduğu vəqf miqdarı ümumi sayın 1/3ini təşkil etməkdədir (Yücel 1971: 44).

Bu dönəmdə qadınlar, şəhər ətrafı yerlərdə, tarlada çalışaraq istehsala dəstək olmuşlar. Şəhərlərdə isə buna bir o qədər rastlanmamışdır. Kəndlərdə iqtisadi fəaliyyətə qatılan qadın şəhərdə qapalı bir həyat yaşamaqdadır.

Türk cəmiyyətində modernləşmənin başlamağıyla birlikdə, yenə şəhərlərdən başlamaq üzrə qadınların həyatında dəyişiklik gözə çarpmaqdadır. Bu dəyişikliyi Qərbdəki inkişafı diqqətə almadan anlamaq imkansızdır. Çünki Tənzimatdan etibarən hər məsələdə olduğu kimi qadın məsələsində də Qərbin təsiri olduqca güclüdür. Türkiyədə qadının azadlıq çabaları cəmiyyətdə din, irq və ya cins ayrımı gözləmədən fərdi haqları zəmanət altına almaq üzrə elan edilən 1839-cu il tarixli Gülhane Hattı-Hümayunundan sonra aydınlaşmağa başlamışdır.

1.2. Koreya qadınının ənənəvi və sosial statusunun tarixi inkişafı

Daş dövründə yaşamış koreyalılarda qadın-kişi arasında status ayrımı olmadığı təxmin edilməkdədir. Qadınlar kişilərlə olduqca bərabər və dostcasına bir şəkildə həyatlarını sürdürmüşlər. Tarixçi Samkukciyə görə, bəyliyin rəisi xalqla birlikdə yaşayarr və bu cəmiyyətdə yaşlı-gənc, qadın-kişi ayrımı yoxdur (Choi 1983: 29).

Dəmir dövründə koreyalılar, oturaq həyatla birlikdə təsərrüfat həyatına da başlamışlar. Təsərrüfat işlərinin artması ilə birlikdə kişinin iş-gücünün önəmi böyümüşdür. Toxum səpmək və məhsul yığmaq kimi təsərrüfat həyatının xırda-para işləri isə qadınlara həvalə edilir. Həmçinin qadınlar uşaq saxlamaq, yemək bişirmək, tikiş kimi işlərə də baxmaqdadırlar.

Dəmirdən hazırlanan təsərrüfat alətlərinin meydana çıxması, zəngin-yoxsul ayrımını gətirir; beləcə, sinif anlayışı meydana çıxır. İdarəçi sinfin ortaya çıxmasıyla xalqın bir qismi kölə vəziyyətinə düşür. Qüvvətli bəyliklərin birləşdirilməsiylə hərbi gücün önəmi üstünlük qazanır, kişinin statusu da yüksəlməyə başlayır (Park 1988: 232).

Bu səbəbdən qadınlar və uşaqlar hərbi gücə sahib olan kişiyə bağlı qalmaq və itaət etmək məcburiyyətində qalmışdır. Əski çağda olduqca bərabər olan ailə münasibətləri patriarxal sistem altında qadınların kişiyə bağlılıqlarını məcburiyyət halına salmışdır.

Dəmir dövründə qurulan bəyliklərdə qadın və kişilər arasında olduqca rahat ünsiyyət mühiti olmuşdur. Gogurye (m.ö.39–m.s. 668), Bekce, Şillanın (m.ö.57–m.s. 935) bütün xalqı şərqi söyləməyi və rəqs etməyi sevər, qadın-kişi birlikdə içki içərək əylənərdilər. Qadın və kişilər sərbəstcə görüşə bildikləri üçün sərbəst evlənmənin də yayğın olduğu təxmin edilə bilər.

Krallıq dönəmində patriarxal sistem tam oturuşmağa və oğlan uşağına önəm verilməyə başlanır. Soyu davam etdirmək vəzifəsi qadınlar üçün ağır bir yük olmağa başlayır; oğlan doğa bilmədiyi zaman boşanmaq məcburiyyətində qalır (Choi 1983: 68).

Fəqət Shillanın (m.ö. 57 – m.s. 935) dövründə qadınların mülkiyyətə sahib olma haqqına olduqca önəm verilmişdir. Bununla birlikdə qız və oğlan övladlar arasında malın hansı nisbətlə bölündüyü məsələsində dəqiq bilgi almağımız mümkün deyildir (Choi 1983: 130). Həmçinin qadınların sədaqət anlayışı önəmli olsa da, namus anlayışı bir o qədər də məcburi ünsür olmamışdır. Dul qadınların ikinci evliliklərinin qəbul edilməsi bunu göstərmişdir (Choi 1983: 132).

Həyat yoldaşı olaraq qadının rəsmi yerlərdə əriylə birlikdə ailəni təmsil etməsi olduqca yayılmış haldır (Choi 1983: 132). Ailə içində uşaqların təhsilində məsuliyyəti ana üzərinə götürmüşdür (Choi 1983: 133).

Əski Koreya qadınlarının sosial quruluşdakı ailə içindəki statusu isə olduqca yüksəkdir. Fəqət konfutsiçilik və buddizm inancları təsiri altında qadınların statusu dəyişiklik qazanmışdır (Jo 1988: 232).

Goryeo (918-1392) dönəmində də qadınların olduqca rahat bir yaşamı olmuşdur. Buddizmlə bağlı dini tədbirlərdə qrup halında bir yerə toplaşaraq əylənmişlər. Bu dönəmdə dul bir qadının ölənədək evlənməməsi bir ərdəm olaraq qəbul edilmiş, amma yenidən evlənməsi də problem olmamışdır. Goryeonun son dönəmində, soylu təbəqənin dul qadınları təkrar evlənməyi seçim etmişlər.

Coseon (1392 - 1908) dönəmində kişiyə daha çox önəm verilməyə başlanır. Qadınlar siyasi, sosial, iqtisadi və mədəni baxımdan haqsız bir şəkildə bərabərsizlik görmüşdür. Ailə içindəki yeri isə tamamilə ərindən sonradır (Song 1983: 450).

Beləcə, Coseondakı qadınlar çöldən tamamilə qoparaq sadəcə evin içində yaşamaq məcburiyyətində qalmışlar, evli bir qadının ərinin izni olmadan çölə çıxması yasaqlanmışdır. Bununla qalmayıb, ər-arvad münasibətlərində belə onların rahat görüşməsi əngəllənir, ayrı otaqlarda qalmaq məcburiyyətində buraxılır (Song 1983: 456).

Bu dönəmdə dul qadınların evlənməsi də tamamilə yasaqdır. Bir dul qadın evləndiyi zaman qadına pis gözlə baxılır və övladlarının dövlət məmuru olaraq çalışmaqları əngəllənir. Həmçinin qadının ailəsi də sosial və hüquqi təzyiq altında qalırdı (Choi 1983: 463).

Belə ki, dul qalan qadınlar ərlərinə sədaqətlərini sübut etmək üçün çox ifrat hərəkətlər etmiş, ərlərinin ardınca intihar etmək, ya da 30 il boyunca oruc tutub, çadırda yaşamaq kimi dramatik davranışlar sərgiləmişlər (Kim 1976: 159).

Fəqət Ceseon dönəmində görünən müsbət bir özəllik qadınların evləndikdən sonra da öz sərvətinə sahib olmağa davam etmələridir. Qadınlar evləndikdən sonra ərinə bağlı qalmadan mülkiyyət və vəsiyyət haqqına sahib ola bilirdilər. Beləcə, Coseondakı qadınların miras mövzusunda yüksək statusa sahib olduğunu görməyimiz mümkündür. Belə isə, qadınların bayıra çıxması, evlənmə sistemindəki əngəllər, yaşamını məhdudlaşdıran bu səbəblərlə, sosial statusla necə açıqlana bilər? Coseon xanədanının qadın statusuna bir çox qadağalar gətirməsi konfutsiçiliyə əsaslanan sistemi qüvvətləndirmək mərhələsində meydana çıxmağa başlamışdır. Həmçinin Koryeo (918-1392) dönəminin sonunda sosial mühitin məhdudlaşdırılması bir çox siyasətçinin özəl məqsədindən qaynaqlanmışdır (Song 1983: 489).

Konfutsiçiliyə əsaslanan Coseon xanədanındakı qadınların statusunda, 1910-cu ildə Coseonun Yaponiyanın hakimiyyəti (əsarəti) altına girməyiylə böyük dəyişiklik olmuşdur (Kim 1993: 6). Yeni dönəmdə qadına baxış bucağı əvvəlki konfutsiçiliyə əsaslanan qadına baxış bucağını geridə qoymuşdur.

1894-cü ildə Kabo Fərmanının elan edilməsiylə dul qadınların evlənməsinə qanuni olaraq izn verilmişdir (Kim 1993: 2).

1890-cı ildən etibarən çoxalmağa başlayan qadın fəaliyyətləri və Modern Təhsil İnstitutu qadın statusunun yüksəlməsində böyük rol oynamışdır. Fəqət qadının hüquqi və sosial statusu hələ geridə qalmışdır (Kim 1993: 11).

2. MÜASİRLƏŞMƏ VƏ QADIN STATUSU

2.1. Türkiyə

2.1.1.Müasirləşmə və Türkiyədə edilən yeniliklər

2.1.1.1. Tənzimat dönəmində edilən yeniliklər

Tənzimat dönəmində qadına təmin edilən haqlar, 1839-cu ildə ölkəni Avropa sayağı bir dövlət sisteminə çevirmək üçün Gülhane meydanında Tənzimatı-Hayriye elan edilmişdir. Ancaq bu Tənzimat fərmanı ölkəyə köklü dəyişikliklər gətirməsə də bir çox yeniliklərə səbəb olmuşdur.

Tənzimat fərmanında qadınlar üçün hökmlər yoxdur. Fəqət zehniyyət, təhsil və hüquq sahəsində bir çox yeniliklər gətirmişdir.

Tənzimat öncəsinə qədər Türk qadınına geniş təhsil imkanı verilməmişdir. Sadəcə idarəçi və ya üləma zümrəsindən olan şəxslərin qızları ailələrində özəl dərs ala bilmişdilər (Kurnaz 1990: 11).

Tənzimatla birlikdə Qərbin hər sahədə görülən təsirləri, Türk qadınına da bəzi yeniliklər gətirmişdir. Məsələn, Fransadan təsirlənərək hazırlanan 1860-cı il Maarifi-Umumiyyə Nizamnaməsi ilə qızlar üçün müəllim məktəblərinin açılması, rüşdiyyələrin çoxaldılması qərarlaşdırılmışdır. Tənzimat dönəmi Türk qadınına dövlət əliylə məsləki və mədəni baxımdan təhsil qapılarının açıldığı bir dönəm olmuşdur (Kurnaz 1992: 17).

Mithat Paşa yetim qız uşaqlarının təhsilini nəzərdə tutan ilk peşə məktəbini 1865-də Rusçukda açmış, daha sonra İstanbulda ilk qız sənaye məktəbini də qurmuşdur (Ergin 1939: 43).

Darülmüəllimin açılmağı isə, Türk qadınının təhsil tarixindəki ən önəmli hadisələrindən biri olmuşdur. Çünki bu məktəbin açılmağıyla qadınların təhsil imkanı genişlənmiş, yeni bir çalışma mühiti hazırlanmışdır.

Hüquq sahəsində də Türk qadını bəzi yeni haqlar almağa başlamışdır. Bundan əvvələ qədər düşünülməyən bir mövzu olan qadının torpaqdan miras alması, qadını kişi ilə bərabər haqlara sahib vəziyyətə gətirmişdir .

Yenə Qərb təsirilə cariyəliyin qaldırılması əmr edilmişdir. Saray və malikanələrdəki qadın geyimində də Qərb təsiri görünməyə başlamışdır (Kurnaz 1990: 44).

Yuxarıda verdiyimiz məlumatlardan aydın olduğu kimi, Tənzimat dönəmi qadınlara rəsmi təhsilin verilməsinin başlanğıcı olmaqla birlikdə hüquq sahəsində də damğasını vuran bir dönəm olmuşdur.

2.1.1.2. Atatürkün etdiyi inqilabla qadına verilən haqlar

Cümhuriyyətin qurulması ilə Atatürk Türk qadınına yeni haqlar vermişdir. 17 fevral 1926-cı il tarixində qəbul edilən Mədəni Qanun, qadınların həyatına önəmli dəyişikliklər gətirmişdir:

Hüquqi qadın və kişi bərabərliyi qəbul edilmişdir (M. 8-10).

Poligami (çoxarvadlılıq) yasaqlanmışdır (M. 112).

Boşanma haqqı hər iki tərəfə bərabər olaraq verilmişdir (M. 129, 130, 131, 132, 133, 134).

Arvad və ərin bir-birinə qarşı haqq və vəzifələri təyin edilmişdir.

Ər-arvad malların idarəsi mal ayrılığı (M. 186), mal birliyi (M. 191), mal ortaqlığı (M. 211) şəklində təsbit edilmişdir.

Mirasda bərabərlik qəbul edilmişdir .

Ailə və evlilik həyatında qadının təmin olunduğu haqlarla birlikdə 3 aprel 1930-cu ildə Bələdiyyə Qanununun qəbul edilməsilə də Türkiyədə qadına ilk siyasi haqlar verilmişdir.

Həmçinin 31 mart 1926-cı ildə qəbul edilən 788 saylı Məmur Qanununun 6-cı maddəsində qadınların məmur ola biləcəkləri müəyyənləşmişdir (Taşçıoğlu 1958: 68).

2.1.2. Türkiyədə qadın statusu

2.1.2.1. Hüquqda qadın

Türkiyədə qadın haqlarından ancaq II Məşrutiyyətdən sonra (1908) bəhs edilməyə başlanmışdır. Fransız mədəniyyətilə yetişən aydınlar qadının ictimai səviyyəsinin yüksəldilməsinin vacib olduğunu müdafiə etmişlər. Tanınmış şair və yazarlardan ibarət olan qadınlar da bu yöndə bir mübarizəyə başlamışlar.

Cümhuriyyətin qurulmasıyla Türkiyədə qadınların altun çağı başlamışdır. Atatürkün Türkiyə Cümhuriyyətini qurarkən etdiyi inqilablar arasında ən önəmlisi qadına verilən dəyər və haqlardır. Atatürkün etdiyi inqilablar ilə digər ölkələrdəki inqilablar arasındakı fərq bu nöqtədədir. Türk qadınlarının səs vermə haqqını qazanmaları 1934-cü ildədir. Bu, bir çox Avropa ölkələrinə görə daha erkən bir tarixdir.

Qadın haqları və qadının təhsili, Atatürkün Türkiyəni çağdaşlaşdırma planının önəmli bir parçasıdır. Atatürk Türkiyədə qadın bərabərliyinin təmin olunmasını çağdaşlaşma, dünyəvilik və demokratiya planlarını gerçəkləşdirəcək bir qavram olaraq görmüşdür (Moghadam 1993: 82).

Bu səbəbdən Türkiyədə hüquqi sahədə qadının yeri digər Avropa ölkələrinə görə olduqca yaxşı bir səviyyədədir. Fəqət, dünyanın hər tərəfində olduğu kimi, Türkiyədə də ənənə və mədəniyyət içərisində qadınlara edilən haqsızlıqların bir qismi günümüzdə də davam etməkdədir.

2.1.2.2. Təhsildə qadın

Tənzimatdan sonrakı dönəm, qız və oğlan uşaqları üçün ilk məcburi təhsilin başlanğıcı olmuşdur. Cümhuriyyətin qurulması və 1926-cı ildə Mədəni Qanunun qəbul edilməsilə qadın və kişi arasındakı ayrı-seçkilik rəsmi şəkildə ləğv olunmuşdur.

Cümhuriyyətin ilk illərindən etibarən qadınların təhsil sahəsinin yüksəldilməsinə önəm verilmişdir. Görülən işlər nəticəsində təhsilin hər sahəsində və növündə sürətli əhali artımına baxmayaraq böyük irəliləmə qeyd edilmişdir. Yenə də bu irəliləmə inkişaf etmiş ölkələrə görə aşağı səviyyədədir. Qadınlar təhsil imkanlarından kişilər qədər yararlana bilməmişdir.

Təhsilin hər sahəsində qadınların nisbəti kişilərdən daha azdır. Amma bunun səbəbi sadəcə cinsiyyət fərqlilikləri deyildir; kənd və ya şəhər mühitində yaşama, ata-ananın təhsil vəziyyəti, iqtisadi şərtlər kimi faktorlar qadının təhsilində böyük önəm daşımaqdadır.

Təhsilin önəmini Atatürk çağdaşlarından çox öncə görmüş, qız və oğlan uşaqlarının eyni şəkildə və bərabər səviyyədə təhsil görməsi gərəkdiyini bu sözlərlə ifadə etmişdir:

"Bir toplum, bir millət kişi və qadın deyilən iki cins insandan oluşur. Mümkündürmü ki, bu kütlənin bir parçasını irəlilədək, digərini görməzlikdən gələk və kütlənin hamısı irəliləmə imkanı tapsın? Mümkündürmü ki, bir toplumun yarısı torpağa zəncirlərlə bağlı qalarkən, digər qism göylərə yüksələ bilsin?" (Doğramacı 1997: 137)

Fəqət təəssüf ki, Cümhuriyyətin quruluşundan günümüzə qədər keçən dönəmin rəsmi məlumatlarına baxıldıqda qadınların təhsilə qatılımlarının kişilərlə müqayisədə hələ çox aşağı səviyyədə olduğu görünməkdədir.

Həmçinin toplumun bəzi qismində qız tələbələr intellektual imkansızlığı səbəbindən analıq, ev qadınlığı və bacılıq kimi rolların davamı xüsusiyyətindəki ictimai işlərə, kişi tələbələr isə birbaşa istehsala yönəlik elektrikçilik, dülgərlik, tornaçılıq və s. kimi peşələrə istiqamətləndirilirlər. Bu yöndən baxıldığında dövlətin təhsil siyasətinin peşə texniki məktəblər kontekstində cinsiyyət ayrılığını dəstəkləyən bir seçim içində olduğu açıqdır (Tekeli 1995: 188).

Cədvəl 1. Universitet və ali məktəblərdə qız tələbələrin ümumi tələbələrə nisbəti

İllər	Qız tələbənin toplam tələbəyə nisbəti
1927	0.112
1930	0.13
1935	0.153
1940	0.201
1945	0.186
1950	0.168
1960	0.2
1965	0.206
1970	0.207
1975	0.221
1980	0.26
1985	0.32

(Tekeli 1995: 192)

İctimai iş bölgüsünün bilgi və bacarıq tələb edən sahələrinə insan gücü yetişdirməyin yanında, bilgi istehsalının da edilməsi gərəkən ali təhsil ocaqlarında qadın-kişi bərabərsizliyinin ölçüləri də gözə çarpmaqdadır. Kişilərin yarısından daha az sayda qadın yüksək təhsilə davam edə bilməkdədir. Xüsusilə, cəmiyyətdə vacib sayılan yüksək maaşlı peşələrin qazanıldığı məktəblərdə qadınların nisbəti yarıdan da azdır. Yüksək təhsildə təhsil imkanları müəyyən sinif və qrupların daha asan yararlanmaları istiqamətində bir təşkilati struktur göstərməkdədir. Bu ayrıcalıq qadınlar tərəfindən daha dramatik bir səviyyədə yaşanmaqdadır. Ailələrin gəlir səviyyəsi düşdükcə qız uşaqlarının yüksək təhsilə göndərilmələri ehtimalı da azalmaqdadır (Tekeli 1995: 189).

2.1.2.3. Əmək həyatında qadın

Türkiyədə qadınların maaş qarşılığı çalışma həyatına girməsi I Dünya müharibəsindən sonra, İstiqlal Savaşı dönəmində olmuşdur. Qadınlara qanuni çalışmaq haqqının verilməsi Cümhuriyyətin qurulmasından sonra gerçəkləşmişdir. Konstitusiyada qadına verilən haqlar zamana görə dəyişikliyə məruz qalmışdır.

Qanunlarda qadınlar üçün özəl olaraq hazırlanan maddələr olmaq üzrə qadın işçilər və məmurlar üçün bəzi məsələlərdə eyni maddələr qoyulmuşdur. Qadın işçilər üçün maaşlarda bərabər maaş prinsipi mənimsənmiş, qadın işçilərin çalışdırılmasının yasaq olduğu vəziyyətlər də qanunlarla müəyyənləşdirilmişdir.

Qadınların özəl vəziyyətləri ilə bağlı maddələr də konstitusiyaya daxil edilmişdir. Çalışan işçi qadınlara doğumdan öncə 6 həftə, doğumdan sonra 6 həftə olmaq üzrə 12 həftə maaşlı və istəyə görə 6 ay maaşsız icazə haqqı verilmişdir. Dövlət məmurları üçün bu müddətlərdə bəzi dəyişikliklər edilmişdir. Doğumdan öncə 3 həftə doğumdan sonra 6 həftə olmaq üzrə 9 həftə maaşlı icazə və yenə istəyə bağlı olaraq 6 ay maaşsız icazə haqqı verilmişdir. Dövlət məmurları və işçilər üçün, 100 qadın işçi çalışdırılan yerlərdə əmizdirmə otağı, 150 qadın işçi çalışdırılan yerlərdə bağça açmaq məcburiyyəti gətirilmişdir. Həmçinin uşaq əmizdirən qadınların ağır işlərdə işlədilməsi, əlavə iş gördürülməsi yasaqlanmışdır. Altı ay müddətinə hər gün 1.5 saat ödənişli əmizdirmə haqqı verilmişdir (Aykut 1984: 20).

Qadınlar üçün sosial güvənlik sahəsində də müxtəlif hökmlər gətirilmişdir. Hər cür səhiyyə xərcləmələri, hamiləlik də daxil, dövlət tərəfindən qarşılanmaqdadır. Doğum üçün səhiyyə yardımı, əmizdirmə sığortası, doğum öncəsi və sonrası maaşlı iznlərdə ödəmə edilməsi, analıq səbəbilə ölkə daxilində başqa bir yerə göndərilməsi kimi hökmləri əhatə edən analıq sığortası sistemi tətbiq olunmaqdadır.

Konstitusiyaya qadınları qoruyan hüquqlar salınmasına baxmayaraq bunun həyata keçirilməsində çətinliklərlə qarşılaşılmaqdadır. Bu hüquqlar beynəlxalq müqavilələrlə qorunma altına alınmışdır. Mədəni Qanunda qadınlara özəl hüquqlar verilən hökmlər vardır.

Qadınların iqtisadi müstəqilliklərini əldə edə bilməmələrinin ilk və təməl səbəbi təhsil sisteminin yetərsizliyində axtarılmalıdır. Çünki 1992-ci il Türkiyəsində 27 milyondan artıq qadın yaşamaqdadır və onlardan 15 yaşdan yuxarı hər yüz qadından otuz səkkizi

hələ oxuma-yazma bilməməkdədir. On beş yaşdan yuxarı kişilər qrupunda isə bu yüzdə14 nisbətindədir (Arat 1996: 47).

Qadınların iqtisadi müstəqillik əldə edə bilməmələrinin ikinci əsas səbəbi isə, yenə ənənəvi ideologiya ilə yaxından bağlıdır. Toplumda "ailə başçısının kişi olduğu" və "kişinin ailəni keçindirdiyi" düşünüldüyündən, işə qəbulda kişilərə üstünlük verilməkdədir. TÜSİAD-ın Türk Toplumunun Dəyərləri Araşdırmasında əgər iş yeri azdırsa və işsizlik varsa, işə qəbulda kişilərə üstünlük verilib-verilməməsi nüansı soruşulduqda, təcrübə aparılan şəxslərin 52 %-i kişilərə üstünlük verilməsini istəmişdir. Eyni araşdırma qadınların çalışma yaşamına qatılmalarının toplumda geniş qəbul olunmadığını meydana çıxarmışdır. Çünki araşdırmaya qatılanların 88.3%-i qadınların çoxluğunun gerçəkdə həyatdan istədiyi şeyin evi və uşaqları olduğunu qeyd etmişdir (TÜSİAD 1991: 32).

Bu araşdırma Türkiyədə qadınların toplam iş qüvvəsi içində varlıqlarını niyə yetərincə hiss etdirə bilmədiklərinin izlərini daşımaqda və bu izlər bizi ənənəvi düşüncəyə doğru aparmaqdadır. Həqiqətən də qadınların ən önəmli çalışma sahələri hələ kənd təsərrüfatında, ailə içində və ailə müəssisəsində ödənişsiz ailə işçiliyidir. Kənd təsərrüfatında çalışanların 54%-i, ödənişsiz ailə işçisi olaraq çalışanların 80%-i qadındır. Kənd təsərrüfatından kənardakı sektorlarda çalışan qadınların nisbəti, toplam çalışanların 16 %-i qədərdir; öz müstəqil iş yerində çalışan qadınlar üçünsə bu nisbət 7% təşkil edir (Arat 1996: 49).

Əhalinin şəhərlərə yayılması və iqtisadi təzyiqlər çalışan qadın sayının getdikcə artmasında ən böyük faktordur. Şəhərləşmə ilə birlikdə ödənişli işçilik də bir ölçüdə önəm qazanmaqdadır. Amma 12 yaşdan yuxarı qrupda 7.5 milyon qadının 6.2 milyonu hələ evdar qadın statusundadır.

İqtisadi çətinliklər evdar qadınları evi tərk etmədən ailə gəlirinə dəstək göstərə biləcəkləri qeydsiz, sığortasız, yeni bir çalışma formasına yönləndirməkdədir. Bu qadınlar ev işlərindən və uşaqlarından qalan boş zamanlarında toxuma və geyim sənayesinə girməkdə, evdə "parça başı" iş görərək ənənəvi forma içində, evdən çıxmadan ailəyə əlavə gəlir gətirməkdədir. Bu şərait altında, yetərli təhsilləri və sənəti olmayan qadınların müstəqil şəxsiyyət, kimlik və iqtisadi güc qazanmaları mümkünsüzləşməkdədir.

İşin qəribə və paradoksal olan tərəfi, yenə Türk Toplumunun Dəyərləri araşdırmasında ənənəvi ideologiyanın müəyyənləşdirdiyi açıq-saçıq trendlərə baxmayaraq, evin gəlirinə həm qadın, həm də kişi tərəfindən dəstək olunması gərəkdiyini müdafiə edənlərin sayının 86% olmasıdır. Evin gəlirinin təkbaşına "ailə başçısı" tərəfindən təmininin mümkünsüz olduğunu qəbul edən bu görüşlə "qadının gerçək yerinin evi olduğu" görüşünün bir arada olması, ənənəvi olmayana doğru bir meyilin varlığını göstərməkdədir. Bu araşdırmada qadın üçün müstəqillik əldə etmənin çalışmaqla təmin olunacağına təcrübəçilərin 45%-i inanmaqdadır. Bu nisbət, qadınlar arasında 58%, kişilər arasında 39%-dir. Bu da qadının çalışmasını yalnızca iqtisadi çətinliklərə bağlamağın doğru bir təhlil olmadığını, xüsusilə kəndli qadınların böyük əksəriyyətinin çalışmağın qadını müstəqilləşdirdiyinə inandığını göstərməkdədir (TÜSİAD 1991: 32).

Zatən Türkiyədə yaxşı təhsil görmüş kəndli qadınlar, 1923-cü il Çağdaşlaşma və Mədəni İnqılabla birlikdə müəllimlik, əczaçılıq, həkimlik, tibb bacısı, diş həkimliyi, vəkillik, bankçılıq, memarlıq, mühəndislik, alimlik kimi sahələrdə gedərək artan nisbətlərdə yer almışlar. Məsələn, Avropa universitetlərində qadın müəllimliyi nisbəti 10 % - dən az ikən Türkiyə universitetlərində qadın akademik personalın sahələrinə görə dağılımı, təbiət elmlərində 33 %, tibb və səhiyyə elmlərində 35%, mühəndislik elmlərində 25%-dir (Arat 1996: 50).

Bu örnək Türkiyədə qadınların çalışma yaşamına problemsiz girə bildikləri, ya da çalışma yaşamında problemlərinin olmadığı mənasına gəlmir. Amma Cümhuriyyətlə birlikdə qəribə bir modelin formalaşdığını, çoxluqla şəhərli oxumuş qadınların yaratdığı bu modelin kütləviləşdirilməsi üçün daha bir çox əngəlin aşılması gərəkdiyini və bunun mümkün olduğunu söyləyə bilərik.

Qadınların çalışma yaşamına daha təsirli qatıla bilmələrinin yolu, zehnlərdən cinsiyyətci ideologiyanı silməklə və ənənəvi iş bölümünü modern iş bölümünə çevirməklə bərabər hazır yeməklər, camaşırxanalar, bağçalar, hazır geyim növündən uyğun və yetərli maddi infrastrukturun yaradılmasına da bağlıdır.

2.1.2.4. Siyasətdə qadın

Mütləqiyyətdən məşrutəyə, məşrutədən cümhuriyyətə doğru gedən zaman dilimində Türk toplumunun bütün təbəqələrində, xü-

susilə də qadınların siyasi həyata qatılımına təsadüf edilmir. Hər nə qədər Məşrutənin elanı qadınları küçəyə tökmüş, arabalar və əllərindəki plakatlarla məşrutənin elanını dəstəkləyən nümayişlər etmişlərsə də, bu yalnız İstanbulun bəlli səmtləri ilə məhdudlaşmışdır (Minibaş 1994: 61).

Ancaq Balkan savaşı və I Dünya savaşı illərində istehsalda kişilərdən boşalan yerlərin doldurulması məqsədilə qadınların məcburi olaraq iqtisadi yaşamın içinə girməsi, onların sürətlə siyasiləşməsinə səbəb olmuşdur (Arat 1996: 181).

Cümhuriyyətin elanını izləyən ilk on il, qadınları siyasi yaşama hazırlayan infrastrukturun yaradıldığı illərdir. Xüsusilə, 1924-cü ilin 3 mart günü çıxarılan Tevhidi-tedrisat qanunu on il sonranın seçmə və seçilmə haqqının sanki xəbərçisidir.

Qadınlara ilk dəfə 1930-cu il bələdiyyə seçimlərində seçmə və seçilmə hüququ verilmişdir. 5 dekabr 1934-cü ildə çıxarılan bir qanunla siyasi haqları artırılmış, 1935 ümumi seçimlərindən başlayaraq qadınlar millət vəkili olaraq məclisdə yer almışdır. Buna baxmayaraq, Osmanlının cinsiyyət ayrımına əsaslanan sistemini qırmaq çox asan olmayacaqdır. İstər fərd, istərsə siyasətdəki yeri baxımından cinsiyyət fərqliliyi müəyyənləşdirici olmağa davam edəcəkdir (Arat 1996: 182).

1935-1946-cı illər arasındakı dönəm, qadınların məclisdə say etibarilə ən çox olduqları dönəmdir. Bunda, çağdaş Türkiyə adına gerçəkləşdirilən inqilabların qalıcılığının, qadının ictimai funksiyaları qazanmasına bağlı olduğu görüşünün hakim olması təsirli olmuşdur (Tekeli 1979: 401).

Buna qarşılıq mühafizəkar müxalifətin yüksəlməyə başladığı 1946-cı il və onu izləyən çoxpartiyalı dönəmdə qadın millət vəkili sayı gözlənilənin əksinə gedərək azalmışdır.

1960-cı il inqilabı və 1961-ci il Konstitusiyasının gətirdiyi geniş demokratik haqlara baxmayaraq Məclis hesablamaları qadınların əleyhinə bir hadisə izləmişdir. Partiya sayındakı artışa baxmayaraq qadın namizədlərin sayı məhdud qalmışdır.

1980-ci ildən sonranın ən maraqlı hadisələrindən biri mühafizəkar və dini ideologiyanı təməl alan partiyaların da qadın seçici kütləsinə yönəlik çalışmalara girməyidir. Yüz ilin başında milli azadlıq səbəbilə siyasi həyata girən qadınlar, əsrin sonuna yaxın-

laşanda isə, çağdaş bir həyatdan vaz keçməmək adına siyasət səhnəsində yer almağa başlamışdır (Arat 1996: 188).

Cədvəl 2. 1960-cı ildən sonrakı dövrdə qadınların məclisdəki bölgüsü

Seçim dönəmləri	Millət vəkili	Senator	Məclisdəki qadın nüm. faizi
1961 – 1965	3	2	0.8
1965 – 1969	8	3	1.8
1969 – 1973	5	3	1.3
1973 – 1977	6	3	1.5
1977 – 1980	4	3	1.4

(Minibaşı 1996: 184)

Həmçinin qadınların siyasətdə az təmsil edilməklərinin səbəblərindən biri seçim sistemidir. 1987-1991-ci illər parlamentində olan qadınlardan sadəcə bir nəfəri ön seçim yolu ilı millət vəkili olmuşdur. Ön seçim, qadını kişi ilə qarşı-qarşıya gətirib mübarizə içinə salan bir sistemdir. Bu mübarizə içində qadınların heç şansı yoxdur. Çünki ön seçimdə qadınlar özlərini həm kişi partiyalara, həm də nümayəndələrə bəyəndirmək məcburiyyətindədirlər. Ənənəvi qadın imajı ilə parlamentə seçilən qadınlar, toplumun müqaviməti ilə qarşılaşacağı düşünüldüyü üçün siyasətdən kənarlaşdırılmışlar.

Toplumdan qaynaqlanan problem isə, Türkiyədə patriarxal ailə sisteminin hakim olması və kəndli təbəqədəki qadınlar üzərində kişi basqısının hələ davam etməsidir.

Qadınların iqtisadi baxımdan azad olmamaları onların siyasətə qatılımağına böyük əngəl olmuşdur. Çünki qaynaqların böyük qismi kişilərin əlindədir və bu qaynaqları işlətmək üçün yenə kişiləri vasitəçi etmək gərəkməkdədir.

Partiyalardan qaynaqlanan problemlər də vardır. Partiya mərkəzləri, partiya içində müəyyən sayda qadın təmsilçi seçərək qadınları siyasətə qatmağı düşünə bilər, amma partiya mərkəzlərində seçilən bu qadınları da yenə kişilər seçməkdədir. Kişilər qadınları seçərkən, heç olmazsa kişilərlə ayaqlaşa biləcək vəziyyətdə olmağını istəyirlər.

Qadınların siyasi həyata qatılmalarındakı əngəlləri qısaca toplanmalı olarsa, ictimayyətdən qaynaqlanan problemlər, öz haqları məsələsində kifayət qədər bilgiyə sahib olmamaları, təhsillərinin kişilərə görə daha aşağı olması, siyasətin kişi hegemonluğunda olması kimi sıralana bilər.

Burada qadınların ümümi olaraq, seçmə haqqına yiyələnərkən, seçilmə haqqından istifadə edə bilmədiyi ortaya çıxmaqdadır. Demokratiyanın inkişafı üçün qadınların siyasi həyata daha yüksək nisbətlə qatılmaları gərəkməkdədir. Həmçinin qadınların gələcəkdə dünya sülhünün təmin olunması və siyasətin daha xarakterli olması üçün də siyasətə qatılmaları lazımdır.

2.2. Koreya

2.2.1. Müasirləşmə və Koreyada edilən yeniliklər

2.2.1.1. Kabo fərmanı

Coseon xanədanı 1897-ci ildə ölkənin modernləşdirilməsi vəzifəsini yerinə yetirmək üçün Kabo fərmanını elan etmiş və ölkə miqyasında yeniliklər gətirmiş, iqtisadi, sosial, mədəni sahələrdə dəyişikliklər etməyə çalışmışdır. Sinif sisteminin ləğvi, bürokratları imtahanla seçən Guago sisteminin ortadan qaldırılması və kölələrin kölə sinfindən qurtarılması kimi yeniliklər Kabo fərmanıyla tətbiq edilmişdir.

Bu sosial-mədəni islahat, konfutsiçiliyin təsirilə illər boyu davam edən və içində qadınların həyatlarını məhdudlaşdıran, dul qadınların ikinci evliliklərinə icazə verməyən qaydalara qarşı çıxaraq onların statusuna böyük dəyişikliklər gətirən ilk amil olmuşdur. Bütün bu yeniliklər xalq tərəfindən göstərilən anti-feodal düşüncələrinin qəbul edilməsidir (Yi 1989: 44).

Həmçinin ilk dəfə qadınlara rəsmi təhsil haqqı təmin olunmuşdur. Kabo islahatının bir parçası olaraq Qərb üsullu təhsil ön plana çıxmağa başlamışdır. Kral da "Xalqımızın təhsil səviyyəsini yüksəldərək ölkəmizi inkişaf etdirək" fikrindən hərəkət edən "təhsil fərmanı"nı elan etmiş və modern xalq təhsilini tənzimləyəcək təhsillə bağlı qanun hazırlanmağa başlamışdır. Beləcə 7 yaşından etibarən 15 yaşına qədər qadın-kişi fərqi qoyulmadan uşaqlara təhsil haqqı verilmiş və ilk dəfə qadınların da kişi ilə bərabər təhsil haqqı təmin olunmuşdur (Yı 1989: 44).

2.2.1.2. Qadın cəmiyyətlərinin fəaliyyətləri ilə gətirilən yeniliklər

Koreyada qadın statusunun yüksəlməsində qadın hərəkatlarının böyük rolu vardır. Koreyada qadın hərəkatları avropalılaşma və yapon işğalı dönəmində xalqın istəyi istiqamətində milli mübarizənin bir vasitəsi olaraq başlamışdır. Qərb ölkələrində olduğu kimi Koreya qadınları insan haqları və ya vətəndaş haqları qazanmaq üçün heç bir mübarizə aparmamışlar. 1948-ci ildə demokratik Koreya dövlətinin qurulmasıyla birlikdə qadınlara siyasət, təhsil, çalışma sahələrində və həyatlarının digər sahələrində bərabər haqlar verilməyə başlanmışdır. Qadınlara verilən bu haqlar mübarizə yoluyla qazanılmamış, dövlət tərəfindən verilmişdir (Yi 1989: 12).

XIX yüzilin sonlarından etibarən qərbləşmə hərəkatı ilə qadın təhsilinin önəmi vurğulanmağa başlanmışdır. Bir çox qadın cəmiyyəti və qadın lider özəl məktəblər quraraq qadınların milli mübarizəyə bərabər şəkildə qoşulmalarını təklif etmişdir.

Qadın təhsili bir qism müasir qadının şəxsi statusunun yüksəlməsi üçün aparılmamışdır; millətin hegemonluğunu qorumaq, azad bir vətəni qurmaq üçün qadın təhsilinin şərt olduğu düşüncəsindən çıxış edilərək həyata keçirilmişdir.

Həmçinin Yaponiyanın Koreyanı işğal etdiyi dönəmdən etibarən Qadın İşçilər Hərəkatı fəaliyyət göstərməyə başlamışdır. İstismarçı bir ölkənin iqtisadi boyunduruğu altında əziyyət çəkməkdə olan işçilərin, xüsusilə qadınların, məruz qaldıqları bərabərsizlik və cinsi təcavüz nəticəsində, öz hərəkatlarını davam etdirmək mümkün deyildi. Buradan hərəkatla təşkilatlanan “Gunuhue” kimi qadın cəmiyyətləri əməkçi qadınları dəstəkləməyə başlayaraq qadın-kişi bərabərsizliyinə qarşı çıxan bir mübarizə halında inkişaf etməyə başlamışdır. Ancaq bu mübarizə Yaponiyanın təzyiqilə 1930-cu ilin sonunda dayandırılmışdır. Yaponiya əsarətindən qurtulduqdan sonra, Güney və Quzey olmaq üzrə ikiyə ayrılan Koreyanın siyasi vəziyyəti də, qadın cəmiyyətlərinin çalışmalarına uyğun deyildi. Bu vəziyyətdə qurulmuş olan Koreya Cümhuriyyəti Konstitusiyasında qadın-kişi bərabərliyi vurğulanaraq qadınların siyasət, iqtisadi və təhsil sahəsində kişilərlə bərabər mövqedə olmalarının təmin edilməsi, qadın statusunun yüksəlməsində vacib bir nöqtə olmuşdur.

Sənayeləşmiş Koreya ictimayyətində qadınların ailə və toplum içindəki rollarını bərabər davam etdirə bilmələri önəmli bir problem olmağa başlamışdır. Hazırda Koreya qadınlarının təhsil səviyyəsinin yüksək olmasına baxmayaraq bunun təmin edilməsi uzun bir müddət nəticəsində mümkün olmuşdur.

2.2.2. Koreyada qadın statusu

2.2.2.1. Hüquqda qadın

Koreyada Yaponiya işğalından sonra başlayan müasirləşmə, xalq tərəfindən qadın-kişi bərabərliyi düşüncəsi böyük problem halına gətirilmədən gerçəkləşmişdir. Bunun həyata keçirilməsində "Gunuhue"nin və digər qadın cəmiyyətlərinin rolu böyükdür. Koreya konstitusiyasında qadın-kişi bərabərliyinin elan edilməsindən sonra qadınlara səsvermə və seçilmə haqqı tanınmışdır. Yenə də konstitusiyanın bir çox maddəsi qadın-kişi bərabərliyinin tam olaraq təmin olunmasına imkan verməmişdir. Qurtuluşdan sonra qanunun hazırlandığı dönəmdə qadın-kişi bərabərliyinin olmadığını göz önündə tutsaq bunları normal qarşılaya bilərik. Xüsusilə, ailə münasibətlərində çox mühafizəkar bir qanun hazırlanmışdır. Yeni Mədəni Qanun hazırlanmadan öncə, 1953-cü ildən etibarən demokratik Ailə Qanununun çıxarılması üçün qadın cəmiyyətləri və bir çox qadın lider çalışmış, fəqət müsbət bir nəticə ala bilməmişdi. Bu səbəbdən Koreyanın Ailə Qanunu kişi hegemonluğuna üstünlük verən Çin və Avropa sistemlərindən faydalanalaraq hazırlanmışdır (Yi 1989: 273).

Bu vəziyyətdən şikayətçi olan qadın cəmiyyətləri, Yeni Mədəni Qanunun hazırlanmasından etibarən Ailə Qanunu Məsləhət Şurası və YWLA Qurumu ilə dəyişməni təmin etmək üçün araşdırmalar aparır.

62 qadın qurumunun qatıldığı, "Qadınların Ailə Qanunu Dəyişdirmə Cəmiyyəti" mədəni qanun içərisindəki "ailə mirası qanunu"nu araşdırdıqdan sonra 10 maddənin düzəldilməsini irəli sürmüşdür. Müəyyən bir səbəb olmadan 2,5 il müddətində məclisdə həyata keçirilməyən və daim ertələnən bu məsələ, nəhayət 17 dekabr 1977-ci ildə gündəmə gəlmiş, fəqət təəssüf ki, miras məsələsində qadın-kişi bərabərsizliyinin çox az ölçüdə aradan qaldırılması ilə kifayətlənilmişdir (Yi 1989: 273).

Koreyanın indiki konstitusiyasının 9-cu maddəsi cinsiyyət, din və sosial status səbəbindən siyasi, iqtisadi, mədəni sahədə ayrımın olmamağı gərəkdiyini bildirir. Bu maddə, "qadın olmağı" səbəbilə qarşılaşa biləcək bir ayrı-seçkilikdən şəxsi qoruya bilməyi nəzərdə tutur. Belə isə qadınlara haqsız bir şəkildə tətbiq oluna biləcək maddələr hansılardır? Onları nəzərdən keçirək:

1. Evli bir fərd zina cinayəti işlədiyi təqdirdə iki il həbs cəzası kəsilir. Zina edən hər iki şəxsə eyni cəza verilir (Cəza Qanunu 241. Maddə).

Hazırkı Cəza Qanununda zina cinayəti nəzərdə tutulur. Buna görə zina edən kişi və qadına eyni cəza verilir. Zina cinayətinin qəbul edilməsi üçün isə ər-arvaddan birinin məhkəməyə müraciəti gərəkməkdədir. Amma qadınların boşanmağı Koreyada toplum tərəfindən bir cinayət (günah) kimi dəyərləndirildiyi üçün qadının bu məsələdə qarşılaşacağı çətinlikləri təxmin etmək olar. Boşanma sisteminin qadına qəyyumluq haqqı verməməyi və ərindən ayrılan qadının toplum içində qarşılaşacağı sıxıntılar, bu qanun maddəsinin qüvvədən qaldırılmağı gərəkdiyini göstərməkdədir.

2. Əmək Qanunu və Peşə Qanununda qadın-kişi ayrımı edilməyi qadağan olunmuşdur. Həmçinin qadının fiziki vəziyyəti düşünülərək aylıq izin və doğum izni kimi xüsusi vəziyyətləri qorunmağa çalışılmaqdadır.

Əmək Qanununun qadınları qoruyan maddələrini tətbiq edən şirkət sahibləri bir o qədər də çox deyildir. Tam əksi, bu maddələr səbəbilə qadın işçiləri işə götürməkdən çəkinməkdədirlər.

3. Ailə Qanununda kişi hegemonluğuna əsaslanan patriarxal quruluş qadın-kişi bərabərsizliyi yaratmaqdadır. Bu düşüncə ilə ailənin soyunun davamı üçün oğlan övladları seçmək fikri davam etməkdədir.

4. Yeni Mədəni Qanunda uşaqlarla bağlı qəyyumluq maddəsi vardır. Fəqət valideyn anlaşa bilmədiyi təqdirdə uşaq atasına aiddir. Uşaqları qorumağa əsaslanan bu haqqa anadan çox ata sahibdir. Boşandıqdan sonra atanın razılığı olmadığı müddətcə ana uşaqlarını itirmək məcburiyyətindədir.

5. Miras məsələsində bərabəsizlik qanunda davam etməkdədir. Ailədə ən böyük oğul 1.5, ikinci oğul 1 və subay qız uşağı 1, evli olan qız 1/4, eşi 1.5 nisbətində miras almaqdadır. Uşaq olmayan ailədə həyat yoldaşının vəfatı halında ər arvadının bütün sərvətinə sahib ola

bilər. Yenə uşaq olmayan ailədə ər öldüyü zaman xanımı qayınatası və qayınanası ilə birlikdə sərvəti bölüşdürə bilər; bu halda qadın, qayınatası və qayınanasından 1.5 nisbətində miras alır.

Göründüyü kimi, Koreya ailə qanununda qadını qorumağa və kişi ilə bərabər yerə gətirməyə yönəlmiş bir çox maddə yer almaqdadır. Ancaq bu, gerçək həyatda qadının qorunduğu və kişi ilə bərabər haqlara sahib olduğu mənasına gəlmir. Bunun keçilə bilməsi və qanuni baxımdan qadın-kişi bərabərliyini həqiqətəntəmin edən maddələrin gətirilməsi üçün qadınların bir çox sahədə hegemonluğunu qoruyaraq məlumatlı olmaları vacibdir.

2.2.2.2. Təhsildə qadın

Koreyada əvvəllər yalnız kişilərə verilən rəsmi təhsil XIX əsrdə qadınlara da verilməyə başlamışdır. Qərb mədəniyyətilə qarşılaşan Koreya xalqında modernləşmənin və maariflənmənin bir gərəyi olaraq təhsil fikri kök salmağa başlamışdır. Həmçinin Koreyaya girməyə başlayan yeni dinlər, xüsusilə protestant missionerlər, kilsə yanında məktəb, xəstəxana kimi xalqın xeyirinə qurumlar açmışdır. Əsrin sonlarına doğru missionerlərin qadın təhsili üçün açdıqları məktəblər sürətlə çoxalmağa başlamışdır.

Koreyada qadınlar üçün açılan ilk məktəb, missionerlər tərəfindən qurulmuş olan İvha Hak Dangdır. Məktəbin məqsədi gerçək bir xristian təhsili vermək və daha yaxşı bir Koreya qadını yetişdirməkdir. Amma təməl olaraq qadınların azadlığı nəzərdə tutulmuşdur.

Koreyada qadınlar üçün açılan ilk özəl məktəb isə Hansong Ali Qızlar Məktəbidir. 1908-ci ildə hökumət qadınlar üçün hazırlanan Ali Məktəb Qərarnaməsini rəsmən təsdiq etmişdir. Qərarnamə, məktəbdə qabiliyyət dərslərinin və qadın üçün önəmli olan rəsm dərslərinin verilməsini şərt qoymuşdur. Bu fəaliyyətlər Koreyada rəsmi təhsilin başlamasından bəri qadın təhsili üçün edilən ilk qanuni şərt və hazırlıq olmuşdur. Təhsilin qadınlar arasında tam mənasilə yayılması, 1945-ci ildə qurtuluşdan sonra gerçəkləşmişdir.

1948-ci ilin Koreya Cumhuriyyəti konstitusiyasında yer alan "Bütün vətəndaşlar bacarıqlarına uyğun şəkildə bərabər təhsil alma haqqına sahibdir" maddəsilə vətəndaşların cinsiyyət, yaş, sinif fərqi

olmadan təhsil haqqına sahib ola biləcəkləri qərarlaşdırılmışdır. Təhsil Qanunu qəbul ediləndə 1949-cu ildən etibarən 6 illik təhsil icbari olmuşdur. 1992-ci ildə aparılan statistikaya görə ibtidai məktəbdə qız və oğlan uşaqları sayca bərabərdir. Eyni il kollec və universitetlərə giriş nisbəti oğlanlarda 62.5%, qızlarda 33.9 %-dir. Ümumi olaraq kollec və universitetlər bir yana qoyulsa, məktəblərə qeydiyyat sayında cinslər arasında böyük bir fərq yoxdur.

Fəqət universitetə qeydiyyat sayında böyük bir cinsiyyət fərqi görsənməkdədir. Universitetə yazılmaq nisbəti 1997-ci ildə qadınlarda 7.5 % ikən, kişilərdə 11.5%-dir.

Təhsil səviyyəsiylə çalışmaq arasındakı əlaqəyə baxsaq, qadın və kişi arasında çox fərq olduğunu görə bilərik. Yəni, qadınlar universiteti bitirmiş olsalar belə, sosial fəaliyyətlərdə olmaq imkanları çox məhduddur. Bu gün Koreyada universitet təhsili kişilər üçün yaxşı bir zəmin ola bilər, amma yüksək təhsil qadınlar üçün yüksək vəzifə və aktiv sosial fəaliyyət mənasına gəlmir.

1997-ci ildəki statistikaya görə, universitetlərdə qadın tələbə nisbəti 33.9%-dir və getdikcə artmaqdadır. Buna baxmayaraq, universitet məzunu qadınların çalışma həyatına atılmamağı Koreya üçün böyük bir itkidir.

Cədvəl 3. Təhsil səviyyəsi və cinsiyyətə görə çalışma nisbəti (1996)

Təhsil Səviyyəsi	**Qadın**	**Kişi**
Orta məktəb məzunu	50.9%	90.9%
Kollec məzunu	65.9%	93. 3%
Universitet məzunu	59.6%	93. 4%

(Koreya Qadın İnkişafı İnstitutu 1997: 43)

2.2.2.3. Əmək həyatında qadın

1948-ci ildə Koreya Cümhuriyyətinin qurulmasıyla konstitusiyada qadın-kişi bərabərliyi qəbul edilmişdir. Bu bərabərlik qanunda belə ifadə edilmişdir: “Qanun qarşısında bütün vətəndaşlar bərabərdir. Siyasi, iqtisadi, sosial və mədəni yaşamda cinsiyyət, din

və sosial səviyyə fərqliliyi nəzərə alınmadan bütün vətəndaşlar bərabərdir" (M.8).

1987-ci ildə çıxarılan və 1988-ci ilin aprelində qüvvəyə minən Bərabər Xidmət Qanununda isə hədəflənən əsil nöqtə, qadın-kişi bərabərliyinin gerçək həyata geçirilməsidir. Konstitusiyada da çalışan qadınlar üçün hökmlər vardır. Qanunla anaya, uşağı bir yaşına gələnə qədər 60 gün işə gəlməmə haqqı, gəlinməyən bu dönəmdə pul ödənməsi zəmanəti, ayda bir gün işə gəlməmə haqqı verilmişdir. 1989-cu ildə yenidən düzəldilən qanunda iş yerlərində cinsiyyət ayrı-seçkiliyi edilmədən bərabər maaş ödənməyinə çalışılmışdır.

Qanuni nizamlamalara baxmayaraq, gerçək həyatda çalışan qadınların sosial statusuna və bərabərsizliyinə dair ilk nümunə cinsiyyətə görə maaş uyğulamaqdır. Günümüzdə qadın və kişi arasındakı maaş fərqliliyinin getdikcə azaldığı görünməklə birlikdə fərqin, digər ölkələrə görə hələ böyük nisbətdə olduğu söylənə bilər. 1990-cı ildəki statistikaya görə digər ölkələrdə qadın maaşı nisbəti belədir: Avstraliya 90.9%, İsveç 89.9%, Fransa 80.8%, Amerika 75.4%-dir.

Cədvəl 4. Koreyadakı kişi – qadın maaş fərqliliyi

Kişilərlə müqayisədə qadınların maaş nisbəti	
1985	46.7%
1990	53.4%
1996	59.6%

(Koreya Qadın İnkişafı İnstitutu 1997: 202)

Qadın və kişinin təhsil səviyyəsinə görə dəyərləndirmə etsək universitet məzunu kişilərə nisbətdə qadınların maaş nisbəti 73.5% daha azdır. Orta məktəb məzunlarının maaş fərqliliyi isə 57.5% olaraq bildirilmişdir.

Cədvəl 5. Təhsil səviyyəsi və cinsiyyətə görə maaş fərqi

Təhsil səviyyəsi	Kişiylə müqayisədə qadınların aldığı maaş nisbəti
Orta məktəb məzunu	57.5%
Lisey məzunu	64.1%
Kollec məzunu	69.9%
Universitet məzunu	73.3%

(Koreya Qadın İnkişafı İnstitutu 1997: 207)

Koreyada şirkət birliyi sistemi vardır. 1987-ci ildən etibarən peşə fəaliyyətləri aktiv olaraq edilməkdədir. 1990-ci ildə qadın işçilər, hökumətə iş bərabərliyi qanununu qəbul etdirdilər. 70-ci illərdən bəri davam edən qadın işçilərin mübarizəsi bütün işçi hərəkatlarının birləşməsi nəticəsində gerçəkləşmişdir. Qadınlar da aclıq tətilləri, oturma aksiyaları, nümayişlər kimi cəsur yollara baş vurmuşdur.

2.2.2.4. Siyasətdə qadın

Koreyada qadınlara səs vermə haqqı 1948-ci ildə tanınmışdır. 1948-ci il konstitusiyasıyla Koreyada qadınlara seçmə və seçilmə haqqı verilmişdir. Amma 1948-ci ildə keçirilən ilk ümumi seçimlərdən 1988-ci ilin ümumi seçimlərinə qədər Koreya Millət Məclisinə girən ümumi qadın sayı 61-dir (John 1994: 30). Daha sonrakı seçimlərdə qadın millət vəkillərinin sayı getdikcə azalmışdır. Ölkənin ən səlahiyyətli qurumu olan Millət Məclisinə seçilə bilən qadınların nisbəti digər Avropa ölkələrinə görə aşağıdır.

İdarəçilikdəki qadınların vəziyyətinə baxdığımızda qadınların yüksək mövqedə vəzifə almaqlarının çox da asan olmadığını söyləməyimiz mümkündür. 1948-ci ildə ilk qadın nazir Ticarət və Sosial Sənaye naziri İm Yong Shindir. Daha sonra qadınlar 1993-cü il seçiminə qədər uzun müddət yüksək səviyyədə vəzifə ala bilməmişdir. Ancaq 1993-cü il seçimində Siyasi İşlər naziri, Ərtaf mühit naziri, Səhiyyə və Sosial İşlər naziri olmaq üzrə üç nazirlik vəzifəsini qadınlar almışdır. Hökumət içindən qadınların sayında az da olsa artım olmasına baxmayaraq onların vəzifələri ümumilikdə aşağı mövqelərdə yer alır.

Cədvəl 6. Koreyada qadınların siyasətə qatılma səviyyəsi (%)

	1985	1990	1996
Qadın nazir nisbəti	4.3	4.2	4.5
Qadın məmur nisbəti	23.2	25.6	27.8
5-ci dərəcədən yüksək qadın nisbəti	0.5	1.9	2.5
Qadın millət vəkili nisbəti	2.9	1.3	3.0
Dövlət qurumlarındakı qadın nisbəti	2.2	5.5	9.2

(Əmək naziri 2. Oda 1997: 608)

1975-ci ilin Birləşmiş Millətlər Təşkilatı tərəfindən Beynəlxalq Qadın ili elan edilməsindən cəsarətlənən Koreya qadınlarıbir sıra mühüm problemlərinin həllini tələb etməyə başlamışdır. Koreya dövləti də Koreya Qadını İnkişaf Quruluşu (KWDL) və Koreya Siyasətçiləri Milli Qadın Komitəsi olmaq üzrə iki özəl təşkilat qurmuşdur.

Koreya Siyasətçiləri Milli Qadın Komitəsinin məqsədi qadınların maraqlarını milli siyasətə çəkmək, əlaqədar idarəçi orqanlara qatılmalarını təşkil etməkdir. KWDL-nin təməlində bir çox qadın qurumu dayanır. Dövlət tərəfindən KWDL-a qadın inkişafı üçün təməl plan hazırlayıb qadınlara qarşı ayrı-seçkiliyin önlənməsi üçün tüzük hazırlama vəzifəsi verilmişdir. Beləcə, ilk dəfə qadın problemi hökumət səviyyəsində diqqət görməyə başlamışdır. Bu iki quruluşla Koreyada milli inkişafda qadın iştirakına qapılar açılmışdır.

I BÖLÜM

TÜRKİYƏ VƏ KOREYA ROMANLARINDA QADIN

1. TÜRKİYƏ ROMANINDA QADIN

1.1.Xalidə Ədib Adıvar – "Xəndan"[1]

1.1.1. Özət

Məktub formasında olan bu roman, Rəfiq Camalın Nərimanla evlənəcəyini bildirən bir məktubu Sərvərə göndərməsilə başlayır.

Nəriman, Camal bəyin qızıdır və Nərimanın köhnə dostu Xəndana qibtə edir. Əri Rəfiq bəy isə Nərimanın Xəndana artıq bağlanmağı səbəbilə Xəndanı qısqanır. Xəndan, oxumuş, mədəni və çəkici bir qızdır. Xəndanın erkən evlənməyə qarşı çıxmasına baxmayaraq Nəriman ənənəvi bir düşüncəyə sahibdir.

Romanda Xəndanın Hüsnü Paşayla birdən evlənməsilə hadisələr inkişaf edir. Xəndanın özəl dərs aldığı müəllimi Nazim, II Əbdülhəmid istibdadına qarşı azadlıq və məşrutiyyət istəklərini gerçəkləşdirməyə çalışan bir ülkücü adamdır. Nazim, düşüncə və mübarizə yoldaşı ola biləcəyini umduğu Xəndana evlənmə təklif edir. Xəndan özüylə eşqdən deyil də, başqa məqsədlə evlənmək istəyən Nazimin təklifini rədd edir və Hüsnü Paşayla evlənir. Nazim, Xəndanın evliliyinin çox xoşbəxt olmadığını öyrənəndə ona geri dönməyini istəyir, fəqət Xəndan dönmür. Mübarizə uğrunda hazırladığı bir jurnal səbəbindən həbs edilən Nazim, Xəndana məktub yazdıqdan sonra intihar edir. Varlı bir adam olan Hüsnü Paşa, Xəndanla sərvəti üçün evlənmişdir, fəqət xoşbəxt bir evlilik yaşaya bilmirlər. Xəndanın dərin duyğusu, zəkası, ərini nəzarəti altına almaq istəməyi Hüsnü Paşanı bezdirir. Hüsnü Paşa, arvadıyla hər gün dava edir, ona həqarətlər yağdırır və evə gəlməyərək aşnaları ilə vaxt keçirməyə başlayır. Xəndan bütün olanlara baxmayaraq ərinə sadiq qalır. Bir müddət sonra tutulduğu beyin xəstəliyindən yaddaşını itirir. Bu zaman şüur altında Nərimanın əri Rəfiq Camala duyduğu sevgi özünü göstərməyə başlayır. Yaddaşı yerinə gələndə

---

[1]Təhlildə istinad edilən mətnlər romanın 1995-ci il nəşrindən alınmışdır.

Rəfiq Camala duyduğu eşqi ilə həm sadiq bir dostu, həm də qardaşı qızı olan Nərimana duyduğu sevgi arasında çırpınır və sonda ölür.

1.1.2. Qadın xarakterlər

1.1.2.1. Xəndan

Xalidə Ədibin 1912-ci ildə yazdığı bir romandır. İngilis tərbiyəsilə böyüdülmüş, oxumuş və ziyalı bir qadının bədbəxt bir evlilik nəticəsində xəstələnməsi və ona qulluq edənə duyduğu eşq, bu romanın əsas mövzusudur.

Həyatı əsas etibarilə London və Parisdə keçməsinə baxmayaraq Xəndan çox da mühitdən təsirlənməmişdir. Romanda önəmli ana xətt olan Xəndanın yaşadığı hadisələr xronoloji ardıcıllığa görə belə sıralana bilər:

Camal bəyin qızıdır.
Nazimdən özəl dərs alır.
Nazimdən evlənmə təklifi alır.
Təklifi rədd edir.
Hüsnü Paşayla evlənir və Avropaya gedir.
Hüsnü Paşa Xəndanı aldadır.
Xəndan xəstələnir.
Rəfiq Camala aşiq olur.
Ölür.

Xəndan, Şehper, Saffet və əmisi qızı Nəriman ətraflarında "Camal bəyin firənfsayağı qızları" kimi tanınırlar. Camal bəy Avropa sayağı tipdə insanlardandır. Xəndan, Nəriman, Saffet və Şehper özəl təhsil alırlar. Ərəbcə, ingiliscə və musiqi dərsləri üçün müəllimlər tutulur. Quran öyrənirlər. Həmçinin piano çalır və tennis oynayırlar. Ancaq Xəndan digərlərindən fərqli olaraq oxumağa çox meyillidir.

Nərimanın Rəfiq Camala haqqında danışdığı Xəndan belədir:

"Bir qədər qızılı, tünd rəngli qəribə saçları vardır. Saçlarını yaxşı düzəldir. Saçları rəngdə iri gözləri vardır" (Adıvar 1995: 35).

İncə və bir az gülünc bir qadın olan Şehperin Xəndana bənzədiyi söylənsə də Nəriman onu Xəndana bənzətmək istəmir:

"Xəndan da hər şeylə əylənir, amma yenə gülünc hissi yaratmaz. İnsan o güldüyü vaxt sıxılmaz, amma bununku təsir edir. Onun istehzasında insana toxunmayan bir şəfqət vardır. Görəcəksən ki, sanki Xəndanın əyləndiyi adamlara qarşı bir mərhəməti, sevgisi

vardır. Onun istehzasını mən Çarls Dikkensin yazılarına bənzədirəm" (Adıvar 1995: 27).

Xəndana Parisdəki ilk görüşdə Rəfiq Camal müsbət təsir edir. Arvadı Nərimana yazdığı məktubda Xəndandan aldığı təəssüratı Rəfiq Camal belə danışır:

Kübar, zərif, zəkalı, hər şey, fəqət gözəl, gözəl deyil. Nəriman, bilirəm, Xəndanı gözəl görmədiyim üçün əsəbləşəcəksən. Fəqət nə edim, deyil! O, solğun və incə yanımda yeriyərkən səni düşündüm.

...

Fəqət çox gözəl, zərif davranışları var. Necə də sənin başını çevirməyini, suallı nəzərlərlə baxmağını xatırladır. Bununla bərabər, çöhrəsindəki heç bir şeyi də indi xatırlamıram. Heç biri çirkin deyil, fəqət hamısı bir arada gözəl də deyil. Bəlkə dediyin kimi gözləri gözəldir, onları da çox nəzərdən keçirmədim (Adıvar 1995: 35).

Xəndanın zövqlü geyinən müasir bir qadın olmağı Rəfiq Camalda belə bir təəssürat yaradır:

"Xəndan qara incə bir tül geyir, altındakı rəngi bilmirəm, amma qarayla yaxşı uyğunlaşan bir şeydir. Hələ qollarını, boynunu tamamilə açmağına heyrətləndim. Bununla bərabər, dekoltesi gözəl. Bir az uzun, yuvarlaq, narın boynu üstündə başı solğun və durğun! Nə deyirəm? Xeyr, solğun da deyil, elektrik işığıyla payız yarpaqları kimi həm qızılı, həm qumral saçlarının çox sənətkarlıqla bu kiçik başda iki incə qaş altında eyni rəngdə böyük qara kirpikli gözləri..." (Adıvar 1995: 39).

Rəfiq Camal, Xəndanı çox gözəl hesab etmişdir. Xəndan əslində gözəl deyildir. Fəqət aydın təfəkkürü onu xarizmatik etməkdədir. Rəfiq, Xəndanı bir qadın olmasına baxmayaraq özündən üstün hesab etmişdir.

"Xəndanla hər şeyi danışdıq, Nəriman. Sənin yuxunu gətirən sosioloji, iqtisadi, fəlsəfə, hətta siyasət, hər şeyi danışdıq... İllərdən bəri söylədiyim, yalnız hiss etdiyim şeyləri o məndən daha açıq və müəyyən bir surətlə hiss etmiş və mənim bütün məlum-naməlum olan bu şeylərimi o məndən daha açıq və müəyyən bir surətdə hiss etmiş... Nəriman, beynim tamamilə uyğunlaşdı və baş-başa ən gizli iki dost şəkliylə bir-birinə açıldı..." (Adıvar 1995: 38).

...

"Yalnız bilirəm ki, illərdən bəri söylə bilmədiyim, sadəcə hiss etdiyim şeyləri o məndən daha aydın bir şəkildə hiss etmiş və mənim bütün müphəm qalan bu şeylərimi - inanırsanmı - sakit və dilsiz, məndən müntəzəm bir-birini izləyən bir cümlə silsiləsi ilə çəkib çıxarır... Hətta Xəndan məni sevən və yazıq Nazimdən belə çox yaxşı anladı..." (Adıvar 1995: 36).

Xəndan ağıllı olmasıyla ətrafdakı insanı özünə bağlaya bilərkən onun evdə qalmasından qorxan Sabirə xanım, bir an öncə Xəndanın evlənməsini istər və bir qadın üçün önəmli şeyin gözəllik olduğunu müdafiə edərək Xəndanın gözəl olmadığına üzülür.

"Qızın bir kişidən çox ağıllı olduğuna şübhəm yox, onda əskik ağıl deyil ki. Zatən həmişə bu başqa qızlara bənzəməyən halları onu evdə qoyacaq deyə qorxuram. Bu dəliliklərini əfv etdirəcək qadın barı gözəl olsa" (Adıvar 1995: 56).

Nəriman Camala Xəndanın yetişmə tərzindən bəhs edir. Məsələn, Xəndan, "kişidən qaçmaq zamanı gəldiyi vaxt" xalası uşaqlarını ən köhnə dostlardan, hətta qohumlardan belə qaçırırkən, Xəndan atasının bir çox dostuyla oturmuşdur. Səlim bəyin köşkündə çeşidli insanlar vardır. Bu ahıl insanla Xəndan, dostluqlarını irəlilətmişdir.

Atası Səlim bəyin fərqli din anlayışı, Xəndanda ayrı bir təsir yaratmışdır. Xəndan Səlim bəydən islamiyyətdəki xoş görüş və yaxşılıq duyğusunu öyrənir:

"Səlim bəy, daima ölən arvadından və ona necə qovuşmaq istədiyindən bəhs edir. Onun dindən bəhs edişini çox sevirəm. Onun inandığı Allah heç də mənim uşaqlığımda söylədikləri kimi bu qədər çox insana, bu qədər çox cəza verən məhbusa bənzəməz" (Adıvar 1995: 46).

"Fəqət Səlim bəyin yaratdığı Tanrı heç belə qorxunc deyilmiş. Mənim keçmiş xəyalımdakı qədər güc sahibi deyildir, fəqət sonsuz olaraq ruha yaxın; insanların, əşyanın, toxumalarında var olan, ruhun qaranlıq və çirkin boşluqlarına qədər hər şeyi dolduran qurtarıcı və bağışlayan bir sevgi ruhu" (Adıvar 1995: 46).

Xəndan üzərində böyük təsiri olan bir başqa kişi də Nazimdır. Səlim bəyin dayısı oğlu olan Nazim, sürgündən sonrakı dönəmdə Xəndanın özəl müəllimi olur. Nazim sarışın, uzun saçlı, uca və gözəl vücudlu, mavi gözlü, istehzalı və zarafatcıl söhbətlərilə Xəndanda böyük təsir oyadan gənc bir adamdır.

"Nazim bütün xəyallarımın sərhədlərini keçən bir gerçək. Yalnız mən, birdən-birə kiçik, çirkin və dilsiz; onu dinləyərkən məni öz gözümdə fövqaladə göstərəcək qədər məndə böyük şeylər tapanlara əsəbiləşdim. Nazimin işıqlı şəxsiyyəti, böyüklüyü ilə kiçildim, soldum, heç oldum. Bu mənə elə bir vuruş oldu ki, Nazimin parlaq ruhu çağlar kimi bir qüvvətlə dodaqlarından boşanarkən duyduğum həzz olmasa ağlayacaqdım." (Adıvar 1995: 48)

Xəndan Nazimə bənzəməyə çalışır. Nazim Xəndana ədəbiyyat, tarix, sosiologiya və fəlsəfə dərsləri verir. Xəndan doqquz ay içində geniş bilgi sahibi olur, bol-bol siyasətdən danışırlar. Bu arada iki gənc bir-birini sevməyə başlayır. Nazim sosialist anarxistdir. Nazim məqsədi yolunda birlikdə mübarizə aparmaq üçün Xəndana evlənmə təklifi edir.

"Xəndan xanım, mən sizinlə evlənmək istəyirəm... Bu evlənmək hər evlilik kimi olmayacaq. Şərtləri bəlkə hər gənc qızın istəyəcəyi kimi deyil... Siz işə, pula deyil, həyata, fikirlərə, böyük ideallara yoldaş olacaq qızlardansınız. Onun üçün sizə bu axşam söyləməyə cəsarət edirəm... Mən bir sosialist, bir inqilabçı, mən həyatı müəyyən olmayan bir şeyəm. Hətta sabah bomba atmaq, o biri gün tutulmaq ehtimalı var. Mən sizə bunu söyləyərkən yalnız mənim həyatıma seyrçi qalacaqsınız deyə söyləmirəm. Məmləkətdə bəlkə bir gün böyük şeylər olacaq, bəlkə bu böyük şeyləri biz edəcəyik. Bəlkə atəş, qan, tüstü və ölüm, lap çox ölüm. Siz, siz də bu atəş, qan, tüstü və ölüm edənlərdən olarsınızmı?" (Adıvar 1995: 70).

Bu evlənmə təklifi Xəndanı əsəbiləşdirir və xəyal qırıqlığına uğradır. Xəndan bu sevgidə, məqsədin ondan öncə gəldiyini görüncə təklifi qəbul etmir.

Xəndan Nazımın yerinə Hüsnü Paşa adlı zəngin və orta yaşlı kişiylə evlənir. Çox keçmədən Nazım, Əbdülhəmid rejimi tərəfindən həbs olunur və həbsxanada eşq böhranı içərisində intihar edir.

Xəndan aralarındakı böyük yaş fərqinə baxmayaraq anlaşılmaz bir şəkildə Hüsnü Paşa ilə evlənir. Toy belə olmadan, gəlinlik belə geymədən gerçəkləşən evlilik ətrafda bir az qəribə qarşılanır.

"Toy, səssiz bir evləniş. Hətta duvaq belə taxmamış. Gəlinlik belə geyməmiş. Əsəbdən bir az narahatmış." (Adıvar 1995: 75).

Toplumun ümumi dəyər görüşündən kənara çıxa bilməyən Xəndan aralarında böyük yaş fərqinə baxmayaraq Hüsnü Paşanın

təklifini qəbul edirək Avropaya gedir. Fəqət Avropa mədəniyyətilə yetişmiş olduğu halda Xəndan əvvəlcə Avropa həyatına alışa bilmir. Çünki Xəndan nə qədər Qərb təhsili almış biri olsa da, Şərq mədəniyyətini daşıyan bir insandır.

"Bir də Hüsnü Paşanın yaşayış tərzi ona yabançı və fəna gəlirdi. Fəqət Hüsnü Paşa parlaq, səfeh və dəbdəbəli bir həyat yaşayarkən, Xəndan sənət və şeirin gözəl görüşləriylə yalnız və durğun yaşayırdı." (Adıvar 1995: 83).

Evlənmələrinin üstündən uzun zaman keçmədən Hüsnü Paşa ilə Xəndanın arası pozulur. Hüsnü Paşa Xəndanı cazibəli gördüyü üçün onunla evlənmişdir, amma Xəndan hər baxımdan ərindən çox üstün vəziyyətdədir. Şərq və Qərb mədəniyyətini öz içində mənimsəmiş, ağıllı və oxumuş bir qadın olan Xəndan, əri tərəfindən davamlı aldadılır. Fəqət Xəndan nikahı müqəddəs bir bağ olaraq gördüyündən ərini xoşbəxt etmək üçün əlindən gələni etməkdədir. Məsələn, Londonda yaşayarkən Xəndan qışı əriylə keçirmək üçün Hayd Park tərəfdə bir ev axtarır. Amma birdən-birə ağlına bu evin Charring Cross otelinə yaxın olub-olmadığı sualı gəlir. Çünki ərinin aşnası Julliet daima o otelə gedir. Xəndanın ərinə qarşı bu münasibəti Rəfiqi dəhşətə düşürür. Xəndan isə Rəfiqin üzərində buraxdığı təsiri düşünə bilmir. Rəfiq, "Bu qədər qısqanmamaq, bir kişi üçün qayğılanılacaq bir şey" deyərək Xəndanın ərinə münasibətini tənqid edir. Rəfiq, Xəndanın davranışını "qürur sərgisi" olaraq qiymətləndirir. Amma Xəndanın bu tutumu evliliyi mütləq və əbədi bir bağ saymağından qaynaqlanır.

"İzdivac bir kişi ilə bir qadını ən təmiz və əbədi bir rabitə ilə bağlayan şeydir və bu müqəddəs rabitəyə xəyanət edən qadın və kişi əbədiyyən məlundur!

Nə bir qadının, nə bir kişinin, xüsusilə bir qadının həyatında ikinci bir kişi olmamalı və ola bilməz.

...Bəli, mən iman etdim ki, dünyada yalnız bir izdivac, bir rabitə və bir kişi vardır." (Adıvar 1995: 150).

Həmçinin Xəndanın bu dərəcədə ərini özünə bağlamaq istəyi, onun milli mentalitetə uyğun bir insan olduğunu göstərir. Xəndanın ərinə bu qədər bağlı və sadiq olmasına baxmayaraq Hüsnü Paşanın evlilik haqqındakı fikri belədir:

"Məncə, evlənməkdən daha mənasız bir kəlmə, bir bağ yoxdur. Səni əmin edirəm ki, sənin bu qədər şiddətlə duyduğun

möhkəm və müqəddəs evlənmə tellərinin ucalığını, bağlılığını mən heç hiss etmədim." (Adıvar 1995: 135).

Beləcə, Xəndan daim aşnaları ilə gəzən Hüsnü Paşaya yazdığı bir məktubda ona dönməsini istəyir, fəqət Hüsnü Paşanın cavabı, Xəndanda şok yaradır və üzüntünün sonunda iflic keçirir.

"Səni də bir qadın deyə sevmədim, bir qadın deyə sevmədiyim zaman atdım... Başqa qadınları atdıqdan sonra onlara dönmərəm. Fəqət sənə döndüm və yenə dönə bilərəm. Əmin ol ki, bir saat, bir saniyə həyat yoldaşımsan deyə vəzifə hissiylə sevmədim. Sən çəkici bir qadınsan, sən məndə sonsuz istəklər oyandırırsan. Kəsəsi, Xəndansan məhz onun üçün. İndi bu sətirləri yazarkən, hələ də çox sevdiyim məşuqəm bayırda məni gözləyərkən yenə sənin qoxunu, sənin deyişini, sənin səsini xatırladım, istədim. Və bu, gözlərindən yaş gətirəcək qədər öldürücüdür. Fəqət aldanmıram: Bu sadəcə bir arzu. Sənə təhəmmül edə bilmirəm, nə qədər zavallı, nə qədər şəfqətli, nə qədər yumşaq olsan da, sənin çevrəndə o qədər məndən başqa bir hava, başqa bir şey var ki, bunun məndən tamamilə ayrı bir şey olmağı məni üzür, sıxır, yorur... Onun üçün sənlə yaşaya bilməyəcəyəm. Fəqət sən mənimsən və mənim qalacaqsan. Heç kimsənin olmayacaqsan. Zatən bunu söyləyərkən içimdə mütləq bir şey, mən ölsəm belə sənin başqa bir ələ, başqa bir eşqə toxunmamış bir qadın olaraq qalacağını bilirəm. Onun üçün rica edirəm, İstanbula get, Londonda qal, nə edirsən et, mənə gəl, yaxud mən gəlirəm demə. Medandakı evdə indi başqa bir qadın var, gələ bilməzsən, Londonda sənə ayrı ev ala bilmərəm. Ən doğrusu qalxıb İstanbula getməyin, bir guşədə məni gözləməyindir." (Adıvar 1995: 136).

Daim əri tərəfindən xəyanətə uğrayan və iztirab çəkməkdə olan Xəndan xəstələnir. Xəstə olan Xəndana Rəfiq Camal baxır və bu sırada ikisi arasında duyğusal bağlılıq yaranır. Bacısı kimi yiyələndiyi Nərimanın ərini sevdiyi üçün Xəndan vicdan əzabı çəkir, nəticədə şiddətli böhran keçirir və ölür.

Xəndan yazıçı tərəfindən idealizə edilən, oxumuş və Şərq-Qərb mədəniyyətini mənimsəmiş bir qadındır; amma hələ yaşadığı çatışmanın da təsirilə qadına xas olan zəifliklərindən qurtula bilmiş deyildir. Bu, toplumun əxlaq və dəyər mühakimələriylə onu ölümə aparır.

Romanda Xəndanın qarşılaşdığı üç kişinin onunla olan münasibətlərini incələmək Xəndanı anlamaq baxımından önəmlidir:

	Yaş qrupu	Xarakter	Xəndana təsir edən ünsür	Xəndanla olan münasibət
Nazim	gənc	idealist	düşüncə	düşüncə bağı və sevgi
Hüsnü Paşa	yaşlı	duyğusuz	mövqe və pul	evlilik bağı
Rəfiq Camal	yetkin	duyğulu	sevgi	ailə bağı və sevgi

Xəndan Nazimlə olan münasibətində ədəbiyyat, tarix, sosiologiya və fəlsəfə dərsləri almaqla həyatı tanımağa başlayır, Hüsnü Paşayla yaşadığı evlilik həyatıyla isə gerçək bir dünyanı tanımış olur. Əri tərəfindən aldadılmış olmağın iztirabının sonunda da Rəfiq Camala duyduğu eşq üzündən çırpınır.

1.1.2.2. Nəriman

Roman, Rəfiq Camalın Parisdəki dostu Sərvərə verdiyi evlənmə müjdəsiylə başlayır. Rəfiq Camal "Camal bəyin firəngsayağı qızlarından biri olan" Nərimanla evlənmişdir. Rəfiq Camal Sərvərə "Sənin bizə həftə başında gəldiyin zamanlar onların gəzməyə gedişini görmək üçün bəzən çıxardıq. O sıra ilə qısa geyimləri, sərbəst rəftarları, sürətli ingiliscə danışıqlarıyla gedən qızlar"dan biri olaraq Nərimanı xatırlatmağa çalışır. Nəriman onlardan alaturka tipinə ən yaxın görünənidir ki, Rəfiq Camal onu hələ də "bir az mühafizəkar" gördüyündən aralarında "ən sakit və səssiz" olan Nərimanı seçmişdir.

Nəriman Rəfiqlə elçi üsulu ilə evlənir. Rəfiq Nərimanla evləndiyi üçün məmnundur və çox xoşbəxtdir. Nəriman, "sadə və iddiasız həyat" yaşayan biridir.

Rəfiq, evliliyi sakit-sakit davam edərkən Sərvərə yazdığı məktubda Nərimanı belə tərif etməkdədir:

"Nəriman elə az tapılan qadınlardan ki, insanı hər gün başqa üz, başqa qondarma bir xarakterlə incitmir...

...

Yalnız Nərimanı bir az oxuduqlarıma maraqsız hesab edirəm. Sosyologiyadan sıxılır, tarixi az sevir, hələ fəlsəfə oxusam açıq-aşkar yatır. Ədəbiyyatı az-çox sevir, onda da Xəndan xanımın təsiri var. Bu qadının çox güclü və bir qadın üçün yetərincə güclü bir xarakteri yoxdur. Sanki, Nərimanın bəzi düşüncələri davranışları birdən-birə mənə başqa bir qadınla qarşı-qarşıya durmuş olmaq hissini verir.

Nəriman musiqini çox sevir, yaxşı piano çalır, şirin, durğun bir səsi var. Fəqət sənin lə və dostlarla o qədər ruhunuzu yandıran kişi röyalarımızla onu ortaq görmək sadəcə bir xəyal; o hər kəs kimi bu məmləkətin yetişdirdiyi bir ruh deyil, bir ot, bir çiçək, bir şey! Məmləkətin həyatından − nə qədər acı, nə qədər qara, nə qədər yıxılmağa hazır olsa belə − xəbərsiz. Məni bu qədər çox məşğul edən bu böyük, fəqət ümidsiz şeyə onu ortaq edə bilmirəm. Həyatımdan Nərimanda tapa bilmədiyim tək şey varsa, o da bu...” (Adıvar 1995: 25).

Rəfiq, Nərimanı öz fikir dünyasının bir az kənarında görməkdə və zaman keçdikcə Xəndanın Nərimana olan təsirilə qarşılaşmaqdadır.

Ancaq bu romanda Nəriman, sadəcə funksional bir məqsədlə canlandırılır, bu səbəbdən də Nərimanın çox dərin bir təsviri yoxdur.

Romanda Nəriman daim ikinci planda qalmaqda və funksional olaraq Rəfiq, Nəriman və Xəndan kimi üçbucaq şəklində tarazlığı qurmaqdadır.

Nərimanın Xəndanın qarşısında yer alması romanda önəmli bir təzad yaratmaqdadır. Nəriman, bu romanda çox sönük qoyulduğu halda Xəndana zidd özəlliklər daşıyan qadın xarakteridir.

	Xəndan	Nəriman
Təhsil səviyyəsi	Özəl dərs almış, avropasayağı tip	Özəl dərs almış, avropasayağı tip
Düşüncə tərzi	Modern	Ənənəvi
Psixoloji vəziyyəti	Bədbəxt Aktiv	Xoşbəxt Passiv

Nərimanın Xəndana görə daha ənənəvi bir tip cizgisi, Rəfiq Camalın onu “ən sakit və səssiz” olaraq dəyərləndirməsi və həyat

yoldaşı olaraq seçməsinə səbəb olmuşdur. Nərimanın iç dünyası bu romanda çox yer almasa da, onun ətrafında xoşbəxt bir həyat təsvir edilməkdədir. Nəriman, yaxşı təhsil görmüş olmasına baxmayaraq ənənəvi və passiv bir qadın rəsmi cızaraq, kişilərin gözündəki ideal həyat yoldaşının bir nümunəsini də təşkil etməkdədir.

1.2. Rəşad Nuri Güntəkin – "Çalıquşu"[1]

1.2.1. Özət

Fəridə, çox kiçik yaşda anasını itirir. Subay olan atası onu xalalarının yanına göndərir. Məktəb çağına gələn Fəridəni atası Sörlər Məktəbinə yatılı olaraq verir. Bu dönəmdə istər xalalarının yanında olsun, istərsə də məktəbdə ilk uşaqlıq illərinin təsirlərinə rast gəlinir. Məktəbdə artıq dərəcədə yaramazlığı ilə tanınan Fəridəni, sirr saxlaya bilmədiyi üçün məktəb yoldaşları öz aralarına qatmırlar. Yalnızlıqdan sıxılan Fəridə, dostlarınındiqqətini çəkmək üçün bir eşq macərası uydurur. Hekayəsinə qəhrəman olaraq isə uşaqlıqdan bəri yuxarıdan aşağı baxdığı qohumu Kamranı seçir. Qısa zamanda onun Kamrana qarşı olan duyğularını sezən xalası qızı Müjgan bu sirri açanda Fəridə ilə Kamran nişanlanmaq məcburiyyətində qalırlar. Kamran Avropadan döndükdən sonra evlənməyə qərar verirlər.

Fəridə məktəbini bitirdiyi zaman Kamran da Avropadan dönmüşdür. Malikanədə toy hazırlıqları görülərkən Fəridə bir vəsilə ilə Kamranın ona xəyanət etdiyini öyrənir. Böyük xəyal qırıqlığı yaşayan Fəridə heç kimə xəbər vermədən, əşyalarını götürərək evdən qaçır.

Məktəbdə və ailəsində Çalıquşu olaraq tanınan Fəridə bir iki gün içində yetkinləşmişdir. Müəllim olaraq Anadoluya getməyə qərar verir. İlk mərhələdə müxtəlif çətinliklərlə qarşılaşır. İlk müəllimliyini Zeynilər kəndində edir. Bu unudulmuş kənddə Çalıquşunu həyata bağlayan Munisə adlı gözəl bir qız uşağını övladlığa götürməsi olur. Zeynilər məktəbinin bağlanmasından sonra fransızca bildiyi üçün Müəllim Məktəbinə təyin edilir.

---

[1] Təhlildə isnad edilən mətnlər romanın 1972-ci il tarixli 17-ci nəşrindən alınmışdır.

Hər zaman başına dərd olan gözəlliyi getdiyi yerlərdə dedi-qodular çıxmağına yol açır. Bu səbəbdən də şəhərbəşəhər gəzir. Bəxtsiz Çalıquşu son olaraq İzmirə gedir. Əvvəlcə özəl Fransız dili dərsləri verir, sonra Quşadasında müəllimlik edir. Savaşın başlamağıyla işi sona yetir. Bundan sonra Doktor Hayrullah bəyin yanında şəfqət bacısı işləməyə başlayır. Munisənin ölümüylə çox sarsılan Fəridənin xəstəliyi müddətində Doktor bəyin onunla yaxından maraqlanması ətrafda müxtəlif dedi-qodulara səbəb olur. Hayrullah bəy Fəridəyə istefasını yazdırır və dedi-qoduların qabağın almaq üçün onu özünə nigahlayır. Xəstə olan Hayrullah bəy, ölümündən sonra Fəridənin ailəsilə barışmağını istəməkdədir. Həmçinin, Fəridənin hələ də Kamranı sevdiyini öyrənib, Kamrana bir məktub verməyi üçün ondan vəd alır. Fəridə verdiyi sözü yerinə yetirmək üçün ailəsinin yanına gedir. Bu məktuba görə indiyə qədər olan hər şey ortaya çıxır. Bütün ailə Kamran ilə Fəridənin evlənməyi üçün ona oyun oynayırlar. Fəridə bütün çəkdiklərindən sonra Kamranla evlənir.

1.2.2. Qadın xarakterlər

Roman əvvəlcə "Vaxt" qəzetində hissə-hissə dərc olunmuş, daha sonra kitab kimi yayınlanmışdır (1922). Yazıçı, xüsusilə bu romanıyla böyük şöhrət qazanmış, əsər indiyə qədər 27 dəfə nəşr olunmuşdur. Türk cəmiyyətinin oxuyub yazan hər təbəqəsi tərəfindən sevilmişdir.

Əsərin nəşr edildiyi illərdə böyük maraq qazanmasının səbəblərindən biri, xalqın bütün təbəqələrinin anlaya biləcəyi canlı danışıq diliylə yazılmış olmasıdır (Kudret 1987: 313). Bu səbəblərdən ikincisini əsərin mövzusunda axtarmaq lazımdır. Bir-birini sevən iki gəncin görüşməkdə çətinliklərlə qarşılaşması məsələsi Şərqdə və Qərbdə bir çox şair və yazıçı tərəfindən işlənmişdir. Əsrlər boyunca işlənən və sevilən bu mövzunu, Rəşad Nuri mövcud həyat şərtləri içində yeni biçimdə işləmiş, bir növ müasir "Əsli və Kərəm" yazmışdır. Əsərin hər təbəqədən insanın diqqətini çəkməyində belə bir ənənəyə bağlı olmağının da payı olduğu düşünülə bilər.

Həmçinin hadisələrin Anadoluda cərəyan etməyi bu romana məna qatmışdır. Anadolunun ilk dəfə bu qədər geniş və zəngin bir şəkildə Türkiyə romanında görünməyi önəmli bir irəliləyişdir. Ancaq

Fəridənin o zamana qədər Türkiyə ədəbiyyatında rast gəlinməyən bir gənc qız tipi olması romanda ona verilən xüsusiyyətlərdən əlavə, içinə girdiyi əyalət çevrələrinin müxtəliflik və zənginliyindən irəli gəlir.

Romanda Fəridənin müxtəlif zamanlarda, fərqli məkan və mühitlərdə tanıdığı şəxslərin münasibəti çox önəmlidir. Çünki roman Fəridənin macərasının danışıldığı son bölüm istisna olmaqla onun xatirə dəftərindən ibarətdir. Şəxslər ümumən onun gözüylə görülmüş, onunla olan münasibətləri ələ alınmışdır.

Bu romanda Fəridənin əsil xarakterilə birlikdə yaşadığı hadisələrin və gəzdiyi mühitlərin böyük bir mənası vardır. Çünki Fəridə sadəcə məruz qaldığı eşq xəyanətini bir qaçışla unutmağa çalışmaq kimi fövqəladə bir macəranın qızı ola bilərkən şəxsiyyətini və həyatını müəmmalı edən, özündən ziyadə, romançının onu gəzdirdiyi şəhərlər, qəsəbələr, kəndlər, oraların hər təbəqə və zehniyyətdən olan insanlarıdır (Emil 1984: 73).

Bu romanda Fəridənin yaşadığı hadisə xəttini zaman ardıcıllığına görə belə ümumiləşdirə bilərik:

1. Ərəbistanda keçirdiyi uşaqlıq dönəmi.
2. Anasının ölümü ilə İstanbula göndərilməsi.
3. Ana nənəsinin ölümü ilə Sör məktəbinə verilməsi.
4. Atasını itirməsi.
5. Tətillərini Besime xalasının Kozyatağındakı malikanəsində keçirməsi.
6. Kamranın evlənmə təklifi.
7. Nişanlanması.
8. Kamranın İsveçrədə tanış olduğu Münəvvər adlı bir qadına vurulduğunu öyrənməsi.
9. Fəridənin nişanı pozaraq İstanbuldan ayrılmağı.
10. Anadoluda müəllimlik vəzifəsinə başlaması: coğrafiya və rəsm müəllimliyi.
11. Zeynilər kəndindəki ilk müəllimliyi.
12. Munisəni övladlığa götürməsi.
13.Məktəbin bağlanmağıyla B-yə dönməyi, fransız dili müəllimliyinə başlamağı.
14. Çanaqqalaya təyin edilməsi.
15. İzmirə göndərilməsi.
16. Quşadası məktəbinə elan olunan təyinatı qəbul etməsi.
17. I Dünya müharibəsi.

18. Dr. Hayrullah bəylə nişanlanması.
19. Munisənin ölümü.
20. Dedi-qodular səbəbindən vəzifəsindən istefa verməsi.
21. Dr. Hayrullah bəylə evlənməsi.
22. Ölmək üzrə olan Dr. Hayrullah bəyin Fəridənin Kamranla qovuşmasını vəsiyyət etməsi.
23. Məktuba görə hər şeyin meydana çıxmağı. Fəridənin Kamranla evlənməsi.

Yuxarıdakı hadisələrin ana xəttindən aydın olduğu kimi, Fəridənin həyatını məkan dəyişikliyinə görə təhlil etməyimiz mümkündür:

Ərəbistan illəri: Uşaqlıq dönəmi;
İstanbul illəri: Tələbəlik dönəmi və eşq həyatı;
Anadolu illəri: Müəllimlik həyatı;
İstanbula dönüşü: Kamrana qovuşmağı.

1.2.2.1. Ərəbistan illəri: uşaqlıq dönəmi

Fəridə anasının xəstəliyi və atasının işi ilə əlaqədar daim yer dəyişdirdiyi üçün ana-ata sevgisini çox dadmamış və davamlı olaraq xidmətçi əlində qalmışdır.

"Anam xəstəymiş. Məni belə gözü görə bilməyəcək qədər xəstə... Aylarca xidmətçi otaqlarında sürünmüşəm. Sonra kəndlərdən birində Fatma adlı kimsəsiz bir ərəb qadını tapıblar... Fatma təzə ölmüş körpəsindən boş qalan döşünü və qəlbini mənə vermişdir..." (Güntekin 1972: 8).

Fəridə Fatmanın əlində böyüyərək həyat təcrübəsi qazanır. Fatma Fəridəni "səhra uşağı" kimi yetişdirmişdir.

"İlk illərdə bir səhra uşağı kimi böyümüşəm... Fatma məni boğça kimi kürəyinə bağlayır, qızğın günəşin altında gəzdirir, xurma ağaclarının başına çıxarırmış... Fatma məni hər sabah yeməyimizlə bərabər bu ağaclığa gətirir, tamam çılpaq halda suya soxarmış..." (Güntekin 1972: 8).

Fəridə dörd yaşındaykən Fatma evlənir, evdən ayrılır. Fəridə özünün ilk böyük matəminin Fatmadan ayrılığın olduğunu söyləyəcək qədər ona bağlı və öyrəncəlidir. Onun yerini Hüseyn adlı bir süvari nəfəri alır.

"Fatmanın bağçasında çəmənliyə əvəz Hüseyn, məni kışlaya − əsgər içinə öyrəşdirmişdir. Bu uzun bığlı iri adamın oyun icad

etməkdə məharətini mən, başqa heç kimdə görmədim. Ən gözəli isə bunların çoxunun qəzalı, həyəcanlı şeylər olmağıydı." (Güntekin 1972: 8).

Fəridə uşaqlıq dönəmini xatırlayanda daim Fatma və Hüseyn ağırlıq qazanır.

"Anamı mənə bənzədirlər. Hələ atamla evləndiyi ildən qalma bir rəsmi vardır ki, mənim modelim kimidir. Fəqət yazıq qadın, səhhətcə heç mənə bənzəməmiş. Çox zəifləmiş. Bitib tükənməz yollara, dağların sərt havasına, səhraların istisinə dözəcək bir orqanizmi yoxmuş. Sonra, deyəsən, bir xəstəliyi də varmış. Fəqət yazığın bütün evlilik həyatı bu xəstəliyi gizləməyə çalışmaqla keçmiş... Nə etsin, atamı çox sevirmiş. Onu zorla ayırarlar deyə qorxurmuş..." (Güntekin 1972: 11).

Atası isə, bir süvari minbaşıdır. Evləndiyi il Diyarbakıra göndərilmiş, bir daha İstanbula dönməmiş, Mosul, Hannıkın, Bağdad və Kərbəlada olmuş, eyni yerdə üst-üstə bir il belə qalmamışdır. Atası, sərt görünüşdən fərqli olaraq incə düşüncəyə və yumşaq bir qəlbə sahibdir. İncə, həssas ruhlu biri olmasına baxmayaraq Fəridənin sərt və kişi sayağı hərəkətlər etməsi atasından gələn bir özəllik ola bilər.

1.2.2.2. İstanbul illəri: Tələbəlik dönəmi və eşq həyatı

Anasının ölümü səbəbilə nənəsinin evinə qoyulan Fəridə, uşaqlığında yaramazlıqdan azğınlaşar və qohum-əqraba uşaqlarına hucüm çəkərək incidərdi. Ana nənəsi də öləndə Pangaltıdakı Sörlər Məktəbinə verilən Fəridə, orada da eyni qəribəlikləri göstərir. Bir müəllimin "Bu uşaq, insan deyil, çalıquşu" deyə qışqırması ilə ona "Çalışquşu" ləqəbi verilməyə başlanmışdır.

Həqiqətən, qəribə və anlaşılmaz bir uşaq olmasına baxmayaraq oxuduğu məktəbdəki Sörlər ona çox isti münasibət göstərirlər. Bu məktəbdəki müəllimlər Fəridənin üzərində dərin təsir buraxmışdır. Hətta Fəridənin təhsilində Sör Süperiyör ilə Sör Aleksinin böyük dəstəkləri olmuşdur. Fəridə "Həyatda kimsə bu qadın qədər məni sevmədi" deyəcək qədər onlara heyrandır.

Fəridə yabançı müəllimlərdən tərbiyə aldığı üçün milli dəyərləri mənimsəyə bilmədiyinə kədərlənir. Bəlkə də bu səbəbdən o, öz adət və ənənələri çərçivəsində yenilikçi olmuş, heç bir zaman öz

dəyərlərini alçaltmamışdır. Ona görə də Anadoluda müəllimlik edəndə tezliklə uyğunlaşmışdır. Fəridə, yaşının kiçikliyinə, həyat təcrübəsizliyinə, ailəsindən heç bir dini və islami tərbiyə almamış olmasına, ağır və hüznlü nəğmələrilə orqanı çox sevməsinə, dini parçaları yaxşı çalmasına baxmayaraq, kollecin xristian təsir və təlqinlərinə heç bir zaman uymamış, hətta istehzalı bir münasibət bəsləmişdir. Türk oxucusunda ona rəğbət yaradan məqamlardan birinin də bu olduğu söylənə bilər (Emil 1984:92).

Atasını da itirən Fəridə, yay tətillərini xalasının Kozyatağındakı malikanəsində keçirməyə başlayır. Fəridə məktəb yoldaşlarına bir eşq hekayəsi uydurur, Kamranı sevgilisi olaraq tanıdır. Fəridənin Tekirdağda qaldığı günlərdə Kamranın da Fəridəni sevdiyi məlum olur. İkisi İstanbula dönəndə nişanlanırlar.

Nişanlılıq davam edərkən Kamran vəzifəsi səbəbilə Avropaya gedir. Dörd il sonra qayıdanda Fəridə də məktəbini bitirərsə evlənəcəklər. Fəqət toya bir neçə gün qalmış qara çarşaflı bir qadın meydana çıxır, ona Kamranın Münəvvər adlı bir qadını sevdiyini açıqlayır və Kamranın Münəvvərə yazdığı məktubunu göstərir.

Böyük bir xəyal qırıqlığına uğrayan Fəridə, o axşam malikanədən ayrılır və İstanbuldan qaçmağa qərar verir. Bəlli bir müddət anasının dayəsi Gülnihal Kalfanın Eyyub Sultandakı evində gizlənən Fəridə, bir daha dönməmək üzrə İstanbulu tərk edir. Anadoluda müəllimlik etməyə qərar verir. Burada Fəridənin müəllim və çalışqan bir qadın olması, Türk ədəbiyyatında yeni bir qadın tipi təşkil etməkdədir.

Ancaq Fəridəni Anadoluda müəllimliyə yönləndirən, milli dəyərlərini, haqlarını tanımaq istəyi deyil, Kamranın onu aldatmasından duyduğu acıdır:

"Bütün ümidim, çox məqbul olduğunu söylədikləri bu kağız parçasındaydı. Onun sayəsində Anadolu vilayətlərindən birində bir müəllimlik alacaq, bütün həyatımı uşaqlar arasında, şən və məsud keçirəcəkdim." (Güntekin 1972: 110)

1.2.2.3. Anadolu illəri: müəllimlik həyatı

Fəridə belə qərarlı münasibətilə hədəfini müəyyənləşdirərək idealist düşüncəsinin təsiri altında Anadolu həyatına başlayır:

"Kiçik bir məktəbim olacaq. Başdan-başa çiçəklərlə bəzəyəcəm. Uşaqlarım, bir alay uşağım olacaq. Özümə "bacı" dedirdəcəyəm, yoxsul olanlara əlimlə qara önlüklər tikəcəyəm." (Güntekin 1972: 114)

Fəqət Fəridənin qarşılaşdığı ən böyük problem yeni formalaşmağa başlayan türk bürokratiyası ilə qarşıdurması və Anadolu reallığıdır.

Dame de Sion Məktəbi diplomunu yanına alıb böyük ümidlərlə Maarif Nazirliyinə gedən Fəridə aşağıdakı ilk cümləylə rəsmi prosedurların necə görülməsi zərurətini anlamış olur:

"Belə şey üçün Nazim bəyi narahat etmək olmaz. Get, evinə söylə. Müəyyən çərçivə daxilində münasibət göstər!" (Güntekin 1972: 115)

Məktəbi yeni bitirmiş idealist və həyəcanlı Fəridə bürokratiyanın sıxıntılarıyla mübarizə aparmaq məcburiyyətindədir. Fəridə Naimə xanımdan yardım alır. "Tanışı olub-olmaması"nın vacibliyini bildiyi üçün onu özünün tanıdığı bir şöbə müdirinin yanına götürür. Müdirin işçilərə qışqırıb-bağırdığını, işçinin gətirdiyi qəhvəni qəzəblə pəncərədən küçəyə tökdüyünü və itələyərək onu qapıdan bayıra çıxartdığını görəndə Fəridə əməlli-başlı qorxur. Fəqət müdir Fəridəylə yaxşı davranır. Müdirin təlimatıyla məmur Şahap əfəndi ilə tanış olur. Artıq işlərini həmişə o izləyir.

"Nə vaxt gəlim? - dedim.

"İki, üç gün sonra".

İşin iki, üç gün uzanması məni sıxmışdı. Fəqət gəl-get tam bir ay uzandı. Yazıq Şahap əfəndinin səyi olmasaydı, bəlkə daha da uzanacaqdı." (Güntekin 1972: 118).

Sənədləri axırda ümumi şöbədə ilişəndə Fəridə müdirin otağında oturan hörmətli bir şəxslə tanış olur, bu əsnada Fəridənin fransızca bildiyi müəyyənləşir və onun xoşuna gəlir. Həmin bəyin Fəridəni nazirin yanına aparması sayəsində Fəridə B... vilayətinin mərkəz rüşdiyyəsində coğrafya və rəsm müəllimi təyin edilir.

Fəridə Nazirlik Mərkəzi təşkilatındakı tədqiqatların əsassızlığı səbəbilə böyük bir macəra yaşayır. Yazar, Fəridə vasitəsilə o zaman yeni formalaşmaqda olan Türkiyə bürokratiyasının uyğunsuzluğunu və səriştəsizliyini açıq şəkildə tənqid etmişdir.

Sonda vəzifəyə başlayan Fəridənin qarşılaşdığı Anadolu həqiqəti onun düşündüyü qədər pəmbə xəyallı deyildir. Fəridə Anadolunu belə xəyal edir:

"Mən Ərəbistanı az-maz bilirəm. Anadolu hər halda ondan daha gözəldir. Oradakı insanlar bizə bənzəməzlərmiş. Özləri fəqirmiş, fəqət könülləri elə zəngin, elə zənginmiş ki..." (Güntekin 1972: 114)

Halbuki yazar, Fəridənin gözüylə Anadolu insanını və yaşayışını obyektiv bir aspektdən oxucuya təqdim etmək istəyir.

Anadolunun yolu və ümumi görünüşü Fəridənin Zeynilər kəndinə gedişində belə nəql olunur:

"Araba, enişli-yoxuşlu dağ yollarına girmişdir. Gah qurumuş sel çuxurlarından keçir, gah boş taxtaların, qurumuş bağların kənarlarını izləyir." (Güntekin 1972: 153).

"Gəldik".

Bu adam yaşlı olmasaydı, mənimlə əyləndiyini düşünəcəkdim.

"Necə olur", - dedim. "Allahın çəmənliyindəyik.

Görünüşdə kənd filan yoxdu."

"Bax bu cığırdan enəcəyik. Zeynilər buradan beş dəqiqə çəkər. Maşın yolu yoxdur." (Güntekin 1972: 154)

Kəndin dar küçələri içinə girmişdik. Evləri indi daha yaxşı görə bilirəm. Bax, qovaqlarda qarşısına tüllər sərilmiş, yağışdan çürüyüb qaralmış, sahil küləklərindən bir yana çırpılmış, viran balıqçı damları olur; bu evlər ilk baxışda onları xatırladırdı." (Güntekin 1972: 155)

Bir yanğın yeri kimi xarab olan Zeynilərdə məktəb da çox fərqli deyildir. Əsasən tövlə olan bu bina, cüzi təmirlə məktəb şəklinə salınmışdır.

"Ocaq bacaları kimi qapqara görünən divar kağızlarında başı aşağı asılmış bir xəritə ilə bir skelet lövhəsi, bir ferma və ilan rəsmi sallanırdı. Bunlar hər halda yeni dərs alətləri olacaqdı." (Güntekin 1972: 162).

Fəqət həmişə İstanbulda yetişdirilən, yad məktəbdə təhsil görən və həyat təcrübəsi olmayan Fəridənin uşaqlara qarşı son dərəcə isti bir sevgisi vardır. Yazıçı uşaqların təlim-tərbiyəsilə bağlı düşüncələrini onunla ortaya qoyur və cəmiyyət tərəfindən kənara sıxışdırılmış uşaqları müdafiə edir.

Fəridə uşaqlara həmin an isnişir, onlara ümid və nəşə aşılayır.

"İlk günlərdə o qədər vəhşi, yabançı gördüyüm uşaqlar, indi mənə daha cana yaxın gəlirlər. Mənmi onlara öyrəşdim, yoxsa

usanmaq bilməyən əzmim sayəsində onlarmı yavaş-yavaş yola gəlməyə başlayırlar, o qədər də bilmirəm." (Güntekin 1972: 178).

Fəridə hər getdiyi yerdə çevrəsiylə tezliklə qaynaşır, hər kəsə uyğunluq göstərir. O, kənd camaatına hörmət bəsləyir və şəhərdən gətirdiyi mədəniyyəti kəndlilər arasında yayır:

"Muxtar əfəndi, hər halda mədrəsə filan görmüş bir adama bənzəyirdi... Yeni məktəblərin din dərslərini axsatdığından şikayət edirdi." (Güntekin 1972: 156)

"Mən onlara əlimdən gələn qədər sevimli görünməyə, xətirlərini xoş etməyə çalışdım... İndi, elə hesab edirəm ki, mənim haqqındakı fikirləri dəyişdi." (Güntekin 1972: 178).

Yazar ziyalı və Qərb təhsili görmüş bir qadın olan Fəridənin Anadolu insanları ilə təmas qurmasını göstərir, Anadoluya qarşı isti, sevgi dolu bir gözlə baxır. Beləcə, bu roman türk ədəbiyyatında realizmə yol açan əsərlərin başında gəlməkdə və təsvir olunan hadisələr fonunda bəzi problemlərə toxunmaqdadır. Anadolunun baxımsızlığı, yoxsulluğu, geriliyi, xalqın boş inanclara bağlılığı, təhsil və tərbiyə işləri, xüsusilə Məşrutiyyət dövründə iş həyatına atılan qadının qarşılaşdığı fərqli çətinliklər bu sırada yer alır (Kudret 1987: 315).

Fəridə ziyalı bir müəllim olaraq, bu kənddəki insanlara çox şey vermişdir. Anasının bir jandarma leytenantıyla qaçmağı səbəbindən kimsəsiz olan Munisəni övladlğa götürməyi kəndlilərin zehniyyətini dəyişdirir. Fəridə özünün yaralı bir ürəyə sahib olmasına baxmayaraq onlar üçün daim ümidverici bir insana çevrilir.

B... vilayəti Darülmüəllimində Fəridə, hər kəslə uyğunlaşan bir müəllim olduğu zaman gözəlliyi başına bəla gətirir. Yusif əfəndinin ona olan sevgisi səbəbindən ölməsi, Fəridənin ətrafı tərəfindən təcrid olunmasına yol açır. Ətrafında dolaşan ittihamların təzyiqi altında əzilir.

Quşadasına təyin edilən Fəridə, burada başqa cür sıxıntıyla qarşı-qarşıya qalır. Dr. Hayrullah bəylə yaxınlaşmağı çox sevdiyi qızı Munisənin ölməsiylə daha da sürətlənir. Bu iki insanın yaxın münasibətləri dedi-qodulara yol açır. Onlar da kağız üzərində bir kəbin kəsdirməyi çıxış yolu bilir.

Fəqət müfəttişin qərəzli rəyi Fəridəni narahat etməyə başlayanda o, Dr. Hayrullah bəyin təkidilə vəzifəsindən istefa verir.

Həyatda hər şeyini itirən Fəridə üçün müəllimlik bir sığınacaq yeri olur:

"Hansı ümidə bağlansam əlimdə qalır, nəyi sevirəmsə ölür. Budur, üç il əvvəl bir payız axşamıyla bərabər ölən gənc qızlıq röyalarım, öz kiçiklərim, sonra Munisə, onun ardından bəlkə qəlbimin kimsəsizliyini ovudarlar deyə ümid etdiyim tələbələrim.

Hələ iyirmi üç yaşına girmədim. Üzümdən, vücudumdan uşaqlığımın izləri silinmədi. Halbuki könlüm, başdan-başa bütün sevdiklərimin ölüləriylə doludur." (Güntekin 1972: 339).

Yuxarıdakı parçada Fəridənin müəllimliyi buraxmağıyla nə qədər mütəəssir olduğu məlumdur. Fəridə özü üçün hər şey demək olan bu müqəddəs peşəni, ətrafın təzyiqilə buraxmaq məcburiyyətində qalır.

Mədəni və gənc bir ziyalı olan Fəridə üçün vətən sevgisi də çox önəmli bir duyğudur. Fəridə savaş çıxanda arxa cəbhədə şəfqət bacısı olur, Quşadasındakı məktəbin xəstəxanaya çevrilməsindən sonra ətrafına bu davranışlarıyla örnək olur.

Yazıçı bu romanda Fəridənin timsalında vətən sevgisini də vurğulayaraq müəllimin ideal obrazını canlandırmaq istəmişdir. Həmçinin əsas qayə bir eşq macərası çərçivəsində Osmanlı maarifini tənqid etmək ikən, davam edən milli mücadilə də bəzi səhifələrdə özünü göstərir (Enginün 1983: 149).

Yazıçı Fəridənin arxa cəbhədəki fəaliyyətlərini göstərərək pedaqoqların sadəcə ətrafa diqqət göstərmək deyil, vətən sevgisilə də örnək olmasının zəruriliyi fikrini müdafiə edir.

1.2.2.4. İstanbula dönməyi: Kamrana qovuşmağı

Fəridə Dr. Hayrullah bəyin hazırladığı vəsiyyət səbəbindən həyatı boyu unuda bilmədiyi Kamrana təkrar qovuşur və evlənir.

Dr. Hayrullah bəyin Fəridəyə duyduğu sevgi və hörmət onun Kamrana yazdığı məktubundan açıq şəkildə bəlli olur.

Romanın demək olar ki, hər yerində bir qadın olmaqdan çox, bir ziyalı və müəllim olaraq xarakterizə edilən Fəridə ilk dəfə Dr. Hayrullah bəyin dililə təsvir edilir.

"...Münasib bir çarə düşünürəm, Fəridəni bu axmaqlıqdan ibarət olan nikah qeydindən çıxarıb, birbaşa qaytaracaqdım. İnsanlar bu hərəkətimə nə deyər?

Elə bu arada xəstəliyim artmağa başladı. Nəhayət, üç-dörd ay içində məsələnin öz-özünə həll ediləcəyini ağlım kəsdi...

Təbiətini yaxşı öyrəndim, qəribə bir qızcağızdır. Bəlkə şıltaqlıq filan etməyə başlayar, qətiyyən fikir vermə, öləcəyini bilsən buraxma. Lazım gələrsə, zorla, qadın qaçıran dağ kişiləri qədər vəhşi və kobud ol. Əmin ol ki, qollarında ölsə zövqündən ölmüş olacaq." (Güntekin 1972: 354)

Beləliklə, Anadolu həyatını oxucuya çatdıran, oradakı gerçəklərlə mübarizə aparan və həyatın gətirdiyi acılara qatlaşan Fəridə, bütün yaşadıqlarının axırında xoşbəxtliyə qovuşur.

Nəticə olaraq Fəridənin həyat xətti məkan dəyişikliyinə görə belə göstərilə bilər:



Fəridənin formalaşmağı



Xaricdə və İstanbul mədəniyyətilə yetişən Fəridənin Anadolu həyatına keçməyi onun üçün yeni bir dünyayla tanışlıq demək olmuşdur. Bu yeni dünyada Fəridə bir çox maneələrlə qarşılaşır, həyatın reallıqlarını tanıyır və yetkinləşir. Sonda İstanbula geri dönən Fəridə, artıq əvvəlki Fəridə deyildir; bir çox problemlərini həll etmiş və Anadolu mədəniyyətilə İstanbul mədəniyyətini özündə birləşdirən yetkin, yeni bir insan olmuşdur.

1.3. Xalidə Ədib Adıvar – "Sinəkli baqqal"[1]

1.3.1. Özət

Əbdülhəmid dönəmində, Sinəkli baqqal məhəlləsinin imamının qızı Əminə, ayrı məhəllələrdə baqqallıq edən Karagözçü və meydan aktyoru Tevfik ilə atası istəmədiyi halda evlənir. Tevfik, meydan tamaşasında "Zenne" rolunu oynadığı üçün "Qız Tevfik" deyə xatırlanmaqdadır. İmam çox fanatik bir adamdır. Onun təhsili ilə yetişmiş olan Əminə əri ilə keçinə bilməyərək yenə atasının evinə qayıdır. Tevfik İstanbulun məşhur bir sənətçisi olur. Bir gün tamaşada arvadının təqlidini etdiyi üçün İstanbuldan sürgün olunur. Əminənin Tevfikdən bir qızı olur, adını Rabia qoyurlar. İmam Rabianı da din təhsili ilə yetişdirir. Əbdülhəmidin Daxili işlər naziri Səlim Paşa da Sinəkli baqqalda yaşamaqdadır. Rabia, Səlim Paşa ilə arvadı Sabiha xanım tərəfindən qorunmaqdadır. Fövqəladə gözəl bir səsi olan qıza, eyni malikanəyə gedib-gələn Mevlevi Şeyxi Vehbi Dədə alaturka dərsi verir. Paşanın oğlu Hilmiyə piano dərsi vermək üçün malikanəyə gəlib-gedən italyan pianoçu Peregrini, qızın səsinə heyran olur. Sədası bütün İstanbulu tutan Rabia, Quran və Mövlud oxumaq üçün məscid – məscid gəzməkdə və bütün qazancını İmama verməkdədir. Bir gün qızın atası Tevfik sürgündən qayıdır, Sinəkli baqqaldakı köhnə baqqal dükanını yenidən açır. Rabia da babasından ayrılır, atası ilə yaşamağa başlayır. Qızın sənətinə heyran olan Vehbi Dədə və Peregrini, Tevfikin evinə gedib-gəlməyə başlayırlar. Rabia Quranı və Mövludu elə üstün bir sənətkarlıqla oxumaqdadır ki, Şərq musiqisində sanki bir cığır açmışdır.

---

[1] Təhlildə verilən mətnlər romanın 1994-cü il tarixli 47-ci nəşrindən alınmışdır.

Bu illərdə Türkiyədə "Gənc türklər" Əbdülhəmidin istibdadını qaldırmaq üçün gizli-gizli çalışmaqdadır. Səlim Paşanın oğlu Hilminin istəyi ilə Tevfik bir gün qadın qılığına girib Gənc türklərin Avropadan gələn qiyamçı qəzetlərini fransız poçtxanasından alarkən tutulur. İş meydana çıxında, Hilmi ilə Tevfik Şama, o birilər də Yəmənə və Fizana sürgün olunur. Atasının oyun yoldaşı olan birisi ilə yalnız qalan Rabia, baqqallıq və hafizliklə keçinməkdədir. Rabianı sevməyə başlayan Peregrini, o günlərdə ölən anasından qalan sərvəti alaraq İstanbula köçür, müsəlman olur, Osman adını götürür və Rabia ilə evlənir. Bu illərdə İmam da ölür. Rabia öz ətrafından ayrılmaq istəmir. İmamdan qalan evə yerləşirlər. Əbdülhəmidə tam bir vəzifə duyğusuyla bağlı olan və padşah əleyhində işləyənlərə işgəncə etdirməkdən çəkinməyən Səlim Paşa, öz oğlunu da sürgün edəndən sonra yavaş-yavaş dəyişməyə başlayır. Atalıq və insanlıq duyğuları oyanır, vəzifəsindən uzaqlaşır. 1908-də Məşrutiyyət elan ediləndə Tevfik sürgündən dönür.

Bu ara Rabia hamilədir, ancaq sidikdə albumin artıqdır. Uşağı tələf etməyi qəbul edərsə, özü qurtulacaq, amma uşaq öləcəkdir. Əks halda uşaq qeysəriyyə üsulu ilə alınacaqdır. Bu dəfə uşaq qurtulacaq, amma ana öləcəkdir. Rabia həkimlərin, ərinin və Vehbi Dədənin nəsihətlərinə fikir vermir, uşağın yaşamağı üçün ölümü qəbul edir. Sonda Rabianın qeysəriyyə ilə bir oğlan uşağı olur və özü də sağ qalır.

1908-ci ildə Sultan Əbdülhəmid taxtdan düşürülmüşdür. İttihadçılar hakimiyyətdədir və keçmiş sürgünlər İstanbula dönməkdədir. Qız Tevfik də bunlar arasındadır. Rıhtımda, Sinəkli baqqal dostları onu bir "Hürriyyət" qəhrəmanı olaraq qarşılamaqdadır. Tevfik bu halı yadırğayır, çünki "Hürriyyət" qəhrəmanı ola biləcək heç bir şey xatırlamır. Ancaq kök bir kişi Tevfikin gözünə dəyir və üstəlik özünü tərifləyən bir nitqi qələbəliyə qarşı söyləməkdədir. Birdən Qız Tevfikin ürəyinə bir acı düşür. Çünki polis nəzarətxanasında özünü bir Yezid kimi döyən Gözpartladan Müzəffəri tanıyır. Vehbi Dədə və kürəkəni Osman Tevfikin qoluna girirlər və onu danışdırmırlar. Çünki Rabia və uşağı, özü kimi sevgili bir qəhrəmanı evdə səbrsizliklə gözləməkdədir. Və hamısı birlikdə həyəcanla Sinəkli baqqala gedirlər.

1.3.2. Qadın xarakterlər
1.3.2.1. Rabia

1936-cı ildə əvvəlcə ingiliscə yazılıb nəşr edilən "Sinəkli baqqal", sonra həmin ildə türkcə də yayınlanır. "Xəbər" qəzetində hissə-hissə dərc olunan və davamlı şəkildə yayınlanacağı elan olunan əsər, 1936-cı ildə kitab kimi nəşr edilir.

Xalidə Ədibin yetkinlik dövrünün mükəmməl romanı deyilə biləcək olan bu əsərdə onun fərdiyyətdən topluma keçdiyi, yaxın keçmişə və onun dəyərlərinə qarşı rəğbətlə baxdığı görünür.

Romanda islamı və dini musiqini təmsil edən əsil şəxs Rabiadır.

Romanın baş qəhrəmanı olan Rabia yazıçının təxəyyülündə ideal qadın tipi kimi yaradılmış, Türk qadınının nə etməli olduğu məsələsində diqqət yetirilməsi üçün canlandırılmış bir qadın obrazıdır. Yazıçı Rabia vasitəsilə toplum tərəfindən yönləndirilən və kişi tərəfindən şəkilləndirilən qadın olmaqdan qaçaraq öz iradəsi ilə həyatına şəkil verməyə çalışan güclü bir qadın tipini oxucularına təqdim etmək istəmişdir.

Rabianın şəxsiyyətinin ən diqqət çəkən tərəfi öz həyatını sahmanlama məsələsində sanki ətrafına qarşı çıxıb, öz həyatına özünün sahib çıxmasıdır. Rabia çox sərt ənənələrin olduğu bir yerdə tərbiyə almasına baxmayaraq zəif və ənənəvi bir qadın olmayıb təkbaşına bir "fərd" ola bilən və həyata qarşı mücadilə etməyi bacaran güclü bir qadındır. Bir baxımdan Xalidə Ədib ənənəvi cizgiləri və din anlayışı ilə bir Rabia tipi ortaya çıxarmışdır. Digər tərəfdən də Rabianın yaşayışında və təhsilində heç bir fövqəltəbiilik olmaması, onun bu özəlliyə sahib olmasının mənasını artırmışdır. Rabia II Əbdülhəmid dönəmində yaşamış adi bir türk qadınıdır. Elə olmasına baxmayaraq öz mədəniyyətinə sahib çıxa bilən, bəlli bir din anlayışıyla hərəkət edən bir qadın olması önəmlidir.

Rabiaya ənənəni davam etdirmə imkanını verən babası olmuşdur. Çünki bir-birindən çox fərqli ana-atanın qızı olan Rabia, uşaqlıq illərində babasının tərbiyəsi altında böyüdülmüşdür. Rabia kiçik yaşında o biri uşaqlar kimi ev işlərinə kömək edir. Onu başqa uşaqlardan ayıran şey, "molla təsirinə bu qədər erkən məruz" qalmasıdır. Yaşıdları yelləncək və gəlinciklə oynayarkən, Rabia cənnət və cəhənnəmlə məşğuldur. Hacı İlhami Əfəndi bu iki yeri

"özünə uyğun şəkildə bütün xüsusiyyətlərilə" tanıdır. Rabia uşaqlıq illərini bir çox yasaqla keçirdiyi üçün cənnəti cəzb edici saymaz, daima cəhənnəm diqqətini çəkir. Rabia, babasına "bez oyuncaq tikmək" kimi mövzularda üsyan etsə də çox sakit uşaqdır. Namaz surələrini tezliklə əzbərləməsi, mahnı oxuması səbəbilə Hacı İlhami Əfəndi Rabianın bu qabiliyyətini formalaşdırmağı, onu hafiz olaraq yetişdirməyi qərara alır. Beləcə, Rabia, gözəl səsiylə Mevlud oxuma ənənəsini davam etdirir. Rabianın sənəti əsərin başından etibarən bir ənənənin davamına işarı edir:

"Bu sənət həyəcanı ilə Rabia tilavətini bir musiqi şəklinə salır, səsinin gözəlliyi, üslubunun lətafəti ilə hələ on bir yaşında İstanbulda özündən danışılmasını bacarır və çox pul qazanır. Rabia da həyatından məmnundur." (Adıvar 1949: 16).

Rabianın bu mühitdən ilk çıxışı, Zaptiye Naziri Səlim Paşanın arvadı Sabiha xanımın onu Valide məscidində, bir qarşlıqlı Quran oxumasındadinləməsiylədir..

Rabia daxil olduğu Səlim Paşa malikanəsində Quran və dini mahnı oxuyacağını bilir; fəqət bu bəzəkli, qəşəng malikanədə dəf çalındığını, kiminsə oynadığını da eşidir. Bunların Quranla, Məhəmmədlə olan əlaqəsini anlaya bilmir. Sabiha xanım Rabiaya güvən verən bir gülümsəməylə baxır, onunla zarafatlaşır.

Rabia malikanədə Məhəmməd peyğəmbərin doğum günü ilə bağlı Mövlud Kandili səbəbilə ilk dəfə Quran oxuyur. Səlim Paşa ailəsinin fərdləri Mövlud gecəsində Rabianın səsiylə sanki sehirlənir:

"Başdan-başa yerdən divanların üstünə sıra-sıra yaşlı qadınlar düzülmüş. Başlarında bəyaz namaz bezləri, qırışıq üzləri sirr, gözləri vəcd içində... Əllərində rəngarəng təsbehlər, barmaqları hərəkət edir. Solğun dodaqları qımıldanır, yandan-yana xəfif-xəfif vücudları dalğalanır.

Qız hafizin qalın, yanıq səsi malikanəni inlədirdi. Oxumağı tam klassik bir ərəb tərzi. Dəyişməz ahənglə bir səsi o birinə bağlayır. ...Nə qədər sənətinə hakim bir səs və şəxsi bir üslub." (Adıvar 1949: 27).

Ənənəyə tamamilə bağlı oxumasına baxmayaraq, Rabia səsi və sənət qabiliyyəti ilə ənənə içində şəxsi üslubunu hiss etdirir. Buradan yazarın sənət haqqındakı düşüncəsini anlamağımız mümkündür. Yazar Şərq və Qərb kimi bölgünün sənət üçün önəmli olmadığı düşüncəsini müdafiə edir.

Malikanə Rabianın həyatında yeni bir dövr açır; uşaq ağzı bütövlüyü ilə burada hər kəsin dostluğunu qazanır. Kanaryanın həzin bir səslə söylədiyi və Rabianın mahiyyətini anlamadığı klassik türk musiqisinin "Ey zövqi-zərrin" və "Könül səndən kimlərə etsəm şikayət" kimi parçalarını dinləyərkən onların ruh halını ifadə etdiklərini hiss etsə də kimsəyə bir şey söyləmir. Kanaryanın rəqsi köhnə malikanə həyatının bir digər əyləncəsidir, fəqət həyatı və əyləncəni daima əsil qaynağından tapmağı sevən Sabiha xanım, həyatında ilk dəfə bir rəqs seyr edərək özündən keçən Rabiaya Kanaryanın rəqsi haqqında belə deyir:

"Tovuz quşu kimi axmaq-axmaq döndü, dolaşdı. Sən bir qaraçı Pəmbənin oyununu görsən." (Adıvar 1949: 38).

Rabia malikanədə həyatın bu cəbhələrini görərməklə bərabər Vehbi dədə ilə dərslərə də başlayır. Musiqi, ərəbcə və farsca dərsləri alır. Vehbi dədə ilk qarşılaşmalarından etibarən Rabianın həyatında bir sükun sığınağı olacaqdır:

"Uşağın gözləri nəhayət Dədənin gözlərini tapanda, iki zəif əl cübbədən çıxdı, köksünün üstündə çarpazvari danışdı və Rabianı böyük bir insanmış kimi Mövlanaçıların salamı ilə əyilərək salamladı." (Adıvar 1949: 39).

Rabia, Vehbi dədənin rastlaşdığı ən qabiliyyətli tələbədir. Dəfi, udu, qanunu, türk üsulu sazların demək olar ki, hamısını müəllimini təəccübləndirən bir sürətlə öyrənir:

"Bir zaman sonra telli sazları, müəllimi qədər məharətlə çalmırsa belə, çox özünəməxsus bir atəşlə, həyəcanla çalırdı." (Adıvar 1949: 40)

Rabia, səsinin gözəlliyilə malikanə içində bir-birinə düşmən kəsilən iki nəsli birləşdirdiyi kimi, Şərq və Qərbin nümayəndələrini də qovuşduran diqqət nöqtəsi halına gəlir.

Malikanə baqqal dükanından sonra, Rabianın həyatını yönləndirən yeni bir məkandır. Çünki malikanə hər cür insanın olduğu kiçik çevrəli bir ölkə, sanki imperatorluğun balaca bir örnəyidir.

Yazar bu iki məkan sayəsində Rabianı müxtəlif təbəqələri təmsil edən insanlarla qarşı-qarşıya gətirmiş və II Əbdülhəmid dönəmində toplumun müxtəlif təbəqələrindəki insanları və bu insanların həyat fəlsəfələrini olduğu kimi vermişdir.

Romanda bu fəlsəfələrdən yeni bir həyat fəlsəfəsi meydana gətirən Rabia vurğulanmaqdadır. Rabianın çevrəsində olanlar isə

Qərbə yüksək heyranlıq duyan, öz dəyərlərini kökdən rədd edən insanlardır. Fəqət Rabianın həyatında bu zidd şəxsiyyətlərin təsiri olduğu kimi, onun sənəti də bu cür təsirlərin bir tərkibidir.

Rabia malikanədə Qərb musiqisilə də tanış olur. Rabianın musiqi dərslərinə başlamağından səkkiz ay sonra Hilmi bu səsi Peregriniyə dinlətməyə qərar verir. Musiqi dərsləri haqqında ata ilə oğul arasında gedən şiddətli bir münaqişəni xatırlayan Rabia, Vehbi dədənin əlindən alınıb Peregrininin əlinə keçməyi heç istəməməkdədir. Fəqət Peregriniylə tanış olmağı, onun Qərb dünyasıyla ilk görüşüdür. Peregrininin Rabia haqqındakı ilk müşahidəsi bir qərblinin bir şərqliyə qarşılaşdırmalı baxışını əks etdirir:

"... Uşaq onun zehnində dərs verdiyi Avropa tərzi zəngin qız uşaqları ilə dərhal bir müqayisə oyandırmışdı. Onların hamısı Avropa uşaqlarının saman kağızı kopyası kimi idilər; halbuki bu qız arxasındakı üç möhkəm qumral hörüyü ilə, açıq üzü ilə, noxud rəngli yaylığı ilə İstanbul şəhərinin, mədəniyyətinin, qarışımının əsrlərcə davam edən təkamülünün vücuda gətirdiyi yerli bir nümunə!" (Adıvar 1949: 41)

Burada bir qərbli, Rabiada Şərq mədəiyyətini görür və onu dəyərli hesab edir. Peregrininin gördüyü Rabia və onun təmsil etdiyi dəyərlər, Hilmi və dostlarının düşündüyü kimi bir kənara atılacaq şeylər deyildir.

Rabia və Peregrini iki ayrı mədəniyyətin nümayəndəsi olmaqlarına baxmayaraq sənətdə birləşirlər. Rabianın sənəti daha çox ənənəvi və dini ölçüdə olsa da ikisinin münasibətində bunun əhəmiyyəti yoxdur; çünki sənət kainat üçündür. Romanın başından bəri Rabianın Peregrinini seçməyində sənətin böyük rolu olmuşdur. Rabia sevgi macərası yaşayandan sonra evlənmək üçün də Peregrinini seçmişdir.

Peregrini bir ispan grandisinin oğludur. Qatı bir katolik olan anası tərəfindən böyüdülmüşdür, sonra anası monastra qapanmışdır. Peregrini katolik qadınlar ilə türk qadınlarını belə müqayisə edir:

"Sən dostum, heç bir zaman dindar bir katolik qadının zehniyyətini anlaya bilməzsən. Sizin qadınlar daha çox tarazlığı qoruyan, daha çox dünya ilə əlaqədardırlar. Katolik kilsəsi mənim anamın bütün varlığını əmdi içinə çəkdi. İşıqlı qara gözlərinin çevrəsindəki iradəyə, alnının lətif cizgilərinə baxanda insan onda çox qüvvətli bir şəxsiyyət hiss edərdi. Fəqət onun üçün şəxsiyyət və iradə bir növ şeytan tələsiydi." (Adıvar 1949: 150).

Rabia evlənməzdən öncə Peregrininin müsəlman olmağını və evləndikdən sonra Sinəkli baqqal məhəlləsində yaşamaqlarını şərt qoyur. Burada Rabianın öz mədəniyyətini qorumaq üçün böyük mübarizə sərgilədiyi bəllidir.

Peregrini Rabianın şərtlərini qəbul edir. Adını da Osman olaraq dəyişdirir. Rabianın Osmanla evlənmə məsələsi, Vehbi dədəni də maraqlandırır. Osman və Rabianın tamamilə ayrı dünyaların insanı olmaqları səbəbindən bir yerdə olmaqları birmənalı qarşılanmır.

"İnsan deyilən müəmmanın rəsmini çəkən zaman kainat rəssamının nə səbəbə bu qədər zidd boyalar işlətdiyini hansı zəka idrak etmişdir? Çünki arxa məhəllədə doğulan bir müsəlman qız... Bunlar nə üçün bir-birinə bağlanır? Necə bir nəticə, necə bizim yeni bir insan örnəyi vücuda gətiriləcək?" (Adıvar 1949: 201)

Vehbi dədə içindəki narahatlıqları, ikisi arasındakı fərqləri və bunların aça biləcəyi uçurumları Rabiaya danışır:

"Siz bu qədər başqa dünyaların yetirməsisiniz ki, övladım, bugün ona bu qədər şirin gələn Sinəkli baqqal bir gün ona dar gələr. Bəlkə də düşündüyündən daha tez bu həyatdan bezər." (Adıvar 1949: 201)

Fəqət Osman adıyla Sinəkli baqqal məhəlləsində yaşamağa başlayan Peregrini məhəllədəki insanlarla yaxşı uyğunlaşır və həyatından razıdır. Çünki Peregrini Şərq və türk mədəniyyətini kiçik hesab edənlərin gözü ilə deyil, Şərqin dəyərlərini mədəni bir qərbli gözü ilə görən insandır:

"Mən yenə bir dinin çərçivəsinə girirəm. Həm də yenə bir qadın əliylə. Fəqət mənə rahatlıq verən, içində sülh təsis edən bir din.

İlk dəfə beynim, ruhum və qəlbim bir-biriylə həmahəng olmuş kimidir və bir-birlərini də gəmirmirlər. Əcaba, bu keçici bir atəşkəsdirmi? Nə də olsa Sinəkli baqqalın daşına, torpağına sitayiş edirəm. Düzdür, orda yeni bir camaatın ənənəsinə uymaq lazımdir. Fəqət elə bəsit və insani ənənələrdir ki. Həm orada hər kəsin evi, bağçası xüsusi və qapalı qala kimi. Ən yoxsul adam, ortaçağ dərəbəyi kimi evində hürr..." (Adıvar 1949: 210)

Rabia bir qərbli ilə evləndikdən sonra da kiçik dəyişikliklərdən başqa əsla heç bir dəyişikliyi qəbul etməyən inadçı tərəfiylə görünür. Peregrini isə Şərqin üstünlüyünü qəbul etmiş biridir. Bəlkə də yazar burada Rabia ilə bir qərblinin qaynayıb-qarışmağını verər-

kən "Qərbliləşmə" dönəmində öz mədəniyyətindən ayrı yaşayanları tənqid etmək istəmiş ola bilir.

Peregrini Rabia ilə evləndikdən sonra yazdığı bəstələrində Şərq mədəniyyətini nə qədər mənimsədiyini göstərir:

"... Minor pərdələrin, Şərq melodiyalarının artmağı onun yeni həyatını nə dərəcəyə qədər mənimsədiyini göstərən əlamətlər..." (Adıvar 1949: 215)

Osman olaraq adını dəyişdirən Peregrini ilə Rabia arasında nə qədər anlaşılmazlıq çıxsa da Rabia davamlı olaraq üstün olmağı bacarmışdır. Burada Rabianın Peregrini üzərində mədəniyyət baxımından qurduğu hakimiyyəti önəmlidir. Aralarındakı mədəniyyət və sinif fərqliliyi ikisinin fikir ayrılığına da səbəb olmuşdur. Fəqət Rabia, daima öz mədəniyyətini – ənənəsini davam etdirən Türk qadını şəxsiyyətini qoruyur, romanda onun iqtisadi baxımdan müstəqil bir qadın olmağı da önəmlidir. Əri Osmanın maddi vəziyyətinin yaxşı olmasına baxmayaraq iqtisadi müstəqilliyini qorumağa və öz zəhməti ilə pul qazanmağa davam etmişdir.

Romanda Rabia, ana roluyla da diqqətə alınıb təsvir olunmuşdur. Yazıçı cəmiyyətdə qadının çox önəmli funksiyaları olduğunu vurğulamaqla bərabər analıq vəzifəsini də çox açıq bir şəkildə canlandırılmışdır. Məsələn, Rabia uşaq dünyaya gətirməyin ölüm qədər çətin olduğunu bildiyi halda övladından əl çəkmir. Aşağıdakı hissədə Rabianın uşağına nə dərəcə bağlı olduğu bəllidir.

"Yaşamaq üçün bətnindəki yeni həyatı öldürmək lazım. Fəqət onu bu dəfə öldürsə, bir daha ona nəsib olmayacaq." (Adıvar 1949: 242).

Yazar Rabianı II Əbdülhəmid dönəmində yaşamış olan sadə bir türk qadını olaraq ictimai funksiyaları ilə oxucuya təqdim etmişdir. Həmçinin ana roluyla Rabiaya universal bir mərtəbə də qazandırmışdır. Bu mərtəbə romanda hər nə qədər ikinci planda qalsa da, Rabia öz həyatını təhlükəyə atmaq bahasına övladından vaz keçməyən güclü bir ana tipi olaraq qarşımızdadır.

Həmçinin bununla birlikdə Rabianın həyatında olduğu məkan da dəyişik bir məna daşıyır:



Rabianın uşaqlıq dövrü və qabiliyyətini inkişaf etdirməyi

Şərq və Qərb mədəniyyətinin öz həyatında birləşməsi və Şərq mədəniyyətinin hakimiyyəti

Romanda Türk toplumunun müsbət dəyərləri də Rabia və ətrafında toplanmışdır. Rabia sahib olduğu məziyyətlər vasitəsilə pərdə-pərdə çöl dünyaya açılır. Bu dünyada malikanələr, məscidlər, saraylar vardır. Şərq ilə Qərb arasındakı keçid dövrünün yaratdığı qarışıqlıq bu dövrə hakimdir. Cəmiyyətdə şərqlilər, Avropa tərzlilər və qərblilər bir yerdə mövcuddur. Qərbli ona bənzəməyə çalışan, amma milli dəyərlərindən qorxduğu üçün Qərbin əsil dəyərlərinə də çata bilməyən Avropa tərzi tipləri kiçik görür. Halbuki şərqli milli, özünəxas dəyərlərə sahib olduğu üçün qərbli qarşısında əsla kiçik deyildir. Qərbli bu tip şərqliyə hörmət bəsləyir. Peregrini aradakı bütün mədəniyyət və böyümə tərbiyəsi fərqlərinə baxmayaraq, Rabia ilə evlənərkən sanki Şərqin və Qərbin müsbət dəyərləri arasında bir köprü qurur. Bu onların yaşayışlarına, evlərinin quruluşuna və sənət anlayışlarına təsir edir. Onlar arasında çıxan anlaşılmazlıqlar daha sonrakı nəsildə fərqli şəkillərə bürünəcəkdir (Enginün 1995: 333).

1.3.2.2. Əminə

Əminə Rabianın anasıdır. Yazar Rabianı daha asan anlamağımız üçün romanda Əminəyə yer vermişdir. Mustafa Əfəndinin Sinəkli baqqalda yerləşən İstanbul Baqqaliyəsi ilə mollanın üç mərtəbəli yeganə binası məhəllə üçün önəmli iki məntəqədir. Molla arvadını itirdikdən sonra qızı Əminə ilə yalnız qalar. Romanda Əminə belə təsvir edilir:

"... Bəyaz, zərif dərili, pəmbə yanaqlı, siçan tələsi kimi möhkəm bağlanan incə dodaqlı, kiçik qara gözlü bir qızcığazdı. Təmizdi, bacarıqlı, təmizkardı, məhəllə uşaqlarıyla oynamağa təhəmmül etməzdi. Qaş-qabaqlıydı, gülməzdi, mollanın inancının yeganə təcəssümü kimiydi." (Adıvar 1994: 15)

Əminə on yeddi yaşında olanda məhəllədə dəcəlliyi ilə ad çıxarmış, Zenne roluna çıxan "Qız Tevfik" deyə xatırlanan bir gənclə qaçmışdır. Münasibətləri əsasən məktəb partalarında başlamışdır.

Tevfik dul anası ilə dayısı Baqqal Mustafa Əfəndinin evində qalır. Qoca dayısının bütün dirənişinə qarşı nə bir kəsə köməkçi olur, nə də bir sənətə girir.

"Tevfik, lap o zamanlar uzun ayaqlı, iri, sağlam bədənli, şabalıd rəngli gözləri olan bir qız uşağı kimi şirin, qırmızı dodaqları durmadan danışan, yaramaz, güldürücü şəkildə ağlardı." (Adıvar 1994: 16).

...

"On doqquz yaşında, Tevfik, qadın roluna çıxan ara aktyorlarının ən məşhurlarından olmuşdu." (Adıvar 1994: 16)

Tevfik, anası və dayısının ölümündən sonra yalnız qalır. Onsuz da, Əminə ilə aralarında qəfəs arxasında – gizlində davam edən bir münasibətləri vardır. Diktator xarakterli Əminə, Tevfikin ideal bir ər olacağını, işini bilən birinin əlində baqqal dükanının yaxşı pul gətirəcəyini düşünür; ayrıca Tevfikdə gözü də vardır. Mollanın burnunu qırmaq istəyən məhəlləli də bu evliliyə yardım edir. Molla qızını rədd edir.

"... Əsasən Tevfikdə gözü vardır. Bütün hökmedici təbiətlər kimi o da, bal mumu kimi qəlibdən-qəlibə girən Tevfikdə ideal bir ər tipi olduğunu sezdi. Tevfikin dilindən aktyorluğu buraxıb,

baqqallıq edəcəyinə dair söz alan kimi mollanın evindən qaçdı." (Adıvar 1994: 17).

Fəqət onların evliliyi heç də gözləndiyi kimi getmir. Tevfik arvadının, sevdiyi mollanın qızı Əminədən fərqli olduğunu anlayır. Ancaq ona elə bağlıdır ki, heç cür baqqallığı buraxıb ara aktyorluğuna dönə bilmir. Baqqallığın əyləncəli cəhətlərini axtarmağa başlayır, işini istədiyi kimi gördüyü üçün çox komik tərəflərini aşkarlayır.

Əminə Tevfiki pinti, nəyi nə zaman etdiyi bilinməyən, diqqətsiz, dağınıq, tənbəl, pul qazanmaqdan xəbərsiz biri olaraq düşünür.

"Əminəni bunların hamısından çox əsəbiləşdirən şey, bəlkə ərinin beynində "pul" deyə bir dəyər olmamağıydı. Belə gedərsə dilənəcəklərini ərinə söyləyərsə, o həmin dəqiqə "Keçmişlərə rəhmət" deyə cümə axşamı keçən kor dilənçi olur, şayəd qadın atasını ona misal deyə göstərərsə, o dərhal çənəsini içəriyə çəkir, səsini sərtləşdirib, mollanın ən bəlağətli üslubu iləxəyali bir qadınla "dəfn kağızları" bazarlığına girişirdi." (Adıvar 1994: 18)

Nəhayət, Əminə bütün bunlara son vermək üçün dükanın idarəsini əlinə alır, borcun, borc verməyin qabağını alır, varlı müştəri dükana gəlməyə başlayır.

Əminə çox çalışır, Tevfiklə məşğul ola bilmir. Beləcə, Tevfik gecələrini oyun yoldaşları ilə keçirməyə başlayır. Əminə bir gecə ərinin onun dükandakı, sonra da yataq otağındakı hərəkətlərini təqlid etdiyini görür. Bu hadisə onda müdhiş üsyan oyandırır.

"Dükan səhnəsi bitəndə Tevfik Əminənin yataq otağındakı halını təqlid etməyə başladı. Dəzgahın üstündəki dəmir qutunu ayna kimi qarşısına qoymuş, dili ilə üst dodağını şişirmiş, üst dodağının tüklərini xəyali bir maqqaşla yolurdu. Bu tamamilə bir qadının "məhrəmiyyətinə təcavüz idi..." Hansı müsəlman arvadını belə "izah" edə bilərdi?" (Adıvar 1994: 20).

Əminə hirslə atasının evinə dönür. Molla da onu qəbul edir. Fəqət boşanmağa razı olmayan Tevfik Əminənin könlünü almaq üçün əlindən gələni edir. Buna əsəbiləşən Əminə polisə şikayət edir. Komissar də onu döydürür. Qəti şəkildə dükanını bağlayan Tevfik, yeni bir tamaşaya başlayır. Əminə ilə öz macərasını əks etdirən bu tamaşanın şöhrəti saraya qədər gedir.

Bu tamaşa səbəbindən məhəllədəkilərin yanında biabır olduğunu düşünən Əminə boşanmaq üçün məhkəməyə müraciət edir. Tevfik də onu boşamaq məcburiyyətində qalır. Kəsmək bilməyən dedi-qodular Tevfikin Geliboluya sürgün olunmasına səbəb olur. Əminə də bu arada bir qız uşağına sahib olur, adını Rabia qoyur.

Əminə iradəli, güclü, kimsəyə boyun əyməyən bir qadındır. Cənnət və cəhənnəm qorxusu daşıyan, hər cür əyləncəni, gülməyi günah sayan dini anlayışla tərbiyə edilən bir qadın örnəyidir. Buna baxmayaraq Əminə həyatına yön vermə məsələsində romandakı digər qadınlardan fərqlidir. Atasının onu rədd edəcəyini bilə-bilə Tevfiklə qaça biləcək qədər hürr iradəli və güclüdür. Yenə eyni şəkildə Tevfikə hirsləndiyi zaman cəmiyyəti və atasını bir kənara qoyub evliliyini bitirə biləcək qədər cəsurdur. Sərbəst iradə və güclü şəxdiyyət özəllikləri Rabianın anasından aldığı tək mirasdır. Əminənin aldığı qərarlardakı inadcıllığı, Rabianın mübariz şəxsiyyətində əks olunur.

Romanda Əminənin təzyiqi nəticəsində dini tərbiyə ilə yetişdirilməsinə baxmayaraq öz şəxsi özəlliklərini ön plana çıxara bilən bir qadın olması önəmlidir. Əminə hər nə qədər bir kişi ilə yan-yana, eyni məvqedə ola biləcək bir xarakterdə deyilsə də, Rabia onun güclü iradəsini davam etdirməyi bacarır.

1.4. Orxan Kamal – "Bir Filiz vardı"[1]

1.4.1. Özət

Romanda 1960-cı illərdən sonra İstanbulun kənar məhəllələrindən birində baş verən hadisələr təsvir olunmuşdur. Filiz bir arabaçının üç qızının ən böyüyüdür; 16 yaşındadır, orta məktəbdən ayrılmışdır. Ailəsini qoşa atlı arabasıyla keçindirən və Balkan Savaşı qaçqını olan ata atları və arabanı satmış, pulları kirayəyə, içkiyə vermişdir. Ana bir corab atelyesində çalışmaqdadır. Ata Filizin də çalışmağını istəyir. Filiz bir kitab deposunda 400 lirə aylıqla satış təmsilçiliyinə başlayır. Evli, yaşlı kitabçı Maşanın gözəl Filizə gözü düşər; bu səbəblə o, işdən çıxır. 300 lirə aylıqla bir işçi birliyinə katibə olur. Onu bu işə kitabçıda tanış olduğu bir parçaçı qoymuşdur və papağı boynuna əyik, mavi gözlü bu fabrik işçisini Filiz sevməkdədir. Bu

---

[1]Təhlildə istinad edilən mətnlər romanın 1995-ci il tarixli 6-cı nəşrindən alınmışdır.

arada keçmiş müdiri kitabçı Maşa Filizin atasından qızını onunla evlənməyə razı etməsini, çalışdığı yeni yerdən uzaqlaşdırmağını istəyir. Qəhvəxana açacağı vədinə aldanan atasının təhdidləri və Maşanın yol kəsmələri qarşısında Filiz sıxılır, yod içərək intihar edir. Xəbəri qəzetdən öyrənən parçaçı xəstəxanaya qaçır. Gecə məktəbini bitirmiş, universitetə də davam etməkdə olan bu gəncin də onu sevdiyini Filiz artıq anlamışdır.

1.4.2. Qadın xarakterlər

1965-ci ildə yayımlanan bu romanda işçilərin yoxsulluqları, ictimai və cinsi problemlər, həsrət və xoşbəxtlik problemi işlənmişdir.

Yazar bu əsərdə kənar məhəllədə yaşayan, işçilərin və kiçik insanların dünyasını gündəlik yaşayışların içində təsvir etməkdədir.

Bu romandakı gənclər də, çörəklərini bu böyük şəhərin artığından çıxaran söyüşcül, nəşəli, üzlü, bütün istifadə olunmuş halları iləyazıq, gözəllikləri ilə və canayaxın saflıqları ilə daha uşaq yaşlarında olarkən həyatın çirkabına batmış, avara cavan oğlanlar və qızlardır.

1960-dan sonra da bütün olanını − olmazını satmaq məcburiyyətində qalıb, içkiyə düşkün olan Filizin atasını və onunla olan ailə münasibətini yazar belə anladır:

"Min doqquz yüz altmışın iyirmi yeddi mayına qədər heç də içki düşkünü deyildi ataları. VC-yə qeydliydi. Qoşa atlı yük arabası var idi. VC-dən keçdim. İstanbulda toz-duman dağılır, düzəldilir, küçələr, yollar açılırdı, işlər ekspress, çatırdı qoşa atlı arabanın qazancı." (Kemal 1995: 12).

"Axşamları tərli-tərli, tozlu-tozlu dönərdi evinə. Yorğun. Ayaqlarında doqquz yüz qırx üçlərdə ucuza düşürülüb satın alınmış Rozveltlər, evinin qapı eşiyində çıxarardı... Bir də pis qoxu gələrdi ki!

Fikir verməzdi Filizin anası. Qocaman ləyəndə soyuq su gətirər, yuyardı kişinin ayaqlarını öyümədən, indiki kimi öyüməzdi. Çünki adam çörək, ət, pamidor, badımcan, alma, armud, şaftalıdan başqa qızıl bilərzik, üzük də gətirirdi zaman-zaman arvadına..." (Kemal 1995: 13).

"İl doqquz yüz altmış bir. Atası çoxdan satdı qoşa atlı arabasını, pulları kirayəyə, içkiyə, siqaretə verdi. İşsizdir. Gecələri ayaqüstü meyxanalarından çox gec dönməkdədir evinə. Kimə, nəyə bilinən-bilinməz ayıb-ayıb söyüşlər ağzında. Anası belə əvvəl olduğu kimi qapıda qarşılamır. Çünki o da bezmişdir halından. Yetmiş lirə həftəliklə corabçıda çalışır." (Kemal 1995: 18).

Ata həyatdakı uğursuzluğunun, avaralığının acığını evdə arvadından çıxarır. Çalışmaq məcburiyyətində qalan qadın kişiyə qarşı mübarizəni də öyrənir:

"Bütün gün sabahın erkən saatlarından axşamın altısı, yeddisinə qədər, iyun günəşinin kəskin şəkildə vurduğu damdar, hamam kimi atelyedə qocaman ütüylə corab ütüləmək, saat yeddidən sonra evə gəlib, evi təmizləmək, çirkliləri yumaq, ortalığı düzəltmək, süpürməkdən indi də yamaq yamamaqdan pərişan idi." (Kemal 1995: 19).

"- Ehey, əvvəllər belə idimi? Mən hələ qapını döyərkən bərabər məni qapıda qarşılamırdınmı?

- Köhnə şüşələr stəkan oldu,bəy!

- Hə!

- Bəli. O zaman evimdə, qadınlığımı bilirdim. İndi mən də çalışıram, yarı kişi, yarı qadın. Sən sənsən. Mən mənəm. Nə haqqın var mənə meydan oxumağa? Vicdansız! Sən içki zəhərlənərkən, mən qab-qacaq yuyurdum. Allahdan qorxmaz..." (Kemal 1995: 20).

Filiz və iki yaş kiçik qardaşı Nur isə, kiçikliyindən bəri başıboş qalmış və erkən yaşdan həyatın və cinsi yaşayışın sirlərini öyrənmişdir:

"Filizlə Nur kiçik idilər. Kiçik idilər, amma yalnız qalanda ağlamırdılar, qorxmurdular düşən qaranlıqdan. Büsbütün qorxmurdular da deyil, qorxardılar, gec vaxt ağızları araq, pivə qoxaraq dönən ataları ilə analarına qorxmadıqlarını deyirdilər...

Erol Filizinki idi. Erdal Nurunku idi. Onların da ataları ilə anaları gecə gəzintisinə, ya da kinoya getmiş olurdular. Ya onlar onlara, ya da oğlanlar Filiz gilə gəlirdilər qonşulara hiss etdirmədən. İşıq onsuz da sönük. Pəncərədən ay vursa belə pərdələr çəkildimi kim kimə..." (Kemal 1995: 13)

"Atalar eyni ilə gerçək ataları, analar da gerçək anaları. Sözdə yemək yeyilir, əl ağızlar yuyulur, sonra da yatılırdı. Yatıldıqdan sonra alt paltarların çıxarıldığını hardan bilərdilər?

Amma çıxarırdılar. Daha sonra? Daha sonrasını da bilsələr belə, o qədər!

...

Sonra böyüdülər!" (Kemal 1995: 14).

Ailənin böyümüş qızları işə və həyata qarışacaq, kiçik həftəliklərlə kiçik işlərdə çalışacaq, sonra düşəcəkdilər. Filizin qazandığı pul, evə verilir və kreditə gedir:

"İlk, ikinci, üçüncü həftələr. Pul alındı. Evə veriləndən əlavə pullarla kreditçiyə gedildi. Öncə bir ətək, bir köynək. Nur qat-qat parçadan etdi ətəyini. Filiz aşağı doğru enlənən. Qat-qatı heç sevmirdi. Nur hər ikisini sevirdi. Həm, canım, özlərinkilərdən yorulanda dəyişərdilər. Beləliklə, iki dənə ətəkləri olardı..." (Kemal 1995: 21).

Gənc qız olan Filiz hər kəs tərəfindən tərifləmək istəyir və qəşəng geyinmək arzusu ilə yaşayır:

"Dükanının lap arxalarındakı masasının başında idi kreditçi. Filiz vitrinə asılmış neylon alt paltarlara, Grandüşe corablara, köynəklik və ətəkliklərə baxırdı. Ürəyi gedirdi. Əlçatmaz kimi gəlirdi... Sahib olmaq istəyirdi amma. Neylon alt paltarları, ən yaxşısından neylon corablar, ətəkliklər, köynəklər..." (Kemal 1995: 23).

Az qazanclı gənc qız Filiz küçədə sataşılma təhlükələrini yaşasa da, buna baxmayaraq insanlar tərəfindən bəyənilmək istəyir:

"Tam da Filizin istədiyi şəkildə qarşılayış. Hər kəs, amma hər kəs Filizə belə deməli, heyran olmalı, bu şəkildətərifləməli idi." (Kemal 1995: 126).

Fəqət Filizi narahat edən kişilər sadəcə küçə avaraları deyildir. Filiz kitab deposunda işləyərkən, evli və yaşlı kitabçı Maşa, gözəl və gənc bir qız olan Filizə göz qoyur. Maşa onun baş bəlası olur. Halbuki Filiz özünə görə birini sevməkdədir:

"... Maşa ilişmiş, hətta evlənmə təklif etmişdi. Qosqoca, üstəlik çirkin bir adamla nə üçün evlənəcəkdi? Sıxışdırmaq istəmiş, pul təklif etmişdi. bezib, usanmışdı. Əlinə kiçik bir roman keçmişdi necəsə. Sevmişdi bu romanı. İçindəki Kiçik Adamı özünə uyğun saymışdı. Nə qarışırdı? Həftədə əlli lirə verir deyə itaət edəcəkdimi ona? Rəssamın otağına girmək, kitabını romançıya imzalatmaq, onlarla danışmaq... Onunla danışmaq da istəmirdi həm də. İçi sıxılırdı, içi sıxılırdı bəli, içi sıxılırdı." (Kemal 1995: 203).

Burada romançının Filiz haqqında düşüncələri isə yazarın bu romanda baş qəhrəman olaraq onu ortaya qoymaq səbəbini aşkarlamaqdadır:

"... Çoxdandır romanda belə tipləri işləmirəm zatən. Amma bu qız mənə bu cür tiplərin üzərində ciddi-ciddi durmağın gərəkdiyini xatırlatmasa da, məni məcbur etdi. Düşün, romanlarda indiyə qədər onlarla işçi, kəndli tipləri cızdım. Bu tiplər, qanunsuz bir cəmiyyətin yaratdığı zəruri nəticələr, üzr istəyirəm, sonuclardı. Səbəb nə olursa-olsun, pis yaşayışın gərəkli qıldığı məhv edilmiş insanların hekayə, ya da romanları. Bir kəlməylə macəraları... Pozuq nizamların qədərinə boyun əyməyən, əyməməyi gərəkən tipləri çəkməməliyikmi? Belə tiplər bugün, bu cəmiyyətdə yoxdurmu? Məncə, var. İnsan oğlu, tamamilə, daha yaxşı olmaq savaşındadır. Oğru belə daha firavan bir yaşayışa nail olmaq üçün çabalayır..."

...

"Filiz kimi, içində yaşadıqları toplumun bir növtaleh olmuş adətlərinə baş qaldıran tiplər... təslim olmuş tiplərinəksinə təslim olmamış, baş qaldıran, pisliklərlə sonuna qədər savaşa bilmək üçün təşkilatlanmaq şüuruna çatmış tiplər lazım. Filiz niyə də belə tip olmasın?.." (Kemal 1995: 188).

Yazar romanı danışan şəxsin ağzından özünün xoş bir sonuc həvəsini − "aydınlıq və gerçəklik" fikrini ortaya qoyur. Bu "aydınlıq və gerçəklik" yazarın dünyagörüşünü də əks etdirməkdədir:

"... Əsl gerçəklik, əsl yurdsevərlik, içində yaşadığın cəmiyyətin pozuq nizamını görmək, pozuqluğun haradan gəldiyini görmək, sonra da bu pozuqluqları ortadan qaldırmağa çalışmaq. Yurdsevərlik, yurdun insanlarını sevmək, yəni insan kimi yaşamaqlarını təmin etməyə çalışmaq. Buna əngəl olanlarla savaşmaq..." (Kemal 1995: 189).

Yazar işçilik, ya da işsizlik qismətinə düşən məhdud gəlirli ailənin daha sağlam təməllərə söykənən bir özəyə sahib olduğunu göstərmək istəmişdir. Hətta işləməklə avaralıq arasında vurnuxan kişilərin yanında qadınlar daha əsaslı, daha işinə bağlı, daha aktiv, quruluşa daha uyğun şəxslərdir. Onlar bütün yoxsulluqlarına, mədəniyyətsizliklərinə baxmayaraq qəlbləri təmiz insanlardır. Bu romanın baş qəhrəmanı bütün bunları göstərən qadın olaraq simvollaş-

dırılmaqdadır. Filizin bu romanda fikrindən keçənlər, onu böyük təhlükələrin kənarında fırlatmışdır.

"Niyə, nədəndi bütün bunlar? Hər şeydən öncə heç kimin ona mane olmayacağı bir işdə çalışmaq istərdi. İş istənilən qədər ağır olsun. Çalışmalı, amma başının üstə duran bir mal sahibi, bir usta, bir usta şagirdi ondan "iş"dən başqa bir də qadınlığını istəməliydi. O iş başqaydı, ayrıydı. Öncə iş, sonra sevmək, sevilmək. Sevilməkdən nifrət etməsə belə, sevə biləcəyi biri tərəfindən sevilməyi istərdi. Hər zaman bəyənilmək, həmişə izlənmək, hər zaman istəyindən əlavə, başqalarının zövq vasitəsi olmaq... İstəmirdi bunu." (Kemal 1995: 224).

Filiz düşdüyü vəziyyətdə daim mübarizə etmək məcburiyyətində qalır, qadınlığı onu hər an çirkaba sürükləyəcək bir təhlükə olmaqla bərabər cəmiyyətin dəyər "məhkəmə"ləri və ailənin az gəlirliliyi onu darıxdıran səbəblərdir. Amma Filiz sağlam xarakterli, xoşxasiyyət və namuslu böyüklərin yanında doğru yolu asanlıqla tapmağa hazır bir insandır. Bunu Filizin həm atasından, həm də evli və yaşlı kitapçı Maşadan öz namusunu qorumaq və öz həyatını qazanmaq naminə daim böyük bir mücadilə verməsində görmək mümkündür. Filiz sağlam bir təhsil, düzənli bir qoruma və bir az dəstəklə həyat mücadiləsində başarılı ola biləcək bir gənc qızdır. Amma əlverişsiz şərait onu intiharı belə düşünəcək hala gətirir. Maşanın təcavüzləri, atasının təhdidləri Filizi yorur:

"Dünya fırlanırdı Filizin başında. Bir ara pis, çox pis şeylər keçdi başından, özünü pəncərədən aşağı atmaq, bolca yuxu dərmanı, ya da spirt içmək! Yaxşı, amma ölmək istəmirdi, yaşamaq istəyirdi. Üstəlik bu dünyanın bir parçası olan Parçaçını da sevirdi... Onun üçün yaşamalıydı, savaşmalıydı onun üçün. Ondan ayrılmamalıydı, heç kimsə ayırmamalı, ayıra bilməməliydi." (Kemal 1995: 282).

Əslində Filiz, özünü bu pislikdən qurtaracaq bir şahzadə istəyi içindədir. Bu qurtarıcını da, yaşadığı çevrədən kənarda, yaraşıqlı və göstərişli gənclərdə axtarır. Filiz, nəhayət, onu sevən bir işçinin yanında gerçək xoşbəxtliyə qovuşmuşdur;

"Filiz soruşdu. "Məni sevirsənmi?"
Parçaçıaçıq-açıq "çox" filan demədi.
"Anlayırsanmı?"
"Anlayıram". (Kemal 1995: 283).

Bu romanda Filizin, daim ailəsi tərəfindən kənarlaşdırılan, bədbəxt, yoxsul, savadsız və adi bir gənc qız olmasına baxmayaraq özünü qoruya bilməsi və sonda yaxşı bir işçi insanın çiynində xoşbəxtliyi tapmağı, onun mübariz və güclü bir qadın tipi olduğunu göstərir. Fəqət bir əskik yönü var ki, yazıçı onu xoşbəxtliyə qovuşdurarkən, onun sanki ağ atlı şəhzadəsini gözləyən gənc qız görünüşü yaratması, Filizin sinə gərdiyi fəlakət və uğursuzluqların mənasını bir az zəiflədir. Hətta qadının xoşbəxtliyinin bir kişinin əlində olduğunu düşünmək də mümkündür. Çünki Filiz kiçik yaşdan bəri öz həyatıyla mübarizə aparmağa cəhd edir və onun yaşadığı bütün fəlakətlər də kişilərdən gəlir. Amma sonunda qovuşduğu xoşbəxtlik onu qoruya biləcək bir kişini tapmaqdır.

Yazıçı bəlkə də Filizi canlandırmaqla sağlam, namuslu və təmiz qəlbli bir qadın tipini oxuculara təqdim etmək istəmişdir və bunu bacarmışdır. Amma Filizin uşaqlığından bəri yaşadığı acılara baxmayaraq onun sadəcə evliliklə xoşbəxtliyə qovuşması, yazarın Filizi quru yurdda buraxmasına səbəb olmuşdur.

Adətən yazar qadınların zəif, bacarıqsız və saf, bilavasitə kişilər tərəfindən dünyanın pisliklərindən qorunmalı varlıqlar olduğunu söyləməkdədir. Bu düşüncə liberal feminizmlə uyğun gəlməyən fərqli bir baxış bucağıdır. Stanton, 1854-cü il tarixli nitqində bütün insanların əsasən eyni və "obyektiv" əsaslandırma gücünə sahib olduğunu bildirmişdir. Həmçinin qadınların kişilər tərəfindən qorunmağa ehtiyacı olan bir varlıq olduqlarını vurğulayan "qadınlıq mədəniyyəti"nə qarşı bütləri yıxaraq, ev həyatının çoxluqla xoşbəxt bir cənnət olduğunu rədd edərək, qadınların qorunmağa, demək olar ki, heç bir ehtiyacları olmadığını iddia etməkdədir (Donovan 1997: 44).

1.5. Ədalət Ağaoğlu – "Ölməyə yatmaq"[1]

1.5.1. Özət

Dosent Aysel aprel ayında bir səhər Ankarada lüks bir otelin on altıncı mərtəbəsində ölməyə yatdığı bir saat yarımlıq zaman içində oxumağın nəyə yaradığı sualına cavablar tapmağa çalışır, özözüylə hesablaşır.

---

[1]Təhlildə verilən mətnlər romanın 1994-cü il tarixli 7-ci nəşrindən alınmışdır.

Kiçik bir Anadolu qəsəbəsində doğulan, Atatürkün ölümü dövründə ibtidai məktəbi bitirəndə, idealist vətənpərvər müəllimi Dündarın xahişiylə Ankaraya orta məktəbə göndərilən, satıcı qızı Ayselin dosentliyə qədər yüksəlişi, dostları, ailəsi, çevrəsi, 1938-1968-ci illərinin ictimai dalğaları əsasında əks etdirilir. Romanın sonunda təbəqə dəyişdirmiş, lakin xoşbəxt evliliyində də tam bir qadın azadlığına qovuşa bilmədiyi düşüncəsi içində narahat Aysel, çıxılmazlıq içində özü ilə vuruşur. Əri elm adamı Ömərdənmi, yoxsa bir dəfə yatdığı tələbəsi Engindənmi olduğunu bilmədiyi uşağını doğub böyütmək istəyilə ölüm qərarından vaz keçir.

Otuz illik həyatı haqqında danışarkən qərbli olmaq məqsədilə Atatürk Türkiyəsinin vəziyyətini və yerini düşünən dosent Aysel, saat səkkizin yarısı olanda girdiyi oteldən ayrılır, Ankaranın dumanlı aprel səhərinə qarışır.

1.5.2. Qadın xarakterlər

Cümhuriyyət sonrası türk qadını, Atatürkün verdiyi dəyər və önəmə layiq olaraq çeşidli sənət növlərində inkişaf əldə etmişdir. Qadının elm və sənətdə irəliləməsinin çeşidli nümunələrini günümüz ədəbiyyatında görməyimiz mümkündür.

Ədalət Ağaoğlu, 1973-cü ildə yayımlanan bu romanda Cümhuriyyətdən sonrakı Türkiyədə bir aydın qadının yaşadığı problemləri əks etdirmişdir. Əsərdə ziyalı bir türk qadınının, universitet dosentinin yaşadığı sıxıntılı həyat, qarşılaşdığı ictimai çətinliklər dilə gətirilmişdir. İntellektual qadın qəhrəman Ayselin uşaqlıq illərindən etibarən ailəsi, münasibətləri və evliliyi, tələbəsi ilə qurduğu evlilikdən kənar bərabərlik, nəticədə Ayselin özünü öldürməyə qərar verməyi təsvir edilmişdir.

Roman Ayselin təxminən bir saat yarım içində keçmişini, bugününü sorğulamağı, dəyərləndirməyi üzərində qurulmuşdur. Türk toplumunda ziyalı şəxsiyyətinin haqq etdiyi yerə qoyulmamağı və ziyalı insanın yalnızlığa məhkum edilməyi yaşanan ictimai vəziyyətin yaratdığı problemlərdən biridir. Aysel fərdi və ictimai çöküntülər səbəbindən ölüm düşüncəsinə yaxınlaşmaqdadır. Əsər bir türk qadınının öz-özü ilə hesablaşma düşüncəsi ilə zəngindir. Atatürkə layiq bir türk qızı olmağı hər zaman istəmiş olan Aysel, öl-

məyə yatarkən özünü günahlarından təmizlənmiş və xoşbəxt hiss edir.

"... Öz gözümdə yenidən gözəlləşib böyüyürəm. Yenidən mənə verilən haqlarımı geyinirəm. Və bu haqlarla yeni haqlara uzanıram. Türkiyənin fərqləndirilmiş ziyalı qadını oluram. Yenidən ölümü özüm seçmişdim, budur. Özüm üçün də ölürəm. Təhvil verib əsilli növbəmi..." (Ağaoğlu 1994: 115)

"Mən belə qırıq topuq, val və tülkünün başıyla əlləşərkən Atatürk birdən qımıldanır. Sol əlində tutduğu dəri əlcəyini üzünə tərəf yellədir. Diksinərək başımı qaçırıram.

...

O zaman dilimində ortaya bir qazan dolma qoyduğumun fərqində belə deyilmişəm. Birdən hiss edirəm ki dissertasiyam deyil, dolma qazanıdır bu. Çox utanıram. Hələ Atatürkdən çox utanıram...." (Ağaoğlu 1994: 321).

Yuxarıdakı cümlələr Ayselin gördüyü yuxunun bir örnəyidir. Gerçəkdə Aysel Cümhuriyyət sonrası Türkiyəsində çalışan, ziyalı, Atatürkçü bir türk qadını olaraq qadın haqlarını mənimsəmiş, qarşılaşdığı ictimai problemlərə qalib gələ bilməmiş, çalışan ziyalı-qadın mübarizəsini ortaya qoymuştur.

"*Fəqət Atatürklə yaşlı professorların önündə dayanarkən bir də baxıram ki, on yaşındayam. Ayaqlarımda ilan dərisi dabanlı ayaqqabılar... Heç cür dissertasiyamı tapa bilmirəm, sonunda hə, tapdım axır ki, deyir və bir kisə bulğurun içindən bir val çıxarıram."* (Ağaoğlu 1994: 321)

"Atatürkü görməyi çox istəyirəm. Yaz gəlib məktəb tətili olanda bibim məni Floryaya aparacaq. Bəlkə onu orada görə bilərəmmiş. Ağlıma gəldikcə indidən ürəyim döyünür. Onun istədiyi kimi mədəni, çalışqan və vətənə faydalı bir övlad olmağı atama və özümə söz verdim." (Ağaoğlu 1994: 321)

Ölməyə yatan Aysel romanda Cümhuriyyətin ilk illərində oxuyan gənc qızları simvollaşırır. Aysel uşaqlığından daima Atatürkə layiq bir türk qızı olmaq arzusu ilə yaşayır. Atatürkə olan sevgi, hörmət və diqqət yuxarıdakı parçalardan bəllidir. Ayselin öz arzusuna çata bilməmək qorxusu, onu yuxuda belə rahat qoymur. Onun gördüyü yuxu da bir türk ziyalısı olaraq qarşılaşdığı ictimai problemləri yaşamayan bir fərdin, bir qadının daxili təlatümünü ortaya qoymuşdur.

"...Heç cür gözlərimi tam açа bilmirəm. Açıb qapayıram, açıb qapayıram. Buna görə də Atanın üzünü güclə görə bilirəm. Üzü sanki bir ocağın küllərini üfürür kimi. Bir yandan üfürür, bir yandan: Hardadır dissertasıyan? Göstər baxım dissertasiyanı, deyir. Çox məcbur edir məni. Parçalanıram, yoruluram, tükənirəm, tülkünün başını qovuram... Hardadır dissertasıyan? Hardadır dissertasıyan deyə məni küləkləyib üzümə-üzümə üfürür. Hardadır dissertasıyan? Göstər dissertasiyanı? Hardadır dissertasıyan? Hardadır dissertasıyan. Sağ yanındakı yaşıl gözlü atlı professorla sol yanındakı atlı professorun əllərində ağır, qocaman cildlər məgər kitab deyilmiş. Birər ədəd yemək boşqabıymış. Çəngəl bıçaqları da var. Masanın çevrəsində otururlar bu dəfə. Çəngəl bıçaqlarıyla ritm tuturlar: Gətir dissertasiyanı, gətir dissertasiyanı... Önlərinə təlaşla bir qazan ətli badımcan-bibər dolması qoyuram. Təzə bişmiş. Dumanı hələ üstündədir. Buyurun, bu da dissertasiyam. Buyurun, buyurun... deyirəm. O zamanadək ortaya bir qazan dolma qoyduğumun fərqində deyilmişəm. Birdən fərq edirəm ki, dissertasiyam deyil, dolma qazanıdır bu. Çox utanıram. Hələ Atatürkdən çox utanıram..." (Ağaoğlu 1994: 321).

Aysel inkişaf etmiş şüurunun alt qatında cinsiyyətinin təbii ehtiyaclarının da aclığını yaşamaqdadır. Burada önəmli olan, Ayselin bu aclığı kiçik yaşdan bəri duymasıdır. Aysel yanlış təhsilin, əskik tərbiyə və yerində olmayan qadağaların üstünə getmişdir.

Yazar ailədə və ilk təhsil illərində Cümhuriyyət dövrü nəslinin Atatürkə bağlılığını hər fürsətdə ifadə etməyə çalışmışdır. Romanda geriyə dönüşlərlə verilən Ayselin ibtidai məktəb xatirələrində Atatürkün ucalığını və ölməzliyini bildirən hissələrə rast gəlmək mümkündür. Bu xatirələrin vacib qəhrəmanlarından biri də Dündar müəllimdir. Dündar müəllim Ayselin gözündə Atatürkə olan hörmət və sevgisini heç bir zaman itirməyən gerçək bir Atatürkçüdür:

"İbtidai məktəbdəykən, Dündar müəllim məni çox sevərdi. Hər etdiyimə "Afərin" deyərdi. Həmişə birinci olurdum. Məktəbin tədbirlərində, bayram mərasimlərində hər zaman öndə gəlirdim. O biri uşaqların əksəriyyəti kəndli idi. Pis olurdular..." (Ağaoğlu 1994: 32).

"Dündar müəllim də sol tərəfdən pərdənin önünə çıxdı. Hələ də ulu öndəri bir günəş kimi üstlərinə yönəldib öz ağzından da-

nışdırmış olmanın həyəcanı içində idi. Sümüklü üzünün bütün damarları çölə pırtlamış şəkildə sözə başladı. Hörmətli, sayğıdəyər və uca qonaqlarımız... Bu çıxışı daha öncə etməyimiz lazım idi. Fəqət, ulu öndərimiz uca Atatürkümüzdən öncə söz almaq istəmədik. Başımızda o varkən ilk söz bizə düşməzdi...” (Ağaoğlu 1994: 13).

“Aysel anasıyla atasının tədbirə gəlmədiklərinə indi için-için sevinirdi. İlk olaraq sinif rəhbərinə və Dündar müəllimə qarşı çox utanmışdı. Hətta özünü bir az da yetim hiss etmişdi.” (Ağaoğlu 1994: 15).

Romanda Semiha - Aysel dostluğu zəminində Türkiyədə yaşanan mədəniyyət dilemması da verilməkdədir. Yazar ətrafında Aysel obrazı ilə Cümhuriyyətin ilk illərində oxuyan “Cümhuriyyət müəllimlərinin” yetişdirdiyi Türk qızını simvolizə etməkdədir. Cümhuriyyət öncəsi nəslin qurbanı olan Ayselin rəfiqəsi Semiha isə hər zaman Aysel kimi olmaq istəmiş, oxuya bilməməyin aşağılığını hiss etmişdir:

“Ah, Aysel, bir türk qızı olaraq nə xoş sənə, gözəl bacım, Atatürk atamızın öldüyü gün çox ağladığını, bütün yoldaşlarının, müəllimlərinin belə hıçqıra-hıçqıra ağladığını yazırsan. Bunları oxuyarkən inan, mən də hıçqıra-hıçqıra ağladım. Həm ulu öndərimizin ölümünə, həm öz taleyimə. Orada, məktəbdə olsaydım, mən də hər kəslə birlikdə ağlayardım...” (Ağaoğlu 1994: 35).

Semihanın duyduğu zəiflik və oxumağına izin verilməməyi nəticəsində, Ayselin yaşayışına həvəslənməyini yazdığı məktubda görməyimiz mümkündür:

“Bir dənə bacım Aysel,

...Oxuduqca mən də sənin kimi oluram. Harda qaldı o günlər... Atam izin versəydi də kaş ki, mən – bacın Semiha da sənin kimi oxuya bilsəydim. Ah Aysel, bir türk qızı olaraq nə xoş sənə!” (Ağaoğlu 1994: 59).

Ayseli oxumağa çəkən səbəblər, qadın və aydın – ziyalı qadın olaraq bir şey edə bilmək və özünü sübut etmək istəyidir. Bu həvəs Ayselin ta məktəb dönəmlərindən qalmışdır.

“Atam məni universitetə göndərməzsə, beynimə qoydum, mən də ibtidai məktəb müəllimi olacağam. Görəsən, tam orta məktəbi bitirənlərə ibtidai məktəb müəllimliyinə icazə verilirmi? Mənim

məqsədim, bacım, nə olarsa-olsun, bizlərin də işə yaradığımızı sübut etmək." (Ağaoğlu 1994: 261).

Savadsiz qadınların ona qibtə etməsinə baxmayaraq Aysel bütöv bir qadın və ziyalı ola bilməməyin zəifliyini özəl yaşayışında belə dilə gətirməkdədir:

"Pedikürçü Könülə də belə edirəm. Ayaqlarımı sudan çıxarıb topuqlarımı ovmağa başlayanda mən də: Tez olun. Quzum, məni gecə saxlamayın deyə danışmağa başlayıram. Tez olun, konfransa çatmalıyam. Araşdırma İnstitutuna verəcəyim sənədi təsdiq etməliyəm hələ, ya da, aman dərsə gecikərəm filan deyirəm.

... Hər zaman ciddi vəzifələrim olmalı idi." (Ağaoğlu 1994: 193).

Aysel ziyalı qadın olaraq əslində işə yaradığını sübut etmək cəhdlərinin ağırlığını, sıxıntısını yaşayır.

Aysel bu romanda həm gerçək, həm bir simvolik məna daşımaqdadır. Ayselin ruh dünyası, ictimai hadisələr, onu dosent Aysel halına gətirən vəziyyətlər real cizgilərlə əsərdə yer alır. Anadolunun bir qəsəbəsində doğulub şəhərdə oxuyan Aysel, öz məmləkətinə döndüyündə daim bu mədəniyyət hibridindən yaranan qarşıdurmanı yaşamaq məcburiyyətindədir:

"Mən ora gələndə, ən acığıma gələn də anamın, atamın mənə başımı örtdürmələri oldu. Sənə danışdığım kimi burda mənim yaşdakı qızlar heç başlarını örtmür. Sadəcə məktəbə gedərkən papaq qoyuruq. Onsuz da ölməz Atamız bizlərin oyanıq və mədəni olmağımızı istəmişdir. Birdən məni burdan bir müəllimim yayda, başım örtülü olaraq gəzdiyimi görsəydi kim bilir nə deyərdi?" (Ağaoğlu 1994: 73).

Ayselin yaşadığı sıxıntı və günah duyğusu onu özüylə hesablaşmağa aparmış və intihar fikrinə sürükləmişdir. Amma bu iç hesablaşma və iç konflikt, ona "yeni bir həyat" gətirmişdir:

"Mən yenidən geyinirəm, budur. Çantamdan tökülənləri yenidən içinə doldururam. Amma hər gözə lazımlı şeylər qoyaraq yerləşdirirəm çantamı. Qələmlər burda, pudra qutusu burda, beş min lirə pulqabında, yarım simit paketin içərisində, darağım bu gözə, qeyd dəftərim bu cibə. Hətta dodağıma bir az dodaq boyası da çəkirəm.

...

Bir müddət daha mübarizə aparıb övladımı böyütmək istəyirəm. Uşaq istər saatsaz Rzanın oğlundan olsun, istər Ömərdən...

Bəlkə də uşaq yoxdur. Bəlkə də özümü yenidən böyütmək istəyidi; dibçəyini sındırmış...” (Ağaoğlu 1994: 317).

Burada, cinsiyyətinin təbii ehtiyaclarının aclığını yaşayan bir ziyalı qadının mübarizəsi, “intihar” kimi təsirli bir baş qaldırış nümunəsiylə təsvir edilmişdir. Aysel cinsi problemlərin pərdələndiyi insan yaşamında təbii sayılması gərəkən ehtiyacların utanc verici olaraq xarakterizə olunmasının yaratdığı sıxıntını dilə gətirməkdədir. Aysel istər bir gerçək olsun, istər bir simvol olsun, onun bütün yaşadıqları, Türkiyənin Cümhuriyyətdən sonrakı otuz illik tarixidir.

Romanda ziyalı türk qadınını təmsil edən Aysel, Atatürkün başçılığı altında qadın olmaq savaşını vermiş, sıxıntı və tükənişin ardınca yenidən doğulmuşdur. Qapandığı otel otağından çıxıb Ankaranın sisli aprel səhərinə qarışan Ayselin qarşısında yeni bir həyat açılacaqdır.

1.6. Yaşar Kemal – “İlanı öldürsələr”[1]

1.6.1. Özət

Əsmə ətrafında gözəlliyilə tanınan bir qadındır. Öz kəndindən Abbası sevir. Ancaq Xəlil onu zorla qaçırır. Əsmənin Xəlildən Həsən adlı bir oğlu olanda keçmiş sevgisini unutur. Fəqət Əsmə uğrunda bir neçə insanı yaraladığı üçün həbsdə olan Abbas çıxanda Əsmədən əl çəkmir və Həsən altı-yeddi yaşında olanda bir gecə evlərinə hücum edib onun atası Xəlili öldürür. Qan davası başlamışdır artıq. Xəlilin qohumları da eyni gün, hələ ordan aralaşmamış Abbası öldürür. Xəlilin yaşlı anası isə, oğlunun qatili olaraq Əsməni görməkdədir. Həsənin əmiləri İbrahim, Mustafa və Əlidən Əsməni öldürməklərini istəyir. Əmilər bunu etmir. Əli Əsmənin gözəlliyinə qiya bilmədiyi üçün və ona olan sevgisindən, digərləri də Əsmənin qardaşlarının qorxusundan silahı çəkə bilmirlər. Nənəsi Əsməni dağdakı qohumlarına öldürtmək istəyir, lakin onlar da bacarmırlar. Həsən bu davada anasının tərəfini tutur.

---

[1] Təhlildə istinad olunan mətnlər romanın 1996-il tarixli 14-cü nəşrindən alınmışdır.

Xəlilin ailəsi Əsmənin kənddən ayrılmasını istəyir. Bunun üçün Əsmənin tək şərti Həsəni də yanında aparmaqdır. Həsənin əmiləri buna razı olmurlar. Əsmə Həsənlə birlikdə bir neçə dəfə qaçmağa cəhd edir, amma hər dəfə də tutulub kəndə gətirilir.

Xəlilin ailəsi bir az böyümüş olan Həsənə anasını öldürtməyə çalışırlar. Ona gözəl geyimlər, papaq, ayaqqabı, tüfəng və at alınır. Çevrədəki bəzi insanlar Həsənə, qanı yerdə qaldığı üçün atasının xortladığını, ilan donunda gəzdiyini, bundan qurtulmaq üçün anası Əsməni öldürmək gərəkdiyini söyləyir. Bəziləri isə anasını öldürməməyini tövsiyə edir. Uşağa təzyiqlər artır. Anasına duyduğu sevgiyə qarşı çevrənin və adətlərin basqısı Həsəni əzməkdədir.

Həsən kənddən qaçıb uzaqlara gedirsə də, təkrar geriyə dönür. O, kənddəki heyvanlara zərər verməyə başlayır, evləri, samanlıqları yandırır.

Kənddə Əsmənin namussuz bir qadın olduğuna dair böhtanlar gəzməyə başlayır. Basqılara dözə bilməyən Həsən təndirə əyilib çalışan anasını əmisi Əlinin ona verdiyi tapançayla vuraraq öldürür.

Cinayətdən sonra qaçan Həsəni üç gün tapa bilmirlər. Üçüncü gün iti onu ələ verib tutulmağına səbəb olur. Daha sonra həbsə girən Həsən yazarla orada tanış olur və başına gələnləri ona danışır.

Aradan neçə il keçəndən sonra Həsən yazarı tapır. Keçmiş günləri xatırlayırlar. Həsən evlənmiş, altı uşağı olmuş, işlərini də xeyli irəlilətmişdir. Ətrafındakı insanlardan dost deyəcək bir tək insan qalmamışdır.

1.6.2. Qadın xarakterlər

"İlanı öldürsələr" Yaşar Kamalın 1950-ci ildə Kozan həbsxanasında həbsdə olduğu günlərdə qarşılaşdığı bir uşağın macərasından təsirlənərək qələmə aldığı bir romandır. 1976-cı ildə Abidin Dinonun illüstrasiyaları ilə "Cümhuriyyət"də çıxmış, eyni ildə kitab şəklində nəşr edilmişdir (Çiftlikçi 1997: 215).

Bu romanda Əsmənin sevgilisi Abbasın Həsənin atası Xəlili öldürməyi, Həsənin anası Əsməni öldürməyi və Həsənin yazarla həbsxanada tanışlığı olmaq üzrə üç vacib hadisə yer almaqdadır.

Bu üç əsas xətdən kənar Həsənin ailəsinin elatlıqdan oturaq həyata geçməyi, Əsmə-Abbas və Əsmə-Xəlil əlaqələrinə də bəzi səhifələrdə yer verilmişdir.

Əsərdə oğulun öz anasını öldürməyi kimi təsirli bir mövzu işlənərkən bütün diqqət on iki yaşında uşaq olan Həsənə verilmişdir. Öz oğlu tərəfindən öldürülən Əsmə isə, epizodik şəkildə işlənilmişdir. Əsərdə Əsməni tanımaq üçün oğlu Həsən və ailəsinin əlaqələrini nəzərdən keçirməyə ehtiyac var.

Əsmə, çevrəsində gözəlliyilə tanınan bir qadındır. Əslində onun gözə çarpan gözəlliyi, ona fəlakət gətirən əsil səbəbdir:

"... Dünya gözəliydi. Çox gənc idi. Kiçik bir qız uşağına bənzəyirdi... Anasının uzun saçları vardı, belinə qədər düşən. Hər kəs elə söyləyirdi, Çukurovanın, bəlkə də dünyanın ən gözəl qadını imiş anası. Anasını istəməyən cavan yoxdu bu böyük Çukurovada..." (Kemal 1996: 8)

"O qədər də gözəldi ki, o qədər də dünya gözəli ki... Anasının kənddən bir tək onu buraxıb getməməyi qürurunu oxşayırdı. Anasına qarşı düşüncələri qarmaqarışıq idi. Deyirlər ki, anasını ən gənc əmisi istəyirmiş, amma anası da dirənirmiş, onu istəmirmiş." (Kemal 1996: 11).

Əsmə Abbası sevmiş, amma ərindən da ayrılmamışdır. Onu ərinə bağlayan bircəcik oğlu olmuşdur. Sevdiyi adam Abbasın daim onun ardınca düşməsi, öncə ərinin sonra da öz ölümünün əsas səbəbidir.

Həsənə anasını öldürmə vəzifəsi verilərkən əmilərinin və nənəsinin iki məqsədini görürük. Bir yandan Həsənin anasına duyduğu sevgini yox edərək onu bir "ana düşmanı"na çevirmək, digər yandan özlərinin edə bilmədikləri bir cinayəti kiçik bir uşağa işlədərək daha az bir cəza ilə qurtulmağa çalışmaqdır. Beləcə yetkin bir insanın belə cəsarət edə bilmədiyi zülm və cinayəti kiçik bir uşağa yükləyirlər:

"Nənə nəfəsini çəkdi.

"Ürəyim yanır, analıq batsın, analıq başqa. Oğlumun qisası alınmadan mən məzara gedə bilmərəm. Gedərsəm də məzarımda dura bilmərəm. Duraramsa da sümüklərim çat-çat olar, çat-çat olmasa da gözlərim açıq qalar." (Kemal 1996: 21).

Nənəsi yataqda yatırdı. Solub getmiş gözlərinin altı yamyaşıl olmuşdu.

"Ölürəm, ölməyəcəyəm Həsən. Mən ölsəm kim alacaq, kim qaldıracaq oğlumun qanını yerdən, Həsən. Heç biriniz adam çıxmadınız... Onu öldürtmək üçün sərvət tökdüm, Həsənim,heç kim öldürə bilmir..." (Kemal 1996: 78).

Hətta Həsənin nənəsi və əmiləri, məsum bir uşağın anasını öldürməyi bir vəzifə bilib şüur altında daşımağı üçün zəmin hazırlamışdır:

"Əmi belindən silahı çıxarıb Həsənə uzatdı:

"Al", - dedi, - "bundan sonra sən özün istədiyini zamanla vurarsan. Çox istifadə etməlisən tüfəngi... Çox vurmalısan ki, əlin öyrəşsin ki, yaxşı vurasan... Nişançılıq yalnız çox vurmaqla, çox güllə xərcləməklə qazanılır."

Həsən, sevinc içində, tüfəngi nə gözəl, durmadan da atəş açır." (Kemal 1996: 23).

"Bezdim" - dedi, Əli, - "Həsən, al bu tapançanı sənə gətirdim. Bu tapança atanın tapançasıdır. Vurulduğu gecədən bu yana atan məni qovur" - Xəlil dedi. Yaxşı dinlə məni qanımı yerdə qoyma mənim. Ən igid qardaşım sənsən, oğlum hələ kiçikdir, məni öldüreni, öldürtəni sən öldür, sən öldür. Məni xortlamış qoyma, bu dünyada..." (Kemal 1996: 23).

Beləcə Həsən anasını öldürməklə vəzifələndirilir, təzyiq altında tutulur, bunu yerinə yetirmədikcə də ətrafdakı insanlar tərəfindən kənarlaşdırılmağa başlayır.

Elə isə, Əsmənin bir qadın olaraq bir kişini sevməsi, o qədər böyük günahdırmı? Yazar, əsərdə bir uşağı anasını öldürməyə yönəldən mühiti və şərtləri, psixoloji və sosioloji dəyərləri, adətləri sorğulamışdır. Ancaq bu sorğulama, bir qadının bu qədər böyük bir fəlakəti yaşamağı haqq etmədiyini göstərməkdə yetərsiz qalmışdır. Yaşar Kamal buna bənzəyən bir mövzunu sonrakı illərdə qələmə aldığı "Kimsəcik" əsəsrində daha geniş və ətraflı olaraq işləmişdir (Çiftlikçi 1997: 222).

Həsən anasını öldürdüyü ərəfədə on iki yaşındadır. Anasını bilmədən, qəzayla öldürdüyü söylənməkdədir. Həbsxanada da çox yatmadan üç ay içində azadlığa çıxır. Qanunlar Həsənin yaşını və cinayətin qəzayla işləndiyini nəzərə almış olmalıdır ki, Həsən böyük bir cəza görmədən qurtulmuşdur.

Fəqət Həsən öz anasını öldürməyinə səbəb olan insanlıqdan kənar günahından qurtula bilməmişdir, həbsxanada olarkən heç kəslə danışmaq istəmir. Yazar Həsəni belə xatırlamaqdadır:

"Həsəni həbsxanada tanıdım. Gecə gətirdilər. Bütün məhbuslar onun başına yığışdılar. "Keçmiş olsun, keçmiş olsun..." Həsən ağzını açа bilmirdi. Dili kilidlənmişdi. Məhbuslar ona su, şorba, bir şey vermək istədilər, o nə danışdı, nə də ağzını açıb bir şey yeyə bildi..." (Kemal 1996: 15).

"Bir ay sonra mən onun evinə getdim, onun qonağı oldum on beş gün. Həsən kənddə də heç kimlə danışmırdı. Nə nənəsiylə, nə əmiləri, nə əmilərinin uşaqları, nə də qohumlarıyla. Heç kimlə danışmamağa and içmiş kimi idi.

Tez-tez:

"Sən qarşıma çıxmasaydın, mən insanlığı unudub getmişdim" - deyirdi." (Kemal 1996: 19).

O biri yandan, Həsənin anasına qarşı duyduğu sevginin onu öldürməklə yox olmadığını da görməyimiz mümkündür. Bir qadın namusunu itirmiş və evlilikdən kənar münasibəti olsa da, bir uşaq üçün daima ana olacaqdır; qeyri-əxlaqi yaşayışı onun analıq vəzifəsini yerinə yetirməyinə əngəl deyildir. Əsmənin dəfələrlə Həsənlə kənddən qaçmağa cəhd etməyi bunu göstərir.

Əsmə Həsəni əldə edə bilmək üçün ailəsinə yalvarır və mübarizə aparır. Çünki Əsmə bir qadın olmaqdan ziyadə bir anadır. Onun üçün uşağını itirdikdən sonra yaşamağının heç bir mənası yoxdur. Əsməyə savaşmaq və ayaqüstə dura bilmək gücünü verən analıq duyğusudur:

"Oğlumu mənə verin, mal da, mülk də, hər şey sizin olsun, mən gedim atamın evinə. Heç bir şeyinizi istəmirəm. Oğlumu mənə verin." (Kemal 1996: 33).

"Əlini-ayağını öpüm, ağam, mən Həsənsiz heç bir yerə gedə bilmərəm. Ölsəm də oğlumun yanında ölərəm. Oğlum yanımdaykən ölsəm daha yaxşıdır... Oğlum yanımda yoxkən yaşamaqdansa, oğlum yanımdaykən ölmək daha yaxşı..." (Kemal 1996: 34).

Ətrafındakı insanlar oğlunu bir qatil edərək qisas almağa çalışırlar. Əsmənin gözəlliyinə olan heyranlığın qısqanclığa çevrildiyi söylənməkdədir (Özkırımlı 1977: 56). Əsil günahkar və qatil Həsən deyildir, onu cinayət işləməyə yönəldən mühit və şərtlərdir.

Kiçik və məsum bir uşaq olan Həsən isə bundan bezmişdir. Əslində onu anasını öldürməyə yönəldən bu sıxıntıdır:

"Bir fikir içində yaşayırdı Həsən... Bir dəliliyə meyil edib buraxmışdı özünü. Hər gün, hər gün belə sözləri dinləmək üçün kəndə çıxır... Bir gün anasından, atasından söz açılmasa içindəki boşluq onu dəli edirdi. Öyrəşmişdi. Bu sözlər onun yaşamağı üçün şərt idi. Onlarsız yaşaya bilmirdi. Müəyyənləşdirmişdi artıq, kim atasından − anasından dayanmadan danışırdısa, artıq onun yanına gedirdi. Susub atasının xortladığını, anasının fahişəliyini, dəliliyini, qanının yerdə qaldığını, atasına aid min bir hekayəni bir yerdə dinləyir, dinləyirdi." (Kemal 1996: 67).

Həmçinin bu mühitin dəyər məhkəməsi qarşısında Əsmənin sadəcə bir zəif qurban olaraq qarşımıza çıxmağı, son dərəcə üzücü bir vəziyyətdir.

Əsmə ətrafdakı insanlarla mübarizə edə bilmir. Çünki mübarizə etməyinin mənasız olduğunu anlamışdır.

"Bu dəfə oğlunu da versələr ona, versələr də yeri get desələr, gedə bilməzdi Əsmə. Vay Əsmə, olan olmuşdu ona. Həsən, kəndlilər, nənə, Əsmə cadulanmışdı." (Kemal 1996: 68).

Əsmə sosioloji baxımdan qapalı və mühafizəkar bir cəmiyyətdə susmaqla özünü daim geridə qoymaqla, gücsüzlüyün qurbanı olan zəif bir qadın tipini təmsil etməkdədir.

Qan davası nəsildən-nəslə keçən uzun müddətli bir fakt olsa da, bir insanın həyatı ilə oynamağın daha böyük cinayət olduğu aydındır. Bir qadının namusu uğrunda həyatına son qoymağa heç kimin haqqı yoxdur.

1.7. Ayla Kutlu – "Cadügər ağacı"[1]

1.7.1. Özət

Roman həkim Nilufərlə fakültə yoldaşı Təhsinin söhbəti ilə başlayır.

Nilufər yoxsul bir məhəllədə doğum həkimi olaraq çalışan, ərindən boşanmış bir qadındır. Evliliyi qısa sürmüş və bədbəxt bir şəkildə bitmişdir. Nilufər əri istəmədiyi halda bir qız dünyaya

[1]Təhlildə istinad edilən mətnlər romanın 1986-cı il tarixli 2-ci nəşrindən alınmışdır.

gətirir. Uşağın doğumundan sonra Vedat qızına fövqəladə bağlı bir ata olur. Uşaqlarını bir qəzada itirdikdən sonra Nilufər ilə ərinin bədbəxt evlilikləri tamamilə sona çatır və boşanırlar.

Nilufər assistentliyə başlayır. İlk qadın assistaent olan Nilufər, kafedra müdiri Xəlil müəllimə aşiq olur. Fəqət Xəlil müəllim evli bir adamdır. Nilufər onun gizli sevgisilə kifayətlənmək məcburiyyətindədir. Onların gizli eşqini hər kəs öyrənir. Bu münasibət də Xəlil müəllimin ölümü ilə yekunlaşır.

Nilufər artıq yalnızdır.

1.7.2. Qadın xarakterlər

Bu roman 1983-cü ildə nəşr olunur, intellektual bir qadının qadın kimliyi ilə ictimai funksiyası arasındakı konflikt əsas xətt olaraq işlənmişdir. Yazar bu mövzuyla feminizm düşüncəsini romanda sərgiləməkdədir.

Nilufər yoxsul bir məhəllə olan Çinçində müayinəxana açan gənc bir həkimdir. Müayinəxananı açarkən məqsədi pul qazanmaq deyildir, ətrafdakı insanların rahatlıqla girib çıxa biləcəyi bir yer olmağını istəmişdir. Fəqət bu idealist qadın həkimə Çinçinlilər çox isti münasibət bəsləmir. Nilufər uzun müddət çalışmağına baxmayaraq onları özünə və inandığı gerçəklərə inandıra bilmir. Hər xəstəliyi müalicə etməyə çalışan, həftədə bir gün gecənin gec saatlarına qədər xəstələri pulsuz müayinə edən, gələn uşaqların sağlamlıqları, yedikləri və geydiklərilə, gülüşləri və ağlamaqlarıyla maraqlanan "Həkim xanım" onların gözündə, yorğunluqdan ayaqlarının üstündə dura bilmədiyi günlərdə belə "Qəssab Nilufər" olmuşdur.

"Pul almadığı təmiz bir səbəbdən hamısından çox danladığı, qorunma yollarını öyrətdiyi, ya da uşaq sahibi olmaqları üçün çalışdığı o qara-quru, o ət tutmayan və çox əsəbi insanlar, qarşısında boyun bükərkən içində gizli-gizli təhqir edirlərmiş Nilufəri." (Kutlu 1986: 17)

Nilufər ideal uğrunda özünü fəda edən bir həkim və ya ziyalı şəxs olsa da cəmiyyət daim ona müqavimət göstərir. Çünki çalışdığı mühitdə o, bir ziyalı və bir həkimdən öncə bir qadındır. Ətrafdakı insanlar ona daim şübhəylə yanaşırlar. Nilufər də bu şübhəylə mübarizə apararaq daim həkim olmağıyla ön plana çıxmaq istəyir:

"Üstəlik onlar "həkim" deyiləndə yalnızca kişi həkim düşünürdülər. Qadınlar doğum işlərindən başqasına qarışmamalı deyilmiydilər?" (Kutlu 1986: 41).

Qadın olmaq peşə həyatını davam etdirmək istəyən qadınlar üçün hər zaman keçilməsi çətin olan bir maneədir. Həmçinin, bu amil istər peşə həyatında, istərsə də evlilik həyatında olsun, qadınların ikinci planda qalmaqlarını şərtləndirir.

Nilufər peşə həyatında qadın olmağın dözülməz çətinliklərilə mücadilə edərkən, evlilik həyatı da asan keçməmişdir. Bir uşaq sahibi olan Nilufərə anası yardım edərkən, əri Vedat həm evlilik həyatından, həm də onun həkimliyə başlamğından şikayət edir:

"Amma Vedat, uşağımız kiçikdir hələ, onu buraxıb gecələr necə növbəyə qalaram?"

"Uşağamı baxırsan sən? Hətta evinə belə baxmırsan. Hər şeyi ananın çiyinlərinə yüklədin. Elə olsun, o etiraz etmədikcə mənim bu məsələdə söz söyləməyə haqqım yoxdur."

...

"Yəni xanım çətinliklə qarşılaşmayacaq. Çalışıb imtahanlara girməyəcək, pul qazanmayacaq, amma yenə də başını qatmaq üçün ona bir iş yeri açacağıq. El-aləmə qarşı, çalışan, evə qatqısı olan; əslində evindən, evliliyin məsuliyyətlərindən qaçmaq üçün özəl bir yeri olacaq. Kefinə baxacaq bir qadın... Sən oyun oynamaq istəyirsən. Aylardır mənimsəyə bilmədilər səni. Hətta yox sayırlar. Ağıllarına gəlmir səndən yardım istəmək, həkimliyindən yararlanmaq... Yaxşı, nəyi necə verəcəksən onlara" (Kutlu 1986: 43).

Nilufər Çinçinlilər tərəfindən qəbul olunmadığı halda, özünü sübut etmək üçün mübarizə aparanda əri Vedatla olan konflikt və anlaşmazlığı da ailə içində onu yalnızlığa sürükləyir.

"...Amma bu başqa, uşağı aldırmaq başqa. Cinayət-filan deyə də düşünmürəm. Qorxuram, açıq olaraq qorxuram..."

"Bu qədər qorxursansa, doğmaqdan nə üçün qorxmursan bəs? İki dəqiqəlik, kiçik bir əməliyyatdan qorxan xanım, o səbəbdən üç kilo − dörd kilo bir uşağı doğacaq. Məntiqlidirmi bu?"

"Anlamırsan, doğmaqdan da qorxuram. Hər şeydən qorxuram." (Kutlu 1986: 44).

Yuxarıdakı dialoq Nilufərin uşağı dünyaya gətirmək məsələsində əriylə aralarında olan mübahisəni göstərir. Əri qadın olaraq onu heç bir zaman anlamağa çalışmır, hamiləlik dövründə də bir

dəfə olsun əlini Nilufərin qarnına qoymur. Uşağın doğulacağı gecə də, doğuş sancısı başladığı zaman Nilufər heç bir yerdə Vedatı tapmadığı üçün axırda özü taksi çağırıb xəstəxanaya təkbaşına getmək məcburiyyətində qalır. Doğum evində yoldaşlarının dedikləri qəribə səslənir:

"Afərin Nilufər... Bax, həkim dediyin belə olar, çantasını və körpəsini alar gələr. Heç kimə sıxıntı yaşatmır. Həm də, canım, başqalarını narahat edəcək qədər vacibdirmi bu iş?" (Kutlu 1986: 46).

Vedat istəmədiyi uşaq doğulandan sonra övladına son dərəcə düşkün bir ata olur. Fəqət uşaqları öləndən sonra Vedatla bir-birinə bağlılıqları qopur. Nilufər boşanmaq istədiyini söylədiyi zaman Vedat da heç qarşı çıxmadan qəbul edir, o da Nilüfərdən qurtulmaq istəyir.

Nilufər artıq qızı Sunanın acısını ürəyində daşıyan bir anadır. O, uğursuz bir evliliyi bitirməklə birgə, bir ana olaraq da böyük dərdiylə yalnız qalır.

Bir qadın olaraq yaşamağı gərəkən bütün fəlakətləri yaşamış olan Nilufər, eşqi evli bir adamın yasaq sevgisində tapır:

"... Yatdığım kişilərin evli, yaxud subay olmaqları niyə mənim problemim olsun. Bu onların problemidir. Mənimlə arvadı arasında deyil, arvadıyla özü arasında..." (Kutlu 1986: 73).

Yuxarıdakı danışıqlar Nilufərin dostlarıyla etdiyi söhbətdir. Onun dostları Nilufərə qarşı xoş görüşlü olsa belə, cəmiyyətin öyrəşilmiş qanunlarına qarşı çıxan bir insan normal olaraq qarşılanmır. Nilufər yaşadığı eşqi yüksəltməyə çalışsa da, cəmiyyət buna icazə vermir.

"Münasibətlərini hər kəsə heç çəkinmədən danışırdı Nilufər. Evliliyini, bərabər olduğu kişiləri, zarafatlaşdıqlarını, müvəffəqiyyətsizliyini, bəyəndiklərini, hamısını. Xəlildən danişa bilmirdi. Özünü nəyin saxladığını bilmirdi. Qarşısındakıların anlamayacağındanmı qorxurdu, yoxsa sözlərə tökərsə, içində eninə və boyuna inkişaf etmiş olan və yaşaya bildiyi tək sevgini bir qəlibə töküb mumyalayacağınımı hesab edirdi? Bilmirdi. Bu sevgi və onun mənası, özü ilə birgə köçəcəkdi." (Kutlu 1986: 96).

Mətn Nilufərin Xəlil müəllimə nə qədər ruhi bir sevgiylə bağlandığını göstərən bir parçadır. Heyf ki, Nilufər bu yasaq eşqi tam olaraq yaşaya bilməmişdir. Daim gizlətmək məcburiyyətində qalır və əlindən gəldiyi qədər qorumağa çalışır:

"Özünü nəyə inandırmış olsa da, əgər Xəlil ölmüş olmasaydı, Pərizad xanım qısqanclığını ətrafına tor kimi saçıb təsirləndirməsəydi, Nilufər müayinəxana açmağı ağlına gətirməyəcəkdi.." (Kutlu 1986: 20).

Nilufər ətrafındakı insanların gözündə daima günahkar vəziyyətindədir. Hətta Xəlil müəllimin həyat yoldaşı Pərizad xanımın ona "fahişə" deməsinə də dözmək məcburiyyətindədir:

"Kim hara gedirsə getsin bizə nə. Cəmiyyət nədir e... Kleopatra dövründə yaşasaydıq, qardaşımızla evlənsək belə cəmiyyətin cınqırı çıxmazdı.

...

Cəmiyyət, zəifləri əzir, güclülərə boyun əyir. Cəmiyyət üçün tək vacib nüans budur. Hər zaman belədir. Kiməsə iftira atır cəmiyyət, kiminəsə rəhm edir. Mənim kimlə yatdığımdan cəmiyyətə nə? Bunun altı üstü, qapalı bir yer, bir yataq və bir qadınla kişi arasında olub bitmiş bir iş deyilmi?" (Kutlu 1986: 76).

Nilufər yuxarıdakı söhbət qarşısında hiss etdiklərini belə açıqlayar:

"Kaş ki, bunları başqalarına inandırmaq yerinə, özünü inandırsaydı. Onların ürkərək geri çekiləcəklərini düşünmək xoşuna gələrdi, amma bu öz içindəki o gəlib keçən bağlardan yaranan boşluğu yox etməzdi. Əslində, bu sayaq münasibətlərdən bezmişdi, sadəcə orqanlara əsaslanan cinsi münasibətdən diksinirdi." (Kutlu 1986: 76).

"... Amma əsas səbəb evliliyin gətirdiyi inanılmaz yalnızlıq duyğusuydu. Yalnızlıqdan qurtulmağı məqsədləyən gedərək elə qalın divarlı bir yalnızlığın içində hisslərini anlayırlar və elə bitməz özlərini müdafiə duyğusu içində itələnirlər ki, evlilik getdikcə hər şeyin müdafiəsini etməyi əvvəlcədən hazırlanmış, yaxud müdafiəyə məcbur olan kişilərin bərabərliyinə dönürdü. Birlikdə düşünmək, birlikdə dayanmaq, birlikdə yerimək... Yoxdu belə şeylər..." (Kutlu 1986: 77).

Yazıçı burada Nilufərin dilindən iki insanın bərabərliyində sadəcə evlilik bağının yetmədiyini vurğulamaqdadır. İllərdir sadəcə "bərabər yaşamaq" mənasını daşıyan evlilikdə, nəticədə iki insanın "yalnızlıq duyğusu" var, sadəcə. Yazıçı evlilik bağı əsasında "sevgisizlik" və "yalnızlıq duyğusu" ilə ər-arvad münasibətlərini tənqid etməkdədir.

Nilufər öz taleyində həm evliliyi, həm evlilikdən kənar böyük eşqi yaşamış bir qadın tipidir. Burada Nilufəri uğursuz evlilikdən və yaşadığı yasaq sevgidən dolayı günahlandırmağımız mümkündürmü?

Nilufəri heç bir məsələdə günahlandırmağımız mümkün deyildir. Nilufər evlilik məsələsində yaxşı bir ailə bağı qurmaq istəmişdir, fəqət nə yazıq ki, bacara bilməmişdir. Evli bir adama aşiq olmuşdur. Bu səbəblə bir sürü maneələrlə qarşılaşmaq məcburiyyətində qalmışdır. Nəticədə bütün çətinliklərə sinə gərmək məcburiyyətində qalmışdır.

Fəqət onu günahlandırmağa heç kimin haqqı yoxdur. Bəlkə də həyatda bir qadın olaraq yaşamağı gərəkən uğursuzluqlar ona tən gəlmişdir. Bütün bu ağır şərtlər altında Nilufər ideala doğru can atan, yaşayan, mübarizə aparan bir ziyalı və qadındır.

1.8. Əminə İşınsu – Qaf dağının arxasında[1]

1.8.1. Özət

Roman nağıl cümlələrilə başlayan yeddi hissədən ibarətdir. Hadisələrin böyük bir hissəsi İstanbulda baş verir. 1980-ci il inqilabının dərhal sonrasını əks etdirən roman, geriyə dönüş edərək 1960-cı illərə qədər uzanır.

İlk bölümdə Mövsüm Öz Ömərin evlənmə təklifini qəbul etmiş, xəbəri vermək üçün atasının görüşünə getmişdir. O gecə ata ilə qız bir-birinə qarşı heç olmadıqları qədər dözümsüzdürlər. Mövsüm uzun müddətdir ondakı dəyişikliyi fərq etməklə bərabər bunun mənasını aça bilməmişdir. İkisi də qopacaq böyük bir fırtınanın yaxınlaşmaqda olduğunu hiss etməklə bərabər məsələni görməzlikdən gəlirlər.

Atası onu evə qoyanda Mövsüm nə Ömərin ailəsilə tanış olmaq üçün ertəsi gün çıxacağı Ankara səyahətini, nə də atasının vəsiyyəti xatırladan son sözlərini düşünər.

İkinci hissə Mövsümün doğulmağından öz evinə köçənə qədərki xatirələri əhatə edir. Mövsümün ailə üzvlərinin adları bildirilmir. O, kiçik olanda anası ölmüşdür. Atası bu ölüm qarşısında

---

[1]Təhlildə istinad edilən mətnlər romanın 1995-ci il tarixli 2-ci nəşrindən alınmışdır.

uzun müddət özünə gələ bilməmiş, hətta özəl bir klinikada müalicə olunmuşdur. Müalicədən sonra Avropaya getmiş, bu müddət ərzində Mövsümlə nənnəsi maraqlanmışdır. Atası qayıdıb onunla birgə İstanbula yerləşəndə Mövsüm beş yaşındadır. Köklü bir ailənin tək oğlu olan və maddi cəhətdən heç bir çətinliyi olmayan ata, qızının təhsilinə xüsusi önəm verir. On yaşından etibarən psixoloqu Emel xanım və din dərsi müəllimi Tahir hoca, Mövsümə həyatı, insanları və özünü tanımağı üçün lazım olan biliyi verirlər. Mövsüm Emel xanımın sayəsində atası haqqında hətta, özünə belə etiraf edə bilmədiyi duyğularını anlayır. Tahir hoca isə onu haqq yolunda püxtələşdirir. Arvadından qalan tək xatirə olduğu üçün Mövsümə həyatını həsr edən ata, artıq diqqətlə qızını sıxdığının fərqində deyildir. Mövsüm iyirmi yaşında psixologiya təhsili alan bir gənc qız ikən artıq müəllimlərindən ayrılmağı gərəkdiyi yolundakı qərarına atasının duyduğu müqavimətdən ötrü məktəbi yarıda qoyur.

Üçüncü hissədə Mövsüm evdən köçməyə qərar vermiş, atası nəzarət edə biləcəyi bir sahədə qızını sərbəst buraxmışdır. Yeni evindəki ilk gecəsində Mövsüm atasını axşam yeməyinə çağırır. Gecə boyunca Türkiyədəki nəşriyyat həyatını, nəşriyyat-yazar münasibətlərini müzakirə edirlər.

Dördüncü hissədə yazar Mövsümün dostlarından bəhs edir. Mövsüm bir müddət evinə sadəcə yemək üçün gələn bir insan qələbəliyi içində yaşayır. İnqilabçı yazıb-pozan dəstəsindən olan bu insanlar məmləkətin siyasi və ədəbi həyatı mövzusunda canlı bir nümunədirlər. Mövsümün dostlarından qurtulub "Ayrı yollar" adlı romanını yazmağa başlamağı çətin olur. "Ayrı yollar" Mövsümün atasının Ekin nəşriyyatını gizlicə satın almağı ilə yayınlanır. Atası Avropadadır və Mövsüm ona çox bənzəyən Orçuna aşiq olmuşdur.

Beşinci hissədə Mövsüm yazmağı buraxır. Bir müddət sadəcə eşq yaşayır. Orçun Tərəqqipərvər Müəllimlər Dərnəyi nümayəndəsidir, aktiv bir solçudur. Tamamilə Orçuna təslim olan Mövsüm bir daha heç yazmamağa qərar verir. Tanışlıqlarının ildönümündə dostlarının gözü qarşısında etdikləri dava münasibətlərini bitirir.

Altıncı hissədə yazar "Cambaz"ın yanlış səbəblərini açıqlamaqdadır. Mövsüm inqilabdan sonra bir müddət atasının Yaşılköydəki bağ evinə getməyi uyğun hesab edir. May ayının əvvəlləridir. İçində hiss etdiyi boşluğu aradan qaldıracaq açarı tapmağı iyulun ortalarındadır.

Mövsüm İstanbula dönəndə Ömər Kuzgunoğlu ilə tanış olur. Rahat və canayaxın hesab etdiyi bu adamın evlənmə təklifini düşünmədən qəbul edir.

Son hissə birinci hissəylə bağlıdır. Səhər Mövsüm atasının uzun müddətdir silah qaçaqçılığı etdiyini və Türkiyədən qaçarkən Bolqarıstan sərhədində vurularaq öldürüldüyünü öyrənir. Bu hadisənin şokunu uzun müddət yaşayan Mövsüm evə dönəndə yenidən yazmağa başlayır.

1.8.2. Qadın xarakterlər

Əminə İşınsunun səkkizinci romanı "Qaf dağının arxasında", 1988-ci ildə oxucuların mühakiməsinə verilmişdir. Roman 1985-ci ilin martında tamamlanmış, amma müxtəlif səbəblərdən dolayı üç il sonra nəşr olunmuşdur.

Romanda Mövsüm Öz 12 sentyabrdan əvvəl və sonra yaşanan mürəkkəb dönəmdə şəxsi həyatının gətirdiyi çətinliklərlə birlikdə parçalanmışlıq, bölünmüşlük və çarəsizlik içərisində yaşamaqdadır. Bu gerçək romanın hadisə axışının təkanverici gücüdür (Günay 1988: 42).

Yazar bu romanda sənət adına düşüncələrini və yazar olaraq özünü də əks etdirir.

Bu romanın adının "Qaf dağının arxasında" olması, nə qədər çalışılsa da çatmaq mümkün olmayan bir mənzili bildirməkdədir. Bir müddət sonra yol məqsədin özünə çevrilir.

Roman Mövsümün atası ilə evlilik məsələsində mübahisəsi ilə başlayır. Atası dörd dəfə evlənmiş bir insandır. Köhnə nəsli təmsil edən atasının qadın haqqında sabit fikrə sahib olmağı, qızı Mövsüm üçün əsla qəbul edilə bilinməyəcək bir şeydir:

"Mənim kimi biri, yəni dörd dəfə evlənmiş biri üçün qorxmaq qəribə sayıla bilərmi, nə deyirsən."

"Bəlkə problem budur, sənin dörd dəfə evlənmiş olmağındır" - dedim.

...

"Evlənmək bir hadisə, çətin və mürəkkəb bir hadisə! Dörd nikah, hə, elə qızcığazım, qorxmadığım, çox cəsur olduğum üçünmü? Bəlkə tam əksi, çox qorxduğum üçün üzərinə-üzərinə getdim! Bilirsənmi, hələ ananla evlənərkən, ilk dəfə, ona təklif etməmişdən

əvvəl, mədəni qanunun boşanma maddəsini yaxşıca nəzərdən keçirmişdim, əzbərləmişdim. Bununla belə, anan yaşasaydı, anan..."

"Onu da boşayardın!"

"Xeyr, qətiyyən, xeyr. Anan başqa idi, çox xoş idi, çox mülayim... qadın idi, tam idi, bütün idi." (Işınsu 1995: 8).

Fəqət atası anasıyla elə bir eşq yaşamışdır ki, onun ölümündən sonra uzun müddət özünü toplaya bilməmiş, ondan sonra müalicə görərkən uzun bir müddət də avaralıq etmişdir. Bir gün impressionistlərin muzeyində Renuarın bir tablosundakı qızları seyr edərkən ağlına qızı gəlmiş, sonra məmləkətinə dönəndən sonra ona baxmağa başlamışdır:

"Açığı, anam məktublarında Mövsüm belə, Mövsüm elə deyə yazıb dururdu, mən o günə, o dəqiqəyə qədər Mövsümün mənim qızım olduğunu xatırlamamışdım. Daha doğrusu, hiss etməmişdim! Hiss etdim və ondan sonrakı ilk təyyarə ilə Türkiyəyə döndüm, səni götürdüm." (Işınsu 1995: 27).

Burada ailə mühitində öz yerini tapmayan, daim köhnə nəsillə mübahisə, münaqişə edən, etirazını bildirən Mövsümü görməyimiz mümkündür. Atası hər nə qədər Mövsümə istədiyi təhsili təmin etsə belə, dörd dəfə evlənmiş və həyatı avaralıqla keçirən bir atanın öz övladına dinc bir ailə mühiti yaratdığını söyləmək olmaz:

"... Bax, o gün-bu gün, hər zaman qorxdum ondan, mənə olan ifrat sevgisindən qorxdum, bu sevgiyə layiq olamamaqdan, onun qarşısında qəbahət işləməkdən qorxdum. Onun qarşısında hər zaman kirli, əskikli... Və həyatda bircə məni sevir. Düşünün, bu sevgiyə layiq ola bilmək... Ola bilmək üçün mən"

"Deyəsən, mən atamı heç sevmədim... dedim, məni nənəmdən ayırdığı üçün və evləndiyini mənə bir müjdə kimi verdiyi üçün atamı heç əfv etmədim. Həyatımda çox şiddətlə hiss etdiyim iki kədər bunlardır." (Işınsu 1995: 39).

Mövsümün atasına qarşı ilk dəfə meydana çıxan etirazı, sonda atasının vurularaq öldürülməyi və özünün bilmədən silah qaçaqçılığına qoşulmağı onu dərindən incidən bir səbəb olur.

Bir ailəyə mənsub qız olaraq yaşadığı bütün kədərinə baxmayaraq Mövsüm özünü toplaya bilmişdir. Yazar olaraq daha güclü bir addım ata bilmişdir.

Mövsüm atasına bənzəyən Orçuna aşiq olmaqla, fərqli bir həyata başlayır. Bir axşam Sırrının gətirdiyi Orçun haqqında Mövsümün ilk qənaəti belədir:

"İri bədənli idi, qısa kəsilmiş qumral saçlarının bir topası alnına düşmüşdü, bu saçlarda ağlar var idi. Gözləri iri və tünd mavi idi, düzgün burnunun ucu dik idi, çənəsi güclü idi. Ona ilk sözüm:

"Atama bənzəyirsiniz!" (Işınsu 1995: 39).

Mövsüm o gecə Orçunun müəllim olduğunu, ən vacibi Tərəqqipərvər Müəllimlər Dərnəyinin idarəçiliyində olduğunu və dərnəyin əvəz edilməz adamlarından biri olduğunu öyrənir. Orçun Mövsümün həm ilk eşqidir, həm də onun həyatında çox önəmli dönüş nöqtəsidir.

"Hekayələrimdə, əlbəttə eşqi işlədiyim olmuşdu. "Ayrı yollar"da çox dəyişik bir eşqi yazmışdım. Fəqət indi, bu hiss etdiklərim bambaşqa idi. Təpədən dırnağa kimi bütün orqanlarım yer dəyişdirmiş kimi idi. Sarsılmışdım, yellənirdim." (Işınsu 1995: 131).

Atasına bir övlad kimi çox bağlı olan Mövsüm Orçunla olan münasibətində daim atasını düşünür və bundan vicdan əzabı çəkir. Atasının ona qarşı duyduğu ifrat sevgidən yaranan bu bağlılıq zehnini məşğul edir.

"Atam gülmədi, öz-özünə deyinir kimi səssizcə:

"Eşq gözəl bir şeydir"... dedi. "Lakin bir adamdan ötrü iztirab çəkməyinə dözə bilmərəm. Öldürərəm onu!" (Işınsu 1995: 59).

"Nə özümü, nə də Orçunu düşünə bilirdim. beynimdə onun üzü ilə atamın üzü bir-birinə qarışırdı..." (Işınsu 1995: 131).

"Və sonra ömrümdə ilk dəfə atamın yanında olmaqdan xoşbəxtlik duymadığımı, bir başqasını ona tərcih etdiyimi düşündüm. Vicdan əzabı kimi bir hiss... Ondan üzr istədim." (Işınsu 1995: 134).

Mövsüm yazmağı buraxır və bir müddət sadəcə bu sevgi yaşayır. Tərəqqipərvər Müəllimlər Dərnəyinin üzvü, aktiv bir solçu olan Orçun yavaş-yavaş Mövsümün bütün həyatını nəzarət altına alır. İnanclarına və yaşam şəklinə lağ edir, hətta ona "ciddi şeylər" yazmağını söyləyəcək qədər irəliyə gedir. Tamamilə Orçuna təslim olan Mövsüm bir daha heç yazmamağa qərar verir. Ancaq tanışlığının ildönümündə dostlarının gözü qarşısında etdikləri dava münasibətlərini bitirir. Orçun evi tərk etdiyi üçün Mövsüm uzun müddət özünə gələ bilmir. Burada Mövsümün qadın olaraq sevgilisi Or-

çundan çəkdiyi dərd əsas mövzudur. Orçun nə qədər oxumuş və müasir bir insan olsa da, "qadın"ı bir fərd olaraq qavraya bilmir.

"... Qadın sosialist də olsa, düşüncə üçün savaşan inqilabçı da olsa qadındır. Özünə baxmağı, gözəlləşməyi lazımdır..." (Işınsu 1995: 162).

Burada qadını sadəcə bir aksessuar olaraq qavrayan bir kişinin baxış bucağı aşkarlanır. Mövsümün Orçuna olan eşqi onun gözlərini kor etmişdir. Orçun Mövsümün duyğularından istifadə edərək həyatını nəzarət altına almağa çalışmışdır. Fəqət burada Mövsümün üsyankar xarakteri görünməməkdədir. Hətta ona tamamilə təslim olan Mövsüm öz yazıçılığını buraxmağa da qərar vermişdir. Mövsümün uğursuz bir şəkildə bitən eşqi, onun təkrar yazarlıq həyatına geri dönməyinə səbəb olmuşdur. Həmçinin evlilik məsələsində artıq gözləntisi qalmadığından Ömərin evlənmə təklifini münasib bilərək çox düşünmədən rahatca qəbul etmişdir:

"Özümə sobada kartof bişirdim, yeyərkən bir gecə əvvəl restorandakı krevetləri düşündüm. Beləliklə, Öməri düşündüm... O, deyəsən, yaraşıqlı idi. Nə qədər müddətdir ki, bir kişinin, hətta qadının zahiri görünüşü ilə maraqlanmamışdım. Ömər, həmçinin ağlı başında biri kimidir, zarafatlarına nezakət səbəbilə gülümsəməmiş, rahat, səmimi qəhqəhələr çəkmişdim. Belə gülmədiyim uzun zamandır, bəlkə Mümtazdan bu yana." (Işınsu 1995: 293).

"Yeməkdə Ömərin evlənmə təklifini qəbul etdim; barmağıma işıl-işıl yanan brilyant üzük keçdi... Bir sonrakı gün Ankaraya, ailəsi ilə tanış olmağa getmək üçün razılaşdıq. Onsuz da məni tanıyırlarmış. Ömər o qədər danışıbmış ki!" (Işınsu 1995: 298).

Həmçinin Mövsüm anarxiya və terror içində ülkücü gəncliyin sahibsizliyini, kimsəsizliyini və dramını sərgiləməkdədir. 12 sentyabr öncəsi və sonrası sosial dəyişmə, partlayış və özgələşmə kimi bir çox vacib hadisələrin, psixoloji və ictimai böhranın yaşandığı dönəmlərdir. Mövsüm bu dönəmin gerçəklərini belə ifadə etməkdədir:

"Deyəsən, 12 sentyabr hərəkatı, ümidlə ümidsizlik arasında bir yelləncək qurub, solu, sağı, tərəfsizləri – hamımızı üzərində oturtmuşdu." (Işınsu 1995: 140).

"Paranoidliyim son həddinə çatmışdır ki, baş verənlərdən sadəcə yazar-pozar, aktyor, fikir adamları dəstəsini günahkar tuturam. Dostlara dərdimi izah edə bilmirəm, şikayətlənirəm:

- Bilirsinizmi, harada necə bir xəta etdik deyə araşdırma gərəyini heç duymuruq. Özümüzü çox haqlı bilir, hər fikir və hərəkatda gəvəzə həyəcanlarımıza məqbul bəhanələr sıralayıb, hər şeyi necə təkrarlayaq deyə fürsət gözləyirik." (Işınsu 1995: 148).

Yuxarıdakı sitatlarda Mövsümün terror hadisələrinə münasibəti və baş verənlərlə hesablaşmağı göstərilmişdir.

Yazıçı romanda məmləkət məsələlərinin hesablaşmağı ilə xarakterlərin qarşıdurmalarını iç-içə irəlilətməkdə və çıxış yolunu milliyyətçi düşüncədə görməkdədir.

Mövsüm etirazçı xüsusiyyətlərilə oxumuş, mədəni və hətta sirli xarakterə sahib bir qadındır; eyni zamanda bir yazardır. Mövsüm özünü yazmağa aparan səbəbin yalnızlıq olduğunu düşünür. Yazıçılıq onun üçün eşq deməkdir:

"Yalnızlıq duyğusu təkrar bürüdü içimi. Amma masamın başında, yazım haqqında nə təhər dərdlənsəm də, bu duyğunu hiss etmirəm. Xəyalımda Emel xanımdan soruşdum: "Əcaba, sırf yalnızlıqdan qurtulmaq üçünmü yazıram? Yaşamağı bacarmadığım, həyata tab gətirə bilmədiyim üçünmü?" (Işınsu 1995: 66)

"- İnsan həyatında tək eşq olur, olmalıdır. Mən zənn edirəm ki, sənin həyatındakı tək eşq yazarlıqdır..." (Işınsu 1995: 136)

Mövsüm həm bir insan, həm də bir qadın olaraq ölkədəki siyasi hadisələrin, psixoloji və sosial böhranın yaşandığı dönəmdə fəlakətlər yaşamışdır. Amma bu hadisələr özünün yaxşı bir yazar olaraq yenidən yaranmasını təmin etmişdir.

Sonsuz xoşbəxtlik və uğura çatdıqları Qaf dağının arxası, gerçək həyatda ümidsizliyi və imkansızlığı ifadə edir. Bu romanda isə, nə imkan, nə imkansızlıq, yalnız qədərə razılıq, ilahi ahəngə, qeybə sükunətlə inanışın başlanğıcı olmuşdur (Günay 1989: 42).

2. KOREYA ROMANINDA QADIN

2.1.İncik Yi[1] – "Qanlı göz yaşı"[2]

2.1.1.Özət

Bu romanda Kim Guanil və onun həyat yoldaşı, qızı Okryeon və Amerikada oxumaqda olan Guvanseonun yaşamı yer almaqdadır. Roman xanım Choinin əri Kim Guanili və qızı Okryeonı axtararaq gəzməsilə başlayır. Romanda hadisələrin cərəyan etdiyi məkan Pyungyangdır. Çin-Yapon müharibəsindən sonra hər yer savaşda həyatını itirən insan cəsədləri ilə doludur. Xanım Choi müharibə zamanı itirdiyi əri Kim Guanil və kiçik qızı Okryeonın adını qışqıra-qışqıra gəzməkdədir. Bu əsnada polis tərəfindən görülür. Kim Guanil isə, arvadıyla qızını itirdiyi üçün Pyungyangdakı evinə dönmüşdür. 29 yaşındakı Kim Guanil, yaraşıqlı və varlı bir adamdır. Bir gecə ailəsini gözləyərkən evdən ayrılır və ani bir qərarla xarici ölkəyə səyahətə çıxır. Kim Guanilin arvadı xanım Choi, əri evindən ayrıldıqdan sonra geri dönür. Əriylə qızını təkrar görmə ümidini kəsən xanım Choi Daedong çayında intihar etmək istəyərkən bir balıqçı tərəfindən qurtarılır. Bu arada qızının vəziyyətindən narahat olan və evə gələn atası Kim Guanilin xaricə oxumaq üçün getdiyini öyrənir.

Xanım Choinin qızı Okryeon isə, savaş dövründə ana və atasını itirir. Sol ayağına dəyən güllə səbəbindın şikəst qalır. Onu bir yapon hərbi həkimi müalicə edərək sağaldır. Okryeonun vəziyyətinə ürəyi yanan həkim onu öz evinə göndərir. Okryeon orada yapon təhsili alır. Fəqət həkimin ölümündən sonra arvadı onunla soyuq davranmağa başlayır.

Okryeon evdən ayrılmağa qərar verir. Ölməyə qərar verdiyi bir sırada Guvanseo ilə tanış olur. Amerika səyahəti zamanı Guvanseo Okryeonu Amerikaya aparır. Okryeon Amerikada uğurlu bir

---

[1] Yi İncik (1862-1916) Kyungki əyalətində doğulub. Tokiodakı Siyasət Məktəbini bitirib. 1907-ci ildə "Koreya" qəzetini nəşr etdirməyə başlayıb. Müasir ədəbiyyatla məşğul olmuş, Wongaksanı qurmaqla çağdaş Koreya teatrını inkişaf etdirmişdir. "Qanlı göz yaşı", "Çiak dağı", "Moran Bong" kimi əsərləri vardır. Yeni romanı inkişaf etdirən yazarlardan biridir.

[2] Təhlildə istinad edilən mətnlər romanın 1996-cı tarixli nəşrindən alınmışdır.

tələbə olur. Öz qızının əla qiymətlə məzun olduğunu qəzetdən öyrənmiş olan Kim Guanil qızını tapır. Kim Guanil Okryeonla görüşəndə Guvanseoyu da kürəkən olaraq qəbul edir. Digər tərəfdən on il boyunca Pyungyangdakı evində yalnız yaşamaqda olan xanım Choi qızı Okryeondan bir məktub alır və beləcə ana - qız görüşürlər.

2.1.2. Qadın xarakterlər

Bu əsər 1906-cı ilin iyulundan oktyabrına qədər "Mansebo" qəzetində hissə-hissə yayımlanmışdır. Çin-Yapon müharibəsində– on illik zaman dilimi içərisində, başda Koreya, Yaponiya və Amerika olmaq üzrə üç məkanda keçməkdədir və Okryeonun faciəvi yaşayışı mövzu olaraq ələ alınmışdır.[(1)]

Həmçinin avropalılaşma dönəmi xüsusiyyətlərindən danışan bu əsər, ölkənin müstəqilliyi və təhsilə verdiyi dəyəriylə yeni yaşam tərzini əks etdirməkdədir.

Koreya ədəbiyyatı tarixində "Yeni roman" janrının ilk nümunəsi olaraq adlandırılan bu əsərdə keçmiş romandan fərqli xüsusiyyətlərə rastlanılır:

"Yaponiya – Çin müharibəsində atılan güllə səsləri səbəbilə Pyungyang sanki çökəcəkdi. O qorxunc səs dayandığı zaman artıq gələn gedən olmaz.

Pyungyang qalasındakı Moranbongda artıq axşam düşməyə başlayır. Günü tutmaq istəyən bir qadın cəldliklə bir yerə qaçmaqdadır. Fəqət yaşı ancaq otuzu keçən bu gənc qadının qiyafəti paramparçadır, ətəyinə basa-basa yeriməkdədir." (Yi 1996: 13)

Belə nəql edən meydana çıxmadan mükəmməl bir hazırlıq içində hadisənin inkişafı "Yeni roman" növüylə başlayan və kütləviləşən bir şəkildir.

Bu romanda görə bildiyimiz bir başqa yenilik isə, oxucuyla dialoqdur. Əvvəlki romanlarda professional nəql edənin hekayəni danışmağı ilə oxucuya çatdırılmağının əksinə, "Qanlı göz yaşı" qəzetdə yayımlanmış, oxucu onu birbaşa oxumaqla özü mənimsəmişdir. Bu səbəbdən həqiqi mənada oxucunun meydana çıxmağı "Yeni roman"la başlamışdır (Yi 1988: 34).

[(1)] Romanla əlaqəli bax: Choi 1990, Han 1992, Jo 1997, Kimna 1992, Kim b 1995, Kim c 1972, 1978, Seo 1987, Song 1995, Yi 1988.

Bu romanın əsil mövzusu Yaponiya və Çin müharibəsi arasında əzilməkdə olan Koreyada Yeni elmə görə edilmiş islahatın gətirdiyi erkən evliliyin qadağan olunmağı, dul qadının təkrar evlənməyinə izin verilməyi, sərbəst evlilik kimi yeniliklərdir (Jean 1956: 204).

Əsərin mövzusunu ictimai dəyişikliyə görə dəyərləndirmək gərəkir. Çünki əsərin mövzusu bu ictimai dəyişimdən yaranmışdır. Yazarın bu əsərdə "Qərbliləşmə" və "yanlış ənənələrə qarşı çıxma" kimi mövzulara toxunmağı o zamanın ictimai istəyinə görə meydana çıxmışdır.

Fəqət bu romanın forması nə qədər yenilik qazanmış olsa da, hələ ki köhnə romanın texnikasından uzaqlaşmamışdır. Şəxslərin qarışıq hadisələr böhranına tez-tez girməyi bunu göstərməkdədir. "Qəhrəman əngəllərlə qarşılaşmalıdır" düşüncəsi yazarın şüuraltındadır.

2.1.2.1. Okryeon

Okryeonun yaşadığı hadisələr və böhranlar zaman sıralamasına görə belə səciyyələndirilə bilər:

Əsilli Kim Guanillin qızıdır.

Tək uşaqdır.

Uşaqlığından bəri başqalarından fərqlidir.

Çin-Yaponiya müharibəsi əsnasında ana və atasını itirərək ölüm təhlükəsi ilə qarşılaşır.

Hərbi həkim tərəfindən qurtarılır və onun arvadının himayəsində böyüdülür.

Hərbi həkimin evindən ayrılır və böhranla qarşılaşır.

Guvanseo tərəfindən qurtarılır.

Guvanseonu sevməyə başlayır.

Guvanseo ilə nişanlanır.

Anası və atası ilə qarşılaşır.

Həmçinin Okryeonun olduğu üç məkan da aşağıda görə bildiyimiz kimi dəyişik bir məna daşıyır:

Savaş	Okryeonun böyüməsi, və yalnız buraxılması	Ana və atasına qovuşması və nişanlanması
Koreya →	Yaponiya →	Amerika

Hərbi həkim tərəfindən qurtarılır. Guvanseo tərəfindən qurtarılır.

Yuxarıda gördüyümüz kimi, Okryeon bir çox həyat təhlükəsiylə üz-üzə qalır, amma tam o anda onu qurtaran şəxslər tapılır. Köhnə romanlar isə, şəxsin həll edə bilməyəcəyi problemləri mistik və dini metodlarla həll etməyə çalışır. Bu nöqtədə "Qanlı göz yaşı" köhnə roman üslubundan ayrılmaqdadır. Okryeonun arxasında daima onu qurtaran kimsələrvardır. Fəqət, bu qurtarıcılar dini və mistik varlıqlar deyildir. Çin-Yaponiya savaşı zamanında ana və atasını itirdikdən sonra yetim qalan Okryeonun həyatını qurtaran yapon hərbi həkimidir. Bu əsərin başlanğıcında bəhs edilən Çin-Yaponiya savaşı Koreya tarixi baxımından böyük önəm daşıyır.

"Əsasən Pyangyangda yaşamaqda olan xalq, çinlilərin zülmündən qaçaraq kənddə gizlənmişlər. Dağlarda Çin əsgərlərilə rastlaşanda sanki bir şir görmüş kimi qaçırlar. Çünki Çin əsgərləri dağda hər hansı bir gənc qadın görəndə təcavüz etmiş, pullarını almışdılar… (Yi 1996: 16-17).

"Okryeon savaşdan qaçaraq sığınmaq üçün bir yer axtaran zaman anasını itirib nə edəcəyini bilmir. O an kimsə Okryeonun sol ayağına güllə vurmuş, ertəsi gün bir yapon Aypara şəfqət bacısı onu taparaq xəstəxanaya aparmışdır, fəqət yara ağır deyildir. Əgər güllə bir çinlinin olsaydı, ayağından keçdikdən sonra bütün vücudu zəhərlənmiş ola bilərdi. Fəqət bu bir yaponun gülləsi olduğundan müalicə də asan olmuş, üç həftədə yaxşılaşmışdır." (Yi 1996: 27)

"Həkim: Əgər sən mənimlə gələrsən, mən səni məktəbə göndərərəm. Bir də ölkəndəki vəziyyətini araşdırıb ananı-atanı taparam.

Okryeon: Əgər anamı və atamı tapa bilsəniz, haraya get desəniz gedərəm, nə istəsəniz edərəm.

Həkim: O zaman dərhal səni gəmiyə mindirərək Yaponiyaya göndərəcəyəm. Evimdə həyat yoldaşım yalnız yaşayır. Heç bir

övladım yoxdur. O da səni sevəcəkdir və sən də ona ana deyərsən." (Yi 1996: 27)

Yuxarıda göründüyü kimi, yazarın xilaskar olaraq Okryeonu ortaya çıxarmağı, heç də təsadüfi deyildir. Yazar Yaponiyanı və yaponu bir yardımcı olaraq görür, bir yapon şəfqət bacısını və yapon əsgərini təsvir etməklə bunu göstərir. Okryeona oxuma imkanı verən humanist və dost münasibəti içindədir. Buna qarşı Çin əsgərlərini, pul oğurlayan və gənc qızlara təcavüz edən insanlar kimi göstərmişdir. Bu səbəbdən savaşda istifadə olunan güllə üçün belə çinlilərinkində zəhər var, amma yaponunkunda yoxdur qeydi təsadüfi deyildir.

Burada bir zaman ünsürü olaraq göstərilən Çin-Yaponiya müharibəsi isə, baş qəhrəman olan Okryeonun qarşılaşdığı çətinlikləri verərək Çini tənqid edib Yaponiyanın isə yaxşı yönlərini ortaya çıxarmaq üçün istifadə edilmişdir. Anti-Çin düşüncəsi və Yaponiya tərəfdarlığı fikri vermək istəyən yazarın niyyəti çox aydındır: Okryeonun qurtarıcısının da bir yapon həkim olması, yazarın bu niyyətini vurğulamışdır.

Okryeon kimsəsiz və çarəsizlik içində yapon həkim tərəfindən qurtarılır. Onun ölümündən sonra da həkimin evindən qaçaraq intihara cəhd edir, fəqət uğursuz olur. Sonra qatarla hədəfsiz bir yerə gedərkən bu dəfə də Guvanseo tərəfindən qurtarılır.

Okryeon çətinliklərlə qarşılaşdığı zaman hər dəfə kimlərinsə tərəfindən qurtarılır. Bununla belə, Okryeon həyatında çarəsiz olduğu zaman həmişə intihara cəhd edir. O zaman sarsıntı və intiharla bağlı parçalara nəzər yetirək:

"Hər kəs öz evinə gedir də, mən kimin evinə gedəcəyəm? Digərləri həmişə iş səbəbilə bir yerə gedirlər. Mən çarəsiz xarici ölkəyə gedirəm. Tək bir məktubla bir ev axtarıram da, bu ev kimin? Kim bu məktubu oxuyacaq? Mənə baxacaq olan kim? Məni qızı sayarsa qızı olacağam, xidmətçi sayarsa xidmətçi olacağam. Nə qədər çətinliklər olsa da dözəcəyəm…" (Yi 1996: 28)

"Okryeon Jeongsan xanımın yardımıyla oxumaq da istəmir. Sadəcə bu dünyadan ayrılaraq o biri dünyada müharibədə ölən anası və atasına qovuşmaq istəyir. Çaya atılacağını düşünərək sakit bir yer axtarır." (Yi 1996: 34).

Son böhranla qarşılaşdığı zaman da Okryeon intihara qaçar. Bu səbəbdən romanda intihar bir konflikt ünsürü olaraq ortaya çıxmaqdadır. Romandakı konfliktlər həmişə bir təsadüflə həll olunmaqdadır.

Problem	Təsadüf və çözüm
Okryeon müharibədə yaralanır, anasını-atasını itirir (qurtarmaq)	Bir yapon həkim xilaskarı olur
Həkimin evindən ayrılır, gedəcək yeri yoxdur	Guvanseoyla görüşməklə həll olunur
Okryeon Amerikada atasına qovuşur	Bir qəzet çözüm gətirir

Yuxarıda gördüyümüz kimi, Okryeon qarşılaşdığı problemləri təkbaşına öz cəhdilə həll etməyə çalışmır, çözümü axtarmaq yerinə qaçışı seçir. Həlli intiharda görən zəif bir şəxsiyyətə sahibdir.

Bu romanda tez-tez görünən intiharın, həyata qarşı sevgi azlığı və ya diqqətsizlikdən qaynaqlandığı söylənə bilər. Okryeonun intihara cəhdindəki ən böyük faktor isə, şanssızlıqdır. Güvənəcək heç kimin olmadığı bir həyat, çətinliklər, sevgisizlik – bunlar hamısı qədərçi, instinktiv və duyğusal həddə çatmışdır. "Problem və böhran" dönəmində görünən intihar isə, həyatı məhv etmək deyil, qədərin böyük dəyişim nöqtəsi olmuşdur. Okryeonun intihara cəhd edəndə təsadüfən qurtulmağı yeni bir həyata başlaya bilməsini göstərməkdədir. Bu əsərdə Okryeonun şəxsi problemlərindən gələn intihar isə, millətin qarşılaşdığı böhranın bir insanatəsiri olaraq şərh oluna bilər. Həmçinin bu vəziyyətdəki intihara diqqətsizlik və gücsüzlük olaraq baxa bilərik.

Şəxslərin problemlərə qarşı mübarizə yerinə problemdən qaçmağı seçmələri onların gücsüzlüyünü göstərməkdədir. Bu səbəbdən burada Okryeonun arxasında buna çözüm gətirən insanlar yer almaqdadır. Həmçinin bu şəxslərin yapon və ya qərbli olmağı böyük məna daşıyır. Yazarın o dönəmdə Koreyanın inkişafı baxımından qərbliləşməyin vacib olduğu və Yaponiya ilə yaxın olmağı gərəkdiyi fikri bəllidir.

Okryeon yapon həkim tərəfindən qurtarılır, Yaponiyada yenidən təhsilə başlayır. Onun Yaponiya ilə əlaqəsi bu romanda olduqca önəmli bir ünsürdür.

Həmçinin Okryeon Amerikada oxumaq fürsəti qazanır. Bu əsərdə görünən digər şəxslərin Amerikada oxumalarının məqsədləri bəllidir. Fəqət Okryeon çarəsiz qaldığı üçün son dərəcə passiv bir vəziyyətdə Amerikada oxumağa başlamışdır. Qərbliləşməklə əlaqəli şəxslərin Amerikaya getmək səbəbləri belədir:

1) Yeni təhsil üçün ….. Guvanseo

2) Başqasının istəyilə ….. Okryeon

3) Çətinliklərdən qurtuluş olaraq ….. Kim Guanil

Ancaq Okryeonun Amerikada təhsil görməyi bir təsadüfdən qaynaqlanmaqdadır. Guvanseo xarici ölkədə özünün çox darıxacağını düşünür, bu səbəbdən Okryeonu aparmaq istəyir, Okryeon da çarəsizlik səbəbindən bunu qəbul edir:

"Burada bu qədər darıxdığıma görə Amerikada daha çox darıxacağam. Sən qərib bir ölkədə uzun müddət yaşadığın üçün vəziyyəti bilirsən. Öncəliklə səndən öyrənəcəyim çox şey vardır və bu qədər uzaq bir yerdə görüşməyim də bir şansdır" deməyiylə Okryeon özünü sanki qardaşına qovuşmuş kimi hiss edir, Yaponiyaya necə gəldiyini və başından nələr keçdiyini danışır.

Guvanseo: "Onda ikimiz Amerikaya gedək, orada oxuduğum müddətdə sənin ananı və atanı taparıq."

Okryeon: "…"

Guvanseo: "Məktəb xərclərini düşünmə, mən qarşılayacağam. Çin-Yaponiya müharibəsi sadəcə sənə zərər verməsdi, bütün millət əziyyət çəkdi. Əgər millətimiz oxumadan və dünyanı tanımadan yaşasa, yenə eyni vəziyyətə düşər." (Yi 1996: 60).

Okryeon təsadüfən Yaponiya və Amerikaya gedir. Bunun kimi bu əsərdə baş qəhrəman olan Okryeon yaşadığı problemlərə baxmayaraq sonda çox oxumuş və qərbliləşmiş bir ziyalı olaraq qarşımıza çıxmış olsa belə, hər zaman öz iradəsindən kənarda hərəkət edən zəif bir insan xarakteri sərgiləməkdədir. Həmçinin daim intihara qaçmaq kimi duyğusal davranışları, yazarın bir qadının passiv olmağı gərəkdiyi fikrindən hələ ayrılmadığını göstərməkdədir.

Okryeonun dəstəklədiyi yeni fikir sərbəst evlilikdir. Qərbliləşmənin ölkə üçün mütləq lazım olduğunu düşünənlər bəzi yanlış ənənələri sərt bir şəkildə tənqid etmişdir. Onlardan biri şəxsinhəyat yoldaşını istəyərək seçməyidir.

Okryeon və Guvanseonun evliliyi, ənənəvi evlənmə kimi üçüncü şəxsin qərarına görə birləşmə deyildir. Əsasında sevgiyə

söykənən bir evlilikdir. Guvanseo Okryeonu qurtaran və "bahalı bir ölkə olan" Amerikaya qədər aparan və yeni təhsil imkanını verən biridir. Okryeon ona qarşı daim minnət duyğusu içindədir. Guvanseo həm Okryeonun həyatını qurtarmış, həm də ona yüksək həyat idealı vermişdir. Bu səbəbdən Okryeon ona minnətdardır:

"Kim: Əgər sənin atan və anan Okryeonu bəyənməsələr, sən nə edəcəksən?

Gu: Onları razı salmağa çalışıram, amma məni dinləməsələr, istədiyim kimi edəcəm.

Kim: Nə demək istəyirsən?

Gu: Sərbəst evlənəcəyəm!" (Yi 1996: 67).

Guvanseo evlilik haqqında çox modern fikirlərə sahibdir. Köhnə ənənələrə bağlı qalmağı, xüsusilə ana və atasının seçdiyi biriylə evlənməyi qəbul etmir. Qərbliləşən bir ziyalı olmaq üçün öz ərini özü seçməyin mütləq önəmli olduğunu düşünür. Fəqət Okryeon və Guvanseonun birləşməyi, sadəcə eşqə söylənən birləşmə deyildir. "Aydınlanma Hərəkatına dəstək verən qardaşlıq duyğusuna əsaslanan" bir evlilikdir. Gənc bir qız və kişinin xarici ölkədə beş ili birlikdə keçirəndən sonra bir-birinə bağlanmağı çox normaldir; ancaq sadəcə duyğusal bir yaxınlaşma deyil, hesaba əsaslanan qardaşca bir qərardır. Bunun kimi Okryeon obrazını canlandırmaqla azad sevgini müdafiə etmək istəyən yazarın qadın haqqındakı fikri isə birtərəflidir.

2.1.2.2. Jeongsang xanım

Yazar erkən evliliyin və dul qadının təkrar evlənməyinin qadağan olunduğu yanlış Koreya ənənələrinə qarşı çıxmaqdadır.

Əri Çin-Yaponiya müharibəsində öldükdən sonra Jeongsang xanımın yenidən evlənməyi haqqında yazar öz fikrini ifadə edir:

"Coseonun adətlərində gənc dul bir qadının evlənməyərək, həyat boyunca yalnız qalmağı müşkül bir məsələdir. Fəqət o dərəcədə əxlaqi günah olan ənənə heç bir ölkədə yoxdur. Gənc dul bir qadının təkrar evlənməyi heç də utanılacaq bir şey deyildir." (Yi 1996: 32).

Dul qadın Jeongsang xanımın bir yapon olmağı və Coseon adətləriylə müqayisə edilməyi çox önəmli bir faktordur.

Jeongsang xanımın evlənməyi mövzu ilə çox da yaxın əlaqəli deyildir. Fəqət yazıçı bunu yazmaqla sistemin yanlışlığını inkişaf etmiş ölkələrlə müqayisə fonunda tənqid edir. Ənənəvi mədəniyyəti rədd edərək inkişaf etmiş Qərb mədəniyyətini mənimsəmək istəyən yazarın fikri Jeongsang xanımla ortaya qoyulur.

2.2. Gvangsu Yi[1] – "Mujeong"[2]

2.2.1. Özət

Seul Kyungseong Qız liseyindəki müəllim Yi Hyungsik, Kim Jangronun qızı Seonhyunga ingiliscə özəl dərs verir.

Yi Hyungsik ilk gün dərs bitəndən sonra evə qayıdır. Park Jinsanın qızı Yeongche onu gözləyir. Hyungsik Park Jinsa tərəfindən yeni elm və millətçilik düşüncəsini qəbul edir və bu istiqamətdə tərbiyələndirilir.

Yeongche Yaponiya tərəfindən işğal edilən ölkəsi və milləti üçün sərvətini xərcləyir, həyatını bu yolda fəda edir. Bu səbəbdən bütün ailəsi dağılır. Yeongche həyatında çox çətin anlar yaşayır, axırda atasının həbsxanadan çıxmağı üçün çalışır, atası isə onun Hyungsikin arvadı olmağını istəyir. Hyungsik onun həyatda çəkdiyi çətinlikləri dinlədikdən sonra onu qurtarmağa qərar verir.

Bir gün Hyungsik çalışdığı məktəbdəki Behakgamı Yeongcheyə təcavüz etməyə cəhd edəndə tutur. Hyungsik Yeongcheyi qurtarır, fəqət Yeongche bu hadisədən çox utanır və Pyungyanga gedir. Hyungsik də arxasınca Pyungyanga gedir, amma onu tapa bilmir. Dörd il boyunca çalışdığı məktəbdən ayrılır.

Bu arada Kim Jangro ona evlənmə təklif edir. Hyungsik Kim Jangronun qızı Seonhyung ilə nişanlanır və onunla birlikdə Amerikada oxumaq üçün Pusana gedən qatara minir.

---

[1] Yi Gvangsu (1892-1950) Jeongjuda doğulmuşdur. Vaseda Universitetində oxuyarkən Koreyanın qurtuluşu üçün savaşmışdır. 1909-cu ildə "Sevgi" əsəri yayınlanmışdır. "Mujeong" (1917) romanı ilə böyük şöhrət qazanmışdır. Ən mühüm əsərləri arasında "Torpaq", "Bir gəncin iztirabı", "Eşq, "Kiçik bir dostuma" kimi örnəklər yer almaqdadır. Bilavasitə xalqı yönləndirmək məqsədilə yazılmış əsərləri vardır.

[2] Təhlildə istinad olunan mətnlər romanın 1997-ci il nəşrindən alınmışdır.

Yeongche intihar etmək üçün mindiyi qatarda Byungakla tanış olur və onun məmləkətinə gedir. Orada böyük qardaşı Byungakla görüşür, onunla birlikdə Yaponiyaya getməyə qərar verir.

Qatar içərisində təsadüfən rastlaşan dörd insan, orada kiçik bir konsert verir. Millətin bədbəxt bir vəziyyətdə birlik olmağı gərəkdiyini, milliyyətçilik duyğusunun önəmli olduğunu vurğulayaraq təhsilin önəmini bir daha ifadə edir.

2.2.2. Qadın xarakterlər

2.2.2.1. Yeongche

1917-ci ildə "Meilsinbo"da hissə-hissə yayımlanan bu əsər Koreyanın ilk çağdaş romanıdır. 1920-ci illərdəki realizm axınlı romanların doğuluşuna şərait yaradan bu roman, milliyyətçilik duyğusunu ön plana çıxararaq çağdaş elm və təhsilin önəmini vurğulamaqdadır.[1]

Yeongche Koreya ədəbiyyatında "güclü və namuslu bir qadın", ya da "sonuna qədər eşqini davam etdirən ənənəvi Koreya qadını" olaraq adlandırılmaqdadır. Fəqət bu dəyərləndirmə Yeongchenin insana bağlı qalan ikinci şəxs olaraq kiçildilməsini təmin etməkdədir. Əsasən Yeongche, bu romanın baş qəhrəmanı olaraq canlandırılmışdır və hadisələr Yeongche ətrafında baş verir.

Əsas qəhrəman olan Yeongcheyə görə, baş verən hadisələrə baxanda, səkkiz məkan dəyişikliyi ilə məzmunun da dəyişdiyi görünməkdədir:

1. Anju

Park Jinsa ailəsi Anjuda yaşamağa başlayır.

Park Jinsa bir müəllim olaraq uşaqları tərbiyələndirir.

Park Jinsa qızını məktəbə göndərir, məktəbdən qayıdanda özü ona təhsil üçün zaman ayırır.

Məktəbin maliyyə problemləri yaranır.

Park Jinsa bu hadisə ucbatından həbsxanaya salınır.

Yeongchenin ailəsi dağılır, Yeongche yetim qalır və ana nənəsinin yanına göndərilir.

---

[1] Romanla bağlı bax: Han 1992, Jeong 1988, Jo 1997, Kim a 1992, Kim b 1995, Kim c 1972, 1978, Seo 1987, Song 1995, Ji a 1988a, Yi b 1988b, Yi c 1988c, Yu 1993.

Nənəsinin evində rahatlıq tapmayan Yeongche kişi qılığına girib atasını görmək üçün Pyungyanga gedir.

Pyungyanga gedərkən ona təcavüz etmək istəyən biri ilə qarşılaşır, amma itin fədakarlığıyla qurtulur.

2. Pyungyang

Atasını ziyarət edir.

Yeongchenin pavilyonda işlədiyini eşidəndə atası intihar edir.

Veolhva adlı fahişəylə tanış olur.

Veolhva onu zülmə salaraq ölür.

3. Seul

Hyungsiki həyat yoldaşı olaraq düşünür, onu tapa bilməsə Dedong çayında intihar etməyə qərar verir, Seula gəlir.

Seulda Hyungsikin harada olduğunu bildiyi halda onu axtarmır.

Yeongche məşhur olur.

Hyungsiki axtarır və onunla görüşür.

Hyungsikin özünü qurtarmayacağını düşünür, yata bilmir.

Yeongchenin Behakgamdan namusu ləkələnir.

Hyungsikə bir məktub yazır və intihar etmək üçün çıxır.

4. Pyungyanga gedən qatar

Qatarda modern bir qadın Byungukla tanış olur (Ona intihar etmə planını danışır).

Byunguk azadlığına qovuşmağa razı salır (Başqası üçün deyil, özü üçün yaşamağa üstünlük verir).

5. Hvangju

İntihardan əl çəkir. Byungukun evinə gedir.

Yeongche Byunguk səbəbilə yeni həyata başlayır.

Yabançı ölkəyə gedib oxumağa qərar verir.

6. Seul

Hyungsik və Seonhyung Namdemunda görüşür.

Seonhyungun Hyungsikin arvadı olduğunu öyrənir.

Hyungsiklə qarşılaşır.

7. Samryangjin

Yağış ucbatından qatar hərəkət etmir.

Oxuma salonundakı musiqi festivalının açılışında Yeongche mahnı oxuyur.

Yeongche seldən xəsarət alan ölkə üçün mədəniyyətin gərəkli olduğunu anlayır.

Yeongche, Hyungsik, Seonhyung və Useon barışırlar və yeni bir həyat yaşamağa qərar verirlər.

Oxumaq üçün ölkədən ayrılırlar.

8. Yaponiya

Yeongche Tokiodakı konservatoriyanı uğurla bitirir və Seula dönməyə qərar verir.

Bu məkan dəyişikliyi diqqətlə incələnəndə Yeongchenin faciəvi problemlərinə bəzi motivlərin bağlı olduğu görünür. Köhnə romanlarda ailənin dağılmağı, aclıq və itin yardımıyla böhrandan qurtulmaq kimi motivlər, Yeongchenin həyatına faciəvi bir ünsür qatmış və onu ənənəvi bir qadın olaraq formalaşdırmışdır.

Əsil-nəcabətli bir soydan gələn Yeongchenin ailəsi birinin hiyləsilə darmadağın olur və Yeongche yetim qalır. Bu səbəbdən Yeongche ana nənəsinin evinə aparılır, amma dayısı uşaqlarının sərt davranışları ucbatından rahatlıq tapmayıb Pyungyanga gedir.

Kişi qiyafəsində Pyungyanga gələrkən evdə qoyduğu it onun ardınca gəlir. Yeongchenin bir kişi tərəfindən təcavüz edilmə təhlükəsində it onu qurtarır və ölür. Yeongchenin qovuşmaq istədiyi psixoloji tarazlığa it kömək edir, bu motiv köhnə romanlardan gələn bir xüsusiyyətdir:

"Mən öz vücudumu sataraq pul qazanaramsa, atamı və qardaşımı həbsxanadan çıxara bilərəm. Həbsxanadan çıxdıqları zaman sevinəcəklər. Dünyadakı bütün insanlar məni alqışlayacaqdır və tarixə adım yazılacaq, etdiklərim xatırlanacaqdır. Fəqət bunu etməsəm hər kəs məndən küsəcəkdir." (Yi 1997: 41).

Yeongche Pyungyanga çatanda atasını ziyarət edir və onu çox zəif halda gördüyündən göz yaşı tökür. Kim Unyong adlı birinin evində qalır. Atasını daha tez-tez görə bilmək və onu həbsxanadan qurtarmaq üçün çox pul qazanmağı gərəkir. Yeongche şəxsi istəyini yatırtmaq məcburiyyətindədir, çünki sosial əxlaqi vəziyyət onun bir insan olaraq istəklərinə ziddir. Yeongche öz bədənini satmaqla atasını qurtara bilərsə, ətrafındakıların onu alçaltmayacağını, yazıqları gələcəklərini və tərifləyəcəklərini düşünür. Bunlar Yeongchenin quruluşa qarşı adaptasiya olmaq və yaşamaq şəklidir. Yeongche bu yaşam şəkliylə həyatını sərhədləyir və özünü faciəvi vəziyyətə sürükləyir.

Hyungsiki görməməyi, Yeongchenin yaşamını daha da dramatik hala gətirir. Yeongche ailənin parçalanmağı, aclıq, fahişə, namuslu qadın kimi keçmiş dönəmlərdə göstərilən tipik qadın cizgiləriylə canlandırılmışdır, amma təcavüz, intihar qərarı, modern bir qadın Kim Byungukla görüşmək, onun elm və düşüncə tərzindən faydalanmaq kimi bir çox hadisəyə görə fərdi və ictimai olaraq yenidən doğulmaq kimi motivlər vardır.

Yeongchenin yaşadığı hadisələri mənfiyə doğru gedənlər və müsbətə doğru gedənlər şəklində bölərək təhlil edə bilərik. Çünki Yeongche sadəcə ənənəvi qadın tipi deyildir və bəsit bir insan xüsusiyyəti daşımır. Yeongche yeni bir vəziyyət və ya quruluşa adaptasiya ola bilən aktiv bir insandır. Yeongchenin yaşadıqlarına kısa şəkildə baxaq:

1) Ailənin dağılmağından gələn aclıq (Atasının həbsə düşməyi);

2) Qohumların Yeongcheyə pis davranmağı;

3) Yeongchenin Pyungyang həbsxanasında atasını ziyarət etməyi (Birlikdə olmaq fikrindən əl çəkmək məcburiyyətində);

4) Yeongchenin atası yolunda fahişə olmağı (Üçüncü şəxs tərəfindən dəyişikliyi);

5) Veolhva ilə tanış olmağı (Namuslu bir həyatdan təsirlənir);

6) Təcavüz edilməyi (Həyata münasibəti dəyişir);

7) İntihar üçün Pyungyanga getməyi;

8) Qatarda Byungakla qarşılaşmağı;

9) Oxumaq üçün yabançı ölkəyə getməyi;

10) Yaponiyada təhsilini bitirdikdən sonra geri dönməyi planlamağı.

Yeongchenin həyatını dəyişdirən kənardan gələn ünsürlərdir; hadisələr əsilli bir ailənin qızı → ailənin dağılmağı→ aclıq → fahişəlik → təcavüz → intihar olaraq inkişaf edir. Yəni, yuxarıda sıralananlar həm hadisənin baş verməyi, həm də Yeongchenin həyatını pisliyə doğru yönləndirən səbəblərdir. Bunlar Yeongchenin əsilli ailədən fahişəyə qədər, bilavasitə ən alt təbəqəyə qədər düşməyini ortaya qoyur. Bunlar Yeongchenin cəmiyyətdə sabitləşmiş quruluşa qarşı çıxmadan adaptasiya olduğunu göstərən hadisələrdir.

Yeongchenin həyatındakı uğursuzluqların xoşluğa çevrilməyinə şərait yaradan səbəb, onun Byungakla tanış olmağıdır.

Byungak Yeongchenin həyata baxış bucağını dəyişdirir və həmçinin Yeongchenin düşdüyü vəziyyətə təsir edərək bilgi verir:

"*Yeongche, siz atanızın malı, sonra da Yi bəyin malı olmaq istəmisiniz. Sanki bir malın birinin əlindən digərinin əlinə keçməyi kimi (...) Biz də insanıq.*

Yeongche xanım, sizin görəcək işiniz çoxdur, siz, sadəcə atanız və ya Yi bəy üçün doğulmuş bir insan deyilsiniz." (Yi 1997: 231 – 232).

Yeongche keçmiş quruluşun əxlaq dəyərinə bağlı qalan fərddən ictimai və şəxsi olaraq böyümüş fərdi qavramağa başlayır. Yeongche atasının istəyinə görə, sadəcə Hyungsikin arvadı olmaq ümidilə həyatını sərf edir, fəqət artıq keçmiş quruluşun qapalılığından çıxaraq yeni bir həyat yaşamağı sınayır.

Yeongchenin "bu gündən etibarən necə yaşamaq lazımdır" sualı, o dönəmdəki hər kəsin soruşmaq istədiyi bir sualdır.

"Bu gündən etibarən öz istəyimə görəmi yaşamağım gərəkir?" deməyi cəmiyyətin əxlaq dəyərindən sıyrılaraq yeni bir həyat yaşamağını göstərən yol işarəsidir. Yeongchenin keçmiş quruluşa özünü adaptasiya edərək atasının dediyi kimi yaşamağa çalışan, atasının ölümündən sonra da Hyungsiki təqib etmək istəyən güvənsizlikdən özünü qurtarmağı, həmçinin şəxsiyyət şüuruna yiyələnməyi, böyük bir inkişafdır və onun yenidən doğulmağıdır.

2.2.2.2. Seonhyung

Yeongchenin ictimai təzyiq altında yaşamaqdan qurtulmaq kimi yaxşıya doğru inkişaf edən bir həyat cizgisi vardır. Buna qarşı Seonhyung olduğu vəziyyətdən və ətrafından sıyrılmış, aydın bir şəxs olaraq canlandırılır, amma düşüncə tərzi və davranışları onun bir fərd olaraq şəxsiyyətinin tam oturmamış olduğunu göstərir.

Seonhyungla bağlı hadisələrin inkişafı zaman ardıcıllığına görə belədir:

Seonhyungun anası iyirmi il öncəki Kim Jangroyla görüşür.

On il öncə Kim Jangro arvadı öldüyü zaman Seonhyungun anasıyla evlənir.

Seonhyung Amerikaya getmək üçün Hyungsikdən ingilis dili öyrənir.

Hyungsikin bir fahişəylə sevgili olduğunu öyrənərək depressiyaya girir.

Hyungsik Seonhyungdan onu sevib-sevmədiyini soruşur.

Hyungsik Seonhyungla oxumağa getməmək üçün qatara minir.

Samryangjinda sel olur.

Yeongcheylə barışır.

Amerikaya gedir.

Seonhyungun ailəsində ata tərəfi əsillidir, amma anası fahişədir:

"Arvadı əslində Pyungyangda gözəlliyilə və üstün qabiliyyətilə məşhur bir fahişədir. Kim Jangro öz həyat yoldaşı öldükdən sonra ailəsi və dostlarının təkliflərini də rədd edərək aşnası sayılmış olan o qadınla evlənir" (Yi 1997: 9).

Seonhyung əsilli bir ata və fahişə bir anadan dünyaya gəlmişdir. Fahişəylə əlaqədə olduğu üçün Kim Jangro peşman olmuşdur, amma uzun müddətdiir birlikdə olduğu üçün bu qadını atmağın doğru olmadığını düşünərək onunla evlənmişdir.

Əsilli birinin bir fahişəni həyat yoldaşı olaraq almağı konfutsiçilyin hakim olduğu cəmiyyətdə bir çevrilişdir və bu vəziyyət toplumda şok edici bir hadisədir.

Seonhyung normal bir ailədən çıxmamışdır və qeyri-qanuni münasibətdən doğulan uşaqdır. O halda Kim Jangronun ona özəl dərs verərək tərbiyə etməyə çalışmağı, Kim Jangronun köhnə quruluşdan sıyrılaraq yeni quruluşu qəbul etdiyini göstərir. O, bir keçiş dönəmi insanıdır. Seonhyung da eyni haldadır. Seonhyung yeni, modern mühit və ailədə böyüdülür, amma onun düşüncə tərzi köhnə adətlərdən o qədər də qopmur. Bu səbəblə Yeongche ilə münaqişəyə girir.

Seonhyungun Amerikaya getmək səbəbi haqqında çox aydın bir fakt tapmağımız mümkün deyildir. Sadəcə ana və atasının istəyinə görə ola bilər. Seonhyungun düşüncəsi də həmişə səthidir. Amerikada oxuyub ölkəsinə dönəndə sinfinin yüksəlməyi və insanlar tərəfindən həsəd aparılan biri olmaq onun gözləntisidir:

"Seonhyung öz gözəl geyimilə, Qərb üslublu şapkayla yabançı qızlarla ingiliscə danışan obrazını xəyal edərək güldü. Əgər ingiliscə danışarsa, xalqın onu daha da sayacağını düşündü." (Yi 1997: 71).

Seonhyung Amerikaya getdikdən sonra ingiliscə rahat danışa bilərsə, hər kəsin ona hörmət edəcəyini düşünür. Seonhyungun Amerikada nəyi necə oxumaq lazım olduğu haqqında heç bir fikri yoxdur.

"Okeanda gəmidə bəlkə dalğalar səbəbilə bir kişinin qucağına düşərəm. Bəlkə qismət olar, onunla evlənərəm. Şahanə bir evdə piano çalaram…" (Yi 1997: 72).

Seonhyung Amerikada məzun olduqdan sonra məmləkətinə dönəndə yenə orada oxumuş, uca boylu, yaraşıqlı kişi ilə birlikdə olmağı xəyal edir. Gəmidə təsadüfən qarşılaşdığı biriylə Koreyaya dönəndən sonra ailə qurmağı xəyal etməyi, onun oxumaqda məqsədinin yaxşı bir kişi ilə evlənmək olduğunu göstərir. Onun cəmiyyət və ölkə haqqında heç bir düşüncəsi yoxdur:

"İndiyə qədər Hyungsikin ona ər olacağını heç düşünməmişdi. Hyungsikin onun xoşuna gedib-getmədiyini də heç düşünməmişdi." (Yi 1997: 208).

Seonhyung öz düşüncəsinə hakim ola bilməyəndə Sunedən Hyungsiki xəbər alır. Sune belə cavab verir:

"Sənə bağlıdır, sən evlənmək istəsən, edə bilərsən. Sən evlənməyə atana görəmi ani qərar verirsən? İstəmirsən evlənmə!" (Yi 1997: 209).

Seonhyung evlənmək məsələsi ortaya gələn zaman nə istədiyini bildirmir. Yuxarıda gördüyümüz kimi, Sunenin düşüncəsi modern və irəli yönümlüdür. Bunun əksinə Seonhyung modern təhsil almağına baxmayaraq konfutsiçilikdən təsirlənir və patriarxal əsasa uyğun düşüncəyə sahib olur.

Seonhyungun atasının onunla evləndirmək istədiyi Hyungsik haqqındakı fikri belədir:

Hyungsikin lisey müəllimi olmasına razı olmadı.

Hyungsik ona aşağı təbəqədən biri kimi göründü.

Seonhyung, niyə atasının Hyungsiki ər olaraq seçdiyini başa düşə bilmir. Özünün idealı bir andaca dağılır və öz statusunu itirmiş olduğunu hiss edir. Fəqət Seonhyung atasının sözündən çıxa bilmədi. Atasının öz həyatı haqqında qərar verməyinə razı olur.

Seonhyung evlilik məsələsində daxili konflikt yaşayır. Fəqət atasının sözünü rədd edə bilmir. Öz düşüncəsini hiss etdirmədən atasının onun haqqındakı qərarına razı olur. Öz ərini seçməyi ana və atasına həvalə etməklə keçmiş adətlərə görə davranır. Seonhyungun

düşüncə tərzi ənənəçidir, amma yaşayış mühiti moderndir. O, dönəmin ictimai vəziyyətində fərd olmağı bacarmadan yaşayan bir qadındır.

2.3. Hun Shim[1] – "İynəyapraqlı bir ağac"[2]

2.3.1. Özət

Che Yeongsin və Park Donghyuk bir günlük qəzetin açmış olduğu aydınlatma kampaniyasında tanış olurlar. Bir-birlərinə məsləkdaş duyğusuyla bağlanırlar.

Park Donghyuk yoxsul olduğu üçün Yüksək Kənd Təsərrüfatı Liseyini bitirə bilmir, məmləkəti Hangokriyə gedərək Kənd Tənzimləmə İşinə qoşulur.

Che Yeongshin isə, Xristian Gənclər Qurumunun hazırladığı Kənd Tənzimləmə İşinə qatılır. Qadın Cəmiyyətini qurmaq və gecə məktəbini idarə etmək kimi kənd fəaliyyətlərinə həyatını verir. Bu müddətdə iki gəncin mücadilə yolundakı qardaş duyğuları eşqə çevrilir. Fəqət Yeongsin eşqdən daha çox kənd quruculuq və aydınlatma kampanyasının vacib olduğunu düşünür.

Park Donghyuk isə, Hangokridə "Fermerlərin Dərnəyi"ni quraraq kəndin inkişafı üçün çalışır. Bu arada ona mane olmaq istəyən kəndin ağasına görə daim sıxıntı çəkir.

Che Yeongsin də ibtidai məktəbə gedə bilməyən uşaqlar üçün kilsədə müəllimlik edir. Bir neçə yerdən pul toplayaraq məktəb açmağa qərar verir.

Yeongsinə bir gün polis tərəfindən gələn xəbərdarlıqda tələbə sayının azaldılması və pul toplamağının qanunsuz olduğuna dair məhdudiyyət qoyulmağı bildirilir. Fəqət Yeongsin öz

---

[1] Shim Hun (1901-1936) Kyungki əyalətində doğulmuşdur. Əsl adı Sim Deseopdur. Şair, yazıçı vərejissordur. Çin Jigang Universitetində oxumuşdur. "Donga", "Coseon" və "Jungang" qəzetlərində müxbir kimi çalışmışdır. "Teatr kültürü" adlı cəmiyyət quraraq bu sahədə xeyli fəaliyyət göstərmişdir. "Maska rəqsi", "Şərqdəki sevgilim" kimi məşhur əsərləri vardır. Şeirlərini "O gün gələrsə" kitabında toplamışdır. "İynəyapraqlı bir ağac" romanı isə 1935-ci ildə "Donga"qəzetinin 15-ci ildönümü xatirə mükafatını almışdır.

[2] Təhlildə istinadlar romanın 1986-cı il nəşrinə aiddir.

fəaliyyətlərinə davam etdiyi üçün bir gün cinayət işlədiyi arqumentiylə polis tərəfindən həbs olunur.

Park Donghyuk Yeongsini görmək üçün Cheongseokgola gəlir. Bu arada Hangokridə isə "Fermerlərin Dərnəyi"nin binası dəyişir. Buna əsəbiləşən Donghyukun qardaşı Donghva binada yanğın törədir, Donghyuk da tutulur.

Bu xəbəri alan Yeongsin, həbsxanada Park Donghyuku görməyə gedir və bütün çətinliklərə baxmayaraq kəndin inkişafı üçün var güclərilə mücadilə edəcəklərinə qərar verir.

Yeongsin Xristianlar Dərnəyinin yardımı ilə Yaponiyaya gedir, fəqət yorğunluqdan Cheongseokgolda ölür.

Park Donghyuk onu dağda basdırır və kənd üçün ömrünün sonuna qədər mücadilə edəcəyinə dair qərar aldığının fərqinə varır.

2.3.2. Qadın xarakterlər

Bu roman 1930-cu illərdə kəndliləri savadlandırmaq məqsədilə aparılan Kənd Aydınlanma Hərəkatını əks etdirən tipik bir əsərdir. 1935-ci ildə "Donga" gəzeti tərəfindən yayınlanan bu roman yazar üçün mənalı bir əsərdir. Həmçinin o dönəmin ədəbi fəaliyyətləri baxımından da ilk sosial hərəkatı uğurlu bir şəkildə əsərə gətirdiyi üçün də önəmlidir. Bu əsər o dövrün intellektual təbəqəsini təmsil edən Park Dorghyukla Che Yeongsinin kəndə dönərək aydınlanma hərəkatına özlərini həsr etmələrini canlandırmaqdadır. Müstəmləkə altındakı ölkənin vəziyyətindən qurtulmaq və kəndi maarifləndirmək istəyən iki baş qəhrəmanın göstərdiyi qüvvətli iradə, əsərin əvvəlindən sonuna qədər hakim mövqedədir. Əslində, romanın başlanğıcında sosializm əsas xətdir, sonra isə aydınlanma ideologiyası qüvvətlənir.[1]

"Donga" qəzeti, 1935-ci ildən bəri etdiyi kimi Kənd Aydınlanma Hərəkatının Yaponiya tərəfindən dayandırıldığı zaman bu hərəkatı ana xətt olaraq işləyən bir romanı seçərək mükafat vermişdir.

Bu roman o dönəmdə gündəmdə olan önəmli kənd reallıqlarını əks etdirməkdədir. O dönəmdə az sayda orta məktəb məzunu

---

[1] Romanla bağlı bax: Han 1912, Jeong 1988, Jo 1997, Kim a 1992, Kim b 1995, Kim c 1972, 1978, Seo 1987, Shin 1990, Song a 1991, Song b 1992, Yi a 1982, Yi b 1991, Yu 1993.

olan gənc intellektuallar kəndə dönərək kəndli və uşaqlara oxumaq-yazmaq öyrədirlər və kooperativə girərək özlərini kəndin inkişafına həsr edirlər.

Romanda hadisələr məkan olaraq Hangokrida Kənd Aydınlatma Hərəkatına qoşulan Park Dongkyuk və Cheongseokgoldakı Che Yeongsinin aralarındakı sevgi əhvalatı üzərində inkişaf etməkdədir.

Baş qəhrəman olan bu iki şəxs də yoxsul kənddən çıxmış insanlar və yüksək təhsil alan intellektuallardır.

"Mən nə olur olsun, Aydınlatma hərəkatında xalqımıza ümid və cəsarət vermək üçün çalışmağın öncəliklə vacib olduğunu düşünürəm." (Shim 1986: 18).

Sadəcə, psixoloji səviyyədə qalmağın yanlış olduğunu düşünən Yeongsin, xoşbəxtlik və bədbəxtliyini xalqla bölüşməyin vacib olduğu fikrini müdafiə edir:

"Sizlər məktəbdən məzun olduqdan sonra gözəl bir qiyafətlə otururaq sadəcə maaşınızı almağı gözləməyin. Qadın − kişi fərq etmədən həmişə birlikdə bizim kəndimiz üçün çalışmasaq, millətimiz axıra qədər qurtulmayacaqdır." (Shim 1986: 21)

"Kiçik bir iş də olsa həmişə birlikdə görməyə başlamaq önəmlidir. Bizim üçün önəmli olan bir arada olmaqdır. Hər kəs öz mənfəəti üçün çalışmaqdan çəkinsə, bir olmağın qüvvətini anlaya bilərik. O zaman o gücü anlamaq üçün ilk öncə çalışmağımız lazımdır" (Shim 1986: 64).

Yuxardakı cümlələrdən də aydın olduğu kimi, Yeongsin kəndlilərlə birlikdə çalışmağın kəndi inkişaf etdirəcək tək bir yol olduğunu vurğulamaqdadır:

"Başqasının basqısı altında tətbiq olunan və ya bir moda olsun deyə edilən Kənd Hərəkatı ilə bizim öz istəyimizlə edilən hərəkatın fərqli olmağı gərəkdiyini söyləyərək qadın − kişi fərq etmədən bir yerə toplaşıb kömək etməklərini xahiş etdi." (Shim 1986: 84).

Bu çıxış Yeongsinin Kənd Cəmiyyəti üzvlərinin toplaşdığı "İlyohue"yə qatıldığı zaman söylədikləridir. Yeongsin dövlətin basqısı altında zorla aparılan Kənd Hərəkatını və ya o dönəmdə moda olsun deyə edilən bu hərəkatı tənqid etməkdədir.

Çünki o dönəmdə dünyanın bir çox ölkəsini gəzəndən sonra sadəcə, danışmaqla Kənd Hərəkatını dəstəkləyənlərin duyğusal və

burjua tərzi hərəkətləri, bir mövqeləri vardı. Aşağıdakı çıxışında Yeongsinin bu düşüncəsi bəllidir:

"Seul mərkəzinə xəbər vermədən olmazdı. Bu səbəblə əgər təmsilçisi gəlməsə, köməkçisinin gəlməyini istədim, amma içimdən heç gəlməməyini dilədim. Onlar kəndi nə qədər anlayacaqlarını söyləmiş olsalar da, rahatlığına düşkün əsilli sinfin insanlara göstərəcək nə bir şeyi var, nə də rahat davrana bilərlər." (Shim 1986: 150).

Bu romanın obrazlarının özlərini formal olaraq deyil, həqiqi mənada Kənd Hərəkatına həsr etdikləri məlumdur:

"Bu vəziyyətdə nüfuzun nə mənası var?- deyə düşündü, Yeongsin corabını belə çıxardı. Ağır ağacları ora, bura qaldıraraq səhərdən axşama qədər işlədiyi üçün sümüklərinə qədər sancı gəlirdi." (Shim 1986: 167).

Yazarın Yeongsinin aktiv xarakterilə indiyə qədər sadəcə nəzəri formada qalan Kənd Hərəkatına örnək bir öndər yaratmaq istədiyi çox açıqdır.

Yeongsin və Donghyuk kəndlilərə oxuyub yazmağı öyrətmək işində uğur qazananda bir az yollarını dəyişdirirlər. Sadəcə mədəni baxımdan deyil, iqtisadi olaraq da kəndin zənginləşməsini təmin etməyə çalışırlar.

"İndiyə qədər bizim etdiyimiz oxuyub yazmağı öyrətmək və ya bu qurumları yaradaraq mədəniyyət hərəkatına yönəlməkdi. Fəqət bu gündən etibarən xalqın gerçək yaşamına yardımçı ola biləcək işlər görəcəyəm."

"Bəli, elə. Hər şeyə baxmayaraq yaşam standartını yüksəltdikdən sonra mədəni hərəkatın və ya aydınlatma hərəkatının anlamlı olacağını düşünürəm." (Shim 1986: 130).

Bu düşüncəyə Donghyuk da qatılır. Donghyuk özünün tətbiq etdiyi hərəkətlərin səthi qaldığını, kəndin yoxsulluğunun səbəbinin sələmçilər olduğunu düşünür.

Yaponiyanın bir ağa kimi kəndə hakim olması, o dönəmdə kəndliyə əziyyət çəkdirən bir səbəbdir. Kəndi yoxsul qoyan Yaponiya gücündən dəstək alaraq Koreyaya zərər verən mənfi ağa sinfi böyük bir problemdir. Bu zülmkar təbəqəyə qarşı xalqın nifrət duyğusunu ortaya çıxarmaqdadır.

Cheongseok məktəbini qurmaq üçün pul toplamağa qərar verir. Hanangçeongun altmışıncı yaş gününə gedən Yeongsinin danışığında bu nifrət duyğusu bəllidir:

"Bu qədər bərabərsizlik olarmı? Biri öz yaş günüdür deyə yeyir, içir, əylənir, amma bu uşaqlar ac qalırlar və sığınacaq evləri də yoxdur. Bir meymun kimi ağacın budaqlarında yatırlar, barmaqlarıyla yerə yazı yazırlar. Bu uşaqlar kimindir? Əgər siz bir insansınızsa, o yəmək̈ləri yeyə bilərsinizmi? Vicdan əzabı çəkmirsinizmi?" (Shim 1986: 135).

Belə bir vəziyyətdə, Yeongsin və Donghyuk birlikdə müstəmləkə bir ölkəyə işıq tutmağa çalışırlar. İki gəncin eşqi, aydınlanma hərəkatıyla birlikdə oxucuya çatdırılmışdır. Yeongsin və Donghyukun münasibəti duyğusal eşqdən başlamır. Ölkənin gələcəyi uğrunda özlərini fəda edən bu iki gəncin münasibətinin qardaşlıq və dostluğa söykəndiyi bəllidir.

Yeongsinin iradəli və fədakar bir insan olaraq canlandırılması, bu romana "qadın – kişi bərabərliyi" şüuru da qatmaqdadır:

"Donghyuk! Mən səndən öncə gedirəm. Hangokriylə bir dəfə olsun, birləşə bilmədən… amma mən xoşbəxtəm. Özümü güvəndə hiss edirəm. Sənin saf eşqinin sonsuza qədər dəyişməyəcəyinə inandığım üçün … bunu söylədikdən sonra son nəfəsimi verərək…

"Donghyuk, üzülmə, sənin kimi kişi göz yaşı tökməz."

…

Sonra titrəyən əliylə o məktubu paltarının içəri tərəfinə qoydu. İndiyə qədər onların fotosu belə yoxdu." (Shim 1986: 340).

Bu sözlər Yeongsinin ölümündən öncə söylədikləridir. "Hər kəs gəlsin, gəlsin" deyən Yeongsinin güclü yaşamı Kənd Aydınlatma Hərəkatına daha da anlam qatmaqdadır.

2.4. Mansik Che[1]- "Takryu"[2]

2.4.1. Özət

Gunsanda "Midu" deyilən qumarın yayğın olduğu vaxtlarda, orada icra başçısı olan Jeong Jusa bu oyuna qapılaraq bütün sərvətini itirir. Bu səbəbdən qızı Chobong Jejungdang əczaxanasında çalışır. Yetknlik çağına gələn və gözəl bir qız olan Chobonga ilə bir çox kişi evlənmək istəyir.

Jeyungdang əczaxanasının sahibi Park Jehonun ona gözü düşür. Chobongu Seula gətirmək istəyər, amma arvadının əngəlləməsi ilə uğursuz olur. Chobong ailəsinin tövsiyəsilə, Go Tesuyla evlənir. Fəqət Chobong evləndikdən sonra Jang Hyung Bonun hiyləsilə ərini itirir və Hyungbo tərəfindən ləkələnir. Ərinin ölümündən sonra Seula gedərkən qatarda Park Jehoyla qarşılaşır, onun Chobongu başdan çıxarmağı ilə onun aşnası olur, sonra kimdən olduğu bilinməyən bir qız uşağı doğur. Bu vəziyyətdə Jang Hyungbo ortaya çıxır, öncədən Chobongla olan münasibətini söyləyərək körpənin öz uşağı olduğunu iddia edir. Beləcə Chobongu Park Jehodan alır. Bir müddət Chobong Park Jehoyla birlikdə yaşayır, nəhayət, ərini öldürən və ona təcavüz edən Park Jehonu zəhər verərək öldürür.

Chobong özünün günahkar olduğunu etiraf edir.

2.4.2. Qadın xarakterlər

Takryu, 1937-ci ildən 1938-ci ilə qədər qəzetdə hissə-hissə yayımlanır, 1941-ci ildə kitab halında nəşr olunur. Che Mansikin ən uğurlu romanıdır. Yazar realizmi təmsil edən bir roman olaraq keçid dönəmindəki xalqın böhranını və tragediyasını əks etdirmişdir. Adı "Kirli suyun axışı" anlamında olan bu romanda iki

---

(1) Che Mansik (1902-1950) Jeonrabukodo Okgu doğumludur. Vaseda Universitetinin İngilis ədəbiyyatı fakültəsini bitirmədən "Coseon" və "Donga" qəzetlərində, "Gebyeo" dərgisində müxbir işləməyə başlamışdır. 1924-cü ildə "Segilro" əsəri yayınlanmışdır. Daha sonra "Takryu", "Çisuk", "Donuz" kimi əsərlərini yazmışdır. Əsərlərində bir qayda olaraq materealizmi tənqid edir.

(2) Təhlildəki mətnlər romanın 1994-cü il tarixli nəşrindən alınmışdır.

zidd qadın tipiylə yazar o dönəmdəki cəmiyyətin yanlışlığını və problemlərini göstərməkdədir.[1]

2.4.2.1. Chobong

Jeong Chobong, S Qız məktəbini bitirdikdən sonra əczaçı sənədini qazanmaq ümidilə atasının dostuna məxsus aptekdə çalışır. Chobong zəif və incə bir vücuda sahibdir:

"Üz şəkli də nədənsə insanı hüzursuz edir. Heç bir ləkə olmayan təmiz sifətində sivri bir burun gözə çarpır. Yuvarlaq və çəkik gözlərinin içərsində sanki bir sirr var…" (Che 1994: 31).

Chobongu görən hər bir kəs onu qoruma instinktini hiss edir. Bu roman dolayısı ilə Chobongun dağılmaqda olan həyat idealını anlatmaqdadır.

Chobong sadəcə zahiri görünüş olaraq deyil, davranış baxımından da patrialxal toplumda sabitləşmiş qadın kimi davranışlara sahibdir. Cahil və məntiqsizdir, öz həyatına sahib çıxa bilmir. Onun yaşadığı böhran dönəmlərində davranışları belədir:

"Chobong hər zaman, kimə olursa olsun, söyləmək istədiklərini tam olaraq bildirmir. Kədərlənəndə içinə qapanır və çarəni sadəcə ağlamaqda görür" (Che 1994: 14).

"Chobong özü istəmədiyi halda ana-atasının söylədiklərinin hamısını qəbul etməkdədir" (Che 1994: 39).

"Bacı, sən istəməsən də rədd etməyi bilmirsən…" (Che 1994:158).

"Vücudum çoxdan çirkləndi artıq. İki ərimi və üç kişini təmin etdim. Belə çirklənmiş vücudla Songhinin təhlükəsini önləməyimə heç gərək yoxdur. Heç olmasa, çirklənmiş bədənimi mənalı işlətməyim daha yaxşıdır." (Che 1994: 281).

Birinci dialoq əczacının arvadı Yunhinin Chobong ilə əri arasında bir əlaqə olub olmadığına dair şübhə duymağı, amma Chobongun özünü müdafiə etmədən günahkar vəziyyətinə düşməyini göstərməkdədir. Chobongun aktiv olmamağı, öz həyatını yanlış yönləndirməyinə səbəb olmuşdur.

---

[1] Romanla bağlı bax: Choi 1994, Jo 1997, Kim a 1985, Kim b 1983, Kim c 1992, Kim d 1995, Kim e 172, 1978, Kwak 1990, Oh 1990, Seo 1987, Song a 1991, Song b 1992.

İkinci dialoq isə, atası Jeongjusanın Chobonga baxış bucağını göstərir.

Danışmadan patriarxal bir mühitdə ana və atanın öz övladına necə baxdığı bəllidir. Öz övladının bir fikrə sahib olmağı ana və atanı yormaqdan başqa bir işə yaramır.

Üçüncü dialoqda isə, qardaşı Kebong Nam Seungjeyə bacısının ani evliliyini göstərməkdədir. Burada da istəmədiklərini qəbul edərək passiv davranan Chobongu tənqid etməkdədir.

Dördüncü dialoqda isə, Hyungbonun Jehoyla birlikdə yaşayan Chobongu ani basqın edərək özüylə aparmağını göstərməkdədir. Burada Chobongun bu vəziyyətlə barışmağı, bilavasitə patriarxal quruluşa boyun əyməyi görünür.

Chobong son dərəcə passiv bir insandır. Nam Seungjeyə aşiqdir, amma pul səbəbilə Go Tesuyla evlənməyini istəyən atasının sözünə qulaq asır. Chobong öz fikrini müdafiə etməyən və sadəcə qədər nədirsə ona itaət edən klassik bir Koreya qadınıdır. O, doğma ailəsini kasıblıqdan qurtarmaq istəyən fədakar bir insan olaraq ailəsi üçün məsuliyyət hiss edən, amma başqa istəklərə boyu əyən zəif bir qadındır:

"Ailəsi altı nəfərdir. İyirmi bir yaşında olan Chobongdan başlayaraq, on yeddi yaşındakı Kebong ən böyük oğludur, Hyungju isə on dörd yaşındadır. Ən kiçiyi altı yaşındadır. Beləcə dörd övladıyla Jeonjusanın ailəsi altı nəfərdir." (Che 1994: 18-19)

Sadəcə, Jeongjusanın qazancı altı nəfərin qarnını doyurmağa yetmir. Bu səbəblə, ancaq Chobong onları kasıblıqdan qurtara bilər:

"Bu dünyada ac qalmaq kimi pis bir şey varmı? İnsanın çəkdiyi əziyyətin ən pisi, bax, aclıqdır. Gözəl geyinmək və qarnını doyurmak üçün qızını kazinoya satanlar da var. Elə yaşamaq yanlışmı olur?" (Che 1994: 412-414).

Ənənəvi konfutsiçiliyə əsaslanan adət və sistemin dağılmağı, həmçinin Yaponiyanın xalqa əziyyət çəkdirməsilə xalqın yoxsul vəziyyətə düşməyi, aclıq qarşısında əxlaq qavramını geridə buraxmışdır. Bu səbəblə, Chobong Nam Seungjeyi sevdiyi halda atasının istəyinə əməl edir və Go Tesuyla evlənir. Go Tesu bir çox qadınla birlikdə olar. Qadınlarla gəzməkdən başqa bir işi yoxdur. Tesu pulu bankdan oğurlayır. Hyungbonun hiyləsilə Tesu öldürülür, Chobong isə təcavüzə uğrayar. Hyungbodan qaçan Chobong, Seula gedən

qatar içində Jehoyu görür. Onunla birlikdə yaşamağa başlayır. Sonra da Hyungbonun uşağını dünyaya gətirir.

Daim Chobongu narahat edən Hyungbonun ortaya çıxmağıyla Jeho Chobongu buraxır. Chobong da kiçik qızı Songhiyə görə Hyungboyla yaşamağa başlayır. Bir gün qızı Songhiyə əziyyət çəkdirməkdə olan Hyungboyu görən Chobong onu öldürür.

Düşdüyü iqtisadi problemlərdən qurtulmağa çalışan Chobongun tragediyası, əslində onun namusuyla bağlıdır.

Chobong bir qadın üçün namusun həyatdan daha önəmli olduğunu və bir dəfə ləkələndiyi zaman həyatın sona çatdığını düşünür. Chobongun faciəvi vəziyyətə düşməsində bir neçə kişinin rolu vardır. İlk öncə atası Jeongjusa, qızı Chobongu evləndirərək iş üçün gərəkən pulu qazanmaq istəyir. Go Tesu isə, gözəl və təmiz qəlbli Chobonga sayğı duymur, onun üçün Chobong pulla alına bilən bir mal kimidir. Hyungbo üçün də yenə instinktiv bir obyektdir. Jeho da Seula gedərkən Chobongu gördüyü zaman ona nəzər yetirir:

"Artıq köhnəlmiş bir qadın", "sahibi olmayan qız", bakirə qıza qarşı yaşlı bir kişinin diqqətli davranmağı, artıq onun üçün gərəyi qalmamışdır. Yanlış evlənib də irəlidə kimin yemi olacağı bəlli olmayan qadın, onun üçün kim olursa olsun, tez əl toxunan sahibi deməkdir" (Che 1994: 277).

İnstinktiv olaraq Chobonga yaxınlaşan Go Tesu, Jong Hyungbo, Park Jeho arasındakı ortaq nöqtə cinsiyyət fərqidir.

Beləcə, bu əsər bir qadının məhv olmağını əks etdirməklə sosial - tarixi kontekstdə o dönəmin gerçəyini tənqid etmişdir.

Heç bir mübarizə aparmadan, taleyinə boyun əyən Chobong əvvəlcə özündən çıxır:

"Heç qorxmursanmı? Utanmırsanmı? Mən sizlərə nə etdim ki, mənə belə əziyyət çəkdirirsən? Heç bir günahı olmadan, səsini çıxarmadan yaşayan mənə niyə bu qədər pislik edirsən?" (Che 1994: 365).

Chobong sakit və mədəni bir insandır, amma daha qədərə olduğu kimi özünü təslim edən Chobongdan qüvvətli bir yaşam iradəsilə cəsurca qışqırmaqdadır. Analıq duyğusu, onu gec də olsa gücləndirmişdir.

Chobongun həyatı, kiçik ikən ana və atasına, evləndikdən sonra ərinə, uşaq sahibi olduqdan sonra da uşağına bağlıdır. Bu halı ilə o, ənənəvi qadının yaşamını göstərmişdir. Yaşam şəklinin də konfutsiçilik mədəniyyətinin qadınlara verdiyi Samjongjido[(1)]dan heç bir fərqi yoxdur. Yəni qadın həyat boyunca "cinsəlliyin idarəsinə" bağlı qalır, bu xüsusi hal insan oğlunun ən əsas güc qavramıdır. Kate Millet buna "cinsəlliyin siyasəti" deməkdədir (Millet 1976). Kate Milletə görə, həyat iki cinsin özəlliyi, rolu və mövqeyinə görə yaşanır. Patriarxal quruluş qadına və kişiyə aid özəlliklər üzrə iki çeşid olaraq fərqləndirilir. "Kişiyə aid ünsür", hücum, bilgi, güc, qabiliyyətdir. "Qadına aid ünsür" isə, passivlik, bilgisizlik, itaət, namus, bacarıqsızlıqdır. Qadınlar uşağa və ev işlərinə baxırlar. Kişilər etmək istədikləri hər şeydə sərbəstdirlər, sosial olaraq ancaq kişilərə rütbə verilir.

Chobongun bədbəxtliyi, təməl olaraq patriarxal idealogiyanın vurğulandığı dəyər məhkəməsinə görədir. Bu səbəbdən o, oxumuş bir qadın olduğu halda öz həyatına dəyər verməzkən toplumla da münasibətini kəsir. Öz həyatına sahib ola bilməyən qadın örnəyi, partiarxal quruluş içərsində hələ davam etməkdədir.

2.4.2.2. Kebong

Kebong Chobongun bacısı kimi Chobongun qarşısında olan bir insandır. Kebong bacısı varlı biri ilə evləndiyi zaman tibb və ya əczaçılıq kollecində oxumaq istəyir. Bacısının bədbəxt bir evlilik yaşadığı dönəmdə böyük satış mərkəzində çalışaraq peşə məktəbinə getməyi ümid edir. Kebongun görünüşü belə Chobongunkindən fərqlidir:

"Kebongun bədəni və üzü toppuşdur. Azca kök olmağı insanların ona xoşluq və heyranlıqla baxmalarına səbəb olurdu… Chobongun gülüşü xəfif, amma Kebongun gülüşü şaqraq, dəniz kimi açıq və kişiyanadır. Onun görünüşü insana güvən verir…" (Che 1994: 57).

Yazar cılız və zəif görünüşü səbəbilə qorunmaq ehtiyacı hiss etdirən Chobongdan fərqli olan Kebongu təsvir edərkən "açıq",

---

(1) Qadının üç kişinin sözünü dinləməsi lüzumunu müdafiə edən bir düşüncə: Qadın kiçik ikən atasına, evləndikdən sonra ərinə, yaşlandıqdan sonra isə oğluna itaət etməlidir.

"kişiyana", "güvənverici" ifadəsini işlədir. Yəni, Kebongu kişi xüsusiyyətində olan qadın kimi təsvir etməkdədir.

Kebongun davranışları belədir:

"... Sevgilinin başqasıyla evləndiyini bilmədən inək kimi oturursan..." (Che 1994: 139).

"Namus qavramı kişiyə bağlı bir qavramdır. Bir qadın on dəfə evlənmiş də olsa, namuslu ola bilər. Həmçinin əgər bir qadın çarəsiz, zorla bakirəliyini itirmiş olsa da, yaşama haqqından məhrum edilməyi üçün heç bir səbəb yoxdur." (Che 1994: 326).

"Kebong, əsla bir qurtuluş niyyətilə evlənmir. Sadəcə rahat və sərbəst yaşamaq və bunu davam etdirmək üçün peşə sahibi olmaq istəyir, bu səbəblə bir texnikaya sahib olmaq lazımdır." (Che 1994: 326).

Birinci dialoqda, Kebongun sevgilisi Nam Seungjeyə bacısının gözlənilən evliliyini tənqid etdiyi əks olunur. Bu, onun kişi kimi təcavüzkarlığını göstərir.

İkinci dialoqda Kebong namus haqqında öz fikrini söyləməkdədir. Patriarxal xüsusiyyətli cəmiyyətdə namusunu itirdiyi üçün həyatını fəda edənlərin nümunələri az deyildir. Chobongun "Qadın bir dəfə ləkələndimi həyatı bitmişdir" deməsi, öz təcrübəsindən qaynaqlanır. Kebong burada çox müasir düşüncəsini ortaya qoyur. O, namusun insana görə fərqli ola biləcəyini və həyatın sadəcə bu yanlış namus qavramından ibarət olmadığını düşünür. Kişilər bəlli bir yaşa qədər cinsi əlaqədə ola bilmədiklərinə görə utanırlar, amma heç bir zaman cinsi əlaqədə olduqları üçün yaşam haqlarını itirəcəklərini düşünmürlər. Kebong bu şərtin qadınlar üçün də keçərli olmasını istəyir.

Üçüncü dialoqda, Kebongun öz həyatına özünün sahib olmaq istəyi vurğulanmışdır. Onu həyata keçirmək üçün də müəyyən bir mexanizmə sahib olmaq istəyir. Bu "bacarıq" kişiyə aid bir ünsürdür. Həmçinin Kebong, maddi baxımdan ayaq üstə dura bildiyi zaman özəl həyatını yaşaya biləcəyinə inanır. Seungje kiçik ikən valideynini itirməsinə baxmayaraq öz mücadiləsiylə həkim olmağı bacarır. Kebong isə, aylıq maaşı olduğu halda Nam Seungjedən yardım istəyir. Kebong güclü bir şəxsiyyətə sahib olmasına baxmayaraq yenə də həyatda uğurlu olmaq üçün Seunjenin dəstəyinə ehtiyac duyur.

Yazarın kişi xarakterinə malik olan Kebonga baxış bucağının müsbət olduğu açıqca bəllidir. Fəqət Kebongun qadağalara necə qalib gəldiyini heç göstərməmişdir. Yazar Kebong ilə ikinci şəxs olaraq güclü və müasir düşüncəyə sahib modern qadın tipini yaratmış, amma onu ətraflı şəkildə canlandırmamışdır.

2.5. Kyungri Park[1]– "Əczaçı Kimin qızları"[2]

2.5.1. Özət

Kim Seongsunun anası Sukjeong, Hamyangda yaşayan Kim Bongryungla evlənir. Fəqət bu evlilikdən öncə evlənməyi düşündüyü Ukun Sukjeongu unuda bilməyərək Kim Bongryongun evinə gəlməsi ilə ailənin bədbəxt günləri başlayır.

Sukjeongu görmək istəyən Uk, həyətin ortasında onun üçün qışqırmağa başlayanda, əri Bonryong tərəfindən tutulur və vəhşicəsinə döyülür. Uk aldığı zərbələr nəticəsində ölür. Əri Bongryong isə, qardaşından aldığı pulla qaçır.

Kim Seongsunun anası Sukjeongun yaşadığı bu faciəvi hadisə ilə birlikdə bədbəxt həyatı başlayır. Oğlu əczaçı Kimin həyat yoldaşı Hansil də xoşbəxtliyini itirən bir qadındır. İlk uşağı Yonghvanı itirməklə bərabər, beş qızının faciəvi yaşamının da şahidi olur. Həyatında tək ümidi qızları olan Hansil onları böyütmək üçün bir çox çətinlikdən keçir. İkinci qızı Yongbin evlənə bilmir. Amma bacarığı sayəsində öz işini qurmağa müvəffəq olur. Dördüncü qızı Yongokun isə, bədbəxt bir evliliyi olmağına baxmayaraq bir xristian kimi öz işində uğurludur və ailəsinə də kömək edir. Üçüncü qızı Yongran isə, ən problemli olanıdır. Hansilə davamlı sıxıntı verir və yük olur.

Yongranın həyatı Handolun təkrar ortaya çıkmağıyla tamamilə mənfi yöndə dəyişir. Yongran əri həbsxanaya girəndən Handolla birlikdə yaşamağa başlayır.

---

[1] Park Kyungri (1926 -2008) Kyungnam Çungmuda doğulub. Jinju liseyinin məzunudur. 1955-ci ildə "Hesab" əsərinin "Çağdaş ədəbiyyat" dərgisində yayımlanmağı ilə yaradıcılıq hayatına başlayıb. "Ağ və ağ, qara və qara", "Bazar və savaşın yeri", "Əczaçı Kimin qızları" və "Torpaq yer" onun ən mühüm əsərləridir.

[2] Təhlildəki mətnlər romanın 1997-ci il nəşrindən alınmışdır.

Bu hala çox üzülən Hansil, Yongbinə vermək üçün hazırladığı pulu evə apardığı zaman əsəbdən nə edəcəyini bilməyən Choi Yeonhaqq tərəfindən bıçaqlanır və ölür. Beləcə, əczaçı Kimin qızlarının bədbəxtliyi ard-arda sıralanır. Ən böyük qızı Yongsuk dul qalır, sonradan zina nəticəsində doğulan uşağını öldürərək həbsə atılır. İkinci qızı Yongbin sevgilisinin xəyanətilə üzləşir və həbs edilir. Üçüncü qızı Yongran əri tərəfindən öldürülür. Dördüncü qızı Yongok qaynanasına görə qəzada ölür.

2.5.2. Qadın xarakterlər

Bu roman 1962-ci ildə yayımlanır. Burada bir nəsil boyunca qadınların faciəvi yaşayışları əsas mövzu kimi işlənilmişdir.[1]

Bu əsərdə canlandırılan qadınların şəxsiyyət axtarışlarının, əczaçı Kim ailəsinin dağılmağıyla əlaqəsi vardır. Kim Seongsunun işlərinin daim iflas etməyi qızlarının bədbəxt evlilik həyatıyla birləşərək faciəvi halı daha da artırır.

Əczaçı Kim ailəsinin çəkdiyi acılar klassik ailə quruluşundan və konfutsiçiliyə əsaslanan adətlərin yanlışlığından qaynaqlanmaqdadır.

Hansil oğlan uşağı dünyaya gətirə bilmədiyi üçün həyatı boyunca vicdan əzabı çəkir. Ər-arvad münasibətində də rahat ola bilmir. O, sadəcə qızların evlilik həyatında xoşbəxt olmaqlarını istəyir. Ancaq istədiyi kimi olmayanda üzüntülü günlər keçirir.

Ən böyük qızı Yongsuk dul qadının ikinci evliliyinin qadağan olunmasına razı deyildir. Özünü materialist istəklərə və anormal sevgi həyatına verir.

İkinci qızı Yongbin isə, yeni təhsil alan biri olaraq öz seçimiylə Hongseopla nişanlanır, amma onun başqa qıza aşiq olduğunu bilincə nişanını pozur.

Üçüncü qızı Yongran isə, sinif fərqi olduğuna görə sevgilisi Handoldan ayrılar. Yeonhakla bədbəxt evlilik yaşayır. Onun bədbəxtliyi əsilli biriylə xidmətçinin birləşməyinə izin verməyən konfutsiçilik quruluşundan qaynaqlanır.

---

[1] Romanla bağlı bax: Jeon 1982, Jeong a 1988, Jeong b 1992, Jeong c 1989, 1990, Jo 1997, Kim a 1991, Kim b 1991, 1995, Kim c 1988, 1994, Kim d 1996, Kim e 1990, Kim f 1992, Kweon 1992, Pang 1992a, 1992b, Park 1978, Seo 1987, Shin 1991, Song 1995.

Dördüncü qızı Yongok isə, atasının istəyinə görə evlənir. Əslində Yongranı sevməkdə olan Seo Kiduyla ərindən uzaq dayanır. Yongok da bu səbəblə xoşbəxt deyildir.

Ən kiçiyi Yonghe isə, atasının sevdiyi Yeonruma bənzədiyi üçün sevilir, amma bununla belə diqqətdən kənar buraxılır. Ailəsinin çəkdiyi kədər ona təsir edir.

Əczaçı Kim ailəsinin bədbəxt təcrübələri bilvasitə iqtisadi və sosial dəyişim içindəki əsilli sinfin dağılmağından, təbəqələşmə kimi çox sərt adət və ənənələrdən qaynaqlanmaqdadır. Burada qadınların olduğu vəziyyəti necə qavrayıb hansı bədbəxtliklə qarşılaşdığını incələməyimiz lazımdır. Qadınların faciəvi vəziyyətdən çıxmalarının, öz şəxsiyyət axtarışları ilə bağlılığı vardır:

	Konfutsiçiliyə aid adət və quruluşa qarşı duruş	Şəxsiyyət axtarışı
Qəbul etmək	Hansil və Yongok: Ailənin başçısına itaət edərək ailəsi üçün fədakarlıq göstərirlər.	Hansil: Fədakar bir ana obrazı Yongsuk: Pul qazanmağa meyilli obraz
Mübarizə aparmaq	Yongsuk: Cinsi istəyini qarşılamaq üçün zina edir. Yongbin: Sərbəst eşq həyatı Yongran: Sinif quruluşu və namus qavramına əks bir eşq	Yongbin: İntellektual fərd Yongok: İnanca əsaslanan fərd Yongran: İnstinktiv eşqə əsaslanan obraz.

Qadınların içində olduqları faciəvi vəziyyətə qalib gəlmə forması isə, feodal ailə münaibətinin sərhədlədiyi quruluş və adəti qavramalarına görə dəyişə bilər. Yuxardakı cədvəldə göründüyü kimi, Hansil və Yongok, konfutsiçiliyə əsaslanan adəti və quruluşu mütləq dəyər olaraq qəbul edərək ondan kənara çıxmırlar. Bununla belə, Yongsuk, Yongbin və Yongran isə mövcud quruluşdan kənara çıxmaq istəyirlər. Hansil və Yongokun öz münasibətlərini üstün

hesab etmələrinin əksinə, bu quruluşda olduqca rahat olan Yongsuk, Yongbin və Yongran isə, fərd olaraq hisləri üstün tuturlar. Bu halı şəxslərə görə nəzərdən keçirək.

2.5.2.1. Hansil və Yongok

Hansil ərinin biganəliyindən şikayətçidir, bunu özünün bir oğlan doğmadığına bağlayaraq sadəcə qızlara baxmaqla məşğul olur.

Yongok da özünün seçimi olmayan Seo Kinduyla evlənir. Bədbəxt evlilik həyatından məmnun deyildir, amma ailəsi üçün fədakarlıq edir.

Hansil və Yongok konfutsiçiliyə söykənən dəyər qanununa görə hərəkət edirlər, şəxsi istəklərini gizlədərək yaşayırlar. Ailə münasibətinin yüklədiyi ana və ya həyat yoldaşı roluna özlərini verərək fərd olmağa çalışırlar. Beləcə, ikisi də ailə münasibətində üstün şəxsiyyət formalaşdırırlar. Başqasıyla olan münasibətə önəm verən şəxsiyyət axtarışı isə Hansil üçün ana sevgisi, Yongok üçün isə qatı inanc olaraq göstərilir.

Hansilin ana sevgisi nüfuza bağlı ər-arvad münasibətindən qaynaqlanan qədər və sevgi əskikliyindən gələn bir münasibətdir. Hansil qısqanc Yongoku və xidmətçisilə münasibət yaradan Yongranı da sonsuz dəstək və sevgi ilə qucaqlayır. Nəticədə Hansilin analıq sevgisi Yongran və Handolun qaçmaqlarına kömək olmaq üçün gecə qızıl cehizləri götürüb onlara gedərkən Yeonhak tərəfindən öldürülür.

Yongokqatı xristian inancına əsaslanaraq olduğu vəziyyətdən çıxmağa çalışır. Yongok getdikcə dağılan ailəsinə və ərinin ailəsinə təkcə baxır. Ərindən çox da diqqət görməyən Yongok, sadəcə mütləq bir gücə əsaslanaraq fədakarlıqla bədbəxtliyə qalib gəlməyə çalışır:

"Bütün gün Yongbin yatıb-qalxmağı bir neçə dəfə təkrarladı. Heç özünə gələ bilmədi. Əczaçı Kimin ölməyini gözləyən Yongbin üçün Yongokun ölümü böyük dərd gətirdi. Yongok həyatda ikən özü haqqında heç bir şey deməzdi. Fəqət Yongbin, onun bədbəxt olduğunu bilirdi. Bu, Yongokun evləndikdən sonra sadəcə xristiyanlığa özünü həsr etməyindən aydın idi." (Park 1997: 759).

Fiziki və psixoloji təzyiqə qarşı müqavimət göstərməyən və mücadilə etməyən qadınlar üçün Tanrı və kilsə olduqları vəziyyəti unudub təsəlli tapa biləcəkləri tək yoldur. Yongok üçün də eyni şey keçərlidir. Onun dini inancı Tanrıyla ilahi münasibətdə olmaqdan ziyadə gerçək həyatdakı təzyiq və problemləri üstələməsinə yardımçı olmuşdur. Özünü Tanrıya həsr edərək çəkdiyi dərdi unutmaq istəyən Yongok, qayınatasının təcavüzü kimi bir təhlükədən qurtulduqdan sonra düşdüyü vəziyyətdən çıxmağa çalışır. Körpəsini qucağına alıb Pusana gedib ərinə olanları anlatmağı düşünür. Burada Yongokun sadəcə ağlamaq və ya özünü öldürmək kimi passiv həqarət etməməyi qəribədir. Fəqət Yongokun bu aktiv hərəkəti, onun ərini görə bilmədən Tongyonga dönərkən keçirdiyi qəzada ölməsilə faciəvi bir şəkildə nəticələnir.

2.5.2.2. Yongsuk, Yongbin, Yongran

Bu üç qadın şəxsi istəkləri üstün tutan aktiv insanlardır. Kimin böyük qızı Yongsuk dul qaldığı üçün təzyiq altında saxladığı cinsi instinktini söndürmək məqsədilə evli bir adamla münasibətə girir və heç vicdan əzabı çəkmir. Zina və cinayət cəzasıyla həbs olunur. Məhəllə sakinləri tərəfindən çox sərt bir şəkildə tənbeh edilir, amma heç gözü qorxmur.

"Keçən il ərinin dəfni olmuşdu. Görünüş və ya davranışlara görə onda heç əskiyi olmayan zəngin və əsilli bir xanım ab-havası vardı. Bir dul qadın olaraq dərdi-kədəri filan da yox idi. Tam əksinə yaşamaq istəyən, həyata düşkün bir qadın olduğu çox aydın idi." (Park 1994: 636).

Yongsuk həbsxanadan çıxandan sonra pul toplamağa başlayır. Ona görə, "həyatda ən önəmli şey puldur". Bu səbəblə əsilli qadınların etmək istəmədikləri alış-verişlərdə böyük bacarığını göstərir və pul qazanır. Ona görə Kim Seongsu problemsiz bir ailə başçısıdır, sadəcə nüfuza sahibdir. Bu səbəblə, Yongsuk Kimseongsuyla əks münasibətdədir:

"Əczaçı Kim böyük qızı heç sevmədi. Kiçikliyindən bəri onu sevmədi. Normalda o qızlarına çox hirslənməzdi, amma tək Yongsukla pis davranırdı." (Park 1994: 638).

Yongsuk pul gücüylə evin və ailənin problemlərini həll etməyə çalışan aktiv və müasir bir qadın xüsusiyyətinə sahibdir. An-

caq Yongsukun pul toplamağı sadəcə eqoizmdən qaynaqlandığı üçün, insanlar tərəfindən xoş qarşılanmır. İnsanların ona pis gözlə baxmaqları, mövqeyini tənqid etməklə birlikdə bir qadının sərvətinin çoxaldılmasına qərəzli baxan, o dönəmin sosial şərtlərini göstərir.

Yongsuk Tongyong deyilən bir faciəvi ünsürdən sona qədər özünü qoruya bilən bir şəxsdir. Ona sonuna qədər yaşamaq gücü verən sadəcə puldur. Bu əsərin obrazlarından sadəcə iki şəxs ölməyib həyatda qalır: Yongsuk və Yongbin. Yongbin Tongyongdan ayrılmaqla faciəvi vəziyyətdən çıxmağa çalışır. Yongsuk isə Tongyongda qalaraq faciəvi vəziyyətlə mücadilə edir, əvvəl-axır ona qalib gəldiyi düşüncəsi yaradır.

Yongsukun iqtisadi gücü sayəsində öz statusuna hakim olmağına rəğmən, Yongbin intellektuallığı ilə psixoloji və iqtisadi müstəqilliyə qovuşur. Yongbin nişanın pozulmasına da səbrlə dözür. Kiçik qardaşı Yongheyi oxutmaq üçün Seula aparan bir bacı kimi məsuliyyəti üzərinə götürür. O dönəmdə nadir hallarda rast gəlinən oxumuş və elit bir xanım olan Yongbin tipik intellektual bir qadındır. Yongbin ailədəki qadınların bədbəxt evliliklərilə də maraqlanır; anası Mansilin Kim Seungsudan lazım olan diqqəti görmədiyinə kədərlənir.

"Yongbin nə zamandan etibarən özünü qədərci hesab etməyə başladı. Fəqət qədərci olmayan özünü tapmaq üçün də çox çalışmışdır." (Park 1994: 743).

Yongsuk və Yongranın ya maddi güclə ya da intellektuallıqla olduqları faciəvi vəziyyətdən qurtuluş yolu axtarmaqlarına rəğmən, Yongran instinktiv istəklərə görə hərəkət edir. Narkotik alan Yeonhakla evlənməyi və əri tərəfindən şiddət görərək yaşamağı Yongranı bədbəxt edir. Belə olmağına baxmayaraq Yongran yenə şikayətçi deyildir. O, hər günkü həyatında nəşəli olmağa çalışır. Yongran üçün önəmli olan "yaşamağın" özüdür. Handolun məmləkətinə geri qayıdandan sonra onunla qaçmağı sınayır. Onların ardınca qaçan Yeonhank Handol və anası öldürülür. Bu hadisənin nəticəsində Yongran dəli olur.

Yongranın ən diqqət çəkən özəlliyi uşaq kimi saf olmağıdır. Yongran üçün instinktiv olaraq cinsi istəklərini qarşılamaqdan əlavə heç bir şey problem deyildir. Xidmətçisiylə cinsi münasibətdə olaraq hər kəs tərəfindən qınaq və lağ obyektinə çevrilir,

kənarlaşdırılır, amma özünə görə isə, utanılacaq bir vəziyyət yoxdur:

"Kate müəllimin bəlkə də peşmanlıq duyğusu vicdanla bağlıdır, amma Yongranda elə bir şey yoxdur. O vicdan əzabı çəkmir. O heç kədərlənmir, ağlamır da" ..."O aşiq olmaqdan ziyadə hisslərə, istəklərə görə hərəkət etdi. Onu günahlandırmaq yerinə .... bilmirəm ... Bir axmaq kimi saf olan onun insanlıq duyğusundan bəlkə də elə hiss edirəm" ... "Onun görünüşündən mən heç bir zaman pislik duymadım. Tanrıdan gələn çox gözəl yaradılışına görədirmi əcaba? Hər halda yaxşılıq və pislik hər zaman aşkar olmuşdur. Amma özü pisliyi hiss etmədiyi müddətcə bizim onu döyməyimizə gərək vardırmı? O qadın bircə Tanrı önündə günahkar olar. Bütün bunlar sadəcə bizim düşüncəmizdir. O elə bir şey bilməz. O sadəcə bu dünyada var olmuşdur. Əgər Tanrı ona ruh ilə bədəni birlikdə vermədən, instinkt və bədəni verdisə, onu cəzalandıra bilərikmi? Hər kəs onu cəzalandırmaqdadır. Amma o kədərlənməz. Çünki o bilməz. Cəzalandırılmaqda olan anam, atam və bizik." (Park 1994: 647-648).

Bunlar Yongbinin baxış bucağına görə Yongranın tərifləmməyidir. Yongran bir tərəfdən cin kimi safdır, digər tərəfdən də dişi heyvan kimidir. Yongran təbiət içində bir varlıq olaraq yaşamaqdadır. Onun pisliyi və yaxşılığı ayıra biləcək gücü yoxdur. Bu səbəblə Yeonhakın bir anlıq zalım hərəkəti Yongranın varlığını dağıtmaqdadır.

Bunun kimi qadınların fərqli yaşayış formaları feodal ailə münasibəti və sinif quruluşundan yaranan yanlışlıq və təzyiqi qəbul şərtlərinə görə dəyişir. Patriarxal quruluşa əsaslanan ailə münasibətinin yanlış tərəflərinə görə dağılmış və zədə almış qadınların faciəvi yaşayışı onlara görə fərqli həyat forması yaradır.

2.6. Seokyung Kang[1]– "Meşə içində otaq"[2]

2.6.1. Özət

Soyang universitet tələbəsidir. Bir gün ailəsinə heç bir şey demədən gizlin şəkildə universiteti atır. Bacısı Miyang evlilik hazırlığına görə işlədiyi bankdan istefa edir. Soyangı təqib edir. Soyangın dostları ilə görüşərək onun universiteti tərk etmək səbəbini öyrənməyə və problemlərini həll etməyə çalışır.

Bir gün Soyangın gündəliyini oxuyan və onun üçün narahat olan Miyang dayana bilmir və Soyangın ola biləcəyi Jongro küçəsinə çıxır. Orada Soyangı özünü orta yaşlı bir kişiyə satarkən görür. Soyang ağlayaraq insanların arasına qarışır.

Bir neçə həftə sonra Miyang evlənir, əriylə birlikdə bal ayından sonra ailəsini yoluxmağa gəlir. O gün Soyangın otağında bacısının cəsədi ilə qarşılaşır.

2.6.2. Qadın xarakterlər

Bu əsər 1985-ci ildə yayımlanmışdır. Ülkücü gənclərin arasında yaşayan, nə ülkücü bir tələbə qrupuna, nə də həddindən artıq milliyyətçi qrupa qatıla bilən bir gənc qızın böhran nəticəsində intihar etməsi, bu romanın mövzusu olmuşdur.[1]

2.6.2.1. Soyang

Bu romanda Soyang adlı bir universitet tələbəsinin məktəb, ailə və cəmiyyətdə axtarıb tapa bilmədiyi xoşbəxtlik səbəbindən intiharla nəticələnən həyatı təsvir olunmaqdadır. Soyang görünüşdə son dərəcə rahat bir yaşam sürməkdədir. İqtisadi baxımdan heç bir problem yaşamayan Soyangın özünü niyə öldürmək istədiyi, bəlkə

---

[1] Kang Seokyung (1951–) Taguda doğulmuşdur. İhua Universiteti İncəsənət fakültəsi məzunudur. 1974-cü ildə "Ədəbiyat düşüncəsi" dərgisində "Gun" əsərinin yayımlanmağı ilə yaradıcılıq fəaliyyətinə başlamışdır. "Çalışan sənətçilər", "İbrahim, İbrahim" kimi əsərləri vardır.

[2]Təhlillərdə romanın 1987-ci il 8-ci nəşrindən istifadə olunmuşdur.

[1] Romanla bağlı bax: Jeon 1982, Jeong a 1992, Jeong b 1989, 1990, Jo 1997, Kim a 1991, Kim b 1991, 1995, Kim c 1988, 1994, Kim d 1996, Kim e 1992, Kweon 1992, Pang 1992a, 1992b, Pyun 1991, Shin 1991, Song 1996, Yi 1990.

də romanın birinci dərəcədəki məqsədidir. Yazar bunu eədrkən 80-ci illərdəki gənclərin problemlərini göstərmişdir:

"Tələbələr məktəb xərcini ödəməyə gedirdilər. Soyang da onların içərisində idi. Məktəbin qapısından içəri girəndə, bağçadakı qırmızı çiçəklər gözünə sataşdı.

Rəng qırmızı bir işıq qədər qüvvətliydi. Soyang, dalğalar kimi çırpınan çiçəklər səbəbindən boğulacağını hiss etdi.

Bax,bunun üçün məktəbi tərk etmiş, səbəb budur!" (Kang 1987: 15).

Bu romandakı konflikt Soyangın heç bir səbəb yoxkən məktəbə ara verməsi ilə başlayır. Soyang sadəcə məktəb bağçasındakı qırmızı çiçəklərdən narahat olur və universiteti atır:

"Soyang açıqlanacaq bir səbəb olsa, mən də sevinərdim, amma yoxdur, deyir. Onu anlamağa çalışıram, amma anlamıram" (Kang 1987: 16).

Soyangın davranışlarını ailədə anlayan yoxdur. Ümumilikdə məktəb həyatı boyunca çox bacarıqlı bir tələbə olan Soyanga hər kəs çox güvənmişdir və onun yaşadığı problemlərdən heç kimin xəbəri yoxdur.

Elə isə onu bu qədər depressiyaya və daxili münaqişəyə sürükləyən səbəblər nədir?

İlk öncə Soyangın ailə içindəki yerinə baxmağımız lazımdır. Soyang nənəsi, anası-atası və onların uşaqlarından formalaşan üç nəsli əhatə edən bir ailənin övladıdır.

Nənəsi yaşlı insan kimi çətin günlər yaşamış bir nəslin nümayəndəsidir. Bu nəsil üçün həyatı davam etdirmək naminə özlərini satmaq və yaltaqlıq etmək önəmli bir metod olmuşdur. Nənə çox zəngindir. Coşğuyla kilsəyə gedir və yaşına uyğun olmayan bəzək əşyaları ilə bəzənir. Soyang nənəsini bu sözlərlə səciyyələndirir:

"Çürük burjuaziyalılar, özlərindən razılar yalnızlıqdan qaçmağa çalışırlar. O yaşdakı birinə bu cür alt paltarları yaraşırmı ki? Həyatdakı yanlışlıqları öyrənsələr belə, o yaşda intihar edə bilməzlər…" (Kang 1987: 48).

Bir toplum və ailə içində zəmin yaratmalı olan bu böyük nəsil, sadəcə öz səhhəti və geyimlərilə məşğuldur. Bu səbəbdən nəsil içində kənarlaşdırılan bir ailədir.

Ailə və toplum içində ən güclü olan nəsil isə, Soyangın atasının nəslidir. Gənc nəslə qarşı daim zidd mövqedədir. Savaş təcrü-

bəsi olan bu nəsil iqtisadi baxımdan sıxıntılı günlər yaşamışdır. Bu səbəbdən gənclərin maddi sıxıntıdan əlavə problemlərini çox anlaya bilmirlər. Atası Soyang universiteti tərk edəndən sonra illiyi bir yerə xərcləyəndə "Bir kişiyəmi verdin? Bir də nümayişlərə qatılanları öldürmək məcburiyyətindəyik" deyə sərt bir şəkildə etirazını bildirir. Soyangla atası arasında ziddiyyətin olmağı çox təbii bir haldır.

Atası ilə eyni nəsildən olan anası isə, fərqli özəlliklərə sahibdir. Fəqət yenə də sadəcə atasının qorumasındadır:

"Soyangın problemləri həll etməsində anasının duruşu artıqlaması ilə passiv qalmışdır. Səhəri gün ona telefonla zəng etdiyimdə o, sadəcə şikayət etdi. Dünən axşam atama Soyangdan bəhs etdiyim üçün bugün ailədə səs-küy çıxacağına kədərlənirəm" (Kang 1987: 28).

Bu səbəblə, üçüncü nəsil olan Soyang, öncəki nəsil fərdləri ilə psixoloji əlaqə yaratmadan, ziddiyyətlərin hakim olduğu bir rabitə qurmuşdur. Bu, üçüncü nəsil olan Soyang üçün ailə içində narahat bir mühitdir:

"Biz böyüdükcə bir-birimizə qarışmadan sadəcə öz işlərimizə baxdıq. Buna imkan verən, hamımızın öz otağının olmağıydı" (Kang 1987: 23).

Soyang ailə içərisində tamamilə dörd divar arasında yaşamışdır. Ailəsində sığınacağı bir kimsəsi yoxdur.

Dostları arasında daha ciddi davranışları olan sadəcə Myungju və Kyungoktur. İkisi də özlərinə görə doğru bir həyat yaşamaqdadır, amma ikisi də əks istiqamətdədir.

Myungju tələbə hərəkatına qoşularaq cəmiyyət üçün gəncliyini fəda etmişdir. Cəmiyyətdə yaşanan bütün yanlışlıqlara qarşı mübarizə aparır və fabrikdə fəhlə kimi çalışır. Soyang Myungjunun həyat anlayışına ürəkdən qatılır, amma həyat tərzini qəbul edə bilmir:

"Tələbə hərəkatı, sənə bu qədər lazım idimi? Bəlkə yüksək təbəqədən olduğun üçün havadan danışırsan. Özün bilmədən başqasına necə öyrədə bilərsən? Tələbə hərəkatına qatıla bilərsən, amma başqasının problemləri və dərdlərini də anlamaq məcburiyyətindəsən. Sadəcə sizmi şüurlusunuz bu cəmiyyətdə…" (Kang 1987: 42).

Soyang üçün tələbə hərəkatı "elita" deyilən qrupun özünü ön plana çıxarmağından başqa bir şey deyildir. Bu, həyatdan da o tərəfə fərqli bir gerçəyin olduğunu düşünmədən savaşan, insanlıqdan kənar bir ideologiyadır. Soyang bir dəfə nümayişə qatılır və bunun nəticəsində psixoloji depressiyaya girir. Bu depressiya uzun müddət davam edir. Çünki onun həll etməli olduğu daha vacib məsələlər vardır. Bu səbəblə Myungju kimi fabrikdə çalışmaq yerinə gecə barında işləməyi sınayır. Bar da onun üçün yaşamı öyrənə biləcəyi bir yer olur:

"Soyang gerçəyə baxa bilmir, ancaq hər zaman iç konflikt halındadır. Bu qarşıdurmanı ətrafa hiss etdirmir. Fəqət özü dəyişmək istəyir. ... Soyang özünü məhv etməyə çalışır, çünki həllini tapa bilmir. Mən hər zaman bu nöqtəni tənqid edirəm" (Kang 1987: 89).

Yuxarıdakı danışıq Myungjunun Soyang haqqındakı tənqidi fikridir. Soyang Myungjunun fikirləri ilə razılaşır və özünü tamamilə tələbə hərəkatına verməkdən çəkinir.

Kyungok isə eqoist bir həyat seçmişdir. Bir yeməkxanada əlavə işçi olaraq çalışır, sonra da sevgilisi ilə gecələr küçələri gəzir. Toplumun önəm verdiyi əxlaq dəyərini rədd edərək istədiyini etməkdə göstərdiyi qətiyyətlə yeni nəslin həyatını yaşayır. Soyang Myungjudan daha çox Kyungokun həyatına yaxınlaşmağa çalışır, amma bacara bilmir. Görünüş olaraq Soyangın həyatını bəlkə Kyungokun yaşamına bənzədə bilərik, amma əsas olaraq bu həyat tərzləri fərqlidir. Onların Jongro prospektində yaşadıqları mənasız həyata qatılmaq Soyang üçün özünü əzaba salmaqdan başqa bir şey deyildir.

Beləcə, Soyang, tamamilə iki zidd həyat anlayışı arasında özünə uyğun doğru yolu tapa bilmir. O onlar arasında üçüncü həyatı axtaran biridir.

"Başımı Myungjuya verirəm, amma ayağımı Kyungoka vermək istəyirəm. Ağıla hörmət edirəm, amma duyğu daha asandır. Mənim bacarıqlı olmağımı əvvəllər insani bir şey deyə qəbul edirdim, amma daha ayaq üstdə durmağa gücüm qalmadı..." (Kang 1987: 101).

Bu dünya dilemma məntiqi üzərində qurulmuşdur. Ağ və qaranın gerçək olaraq qəbul edilməyi halda bunların arasında qalmaq

məntiqsizlik olar. İki zidd qütbün görüşdüyü yerdə Soyangın yeri yoxdur.

Soyangın sevgilisi Jaehyung və Heejung da bir növ zidd qütbdə olan insanlardır. Soyang həyatında eşq və cinsəllik problemlərinə qarşı tamamilə laqeydlik sərgiləyir. Kişilərlə olan münasibətlərində Soyang özünü təsəlli edəcək heç bir nöqtə tapa bilmir. Bu vəziyyət Soyangı daha böyük yalnızlığa sürükləyən bir səbəb olur:

"Heejungun məndən istədiyi sadəcə seksdirmi? Mənim ondan istədiyim, zaman öldürməkdirmi?...Heç kim üçün darıxmıram." (Kang 1987: 72).

Yuxarıdakı cümlələr Soyangın gündəliyindən bir parçadır. Soyang Heejungla özü arasındakı səthi münasibətlərdən sıxılır.

Uzun bir axtarişdan sonra Soyang "heç kim üçün darıxmadığına görə" ümidsizliyə qapılır və darıxıb da qovuşa bilmədiyi heç nəyin olmadığını anlayır. Soyangın ölümü gündəliyinə yazdığı bu sözlərlə aşkarlanır:

"Bir az öncə makyaj dəstimdən "Vanity bağ" kəlməsini tapdım. Boş mənasında olan "vanity" kəlməsi xoşuma gəldi. Boş sahələrdən ən boş olan duyğudur. Yaşamaq sadəcə bunun kimi duyğudan başqa bir şey deyildir." (Kang 1987: 85).

"Mən bir şeir yazmaq istəyirəm, amma yaza bilmirəm. .... Qaranlıq içindən mənə baxan bir mən var, mənə daim xəyanət edir. Boş deyib qışqırır, boş...." (Kang 1987: 107).

Nə idealist tələbələr arasında, nə də artıq dərəcədə millətçi gənclər qrupu içərisində yerini tapa bilməyən Soyang intihar edərək həyatını itirir.

2.6.2.2. Miyang

Bu romanda gerçəyin bir çox tərəfini tanıyan Soyang və "Mən"dir. Digər şəxslər isə gerçəyin sadəcə bir qütbünü seçərək onun özəlliyini əks etdirirlər. Bu səbəbdən digər şəxslər gerçəyi göstərənlər; Soyang və "Mən" isə o gerçəyi görənlərdir. Yəni, Soyang baş qəhrəman olaraq, bir çox gerçəyin əskik tərəflərini göstərmək üçün yazar tərəfindən seçilən insandır. Bu səbəbdən Soyang az da olsa ideal bir tip olaraq görünməkdədir. Buna görə Soyangı 80-ci illərin tipik bir gənci olaraq ümumiləşdirmək bir az

çətindir. Həmçinin, Soyangın dostları da gənclərin ümumi xarakterini ifadə edə bilmirlər. Elə isə 80-ci illərdəki gəncləri göstərə biləcək şəxs kimdir? O həm Soyangın böyük bacısı olan, həm də romanı nəql edən Miyangdır. Miyang bu baxımdan romanın digər qəhrəmanıdır.

Miyangın şəxsiyyəti, üç bacı arasındakı münasibətdən də aydın olur. Üç bacı eyni paraleldədir. Ortancıl olan Soyangın gerçəyə qarşı son dərəcə üsyankar olmasına baxmayaraq ən kiçikləri Heyang cəmiyyətə asanlıqla uyğunlaşan bir şəxsdir. Ən böyük olan Miyang isə, ikisinin arasındadır. Miyang hər nə qədər Soyangla bənzər təcrübələrə sahib olsa da, Heyangla eyni həyat stilini sürdürmüşdür. Yəni o, gerçəklə idealı ayıra bilən normal bir insan örnəyidir.

"Fəqət mənim bir pianoçu olmaq kimi ehtirasım yoxdu. Mən daha çox universitetdən məzun olduqdan sonra iyun gülü kimi bir gəlin olmağı xəyal edərdim. Bax, bunlar qadının həyatı deyilmi? ...İndiyə qədər yetişdirdiyim gəncliyim və gözəlliyim sadəcə mənim üçün olanlar deyildi..." (Kang 1987: 56).

Miyang Soyangı anlamağa çalışarkən əvəzində özünü nəzərdən keçirmə fürsəti də əldə edir. Öz həyatını bir kişiyə təslim etmədən öncə gəncliyini və gerçəyin problemlərini beynində yenidən çək-çevir edir. Evlənmədən bir gecə öncə diskotekaya gedir, orada çox saf bir gənclə tanış olur, amma bu vəziyyətdə bir dəfə də öz həyatını sorğuya çəkir. Bu fürsətlə şəxsiyyətini incələyir və ertəsi gün evlilik mərasiminə qatılaraq normal xoşbəxtliyə sığınır.

Miyang Soyangın kədərini və yalnızlığını anladığı halda, mücadilə etmədən cəmiyyətin qayda-qanunlarına bağlı qalmağı bacara bilən cüt yönlü bir insandır. Burada çox normal və həqiqi bir qadın özəlliyini görməyimiz mümkündür. Miyang radikal dərəcədə mübariz və həqiqi mənada gerçekçi olmayan normal bir həyat tərzinə sahib şəxsdir.

Miyangın həyat anlayışı, Soyangın ölümündən sonra bu sözlərlə xülasə edilir:

"Nə axmaq bir hadisə! İntihar etmək bir çıxış yoludurmu? Əgər özünü bir az rahat qoysaydı, belə qan tökməyə heç gərək qalmazdı. Gənclik bir tələ deyil, sənə bir qanad ola bilərdi." (Kang 1987: 129).

Yuxarıdakı alıntı Miyangın Soyanga yönəlik daxili monoloqudur. Miyang gəncliyin Soyangı bir tələ halında ölümə aparmağına kədərlənir; onun yaşadığı problemin özünü öldürməklə həll olmayacağını düşünür. Soyang romanda dövrümüzdə Koreyada aydın gəncin bir nümunəsini, eyni zamanda toplumun yanlış formalaşdırılan quruluşa baş qaldıran mücadiləsini təmsil edir. Miyang da olanlara seyrçi qalmaqla yetinsə belə, bu problemləri Soyangla birlikdə yaşayan bir gəncdir.

2.7. Vanu Kim[1] – "Üç bacının hekayəsi"[2]

2.7.1. Özət

Bu romanın baş qəhrəmanı olan Ben mühafizəkar bir xristian ailəsindən gəlir. Pedaqoji fakültəsindən məzun olduqdan sonra liseydə çalışmağa başlayır.

Bir institutda araşdırmaçı olaraq çalışan Ben evlidir və bir uşaq sahibidir. Gənc qadın tipik bir orta təbəqə nümayəndəsidir. Oxumuş bir qadın olmasına baxmayaraq, xanımların çöldə gəzməyini günah olaraq görən qayınanasına qarşı çıxmayaraq müəllimliyi buraxır və ev xanımı olaraq həyatına davam edir.

Eyni Pedaqoji fakültəsindən məzun olan Myunghe boşanmış bir qadın olan anası və iki bacısı ilə yaşamaqdadır. Atası polis vəzifəsində çalışdığı dönəmdə aldığı rüşvətlər sayəsində varlı bir yaşam sürməkdədir. Gənc bir qadınla yenidən evlənmiş, üç oğlu olmuşdur. Anası sigortaçı kimi çalışır, sonradan ayaqqabı satmağa başlayır, bu işdə uğurlu olmayanda Myunghe əlavə işlərdə qazandığı pulla ailəsinə kömək edir.

Myunghe aşiq olduğu kişidən hamilə qalır və ona boyun əyməyib abort etdirmək məcburiyyətində qalır. Xristian olan Mən də, kişi ağalığının hakim olduğu cəmiyyətdə öz həyatını qorumağa çalışan Myunghenin mücadiləsindən duyğulanır.

---

[1] Kim Vanu (1947–) Koreyanın Kyungsangnamdo şəhərində doğulmuşdur. Kyungbuk Universitetinin İngilis ədəbiyyatı fakültəsini bitirmişdir. Daha sonra Seogang Universiteti Koreya ədəbiyyatı fakültəsində magistrlik oxumuşdur. 1977-ci ildə Koreya ədəbiyyatında "İmji" romanının nəşri ilə yazarlığa başlamışdır. "Üç bacının hekayəsi", "Həyat təcrübəsi", "Heyvanların zamanı" kimi əsərləri yayımlanmışdır.

[2] Təhlildə romanın 1988-ci il tarixli 2-ci nəşrindən bəhrələnilmişdir.

2.7.2. Qadın xarakterlər

1988-ci ildə yayımlanan bu əsərdə orta təbəqədən oxumuş qadınların yaşadıqları yaşam sıxıntıları əsas mövzu olaraq işlənilmişdir.[1]

Bu roman kişi bir yazarın qadın problemlərini əsərin əsas mövzusu olaraq işlədiyi üçün maraq doğurur. Yazar romanda günümüzdəki qadınların kişilər tərəfindən məruz qaldıqları əziyyətləri, bunun nəticəsində yaşadıqları ağır şərtləri və acıları ortaya qoymuşdur. Yazar əsərdə qadın məsələlərini göstərməklə birlikdə, bunlara həll olacaq bir zəmin hazırlamağa çalışmışdır. Kişi yazar Kim Vanunun məqsədli olaraq qadın məsələləri ilə maraqlanmağı, günümüzdə kişilər tərəfindən qadın mövzusunun ciddi bir şəkildə dərk edildiyini gündəmə gətirir.

1969-cu ildə Amerika alimi Betty Friedan, ABŞ-da orta təbəqəyə aid oxumuş qadınların yaşadığı psixoloji böhranları, qadın mistikası (feminine mystique) olaraq dəyərləndirmişdir (Friedan 1978b). Friedan II Dünya savaşından sonra inkişaf etmiş kapitalist cəmiyyətlərində qadınların sadəcə uşaqlara, ərlərə və ev işlərinə baxmaq kimi işlərlə özlərini sərhədləmələrini "qadının sirri" olaraq açıqlamışdır. Betty Friedan qadınların təhsil və çalışma haqlarını qazanmaqları ilə bir problemlərinin həll olunacağını vurğulamışdır.

2.7.2.1. Yonge

Açıq şəkildə bildirilməsə də, bu əsərdə hadisələrin Koreyada sənayeləşmənin möhkəmlənməkdə olduğu 1970-ci illərin sonunda baş verdiyi təxmin edilir. Həm baş personaj, həm də əsəri danışan "Mən" (Yonge) Pedaqoji fakültəsinin İngilis dili bölümünü bitirdikdən sonra Seuldakı bir orta məktəbdə çalışır. Bu arada ənənəvi elçilik üsulu ilə evlənir, iki uşaq sahibi olur və işindən ayrılır. Ağanın oğlu olan əri İqtisad fakültəsindən məzun olmuş və dövlətə bağlı bir institutda çalışmaqdadır. Əslində olduqca yaxşı iqtisadi imkanlara malikdir. Görünüşdə heç bir problem olmadığı halda Yonge, monoton həyatın gətirdiyi sıxıntıdan böhran keçirir və hər gün kilsəyə gedib dua edərək özünə təsəlli verməyə çalışır. Onun daxili böhranını

---

[1] Romanla bağlı bax: Jeong 1992, Jo 1997, Kim a 1991, 1995, Kim b 1988, 1994, Kim c 1996, Kim d 1992, Kweon 1992, Pang 1992a, 1992b, Pyun 1991, Song 1996, Yi 1990.

Betty Friedanın vurğuladığı qadın mistikası (feminine mystique) olaraq açıqlamaq mümkündür.

Yazar Yongenin böhranının səbəbi olaraq onun və dostu Myunghenin universitet günlərindən sonra yaşadıqları çətin və sərhədli həyatı göstərir:

"Mən çalışma həyatımın zor olmasından daim şikayət etmiş ola bilərəm. Amma o günlərdə yenə xoşbəxt idim. İş sahibi və iqtisadi gücə sahib biri olaraq məmnundum." (Kim 1988: 51).

Yonge iqtisadi baxımdan çox zəngin olmasa da orta məktəb müdiri və kilsədə çalışan mühəfizəkar bir atanın ən böyük uşağı olaraq böyüyür. Universitet, çalışma və evlilik həyatında çox uğurlu olmayan Yonge evləndikdən sonra ev xanımı olur. Çalışma həyatının çətinliyindən şikayət etsə də, sənət sahibi olmağın gətirdiyi iqtisadi rahatlığı anlayan Yonge qayınanasının məcbur etməsilə iş həyatından əl çəkən bir insan olaraq yaşamağını əngəlləyən qayınanasının əmrinə daxilən qarşı gəlsə də qəbul edir. Çünki Yongenin ənənələrə qarşı çıxacaq qədər cəsarəti yoxdur. Fəqət zahiri görünüşdə nə qədər soyuqqanlı görünsə də iç böhranlar yaşayır. Bu daxili sıxıntıları kənara vurmamaq üçün daim xoşbəxt görünməyə çalışır:

"Öncədən təxmin etdiyim kimi məndən iki mövzuda söz verməyimi istədi. Evlənmədən öncə iş yerindən ayrılacağımdan və daha çox oxumağa çalışmayacağımdan əmin olmaq istədi. Qəbul etməyim çətin, amma anlamağım mümkündü: Xüsusilə, onun anası bunu çox istəyirdi. Anası "qadın və boşqabları kənara verməmək lazım" deyirdi, qadının qədəri kişiyə bağlıdır." Mənim elm mövzusunda ehtirasım yoxdu, çox ağıllı da deyildim. İqtisadi baxımdan da rahat olmadığım üçün oxumağa davam etməyi istəmədim. Fəqət müəllimliyə davam edərək müdür olmaq istərdim….

Mən anasının məcburiyyətinə sadəcə gülümsədim və onun geridə qalmış fikirlərinin hamısına qulaq vermiş olsaydım mədəm bulanırdı…" (Kim 1988: 61).

Yonge passiv görünüşündən fərqli olaraq tənqidi bir şüura sahibdir. Qayda-qanunlara və cəmiyyətə görə yaşamağını istəyən mühafizəkarlığı içindən daim tənqid etməyi onu psixoloji böhrana sürükləyir.

Xüsusilə, evlilik həyatındakı bədbəxtliyi onun özünü dinə verməsinə səbəb olur. Əriylə arasında sayğı və insani bağ olmadan

davam etdirdiyi evliliyi, ərinin cinsi fanatizmilə daha böyük bir çıxılmazlığa girir. Onun öz istəyi olmadan ərinin istəyi məcburiyyətində yaşadığı cinsi həyatı "təcavüz" kəlməsi ilə açıqlana bilər. Cinsi obyekt halına düşən özünü "bir heyvan eti" olaraq görür. İki insan arasında sevgi olmadan yaşanan cinsəllik, çox heyvanca bir hadisədir. Bu vəziyyətdə kişi cinsəlliyə razı ola bilər, amma qadın bir utanc duyğusuna qapılmışdır:

"Anasının evinə qayıtdığı gün onunla mənim aramda cinsi əlaqə olmuşdu. Mən utanc duyğusuyla titrəyərək özümü ona tamamilə təslim etdim. Vücudum mənim deyildi. O da mənə aid olan özəl bir şəxs deyildi. Mən də özəl bir qadın deyildim. Sadəcə özəl bir məqsədlə istifadə edilən bir dişi idim. ...O, cinsəllik mövzusunda hakimiyyət qurmaq istəyən bir kişidən başqa şey deyildi." (Kim 1988: 65).

Mary Wollstonecraft qadınların ağılları bahasına gözəlliklərini və "duyğularını" inkişaf etdirməli olduğu fikrini müdafiə edir. Çünki özlərini iqtisadi olaraq ortaya qoymalarının və müəyyən bir ölçüdə güc əldə etmələrinin tək yolunun bir ər tapmaq olduğunun fərqindədir. Fəqət Wollstonecraft bunun fahişəlik olduğunu iddia edir:

"Qadınlar duyğularının köləsi olur, çünki mövcud güclərini həssaslıqları ilə əldə edə bilirlər və həyatda yüksələ bilmək üçün evlənmələri lazımdır, bunun üçün zamanları bu işə həsr olunmuşdur və bu insanlar, ümumiyyətlə. qanuni fahişəlik etməkdədirlər." (Donovan 1997: 29).

Mary Wollstonecraftın qadınların haqlarını müdafiəsi feminist teoremin klassiki olaraq qəbul edilməkdədir. Əsas iddiası, qadının kölə qalmasındakı səbəbin, inkişafına əngəl yaradan və həyatdakı gerçək məqsədinin kişiyə xidmət etmək olduğunu öyrədən ictimailəşmə müddətindəki yanlışlıqdır (Donovan 1997: 28).

Sadəcə kişi tərəfindən yönləndirilən eqois təlaqə isə patriarxal cəmiyyətin qadına bir mal olaraq baxdığını ortaya qoymuşdur. Yazar Yongenin dili ilə kişilərin tək tərəfli və eqoist cinsi həyatlarına tənqidçi bir baxış bucağı gətirmişdir.

"Hər zaman belə, başdan sona qədər. Sanki mənim heç bir fikrim yoxmuş kimi. Kişi tərəfindən yönləndirilən bir olay vardı. Vücudumu sanki heç dəyəri olmayan bir heyvanın eti kimi hiss edirəm..." (Kim 1988: 84).

"Bəlkə də ər - arvad münasibəti belə bir şeydir. Bir-birinə gərəkən məsuliyyəti yerinə yetirməklə insani bağı hiss edirlər. Onun artığı yoxdur. Sonsuza qədər müəyyən bir məsafə buraxmaq gərəkən bir əlaqədir." (Kim 1988: 69).

Yongenin evliliyində əri zalım davranışlarla yanaşı, vəzifəsinin arvadına, sadəcə xərclik pulu vermək olduğunu düşünmüşdür. Ərinin göstərdiyi bu davranış, özünə güvənməyən bir kişinin arvadını cinsi baxımından istismar edib öz gücünü göstərmək istəyini ifadə edən "Machismo"[1] termini ilə açıqlana bilər. Yonge evlilik həyatında yaşadığı problemləri düzəltmək üçün mücadilə etmədən sadəcə susur, özünü dini yaşayışa verməklə problemlərin həllindən qaçır. Həmçinin, ikinci qaynının arvadına xəyanəti, Yongenin bütün kişilərə qarşı nifrət etməyinə səbəb olur. Gənc bir qadınla yaşamaqda olan qaynının həyatı Myunghe tərəfindən aşkarlanır. Yazar burada kişilərin cinsi fanatikliyini, onların üstünlüyünü və patriarxal toplumun problemlərini göstərməklə birlikdə qadın məsələlərinin qarışıqlığı üzərində də durmuşdur:

"Bu günlərdə evlilik həyatı, yanlışlıqla dolu olan bu toplumun təsiri altında edilən boş bir şeydir. İsti bir ev, isti bir yemək, gözəl paltarların heç birinin mənası yoxdur." (Kim 1988: 72).

Yonge Myungheyə görə özünün bir insan olaraq tamamilə kənarlaşdırılmış olduğunu hiss etməyə başlamışdır. Yəni, kişilərə qarşı nifrət duyğusuna qapılması, həyatına obyektiv olaraq baxmağı təmin etmişdir:

"Dəqiq desəm, nə xoşbəxt, nə də bədbəxt idim. O zamanlar da həyatımdan razı deyildim. Buna baxmayaraq dözümüm, gücüm vardı. Ərim və ya digər insanlar üçün səbr etmək mənim üçün xoşbəxtlik və bədbəxtlik ünsürü deyildi. Mən onu Myungheyə açıqlaya bilməzdim…" (Kim 1988: 94)

Toplum bir qadından səbr, itaət kimi fədakarlıqlar gözləyəndə passiv bir qadın forması meydana gəlir. Amma bunlar insan olaraq hakimlik və özəlliyini itirən bir "persona"dan başqa şey deyildir. Yonge özünün çəkdiyi dərdin sadəcə şəxsi dərdi deyil, bütün qadınların dərdi olduğunu düşünərək, passiv həyatına son nöqtəni qoya biləcəyinə inanmağa başlamışdır:

---

[1] Bax: Michaelson & Geldschmidt 1971: 330-352. "Female Roles and Male Dominance among Peasants", Southwestern Journal of Anthropology, 27, 1971, s. 330-352.

"Şəfəqdəki qaranlıq yolumu Myungheylə birlikdə getməkdəyəm. Bəlkə mən də bir kişidən və ailədən əziyyət çekən gücsüz bir qadınam. Qarşımızda çox geniş, açıq yol olduğundan mən yolumun bitməməyinə ümid edərək gedirəm. Bəlkə də mən bu kişidən ayrıla biləcəyimi düşündüm." (Kim 1988: 97).

Yongenin qadınların ortaq qədərini qəbul etməyi, onun həyatını nə qədər dəyişdirə bilər? Bu mövzuda çox açıq cavab verməyimiz mümkün deyildir. Yonge Myunghe kimi müsbət və aktiv bir həyata sahib ola bilərmi? Bu bəlli deyildir. Fəqət heç olmazsa, patriarxal toplumda qadınların çəkdiyi dərditənqidi baxımdan anlaya bilməyi müsbət bir hadisədir.

2.7.2.3. Myunghe

Bu əsərdə Myunghe kişilərin fanatikliyindən çox təsirlənmədən öz inkişafını yaşayan güclü və bacarıqlı bir qadın tipi olaraq qarşımıza çıxmaqdadır. Myunghe Yongenin edə bilməyəcəklərini gerçəkləşdirən bir şəxsiyyətdir. Onun yaşamı təhkiyəçi Yonge tərəfindən nəql olunur. Myunghe kiçik ikən ana-atasının boşanmağı ilə iqtisadi və psixoloji olaraq narahat günlər yaşamışdır. Fəqət ailəsindən heç bir şey gözləmədən həyatını davam etdirməyi bacarmışdır:

"Hər baxımdan tərk edilmiş bir həyatda Myunghe bacardıqca ağıllı və güclü bir şəkildə mücadilə edən bir qadındı." (Kim 1988: 35)

Bu, Yonge tərəfindən qiymətləndirilən Myunghenin xarakteridir. Myunghe qadınlara xas gözəllik və digər ənənəvi özəlliklərindən qurtulmuş və özünə aid xüsusiyyətlərə sahib, həyata müsbət, tənqidi gözlə baxmağı bilən ağıllı bir qızdır. Yəni bir qadına aid tipik keyfiyyətlərdən qurtularaq, ağıllı, üsyankar, aktiv özəlliklərlə kişiyə aid xüsusiyyətləri daşımaqdadır. Myunghe öz xarakterilə digər bacılarından və anasından da fərqlidir. Onların məntiqsiz və artıq duyğusal olmaqlarını Myunghe şiddətlə qınayır.

Myunghenin tipik qadınlardan fərqlənən davranışları romanda bir çox epizodlarda verilmişdir. Xüsusilə, eşqlə bağlı yaşadıqlarından sonra, qadınların aşiq olduğu zaman yanlışlığa düşə biləcəklərinə inanmışdır:

"Mənim hamilə qalmağıma bir şantaj kimi baxılmağını istəmərəm. Bu şəkildə onu narahat etmək istəmirəm. ...Onunla evlənmək üçün yalvarmağım lazımdırmı? Mənimlə oyun oynadığını söyləməyini istədim. O heç bir şey söyləmədi. Mənə bu mövzuda açıqlama edərsə, ancaq özünü anlayacağımı söylədim. ... Əgər mən varlı bir ailənin qızı olsaydım, o sevə-sevə məni alardı." (Kim 1988: 89).

Myunghe mühafizəkar əxlaq dəyərlərinə bağlanmayaraq, rahat davranışlar sərgiləyir. Amma yenə də hamilə qaldığı zaman abort etdirmək məcburiyyətində qalmışdır. Müəyyən bir müddət içində evlənə bilmərəm deyən kişinin mənfi davranışları səbəbilə eşq və evliliyə qarşı olan inancını itirmişdir. Kişinin məsuliyyətsiz davranışlarına əsəbiləşmiş və yaşadığı böhrana qalib gəlməyə çalışmışdır. Təxirə saldığı magistr dissertasiyasını tamamlamış və bir orta məktəbdə müəllim işləməyə başlamışdır.

Myunghenin sevgidə yaşadığı fəlakət, evlilikdən kənarda cinsəlliyin həqiqi mənada cinsi sərbəstlik gətirmədiyini, tam əksinə, patriarxal formada qadınların daha böyük təsirə məruz qala biləcəklərini göstərmişdir.

Myunghe, romanda problemlərə qalib gələrək, kişilər tərəfindən əzilmədən inkişafı bacaran çox güclü bir qadın olaraq təsvir edilmişdir. Myunghenin bu uğuru, sosial statusunun yüksəlməyinə bağlanmadan öz inkişafını təmin edərkən əldə edilən nəticə olduğundan daha da anlamlıdır.

Burada yazarın Myunghe vasitəsilə qadının da kişiyə aid özəlliklərə sahib olub "özünü" tapa bilmək məsələsini həll etdiyi görünür. Bu həlli psixoloji terminlə "cütlük" (Androgyny) olaraq izah edə bilərik. Cütlük isə, qadın və kişiyə aid xüsusiyyətlərdən səmərəli olanları seçərək müsbət insan nümunəsini vermək üçün işlədilir.

Yazar bu vasitə ilə qadınların kişi kimi özəllikləri daşımaqla cinsiyyət ayrı-seçkiliyinə görə gələn problemlərə qalib gələ biləcəyini göstərmişdir. Həmçinin, bu baxımdan Betty Friedanın toplumda çalışmaq haqqını qazanmaq kimi kənar ünsürləri vurğulamağından fərqlidir.

2.8. Jiyong Gong[1]– "Öküzün buynuzu kimi təkcə gəzin"[2]

2.8.1. Özət

Bu roman Hevanın dostu Yongseonun öz vücudunu bıçaqla kəsdiyini öyrənməsi ilə başlayır.

Hevan, Kyunghe və Yongseon universitetdə bərabər oxuduqdan sonra dostluqlarını davam etdirən üç insandır. Onların xarakterləri də, yaşadıqları həyat tərzi də bir-birindən çox fərqlidir.

Hevan boşanmış bir qadındır. Universitetdə eyni bölümdə tanış olduğu biriylə evlənir və uşaq sahibi olur. Hevanın çalışmaq istəyi səbəbilə davamlı dava çıxır. Bir müddət sonra yol qəzasında oğlunu itirəndə münasibətləri daha da qırılır. Nəticədə boşanmaq məcburiyyətində qalırlar.

Kyunghi isə, bu romanda real düşüncəli qadın olaraq təsvir edilmişdir. Gözəl bir qadın olan Kyunghi universitetdən məzun olduqdan sonra televiziyada aparıcı kimi çalışarkən bir həkimlə evlənir. Aralarında sevgi olmamağına baxmayaraq taleyilə barışmış bir insan olan Kyunghi ərinin bitməyən xəyanətlərinə dözür. Toplumun qınağından qorxduqları üçün ikisi də boşanmağa cəhd etmir.

Yongseon isə, ən bədbəxt şəkildə yaşamını davam etdirən insandır. Aşiq olduğu biri ilə evlənir və birlikdə Fransaya oxumağa gedirlər. Orada maddi sıxıntılar səbəbindən məktəbini yarıda qoymaq məcburiyyətində qalır və sadəcə ərinin uğuru üçün çalışır. Nəhayət, böyük müvəffəqiyyətlə məktəbdən məzun olduqdan sonra Koreyaya dönən əri, rejissor kimi məşhurlaşır. Yongseon bacarıqlı ərinin həyatı səbəbindən özünü kənarlaşdırılmış hiss edir. İkisi arasındakı bu uzaqlıq nəticədə Yongseonun intiharına yol açır. Yongseonun özünü kəsməsilə başlayan bu roman, onun intiharıyla bitir.

---

[1] Gong Jiyeong (1963-) Seulda doğulmuş, Yeonsei Universitetini bitirmişdir. "Yaratma və tənqid" dərgisində "Şəfəq" adlı əsərin nəşri ilə roman yazmağa başlamışdır. "Onların gözəl başlanğıcı", "İnsanlara hörmət etmək", "Möminin gündəliyi" kimi əsərləri vardır.

[2] Təhlildə romanın 1997-ci il tarixli 2-ci nəşrindən bəhrələnilmişdir.

2.8.2. Qadın xarakterlər

1993-cü ildə nəşr edilən bu əsər yayımlandığı zaman böyük bir səs-səda oyandırmaqla birlikdə yazıçıya da şöhrət qazandırmışdır. Yazar çağdaş Koreyada oxumuş qadınların yaşadıqları problemləri qabarıq şəkildə canlandıraraq toplumu tənqid etməkdədir.[1]

2.8.2.1. Hevan

Hevan bu romanın təhkiyəçisidir. Hevanın universitetdən bəri ən yaxın dostu Kyunghi və Yeongseon da onun gözüylə təsvir olunur.

Hevan boşanmış bir qadındır. Universitetdə eyni bölümdə tanış olduğu biriylə evlənir. Aşiq olduğunu düşünüyü bu insanla bir dəfə birlikdə olduqdan sonra Hevan hamilə qalır. Kimsəyə demədən abort etdirmək məcburiyyətində qalır. Hevan sonra əri olan Kyunghuana belə bu hadisəni söyləyə bilmir:

"Sadəcə ana və atasına rahatlıq yaratmaq üçün qopardılıb atılan körpə! Kyunghuana bunları söyləyə bilmədi. Onlar sadəcə bir dəfə birlikdə olmuşdu. Bir gecədə körpənin olması ona yalan kimi gəldi." (Gong 1997: 68)

"Üç ay sonra evləndilər. Təbii ki, o hadisədən sonra hiss edilən məsuliyyət səbəbilə evləndiklərini düşünmədilər və bir-birlərini sevdiklərinə inandılar. Amma onlar sadəcə iyirmi üç yaşındaydılar. Hər gün, sanki bir borcmuş kimi bir-birlərini sevdiklərini söyləyərdilər." (Gong 1997: 68)

Hevanın evlənmədən öncə hamilə qalması və abort olması onda böyük bir yara olaraq qalır.

Onlar evləndikdən dərhal sonra Hevan bir uşaq sahibi olur. Qürurlu və bacarıqlı bir intellektual olan Hevanın evlilik həyatı çox xoşbəxt deyildir. Ev xanımı olmaqdan sıxılan Hevanın çalışma istəyinə əri qarşı çıxır. İkisi arasında davamlı mübahisələr olur:

"O halda uşağını böyüdüb ancaq ondan sonra çalışa bilərsən. O zaman mən sənin çalışmağına əngəl olmaram.

---

[1] Romanla bağlı bax: Jeon 1982, Jeong a 1992, Jeong b 1989, 1990, Jo 1997, Kim a 1991, Kim b 1991, 1995, Kim c 1988, 1994, Kim d 1996, Kim f 1992, Kim g 1988, Song a 1996, Song b 1997.

Bəli. Uşaq büyüyüb qırx yaşında olduğum zaman kim məni işə götürər ki! Sən sadəcə mənim qadın olmağımda qüsur tapmağa çalışırsan!" (Gong 1997: 123).

Universitetdə doktorantura təhsili alan əri, nə qədər oxumuş və intellektual bir kişi olsa da, Hevanın uşağı başqasına buraxıb çalışmasına razı deyildir:

"Ondan sonra artıq onlar arasında dava olmadı. Bir yataqda yatırdılar, amma heç bir-birinə toxunmadan yatmağı öyrənmişdilər. O arada uşaqları böyük bir qəza keçirdi." (Gong 1997: 124).

Yol qəzasında uşaqlarını itirəndə Hevanla ərinin arası daha da pisləşir. Nəticədə boşanmaq məcburiyyətində qalırlar. Uşağın ölməyini Hevanın çalışmağına bağlayan əri ona nifrət etməyə başlayır. Halbuki Hevan öz övladını itirən bir ana olaraq çox dərd çəkməkdədir:

"Sən nə bilirsən? Övlad dərdi nədir bilirsənmi? Öz uşağın ölüm-qalım mücadiləsini verərkən, sadəcə baxmaqdan başqa bir çarəsi olmayan... öz övladını öldürün bir ana kimi heç yaşadınmı?" (Gong 1997: 57).

"Mənim bir daha övladım olsa, bütün gün ona özüm baxacam... İş yerinə getmədən də pul qazana bilərəm!" (Gong 1997: 118).

Yuxarıdakı cümlələrdən Hevanın öz övladını itirəndən sonra nə qədər hüznləndiyi vurğulanır. Özünün öz övladını qəzaya sürüklədyini düşündüyü üçün daim vicdan əzabı çəkir, həmçinin, toplum tərəfindən gələn günahlandırma səbəbindən də çox pis olur. Hevan qadın olduğu üçün bütün məsuliyyəti öz üstünə götürmək məcburiyyətindədir:

"Əgər bir oğlan olsaydı, toplum bizi bu qədər asan gözlə baxıb da aldatmağa çalışmazdı; səksən yaşında olan nənəsi oğlanın hiylədən pul itirməyinə Hevanın anasına belə əsəbiləşərdi." (Gong 1997: 208).

Tarix boyunca bir qadının qadın olduğu üçün çəkdiyi çətinliklər bu romanda da davam edir. Hevanın anası özünün çəkdiyi dərdi qızının da yaşamağına çox pis olur. Hevana daim cəsarət verməyə çalışan tək insan anasıdır. Oxumadığı və bir kişiyə − ərinə boyun əyərək yaşadığı üçün peşman olan anası bədbəxt qızını dəstəkləməyə çalışır:

"Hevan boşanmağa qərar verəndə anası belə dedi: Yaxşı ki, boşandın! İnsan bir dəfə bu dünyaya gəlir, bir qadınsan deyə ölü kimi yaşamaq məcburiyyətində deyilsən. Mənim başqa heç bir bacarığım olmadığı üçün həmişə səbr edərək yaşadım. Hər zaman hüzursuz idim. Bir oğlan doğa bilmədiyim üçün, ya da ərim məni qovarsa deyə... Boşanmaq istərdim. Amma boşansam vəziyyətimin nə olacağı çox aydın idi....

Bunu söyləyərək anası həmişə ağladı, ağladı.

Səni bir oğlan olaraq doğa bilməyim lazım idi..." (Gong 1997: 210).

Hevanın boşanmağı ailədə hüznlü bir hadisə olmuşdur. Ailəsi onu hər nə qədər təsəlli verməyə çalışsa da, boşanmış qadının həyatının çox çətin olduğunu hamısı bilirdi:

"Sənə dərs vermək üçün bunu söyləmirəm. Bir ata olaraq öz qızıma bunu söyləmək nə qədər doğru olar, bilmirəm. Amma bu toplumda boşanmış qadının təkcə yaşamağının nə qədər çətin bir şey olduğunu sən bilməzsən. Evdə qalmış bir qız, ya da dul qadın olmaqdan daha da fərqli bir şeydir boşanmış qadın olmaq..." (Gong 1997: 220).

Boşanmış bir qadına həmişə əyri gözlə baxan Koreya toplumunda qızının vəziyyətini düşünən atasının, nə qədər dərd çəkdiyi yuxarıdakı cümlələrdən çox aydındır. Xoşbəxt olmaq üçün az ağıllı və az bacarıqlı olmalı olan qadının boşanmış bir insan kimi həyatı çox çətin olacaqdır. Amma romanda Hevan hər şeyə baxmayaraq, öz həyatını bildiyi kimi yaşayan və bu yöndə mücadilə verən bir qadın olaraq qarşımıza çıxır. O, qadın kimliyi ilə var olmağı bacara bilən güclü bir qadın rolundadır.

2.8.2.2. Kyunghi

Kyunghi bu əsərdə real bir qadın obrazı kimi qarşımıza çıxır. O, taleyilə barışmış bir şəkildə həyatı davam etdirməkdədir.

Gözəl bir qadın olan Kyunghi universitetdən məzun olduqdan sonra televiziyada aparıcı olaraq çalışarkən bir həkimlə evlənir. Aralarında eşq kimi duyğusal bağ olmayan və sadəcə, Kyunghinin mənafeyinə görə baş tutan bu evlilik ona xoşbəxtlik gətirə bilmir.

"Hər kəsin dediyi kimi cehiz olaraq ev, maşın, müayinəxana istənmədən sadəcə gözəlliyilə və spikerlik işiylə həkimlə evləndi. Onunla evlənməsi bəlkə böyük bir şans olmuşdu, amma bir baxımdan Kyunghi üçün həyatı boyunca həlli tapılmayan bir yara olaraq qaldı. Nikah salonunda oğlan tərəfi qız tərəfinə təhqiredici baxışlarla baxmaqdan çəkinmədi. Nikahdan sonra gəlin tərəfi ucuz restoranda ziyafətə gedəndə,bəy tərəf elit bir oteldə özünə görə toy etdi" (Gong 1997: 37).

İkisi arasındakı iqtisadi fərqliliklər və yaşayış standartının dəyişikliyi Kyunghinin həyəcan keçirməyinə səbəb olur. Əriylə aralarında sevgi olmamağına baxmayaraq Kyunghi, olduğu iqtisadi vəziyyətdən razıdır. Bu səbəbdən qismətilə barışmış bir şəkildə evliliyi davam etdirməyə çalışır.

Bir gün Kyunghi ərinin başqa qadınla gəzdiyini öyrənəndə daxili böhrana düşər, amma toplumun qınağından qorxduğu üçün və içində olduğu maddi rahatlıqdan cəsarət alıb özünə təsəlli verərək ərinin xəyanətinə dözür:

"Qəribədir, amma həmişə ağlıma Hevan sən gəldin.... Sonradan düşündüm ki, mən sənin kimi deyiləm. Hesablamışdım. Əgər boşansam, bu anda yaşadığım kimi gözəl bir evdə yaşaya bilərəmmi? Millətin önündə boşanmış olduğumu deyə bilərəmmi? Açığı, övladımı o an heç düşünmədim.

...Sonradan nəticəyə gəldim. Ərim başqa qadınla gəzsin. Mən onun qazandığı pulla əylənəcəm. Nəticədə o bir həkim olmasaydı, qətiyyən evlənməzdim." (Gong 1997: 49).

Kyunghi özünə görə hər nə qədər ağıllı bir qərar vermiş olsa da ərinin xəyanətindən daim pis olur və dərd çəkir. Fəqət kədərə dözməyə hələ əvvəldən razı olan Kyunghi mücadilə etməyi yoxlayacaq qədər saf bir insan deyildir. Çünki nəticədə bu toplumda baş qaldıran birinin zərbə alacağını o, çox yaxşı bilir:

"Nə zaman siz xoşbəxt idiniz ki? Şikayətiniz nədir? ...Sizlər arasında qız uşağı doğuldu deyə ziyafət verən varsa, əlini qaldırsın görək!" (Gong 1997: 102).

"Mən nə etdiyimi sizə söyləyimmi? Mən ərimin sevgilisiylə qaldığı otelin yan otağında belə qalmışdım. Mən kim nə deyirsə desin, boşanmaram! Sonuna qədər yaşayacağam. Ərim yaşlandığı zaman rahat hərəkət edə bilməyincə, o zaman intiqamımı alacağam." (Gong 1997: 103).

Bu sözlər Kyunghinin Yongseon intihara cəhd etdiyində hərarətlə söylədiklərdir. Kyunghinin həyat boyunca sadəcə intiqam almaq üçün evliliyini davam etdirməyi, bəlkə də onun boşanmamağının bir səbəbidir. Özünə təsəlli verməkdən başqa çarəsi olmayan bu qadın, bəlkə də Koreyadakı qadınların faciəvi halını təmsil etməkdədir.

2.8.2.3. Yongseon

Yongseon əri və ailəsi üçün özünü fəda edən bir qadın olaraq qarşımızdadır və romanın ən bədbəxt qəhrəmanıdır. Universitetdə tanış olub, sevgidi biri ilə evlənir və onunla birlikdə Fransaya gedir. Orada maddi sıxıntı səbəbindən məktəbini yarıda buraxmaq məcburiyyətində qalır. Ərinin nailiyyəti üçün özünü fəda edir.

"İndi anladım... Bizim evliliyimiz elə bir şeydi ki! ...O nə istədisə, mən onu etdim... Qəbul etmək istəmirəm, amma mən onun sadiq xidmətçisiyəm..." (Gong 1997: 108).

"Evliliyimiz bu şəkildə davam etdi... Mən onun sevdiklərini bilir və eynisini edirdim. Evliliyimizi davam etdirən bunlar idi..." (Gong 1997: 109).

Yongseon, Fransadakı həyatı zamanı sadəcə ərinin uğuru üçün çalışır. Koreyaya döndükləri zaman bir ssenari yazmağa ümid edir. Fəqət ikinci övladına hamilə qalması səbəbilə bunu asan edə bilmir.

Yongseon ərinin nailiyyətlərlə dolu həyatı səbəbindən özünü daim kənarlaşdırılmış hiss edir. Psixoloji olaraq özünü davamlı boşluqda görür.

"Evlilik həyatı boyunca heç bir zaman özümü bir fərd olaraq tapmazdım. Mən bir zamanlar ağıllı və gözəl bir qız idim... Amma onun məktəb xərcliyi yox idisə, mən onun məktəb xərcliyi oldum. Əgər o, ac qalarsa, mən onun yemək süfrəsi oldum. ...Onun qəhvəsi oldum, uşaqların südü oldum. Mən sanki onların ayaqlarını silib əzdikləri bir bez kimi durdum. Amma o an belə mən özümlə qürur duyurdum... Gülünc deyilmi?" (Gong 1997: 109).

Yongseonun etdiyi fədakarlıqlar qarşısında istədiyi nəticəni tapmamağı onu özünə sahib ola bilməyəcək dərəcəyə qədər çıxarır. Yongseonun problemi, əslində onun çox yaxşı niyyətli bir insan olmasıdır. Ona görə, etdikləri sevdiyi bir kişi üçün doğruydu. Çünki insan həyat yoldaşına qarşı fədakar olmalıdır:

"Pulumuz yox idi... Belə davam edərsə, sanki ikimiz də ölə-cəkdik... Bir gün xəstələndim, çox qızdırmam vardı. ...O mənə baxanda ağladı. ...Və məktəbi yarıda kəsəcəyini söylədi... Öncə sən məktəbi bitir dedi" (Gong 1997: 267).

Etdiklərinin doğru olduğunu düşünən Yongseonun qərarı sonunda onu intihara sürükləyən bir səbəb olur. Yongseona görə şöhrətə qovuşan ərinin ona vəfasızca davranması, ikisi arasında boşluğa səbəb olur. Yongseon da özünü bıçaqlamağa başlayır və faciə ilə nəticələnən bu romanda intihar ana xətt olur:

"Mənim ərinizə yazığım gəlir... Əgər daha yaxşı birisiylə evlənmiş olsaydı, daha da müvəffəqiyyətli olardı .... Başqaları nə deyirlər, bilirsənmi? Onun hər halda içki düşkünü arvadı var ki, bu adam onun üçün dərd çəkir deyirlər..." (Gong 1997: 173).

Yongseon yuxarıdakı sözləri əriylə birlikdə çalışan qızdan eşidir. Bütün fədakarlığına baxmayaraq onun ərini məhv edən bir qadın kimi dəyərləndirilməsi onu tamamilə fəlakətə aparan bir səbəb olmuşdur.

Əslində bu dünyada ona sahib çıxacaq özündən başqa kimsə yoxdur. İnsan özünə sahib çıxa bilmədikcə, heç kim sahib çıxmaz:

"Öküzün buynuzu kimi təkcə gəzin" sözləri buddizmə aid bir fəlsəfədir. Həyat bəlkə də təkbaşına yaşanması gərəkən yalnız bir yoldur. Səbəbi nə olursa olsun və ya təməl problemlər haradan qaynaqlanırsa qaynaqlansın, həyatda yalnız olduğumuzu qəbul etməyimiz gərəkir.

"Bəli. Yongseonun elə etməyi gərəkirdi. Ya Kyunghi kimi xoşbəxt olmaqdan əlini üzəcək, ya da Hevan kimi öz övladının ölümünə dözsə belə boşanacaqdı. Hər kəsin etdiyi kimi əri üçün fədakarlıq edərsə öz bacarığından əl çəkməyi gərəkirdi... Ən azından bu ölkədə yaşamaq üçün bunu etməsi lazım idi...

İnsan biriylə xoşbəxt olmaq istərsə, ona yaxınlaşmadan xoşbəxtliyə hazır olması gərəkir. Bacarığından əl üzüb də xoşbəxt olamayacaqsa, onu etməmək lazımdır. Heç kimin alçaltmasına qatlanmaq istəmirsə, kimsə özünün başqası tərəfindən əzilməsinə izin verməməlidir." (Gong 1997: 290).

Patriarxal ideologiya altında ev içi ilə məhdulanan qadının həyatının evin çölünə açılması, hələ ki, bir çox maneələrlə qarşılaşmaqdadır. Qadınlar da bu dəyişiklik müddətincə lazımlı mübarizəni göstərirlər. Fəqət önəmli olan toplumun və kişilərin qadını da bir

insan və bir fərd olaraq özünəxas bir həyat qurmağına ehtiyac duymağını qəbul etmələridir. Qadın şəxsiyyəti sadəcə uşağa baxmaqla, ev işləri ilə məşğul olmaqla, ərinə xidmət etməklə və cinsi bir obyekt olmaqla sərhədli qalmamalıdır. Oxumuş və intellektual bir qadının sadəcə qadın şəxsiyyəti ilə bütün həyatını fəda etməyi böyük bir itki deməkdir.

3.TÜRK VƏ KOREYA ROMANINDA QADIN XARAKTERLƏRİN QARŞILAŞDIRILMASI

Bu kitabda "Türk romanında qadın" və "Koreya romanında qadın" olmaq üzrə, XX əsrdə iki ölkədə yazılan romanlardakı qadın xarakterləri incələdik.

İki ölkənin romanlarındakı qadın xarakterlər də romanın yazıldığı dönəmin ictimai şüurunu əks etdirməkdə və qadın məsələlərinə toxunmaqdadır. Romanlarındakı qadın xarakterlərdə önə çıxan bəzi özəlliklər, sosial və tarixi dəyişiklikləri əks etdirərək iki ölkənin paralelliyini göstərməkdədir.

"Xəndan" və "Qanlı göz yaşı"nın xarakterləri – Xəndan və Okryeon, Qərb təhsili görən qadınlardır. Onların şəxsində qərbliləşmə dönəmində millətin aydınlanmağı üçün təhsilin önəmi vurğulanmışdır. Qadınların təhsil almağı iki toplumda da olduqca yeni bir hərəkat təşkil etməkdədir. Burada fərqli bir nöqtə Xəndanın atasının sahib olduğu çağdaş düşüncə sayəsində Qərbdə təhsil görmək şansına qovuşmağı, Okryeonun isə çətin vəziyyətlərdə qarşılaşdığı insanların köməyi ilə xaricdə oxuma imkanına qovuşmağıdır. İkisinin də təhsil almaq üçün mücadilə vermədikləri halda çevrənin, ya da ailənin istəyi ilə oxumağı diqqət çəkir. Bu vəziyyət hər iki romanda yazarların oxumuş qadını ön plana çıxararaq "qadınların təhsili"nin gərəyini vurğulamaq istəmələrini göstərməkdədir.

Bunun əksinə, Xəndan və Okryeon Qərb təhsili görmüş, xarici mədəniyyəti mənimsəyən və bir neçə xarici dil bilmələrinə baxmayaraq işləyən qadınlar deyillər. Bu dönəmə qədər toplumun qadının çalışmağı fikrinə hələ ki yer verməməyi bu romanlarda da ağırlıq olmaqla yanaşı, yazarlar da qadının çalışmağı haqqında bir fikir sahibi deyildir.

İki romanın məkan olaraq çoxluqla Qərb ölkələrdə keçməsi də diqqət çəkici bir nöqtədir. "Xəndan"da İstanbul dışında məkan olaraq Paris və London ağırlıq qazanmaqdadır. "Qanlı göz yaşı"nda isə, Koreyanın Pyungyang şəhərindən başqa Yaponiya və Amerika çoxluq qazanmaqdadır. Qərb ölkələrini məkan olaraq seçməyi, yazarın, millətin Qərb ölkələrinə doğru üfüqlərini genişləndirməyi istədiyini düşündürür. Fəqət Qərb ölkələrinin məkan olaraq ağırlıq qazanmasının qadın xarakterlər kimi Xəndan və Okryeona elə də çox təsiri olmamışdır. Əksinə, Xəndan Avropaya getdiyi zaman özünün şərqli olduğunu daha yaxşı anlamış, Okryeon da ana vətəninə daha sıx bağlanmışdır. Bu məkanların qadın xarakterlərin yurdsevərlik qazanmasına yol açdığını da söyləməmiz mümkündür.

Yeni yaşam tərzi də bu romanlarda əks olunan önəmli bir mövzu olmaqla birlikdə qadın xarakterlərin evlənmə qərarları da araşdırılmağı gərəkən bir nöqtədir. Xəndan və Okryeon, ərlərini öz qərarları ilə seçir, gələcəklərinə təsir göstərə biləcəklərini düşündükləri adamlarla evlənirlər. Xəndan aralarında böyük yaş fərqinə baxmayaraq təqaüdçü, varlı Hüsnü Paşayla evlənir. Çünki qadının çalışmağının müzakirəsi belə getməyən toplumda ancaq o şəkildə öz mədəni yüksəlişini və həyatını davam etdirə biləcəkdir. Okryeon isə, onu Amerikaya aparan və oxumağına səbəb olan Guvanseo ilə evlənir. Burada Okryeonun Guvanseoya eşqdən ziyadə hər şeyi bölüşə və anlaşa bildiyi bir məsləkdaş duyğusuyla bağlanmağı üstünlük təşkil edir. Beləcə iki qadının evliliyi bədbəxt, yaxud xoşbəxt davam edir. İki toplumda da yeni bir həyat nümunəsi olan Xəndan və Okryeon, Türkiyə və Koreya ədəbiyyatında yeni bir qadın tipi yaratmış olur. "Xəndan" 1906-cı ildə nəşr olunmuşdur, "Qanlı göz yaşı" isə 1912-ci ildə oxuculara təqdim olunur. Hər ikisi də aralarında altı il fərq olmasına baxmayaraq olduqca çox ortaq yönü olan çağdaş romanlardır.

"Sinəkli baqqal" və "Mujeong" adlı romanlarda isə, sıradan bir qadının şəxsiyyət sahibi bir qadına çevrilməsinə qədər yaşadıqları nəql olunur. "Sinəkli baqqal"da Rabia və "Mujeong"da Yeongche, artıq sevgilisinə və ya ərinə qarşı passiv qalan qadınlar deyildir. Onlar öz həyatında söz sahibi ola bilən və həyatlarını istəklərinə görə yönləndirə bilən qadınlardır.

Rabia və Yeongchenin məktəb təhsili əsas məsələ deyildir. Rabia babasından təsirlənərək gözəl səsiylə dini mövlud oxuma

ənənəsini davam edtirir. Yeongche isə, atası müflis olandan sonra ailəsini qurtarmaq üçün gecə məkanında çalışır, səsinin gözəlliyilə məşhur olur. Rabia və Yeongche təhsil görmədikləri halda mədənidirlər, sənət sahəsində bacarıqlı olmaları onları başqa bir dünyaya aparır. Rabia yaşadığı mühitdən ilk dəfə çıxır. Paşa malikanəsində müxtəlif təbəqədən insanlarla tanış olur. Malikanə Rabianın düşüncəsində Şərq və Qərb mədəniyyətinin qovuşuğunu təmin edir. Yeongche gecə növbəsində çalışarkən Behakgam tərəfindən cinsi təcavüzə məruz qalmaq kimi fəlakətlər yaşayır, amma bu eybəcərliyə qalib gələrək Yaponiyada Koreyanın musiqi və rəqsini tanıdan sənətçi olur.

Onların eşq və evlilik münasibəti də öz həyatlarına sahib çıxmalarına əngəl ola bilmir. Rabia Peregrini adlı yabançı biriylə evlənir, amma ona Şərqin üstünlüyünü qəbul etdirərək öz həyatını davam etdirir. Yeongche isə, atasının onunla evləndirmək istədiyi Hyungsiki gözləyir, amma axırda həyatına ancaq özünün sahib çıxacağını düşünərək yeni bir addım atır. Rabia və Yeongchenin sevgili və ərləri qarşısında passiv olmaqdan qurtularaq öz həyatlarına sahib ola bilmək ləri önəm qazanmaqdadır. Beləcə hər iki yazarın qadına şəxsiyyət qazandırmaq istəyən baxış bucağı vurğulanmışdır.

"Çalışquşu" və "İynəyapraqlı bir ağac" isə, müəyyən mənada kənd romanı xüsusiyyətini daşımaqdadır. "Çalıquşu"nda Fəridə ilk dəfə oxucunu Anadoluya aparır. Anadolunun gerçəyini göstərir. "İynəyarpaqlı ağac"da Yeongshin, Koreyanın kənd həyatına atılır, kəndin aydınlanması üçün özünü fəda edir. İki roman da realizmi təməl alan bir cüt "aydınlanma romanı"dır.

Hər iki romanın qadın xarakterləri Fəridə və Yeongshinin işləyən qadın olmağı və müəllimlik peşəsini seçmək ləri vacib nüansdır. İki ölkənin ədəbiyyatında ilk dəfə qadının çalışması müzakirə mövzusu olarkən, qadına verilən işin müəllimlik kimi sayğıdəyər bir peşə olması diqqəti çəkir. Fəridə və Yeongshin, oxumuş və aydın qadın olmalarına baxmayaraq, kübar cəmiyyətin "ev içi" həyatına qapanıb qalmırlar. Əksinə, ölkənin aşağı təbəqəsi olan, hələ inkişaf etməmiş kəndə gedərlər, oranın insanlarını tərbiyələndirməyə çalışırlar. Onların ictimai ideallara özlərini fəda etməsi, qadının aydın olaraq məsuliyyətlərinin dəqiqiləşməsini təmin edir. Bu şüur, dünya miqyasında yayğın olan "Kənd Aydınlanma

Hərəkatı”nı göstərməkdədir və yurdsevərlik duyğusunu ön plana çıxarmaqdadır.

Romanlarda iki qadın xarakterin eşq həyatı, idealist məşğulluqları baxımından olduqca önəmli bir faktordur. Fəridənin aşiq olduğu Kamran tərəfindən xəyanətə uğraması, onu qadın şəxsiyyətindən ayrılıb bir aydın və öndər olmağa yönləndirmişdir. Fəridənin eşq dərdinin ictimai ölçüyə çevrilməyi, bu romanın önəmini artırmaqdadır. Yeongshin isə, eşq həyatıyla ictimai həyatı birlikdə davam etdirməkdədir. Sevgilisi Donghyukla sadəcə duyğusal bir bağ, eyni fikri paylaşan və eyni yolu seçmiş olan məsləkdaşdır.

Beləcə, Fəridə və Yeongshin Türkiyə və Koreya ədəbiyyatında yurdsevərlikləri və iradələri ilə aydın və güclü bir qadın tipinin simvolu olmuşdur.

“Bir Filiz vardı” və “Takryu”da şəhərin kənar məhəllələrindən birində baş verən hadisələr təsvir olunmuşdur. “Bir Filiz vardı”da Filiz, “Takryu”da Chobong, yaxşı təhsil görə bilməyən gənc qızlardır. Az gəlirli ailələrin övladlarıdır. İkisinin də atası pul qazanmaq üçün qızlarından istifadə etmək istəyir. Filizə evli və yaşlı kitapçı göz qoyur, onunla evlənmək istəyir. Filizin atası isə kitapçı Maşadan alacağı pul yardımından iştahlanaraq onunla Filizi evləndirmək istəyir. Chobongun durumu da onunkundan fərqli deyildir. Chobongun atası Tesu iqtisadi baxımdan rahat olduğunu göz önünə gətirərək qızının Tesu ilə evlənməyini istəyir. Chobong da ailəsinə yardım etmək məqsədilə sevdiyi insandan keçib, Tesu ilə evlənir. Beləcə, Filiz və Chobongun yoxsul bir ailədən olmağı onları qorumasız qoyur. Həmçinin onların cinsi təcavüzə açıq bir halda olmaqları da diqqətdədir. Filizin sonda gənc bir toxucuyla birləşməyi onu mövcud vəziyyətdən qurtaran bir faktordur və xoşbəxtliyə qovuşmasına səbəb olur. Chobongun isə ona göz qoyan bir neçə kişiyə görə həyatı məhv olur: Evliliyi dağılır, əri öldürülür, yaşlı Jehonun məşuqəsi olur, təcavüzə uğrayır, sonda da qatilə çevrilir.

Bu iki qadın xarakterin həyat hekayəsində qadının daima qorunması gərəkən bir zərif varlıq olduğu vurğulanmışdır. Romanlarda qorumasız olduğu zaman təhlükəyə məruz qalan qadınların həyatı qələmə alınmışdır. Beləcə, qadın üçün əvvəl-axır aydınlanmağı gərəkən nöqtənin xoşbəxt bir eşq və evlilik olduğunu göstərən yazarın qadına baxış bucağı bəlli olmuşdur; özlərinə

baxacaq bir kişinin olub-olmamasının qadın həyatını tamamilə şəkilləndirən bir nəsnə olduğu vurğulanmışdır.

"İlanı öldürsələr" və "Əczaçı Kimin qızları"nda kənddə yaşayan qadınların həyatı təsvir olunmuşdur. Bu iki romanda sevgi və toplum qarşıdurması nəticəsində qadınların həyatının məhv olması tənqid edilmişdir. "İlanı öldürsələr"də Əsmənin evlənmədən öncə aşiq olduğu Abbasa görə əri öldürülür və mühit tərəfindən kənarlaşdırılır; bu təzyiq səbəbindən oğlu tərəfindən öldürülür. "Əczaçı Kimin qızları"nda Kimin anasının evlənmədən öncə sevdiyi bir kişiyə görə cinayət işlənir, əri qaçaraq yoxa çıxır, özü də axırda intihar etmək məcburiyyətində qalır. Bu fəlakət nəsildən nəslə davam edir. Əczaçı Kimin beş qızının hamısı bədbəxt həyat sürdürür. Biri dul qalır, övladını öldürdüyü üçün həbsxanada yatır. Biri əri, sevgilisi və anasını öldürdüyü üçün dərd içində dəli olur. Biri də qayınata tərəfindən təcavüz edildiyi üçün qaçarkən xəsarət alaraq ölür.

Hər iki romanda eşq və evliliyin həm həyatı dağıdan, həm də qadın xarakterləri ölümə aparan bir səbəb olmağı diqqət çəkicidir. Beləcə, qadın üçün eşq və evliliyin hər zaman xoşbəxtlik verə bilməyəcəyi vurğulanır. Bu vəziyyətdə toplumun böyük təsiri vardır. Qadın toplumun əxlaq dəyərlərinin və namus anlayışının altında əzilməkdə və cinsi bir obyekt olaraq sərhədli bir həyat yaşamağa məcbur edilməkdədir. Əxlaq quruluşu və namus ideologiyası uğrunda qadınların qurban edilmələri, toplumun bu dəyər yarğıları ilə qadın həyatının dağılmağa meyllənməsi, bu iki romanın qadın xarakterləri vasitəsilə – həyat hekayələrilə tənqid olunmuşdur.

"Ölməyə yatmaq" və "Üç bacının hekayəsi"ndə intellektual qadının çevrə, ailə və evlilik həyatında böhran yaşayarkən şəxsiyyət axtarışına girmələri mövzu seçilmişdir.

"Ölməyə yatmaq"da Ayşə və "Üç bacının hekayəsi"ndə Yonge, yoxsul ailədəndir. Kiçik bir qəsəbədə doğulub, şəhərdə ali təhsil alıblar. Təhsil gördükləri halda xoşbəxt deyillər. Bu bədbəxtlik də ailədə və toplumda gərəkən yeri tapa bilməməkdən qaynaqlanır.

Ayşə, Cümhuriyyət sonrası Türkiyəsində çalışan, ziyalı, Atatürkçü bir türk qadını olaraq qadın haqlarını mənimsəmiş, amma qarşılaşdığı ictimai problemlərə qalib gələ bilməmiş, çalışan ziyalı qadın qarşıdurmasını yaşamışdır. Yonge isə oxumuş və aydın qadın

olduğu halda, evlənən andan evə qapanır. Evlilik həyatı nəticəsində şəxsiyyətsiz bir qadın halına çevrildiyini və ərinin həyatında, sadəcə, bir cinsi instinkt üçün var olan obyekt halına gəldiyini hiss edir. Yongenin yaşadığı ziyalı qadın və cəmiyyət qarşıdurması ön plana alınaraq romanda aydın qadının həyatının evlilik sonrasında "ev içi" həyatıyla sərhədlənməyi və toplumun qadınları bu yaşayışa məcbur etməyi tənqid edilmişdir.

Cəmiyyətlə dəyişik ölçüdə konflikt yaşayan ziyalı qadın xarakterlərin qazandığı nəticələr onların inkişafını təmin etməkdədir. Ayşə böhran nəticəsində ölməyə yatdığı otelden əngəllərə qalib gəlmiş vəziyyətdə, yeni bir insan olaraq çıxır. Yonge isə, səmimi dostu Myunghenin hamilə qaldığı halda onu rədd edən kişiyə boyun əymədən abort olub, yeni bir həyata addım atmasından təsirlənir. Özü də mənasız evliliyindən imtina edə biləcəyini düşünür.

Ayşə və Yongenin şəxsiyyət axtarışları, iki qadının yeni bir həyat yaşamaqlarını təmin edən müsbət bir mərhələ olmuşdur.

"Cadugər ağacı" və "Öküzün buynuzu kimi təkcə gəzin"də günümüzdə oxumuş qadının yaşadığı problemlər sərgilənməkdədir. "Cadugər ağacı"nda Nilufər və "Öküzün buynuzu kimi təkcə gəzin"də Hevan, oxumuş və çalışan qadınlardır. Çalışan və ziyalı qadın olmaqlarından əvvəl qadın olmaqları önəmli olduğu üçün toplum onlara şübhəylə yanaşır. Onlar daim çalışan qadın – toplum qarşıdurması içində mücadilə etmək məcburiyyətində qalırlar.

Bu mücadilə evlilikdə də mövcuddur. Çalışan qadın və analıq vəzifəsini birlikdə yürütmək asan iş deyildir. Analıq duyğusu ilə toplumun qarşıdurması arasında evlilikləri onsuz da yaxşı getməyən Nilufər də, Hevan da uşaqlarını qəzada itirir. Bir yandan övladını itirməyin kədərini yaşayarkən, bir yandan da əri və ailəsi tərəfindən boşanmağa məcbur edilirlər. Beləcə, boşanmış bir qadın olaraq yaşadıqları və toplumla qarşıdurmaları həyatlarını daha da çətinləşdirir.

Qadın öz şəxsiyyətinin sərhədini keçdiyi zaman bir çox əngəllərlə qarşılaşmaq məcburiyyətindədir. Bu çətinlik, toplumun hələ ki, qadını, sadəcə, "ev içi" həyatı ilə çərçivələməsindən, yəni analıq və ərinə baxan arvadlıq vəzifəsilə məhdudlaşmasından qaynaqlanır. Qadın da qadın olmadan öncə insandır, fərddir. Kişi insan olaraq nə kimi istəklər duyursa, qadının da ondan fərqi yoxdur. Oxumuş qadın istərsə, çalışan qadın ola və işləyən qadın ana ola bilməlidir.

Bunun önündə heç bir əngəl olmamalıdır. Bəzi çətinliklərə qalib gələ bilmək üçün sistem sosial imkanlarla onu dəstəkləməlidir.

Türkiyə və Koreyada oxumuş qadının yaşadığı məsələlər Nilufər və Hevanın həyatı ilə göstərilməkdədir. Bəlkə də, bunlar günümüzdə yaşayan bütün qadınların qlobal ortaq məsələləridir.

"Qaf dağının arxasında" və "Meşə içindəki otaq"da isə, ictimai və siyasi vəziyyəti səbəbilə şəxsiyyət axtarışına girən aydın qadınların həyatı mövzu kimi seçilmişdir. "Qaf dağının arxasında"da Mövsüm və "Meşə içindəki otaq"da Soyang, anarxiya və terror içində idealist gəncliyin sahibsizliyini, kimsəsizliyini və dramını sərgiləməkdədir.

Mövsüm, romanda məmləkət məsələlərinin hesablaşması ilə özünün qarşıdurmalarını iç-içə davam etdirməkdə və çıxış yolunu milliyyətçi məqamda görməkdədir. Soyang isə, gənclərin idealistlər və artıq dərəcədə əlaqəsiz olanlar şəklində qütbləşməyini tənqid edir, nəticədə iki qrupa da qatılamayan üçüncü bir şəxsiyyət halına gəlir və özünün duracağı yeri tapmayaraq intihar edir. Bu intihar bir baxımdan özünü tapmak və eşitdirmək istəyən gənc bir aydının üsyanını ifadə edir. Bir aydın olaraq şəxsiyyət axtarışı, Mövsümün yazar kimi yenidən doğulmasına şərait yaradır, fəqət Soyangın seçimi ölümdür. Beləcə, burada qadın şəxsiyyətindən əlavə bir aydın olaraq yaşayan, düşünən və mücadilə edən gənc qadınların həyatı və problemləri, birinin ölümüylə digərinin də yazar şəxsiyyəti ilə yenidən doğuşuyla həll edilmiş olur.

Türkiyə və Koreya romanlarından təhlil etdiyimiz qadın xarakterlərdə, patriarxal quruluşa bağlı toplumlarda qadınların problemlərinin demək olar ki, eyni olduğunu göstərməkdə və zaman axışıyla birlikdə də bu məsələlər dəyişik bir ölçü qazanmaqdadır. İki toplumda da qadınlar daima bir sıra problemlərlə mücadilə etməkdə və həllini tapmağa çalışmaqdadır.

II. BÖLÜM

TÜRK VƏ KOREYA ROMANLARININ QADIN XARAKTERLƏR BAXIMINDAN DƏYƏRLƏNDİRİLMƏSİ

"Türk və Koreya romanlarında qadın" olmaq üzrə, XX əsrdə iki ölkədə yazılan romanlardakı qadın xarakterlərini təhlil etdik və müqayisələr apardıq. "Qadınlıq" anlayışının daha ətraflı gözdən keçirilməyi və bu dövrə uyğun qadın xarakterlərin yaradılmağıyla qadınların həyatlarına doğru bir yön verilməsinin təmin edilməyi üçün romandakı qadın xarakterlərin daha dərindən təhlil edilməyi gərəkir.

Ədəbiyyatda qadın mövzusunda müəyyən bir fikrə sahib olan Mary Ellmann, ədəbiyyat əsərlərində xarakterizə edilən qadın xarakterləri şəkilsizlik, passivlik, narahatlıq, qapalılıq, namus, materializm, ilahilik, məntiqsizlik, itaət, üsyankarlıq kimi özəlliklərlə birlikdə verməkdədir. Həmçinin kişilərin ünvan, məntiq, bilgi və nəzarət kimi özəlliklərə önəm vermələrinə qarşı qadınların daha çox hiss, həssaslıq və ehtiras kimi incə özəlliklərə dəyər verdiklərini söyləməkdədir (Ellmann 1968: 43-63).

Rosalind Miles isə, qadın yazarların dəyərləndirdikləri qadınların funksional özəlliklərini aşağıdakı kimi verməkdədir (Miles 1974: 29-30):

Kişiyə aid özəlliklər	Qadına aid özəlliklər
Təcavüzkarlıq	Duyğusallıq
Funksional olaraq istifadə edilən dil	Bəzək olaraq istifadə edilən dil
Strukturu incələmək	Əlaqələri incələmək
Əxlaqi dəyəri dərk etmək	Toplumu incələmək
Hakimiyyət bacarığı	Kölə şüuru
Hücum etmək	İtaət
Ağıl	Hiss
Obyektivlik	Subyektivlik
Dürüstlük	İroniya

Carol Giligan isə, yetkin bir qadının özəlliyini birinə sığınmaq və fədakarlıq etmək kimi səciyyələndirir və "əlaqə"ni ön plana

çıxardan qadın yönümlü anlayışlara yer verir (Giligan 1994: 49-114):

Kişiyə aid özəlliklər	Qadına aid özəlliklər
Haqq	Məsuliyyət
Mükəmməlliyi ideal olaraq almaq	Baxmağı ideal olaraq almaq
Müstəqil formalaşma	Asılılıq içərisində formalaşma
Abstrakt ideal	Konkret davranış
Müstəqillik ön planda	Əlaqələr ön planda

Jin Shinoda Bolen isə K.Jungun psixologiyasını feminist baxış bucağıyla birləşdirərək, qadın tipini üç yerə ayırmaqdadır. Olimp dağındakı on iki ilahədən yeddisini seçərək onları bakirə ilahələr, asan yaralana bilən ilahələr, yaradıcı ilahələr olmaq üzrə üç yerə bölür. Jin Shinoda Bolen hər qadının şüur altında bu üç növün özəlliklərini daşıdığını, fəqət şəxslərə görə bəzi özəlliklərin yox olub, digərləri ön plana çıxa bildiyi üçün dəyişik xarakterə sahib olduğunu vurğulamışdır (Bolen 1992: 17-38).

Birinci qrupda olan Artemis, Atenanın bağlı qaldığı "bakirə ilahələri" – azad və bacarıqlı qadınları təmsil etməkdədir. Bu qadınlar asanlıqla aşiq ola bilməz, duyğusal tərəfləri səbəbindən öz işlərini də buraxmazlar. Bu səbəbdən bu qrupda olan qadınlar, digər qadınlara da öz peşələrində diqqət kəsilə bilərlər.

Hera, Temiter kimi ilahələri ikinci qrupa bağlayaraq "asan yaralana bilən ilahə" olaraq xarakterizə etməyimizin səbəbi isə, onların hər zaman başqalarını düşündükləri üçün yaralana bilmələridir. Bu ilahələr yoldaş, ana-qız olaraq ənənəvi rolu təmsil etməkdədirlər. Həmçinin, mənalı əlaqələrə önəm verdikləri üçün sevgi və münasibətlərə bağlı qalmaqdadır.

Üçüncü qrup "yaradıcı ilahə"yə Afrodita bağlıdır. Afrodita eşq, gözəllik, cinsi cazibə və yaradıcı yaşamı təmsil etməkdədir. Həmçinin, "bakirə ilahələr" kimi azadlığa önəm verməkdə və "asan yaralana bilən ilahələr" kimi əlaqələrə də diqqət göstərməkdədir. Bu səbəbdən eyni zamanda bu iki özəlliyə də sahibdir. Yaradıcı ilahə qrupunda olan qadınların, daha öncə bəhs etdiyimiz hər iki

qrupun özəlliyini əhatə edən üçüncü bir tip olduğunu söyləmək mümkündür.

Günümüzdə yenidən "qadınlığı" təhlil etmək istəyən tənqidçilərin səylərinə rəğmən, qadın daima sabitləşmiş bir çərçivə içərisində daha çox mənfi yönüylə verilməkdədir. Qadın deyilən varlıq, kişinin xəyalını əks etdirən aynada müqəddəs, ya da fahişə, yaxşı bir ana, ya da yaxşı bir arvad, qorunma ehtiyacı olan qadın, "femme fragile", ya da "femme fatal", saf və cinsi instinkt oyandırmayan "bəyaz" qadınlar, ya da kişiləri yoldan çıxaran cadugər, yəni "qırmızı"qadın olaraq göstərilməkdədir.

Sabitləşmiş, tək ölçülü qadın yönümlü özəllikləri təhlil etmək "qadınlıq" məfhumunu meydana gətirmək və ya qadın xarakterləri doğru bir anlamda təhlil üçün yetərsiz qalmaqdadır. Bu səbəbdən yazımızda qadını fiziki özəlliyi, dili, üslubu və mövcud vəziyyəti olmaq üzrə üç çərçivə yönündə təhlili uyğun görürük. Bu üç ölçüdə edilən sərhədləmə içərisində qadını təhlil etmək, indiyə qədər sadəcə nəzəriyyədə qalmış təhlil metodunu uyğulamaq baxımından daha da mənalıdır. Showalter "qadın kimi yazmağın" özəlliyini dərk etmək üçün əsəri bioloji, linqvistik, psixoanalitik və mədəni baxımdan dəyərləndirmək gərəkdiyini söyləyən "fərqlilik nümunəsini"ni (model of difference) müdafiə etməkdədir (Showalter 1988: 29). Burada bioloji örnək qadının fiziki xüsusiyyəti, linqvistik nümunə qadının dil və üslubu, psixoanalitik və ya mədəni örnək isə qadının olduğu vəziyyətlə uyğundur.

Fiziki xüsusiyyətlərinə görə qadını qiymətləndirmək qadınların kişilərdən genetik olaraq daha çox fərqli struktura sahib olmaqlarından qaynaqlanır. Qərb ölkələrində bilgi və gücə sahib olmaq kişiyə aid bir özəllikdir, qadın isə bir obyekt kimi var olmuşdur. Onun üçün kişilərə görə qurulan bilgi və güc sistemi və bir obyekt olaraq bu dilemma içərisində qadını təhlil etmək günümüzdə yenidən istifadə olunan bir metoddur. Bu metod insan bədənini gücün istifadəsi üçün bir məkan, cinsi və iqtisadi təzyiqi bir obyekt və cinsi istəkləri yaradan bilgi və gücü inkişaf etdirmək üçün var olan strateji bədən olmaq üzrə üç yerə ayıran Faucaultun görüşündən qaynaqlanır (Faucault 1995: 253).

M.Baxtin isə, qadını həm azdırmağın, həm də yaratmağın bir ilahəsi olaraq görür. O, sonrakı nəsillərin qadının ikili imajlarından mənfi olanı ön plana çıxararaq qadının, sadəcə, materializmə əsas-

lanan dəyərsiz bir varlığa çevrildiyini söyləyir, xristianların əxlaq dəyərlərinə görə qadının fiziki xüsusiyyətinin müsbət tərəfi itirilərək mənfi imaja çevrildiyi düşüncəsini müdafiə edir (Donovan 1981: 36). M.Baxtinin yanaşması onun qadının fiziki xüsusiyyətinə daha mülayim yanaşdığını göstərir. Burada qadının fiziki özəlliklərinə çoxalmağı, zənginliyi və doğmağı bağlaya bilən əsas nöqtələri tapmağımız mümkündür.

Qadının fiziki durumuyla bağlı mübahisələrə səbəb olan Freydin görüşü "penis qısqanclığı" tərifidir. Fəqət Jacques Lacan isə, penisin bioloji orqan olmaqla qalmayıb, bir simvol olduğunu müdafiə etməkdədir. Bu səbəblə Lacan, "penis" yerinə "phallus" kəlməsindən istifadə edir. Penis, qadınlarda olmayıb sadəcə kişilərə məxsusdur, amma "phallus" qadın və kişi − iki cins üçün də "simvolik" ola bilməkdədir. Hər nə qədər Lacan, Freydin penis qısqanclığını rədd etmiş olsa da, bioloji termin olan "penis" ilə bioloji termin olmayan "phallus" arasında heç bir fərq yoxdur. Kişilər "penis" səbəbilə simvolik quruluşun içində hakimiyyət qura bilməkdədirlər. Qadınlar isə bu simvolik olanın kənarında qalmaq məcburiyyətindədir. Bu yönüylə Lacan çeşidli tənqidlərə məruz qalmaqdadır (Homans 1986: 6-9).

Qadının fiziki xüsusiyyətilə bağlı fikirlər iki nöqtədə birləşməkdədir: Birincisi, qadının fiziki xüsusiyyətinin gücün istifadəsi üçün gerçək bir məkan olaraq, ikincisi də etirazın hərəkət nöqtəsi olmasıdır. Qadının bədəni onların təzyiq altında qaldıqlarını göstərən ən aydın göstərici ola bilməkdədir. Keçmişdə zənginliyin bir simvolu olan qadın bədəninin zamanla mənfi yöndə anlam dəyişməsinə toplum içində qadının vəziyyətindəki neqativ dəyişimi səbəb olmuşdur.

Qadın vücudu gücə və quruluşa qarşı mücadilə edərək gerçəyi tənqid edə bilən rolunu da oynamışdır. Bu səbəbdən qadının fiziki xüsusiyyəti, sadəcə bioloji anlamda qalmayıb, mədəni və sosial baxımdan da dəyərləndirilə bilər.

Dil və üslub isə qadın və kişinin fərqli dildən istifadə edə bilmək qabiliyyətindən irəli gəlir. Eyni zamanda, toplumun təzyiqi altında onları susmağa məcbur edən və qadının şüurunu göstərən dilin kəşf edilməsi hədəflənir. Burada vurğulanacaq bir məqam isə, qadının kişiyə görə qurulan dil yapısından qopuq olması və ya qadına uyğun bir dilin istifadəsinə məcbur edilməsidir.

M.Baxtin cinsiyyət fərqinə görə iki cinsin istifadə etdiyi dilin fərqli ola bildiyini düşünərək qadın yazarların söylədiklərinə diqqət etmək gərəkdiyini vurğulayır (Kehde 1991: 28-29). Yəni, ata dili (word of fathers) olaraq adlandırılan rəsmi və hakimiyyətə bağlı dili rədd edərək ancaq həyatla ədəbiyyat arasındakı daha möhkəm bağı olan qadın dilinə qovuşmamız mümkündür.

M.Baxtindən təsirlənən Kristeva isə, Lacanın nəzəriyyəsində simvolik quruluşu və kişinin rolu səbəbindən təzyiq altında qalan pre-oedipal səviyyədəki semantik dilin sosial quruluş və ənənəyə əsaslanan simvolik dildən daha üst səviyyədə olduğunu söyləyir. Fəqət Kristeva qadın-kişi dilemmasından qurtularaq cinsiyyətlə çox da əlaqəsi olmayan semantik dil vasitəsilə simvolik dili anlamağa çalışır (Kristeva 1994: 216). Burada Kristeva semantik dilin varlığına imkan verən məkana Platonun terminilə "chora" deyir. Chora adlandırıla bilməyən, həqiqətə bənzəməyən və atasını bilməyən şəkilsizliyin mərkəzdə yer alan məkanıdır. Bu səbəblə Chora-mərkəzli semantik quruluşun ana bədənilə əlaqə qurduğunu fərz etsək, simvolik quruluşun ata adı ilə bağlandığını söyləmək mümkündür (Kristeva 1984: 30).

Eyni zamanda, Kristeva məntiq dilinə əks olan gülməyi və ya layla kimi mızıldanmağı Chora məkanın dili kimi qəbul edir. Bunun kimi pre-semantik dil isə, məntiqə əsaslanan quruluşa sahib olmadan susmaq, konflikt, yanlışlığı olduğu kimi göstərərək kişi dilinin tək ölçü quruluşun həll etməyə çalışdığı inqilabçı dil olur (Woi 1985: 177).

Helene Cixous isə, Lacan nəzəriyyəsini rədd etməkdədir. Cixous qadının penisi olmadığı üçün dildən kənarda qaldığını qəbul etmir. Həmçinin qadınlarda söyləyici (speaking subject) olaraq "qadına xas yazmaq" yöntəmilə öz fərqliliklərinin, öz bədənlərinin orijinal qənaəti ilə yazmaq gərəkdiyini iddia edir. Cixousun bu "qadın kimi yazmaq" qavramını J.Derridanın "fərqliliklərlə (difference) yazmaq" qavramı ilə yaxın əlaqəsi vardır (Norris, 1986: 54).

Luce İrigaray isə, başdan sona qədər dəyişmədən qadının fərqliliklərinə diqqət edərək Lacanın patriarxal quruluşuna qarşı çıxır və mücadilə edir. Irigaray qadının xüsusiyyətinə "zəif məntiq" (mechanics of fluids) deyərək onu ağıla istiqamətlənmiş kişi məntiqi olan "qüvvətli məntiq"lə (mechanics of solids) qarşılaşdırır (Moi 1985: 149).

Qadın dilinin kişi dilindən fərqliliyini, abstrakt bir baxış bucağıyla incələməyimiz mümkün deyildir. Çünki dilin cinsiyyət fərqliliyini ictimai səviyyədən ayıraraq açıqlamağımız mümkün deyildir. Hələ də var olan dilin tarazsızlığı isə, cinsiyyət fərqliliyindən əlavə, gerçək dünyada mövcud gücün tarazsızlığından qaynaqlanmaqdadır. Bu səbəblə, önəmli olan qadının "nəyi" söylədiyinə deyil, "necə" söylədiyinə və "niyə" onu söylədiyinə baxmaqdır. Bunu etməklə qadının qavradığı həqiqəti təhlil etmək dil və üslub səviyyəsində bir çalışmadır.

Üçüncü səviyyə olan "mövcud vəziyyət" qadınların psixoloji və sosial vəziyyətinə işarə etməkdədir. Qadının psixoloji, ruhi vəziyyətini araşdıran psixoanalitik model və cəmiyyəti sinif, tarix kimi bütün səviyyəni əhatə edən sosial modeli özündə birləşdirir. Psixoanalitik model qadının daxili dünyasını, sosial model isə onun xarici dünyasını təşkil etməkdədir. Şəxsiyyət axtarışı kimi iç konflikt anında rastlanan vəziyyət qadının daxili dünyası olur; insan əlaqəsi kimi ətrafla qarşıdurma yaşanan hal xarici dünyası olmaqdadır.

Qadınlar özlərini "o biri" olaraq hiss etməkdədirlər. Bu səbəbdən fərd olmaqdan kənarlaşdırıldıqlarını düşünürlər. Həmçinin, kənardan gələn bir faktor olaraq patriarxal ideologiya və kapitalizmin onlara təzyiq göstərdiyini hiss edirlər. Bunun kimi həm içəridən, həm də kənardan gələn ikiqatlı təzyiq, qadınların olduqları mövcud vəziyyəti əlverişsiz etməkdədir.

İlk öncə qadının yaşadığı daxili dünyasını "kənarlaşdırma" və "o biri"ləşdirmə ilə xülasə etmək olar. Yuxarıda bəhs edildiyi kimi, qadınlıq ümumilikdə əskiklik, mənfilik, yoxluq, qarışıqlıq, qaranlıq kimi özəlliklərlə xarakterizə edilmişdir. Bunun kimi qadını, mərkəzdə olan kişinin ətrafında saxlamaq və ya "digəri"olaraq düşünmək qadının öz fərqliliklərini yazdırmağa yönəldən səbəb olmuşdur. Burada görünən önəmli bir nöqtə isə, qadının daxili dünyasının həm qadın eqosuna təzyiq edən, həm də qadını inkişafa yönləndirən bir hərəkət nöqtəsi ola bilən cüt tərəflilikdir.

Qadın, kişinin yaşadığı mərkəzi məkandan kənarlaşdırılmış bir varlıqdır. Qərb ölkələrində kişi rasionalist və həqiqəti kəşf edən bir varlıq olaraq qavranılarkən, qadın hərəkətdə olmayan və haqqında danışılmayan bir varlıq kimi qəbul edilmişdir. Bu səbəblə

qadın hakimiyyəti altında olduğu kişinin yaşadığı bir məkanın sərhədlərindən kənarda qalmağa məcbur edilmişdir (Showalter 1988: 47). Bu vəziyyət qadının böhranını göstərən əsas faktdır.

Qadının digər iç dünyası olaraq qavranılan "o birilik" (otherness) isə, qadının kişinin o biri tayı olaraq qəbul edilməsiylə birlikdə özlərinin davranışı haqqında məsuliyyət və haqqının rədd edilməsini göstərməkdədir. Simone də Beauvoir "İkinci cinsiyyət" ("La deuxieme Sex") əsərində bir eqo olaraq kişi və o biri olaraq qadını söyləyərək "ikinci bir cinsiyyət" kimi davranan qadının qədərini və tarixini yenidən təhlil etməkdədir. Beauvoir "Qadın niyə ikinci bir cinsiyyət?", "Qadın niyə o biri olmalıdır?" deməkdədir. Ona görə Freydin açıqlamasındakı kimi qadın sadəcə kişinin penisini qısqanmır. Toplumun kişiyə verdiyi maddi və psixoloji haqqı istəyir. Qadın penisin olmamağından deyil, bir gücə sahib olmadığından "o biri"dir (Beauvoir 1994: 72).

Qərb fəlsəfəsində hər zaman işıq / qaranlıq, ağıl / duyğu, kültür / təbiət kimi dilemmalar içərisində kişi / qadın təzadı da vardır. Fəqət burada təzad yaratmaqda olan ağıl – kişi – kültür, özlərinin doğru və gerçək olduğunu söyləyərək duyğu – qadın – təbiət kimi şeyləri hər zaman onlara görə aşağı bir səviyyədə olduğunu düşünməkdədir, beləcə "o biri" olaraq qadının statusu bəlli olmaqdadır (Tong 1995: 344).

Fəqət bunun yaxşı tərəfləri da vardır. O birilik, əsas mədəniyyətin qadınlara vermək istədiyi adət, dəyər hökmündən bir addım geriyə çəkilərək onu tənqid edə bilmələrinə imkan verir. O biri olmağın özü bəlkə qadına təzyiq edən bir səbəb ola bilər, amma o xoş niyyətli, çox yönlü, müxtəlif və fərqli bir inkişaf yarada bilir (Tong 1995: 345).

Bunun kimi qadının daxili aləmi ilə əlaqəsi vardır, amma daha konkret bir şəkildə ictimai, xarici dünyada qadının gerçək həyatına təsir göstərən patriarxal ideologiya və kapitalizm sistemidir.

"Patriarxal (patriarchy)" anlayışı isə, hələ müzakirə olunan bir məsələdir. Patriarxallıq, toplumda rollarına dətən cinsiyyətə görə paylaşıldığı üçün, qadının kişiyə görə daha aşağı bir səviyyədə olduğu cəmiyyət sistemi və ya kişilərin qadınlar üzərində hakimiyyət qurduğu bir güc sistemi mənasında istifadə olunmaqdadır (Neals 1991: 144). Kəlmənin mənasına görə, patriarxal sistem "ata hakimiyyəti (rule of fathers)" anlamı daşımaqdadır. Burada ata

hakimiyyəti cinsiyyətə görə hakimiyyət və nəslə görə hakimiyyət olaraq iki cür məna ifadə etməkdədir. Patriarxal sistem ailə içərisində ən yaşlı kişinin hakimiyyət qurduğu bir sistem deməkdir. Bu səbəblə, belə bir sistem altında ailənin kiçik və qadın fərdləri ailə rəisindən asılı qalmaq məcburiyyətindədir. Patriarxal sistem ailəvi istehsal sistemində (domestic model of production) evli qadınları pul almayan işçi vəziyyətinə salmaqdadır (Chizko 1994: 99).

Patriarxal sistemin maddi zəmini kapitalizmə bağlanır. Patriarxal sistem maddi qaynaq olaraq kişinin işçi qüvvəsi kimi qadın üzərində hakimiyyət qurmasını əsas götürür. Bu hakimiyyət qadının iqtisadi olaraq gərəkən qaynağa yaxınlaşmağını əngəlləməklə və ya qadının cinsi xüsusiyyətlərinə nəzarət etməklə mümkün olur. Kişi iki yolla öz mənfəətini qoruya bilər. Birincisi, qadını ödənişli işçilikdən kənarlaşdırmaq, ikincisi, qadının məvacibini kişiyə nisbətən az verməklə kişidən asılı qalmağını təmin etməkdir. Bu səbəbdən qadının kişiyə asılılığının kapitalizmin inkişafı ilə əlaqəsi vardır.

Fridrix Engels "Əgər kişi burjuaziyadırsa, arvadı proletardır" deyir. Burada onun demək istədiyi kişi qadına görə daha güclü maddi zəminə əsaslanmaqdadır. Kimin hansı sinfə mənsub olduğuna qərar verən ölçü isə istehsal sahəsindəki mövqeyidir. Burjualar pul qarşılığında iş verənlər, proletarlar isə işçiliyi satmaqla həyatlarını davam etdirənlərdir. Qadın və kişi arasındakı əlaqə də buna əsasən düşünülə bilər (Donovan 1993: 124-127).

Qadınlar rəsmi iş yeri olan ödənişli işçiliklə, özəl iş yeri olan ödənişsiz ev işçiliyi kimi iki yönlü vəzifə daşımaqdadırlar. Qadının ev daxilindəki işləri və ana rolunun maddi yönlə dəyərləndirilməyi mümkün deyildir. Buna görə də dəyəri düşməkdədir.

Qadının düşdüyü bu vəziyyət onun daxili və xarici dünyasında təcrübə formalaşdıran qadınlıq şüurunu problem etməkdədir. Ümumi olaraq qadının ruhi vəziyyətini önə çəkən psixoloji situasiya və onu əhatə edən çevrə olmaq üzrə dilemma içərisində təhlil etməyə çalışırlar. Ancaq belə bir bölgü həqiqi mənada mümkünsüzdür. Çünki daxili ruhi vəziyyətilə çevrədəki durumu bir araya gələrək qadın şəxsiyyəti yaratmaqdadır. Buna görə də qadının ayrılmayan daxili və xarici dünyasını əhatə edən, onun mövcudiyyətini izləyən ölçü "olduğu vəziyyət" səviyyəsində aparılacaqdır.

1. QADIN XARAKTERİNİN FİZİKİ XÜSUSİYYƏTLƏRİ

Qadın təcrübəsinin ən əsas ünsürlərindən biri onun bədənidir. Qadın öz vücudu vasitəsilə dünya ilə təmas qurduğu zaman bədəni silinməyən bir həqiqət və anlamalı olduğumuz sirli bir bilgi arxivi olur. Burada bir maddə olan bədən ilə təcrübə sahibi olan bədəni ayırmağımız lazımdır. Bir maddə olaraq vücuda kənardan baxanda "fizikilik" olur, amma təcrübəli vücud, sadəcə, fiziki deyil, eyni zamanda psixoloji bir faktdır. Qadının fiziki bir varlıq olması onun dünyaya açıq olmağını göstərir, bu, eyni zamanda qadının bədəni vasitəsilə digər insanlarla və çevrədəki dünyayla qarşılıqlı bir dialoq qurmağı deməkdir (Banperson 1985: 134).

Xüsusilə, qadının şüuru ona imkan yaradan bədəniylə yaxın əlaqə içindədir. Qadın belə bir bədənə sahib olmaqla "hissi" yaza bilməkdədir. Burada hiss "təsirlənmək" mənasında olduğu üçün, ancaq bədən, bədənin görüşmələri və təmaslarına görə mümkün olacaqdır. "Hisslərə əsaslanan yazı" isə, dünyanı və fərdləri konkret, bilvasitə və ağılla anlamamaq bədənin birbaşa onlarla təmas etdiyi halda hissləri olduğu kimi yazmaqdır (Seo 1993: 39). Beləcə, qadının bədəninin yaşadığı aybaşı, hamiləlik, uşaq əmizdirmək, doğuş kimi daha gerçək mənada təcrübələrdən yazmağa çalışmağın hissi yazmaqla yaxın əlaqəsi vardır. Bunun kimi "bədənlə yazmaq" isə, indiyə qədər alçaldılan qadın bədənindən hərəkət edərək qadının özünə aid dili yarada bilən xüsusi bir məkanı əldə etməyə çalışmağıdır (Trink 1989: 36).

Qadının hissi bədənindən ona azadlığı ehtiva edənlər uşaqlıq, süd vəzi, dəri, boyalı dodaq ola bilməkdədir. Bunlar, eyni zamanda, bioloji cinsiyyəti bildirməklə birlikdə gücə əsaslanan ictimai vəzifəni yerinə yetirməkdədir. Bu səbəblə yazarların bədənə qarşı maraqları və bədən vasitəsilə şəxsiyyət axtarışına yüksəlmələrini izləməklə qadınlığı yenidən nəzərdə keçirə bilərik.

1.1. Ana olmaq

Sadəcə qadının yaşaya bildiyi fiziki təcrübələrdən hamilə olmaq və doğmaq bu dünyaya yeni bir həyat gətirən müqəddəs bir hadisədir. Bu səbəbdən doğumun qadın bədəninin ən konkret və həqiqi təcrübəsi olduğunu deyə bilərik.

Doğum imkanını yaradan qadın bədəni isə "uşaqlıq"dır. Uşaqlıq həyat və doğumun simvolu olduğu üçün hamilə qalmaq istəyi qadının fiziki imkanlarını sınamaq və ya dünyanı yenidən quraşdırmaq istəyinə bağlıdır. Bu baxımdan uşaqlığın nə kimi funksiyaları yerinə yetirdiyinə baxılaraq qadınlıq axtarışının uğurlu olub-olmadığına qərar verilir:

A.Doğuşdan gələn cinsiyyət (sex) – genetik, bioloji səbəb	Qadın (female) Hamiləlik – doğum mümkün	Kişi (male) Hamiləlik – doğum imkansız
B.Sonradan əldə edilən cinsiyyət (gender) – sosial-mədəni səbəb	Qadınlıq (feminity) cılız, qısqanc	Kişilik (masculinity) kobud–dözümlü

(Yi 1986: 33)

Qadın xarakterlərin qadınlıq axtarışlarını romanlarda görməyimiz mümkündür:

"Sinəkli baqqal"da Rabia üçün uşaqlıq ya analıq – sonsuzluqdur, ya da ölüm-qalım mücadiləsi deməkdir.

"Yaşamaq üçün uşaqlığındakı yeni həyatı öldürmək gərək... Fəqət onu bu dəfə öldürərsə, bir daha ana olmaq ona nəsib olmayacaq. Və öz əliylə özünü əbədiyyətə aparacaq olan bircə körpünü dağıtmış olacaq.

Uşaqlığında durğun sularda ağır-ağır tərpənən səkkiz ayaq hərəkatı var. Yeni həyat ölümdən sığınacaq bir sipər axtarır sanki... O hələ ki, şəkli və adı olmayan həyat..." (Adıvar 1994: 277).

Bu romanda Rabianın hamilə qalmağı nə özü üçün, nə də ailəsi və çevrədəki insanlar üçün sevindirici bir haldır. Rabia yeni həyatı bu dünyaya gətirmək üçün öz ölümünü gözə almaq məcburiyyətindədir. Bir çox qadının faciəvi taleyi orqanizmindəki uşaqlıqdan başlamışdır. Rabia üçün də bəlkə eyni hal keçərli olacaqdır. Amma Rabia "ana olmaq" üçün ölümü gözə alır, o sadəcə fiziki sancını deyil, psixoloji acını da səbr və cəsarətlə məğlub etdiyi üçün onun ana olmağının dəyəri daha da yüksəldilməkdədir. Bu baxım-

dan qadın üçün önəmli olan sadəcə "fiziki uşaqlıq (bətn)" deyildir, "psixoloji uşaqlıq"ın rolu da çox böyükdür.

Hamilə qalmaq yeni bir həyatın bu dünyaya gəlişi olmaqla birlikdə gələcək üçün bir ümid ola bilər. Çünki iki bədənin birlikdə yaratdığı ortaq təməldə dəyərli və dəyərsiz; yeni və köhnə; dağılan şey (yaşlılıq) və doğulan şey (gənclik) bir yerdə olduğundan yaşlılıq gənclik içərisində yenidən doğular (Bakhtin 1965: 24-27). Həmçinin yeni və xoşbəxt gələcəyi meydana gətirən qadının uşaqlıq orqanı "cəsarət" sayəsində müsbət cinsiyyət simvolu olmaqdadır.

Bunun kimi hamiləliyin qadın xarakterinə həyat və ümid bağlayan bir ünsür olması, "Ölməyə yatmaq" adlı əsərdə görünür:

"Bir müddət daha mübarizə aparıb övladımı böyütmək istəyirəm. Uşaq istər saatsaz Rzanın oğlundan olsun, istər Ömərdən…" (Ağaoğlu 1994: 317).

Ölməyə yatan Aysel keçirdiyi günləri və özünü ölümə sürükləyən səbəbləri düşünərkən sonda uşaqlığında tərpənən bir həyat olduğunu ağlına gətirir. Uşağı kimdən olursa olsun, körpəni dünyaya gətirib yeni bir həyata başlamağa qərar verir. Aysel üçün dünyaya gətirəcəyi uşaq indiyə qədər onu narahat edən şeylərdən, oxumuş bir qadın olaraq hiss etdiyi gücsüzlükdən, Atatürkə hiss etdiyi dəyər qarşısında özünü alçaltmaqdan və buna bənzər mənfi təsirlərdən tamamilə qurtulmaq deməkdir. Həmçinin qadının keçmiş və mənfi qabığından çıxaraq yeni bir dünyaya qədəm qoyması mənasındadır.

"Əczaçı Kimin qızları"ndakı Hansil üçün də analıq duyğusu həyatın gətirdiyi kədərlərə dözmək gücü verən ünsürdür. Hansil ərinin laqeydliyindən şikayətçidir; bunun səbəbini özünün bir oğlan övladı dünyaya gətirə bilməməyinə bağlayır. Hansil həyatı boyu sadəcə qızlarına baxmaqla məşğul olur. Onun üçün analıq nüfuza bağlı ər-arvad münasibətindən gələn kədər və sevgi əskikliyinin bir nümunəsidir.

Acı və bədbəxt bir həyata dözmək gücü verən analıq duyğusu "İlanı öldürsələr"də də görünür. Sevdiyi insan Abbasın daim ətrafında fırlanmasına baxmayaraq oğluna görə ona dönə bilməyən Əsmə üçün analıq vəzifəsi həyatda qalmağının tək məqsədidir.

"Ölsəm də oğlumun yanında ölərəm. Oğlum yanımda olarkən ölərəm daha yaxşı… Oğlum yanımda yoxkən yaşamaqdansa, oğlum yanımda olarkən ölmək daha yaxşı…" (Kemal 1996: 34).

Əsmə Çuxurovadan oğluna görə qaça bilməmişdir. Ona, təhlükəni gözə alacaq qədər cəsarət verən övlad sevgisidir.

Uşağı dünyaya gətirmək və ona baxmaq sayəsində xoşbəxt bir gələcək ümidi verən və qadının öz statusunu düzəltməsini ifadə edən analıq, "uşaqlıq ailəsi (uterine family)"ni təşkil etməkdədir (Cho 1988: 248).

Atanın olmamağı səbəbilə ananın ailə başçısı olmağı və qarşılıqsız fədakarlıq göstərməsi ilə yaranan ailəyə "uşaqlıq ailə"si deyilir. Bu zaman qadının çoxalmağını təmsil edən uşaqlıq orqanı qadın başçı kimi ananın güc simvolu olur.

Fəqət analıq vəzifəsi və sevgisi hər zaman qadınlar üçün müsbət yöndə deyildir. Analıq zaman-zaman qadınlar üçün həyatı dağıdan və qorxuya bağlayan bir səbəb ola bilir.

"Cadügər ağacı"nın qadın xarakteri Nilufər əriylə dalaşarkən bu qorxunu belə ifadə etməkdədir:

"Mən də uşaq istəmirəm. İndi ixtisas imtahanına hazırlaşmalıyam həm də. Uşaq doğulanda tamamilə çətin olacaq, bunu da bilirəm. Hamısından vacibi ana olmağa hazır deyiləm… Uşağı aldırmaqdan başqa. Cinayət filan kimi də düşünmürəm. Qorxuram, açıq-aydın qorxuram…"

"Bu qədər qorxaqsansa doğmaqdan nə üçün qorxmursan? İki dəqiqəlik kiçicik bir əməliyyatdan qorxan xanım…"

"Anlamırsan, doğuşdan da qorxuram. Hər şeydən qorxuram." (Kutlu 1986: 44).

Nilufər əri istəmədiyi halda hamilə qalır, çarəsiz dünyaya uşaq gətirir. Uşağının doğumundan sonra Vedat qızına fövqəladə bağlı bir ata olur. Fəqət övladını bir qəzada itirdikdən sonra onların bədbəxt evlilikləri də tamamilə sonlanır və boşanırlar.

Bu əsərdə Nilufərin uşaqlıq orqanı, analıq vəzifəsini yerinə yetirməyən, uşaq doğa bilməyən uşaqlıq mənasını ifadə etməkdədir. Uşağın ölümüylə Nilufərin kədəri cəmiyyətin dəyər məhkəməsilə bir daha zidd olmaq məcburiyyətində qalır. Bu roman qadının faciəvi vəziyyətinin qaynağı olan uşaqlıq orqanını canlandırır.

"Uşaqlıq ola bilməyən uşaqlıq" motivi "Öküzün buynuzu kimi təkcə gəzin" əsərində Hevanın həyatında da görünür. Hevan fa-

kültədə tanış olduğu kişi dostuyla olan əlaqəsindən hamilə qalır. Evlənmədən öncə hamilə qalmağı, kimsəyə deyə bilmədən təkbaşına həkimə gedib uşağı aldırmağa səbəb olur. Üç ay sonra Hevan onunla evlənir, bir oğulları olur. Fəqət bu uşaq bir neçə il keçmədən yol qəzasında ölür. Bu səbəblə, Hevan doğum etmiş olduğuna görə uşaqlıq orqanına sahib bir qadındır, amma o, axıra qədər həyatda qalmadığı üçün ona uşaqlığı olmayan bir qadın deyə bilərik.

Çoxalmayan və həyat yaşamayan uşaqlıq orqanı sonsuzluğa bağlanır. Qadınların sonsuzluğu toplum içərisində qadın üçün daima faciəvi bir ünsür olmuşdur.

Burada diqqətimizi çəkən bir nöqtə həm Türkiyədə, həm də Koreyada 80-ci illərdən sonra feminizmi ələ alan qadın yazarların çoxalan uşaqlıqdan daha çox sonsuzluq və ya uşağın ölümü kimi mənfi uşaqlığı ön plana çıxarmağı, patriarxal quruluşun qadına etdiyi mənfi təsiri və çoxalmayan toplumu tənqid etmək istəmələri səbəblərindən qaynaqlanır.

Qadın üçün uşaqlıq, şəxsiyyət axtarışı və dünyanı tanımağına imkan yaradan bir vasitə olmaqdır. Fəqət əsasən zənginliyin və həyatın simvolu ola biləcək uşaqlıq iqtisadi təzyiqlər və patriarxal ideoloji səbəbindən sonsuzluq və yoxsulluğun simvoluna çevrilməkdədir. Bu səbəblə günümüzdə qadın yazarlar uşaqlığın yeni bir həyatı yaradan məkan olmaqla qalmayıb dünyanın sonsuzluğunu və ya ölüm qorxusunu ifadə edən bir mənfi məkan ola bildiyini göstərməkdədirlər. Onlar doğum və ölüm olmaq üzrə bu dilemma içərisində uşaqlığın həm həyat verən ünsür, həm də bir çox yaraların mövcud olduğu məkan ola bildiyini doğuş motivi ilə vurğulamaqdadırlar.

Analıq vəzifəsini təmsil edən bir digər motiv də "əmizdirmək"dir. Qadın hamiləlik və doğumla həyatın dəyişikliyini öyrənir, ondan sonra əmizdirməklə həyatı davam etdirən prosesi yerinə yetirir. Bu həyat dəyişimi tıxanarsa, həyat bitər, qadının bədəni də dəyərsiz bir maddə halına düşər.

Ananın bədəni, uşağın bədəninin qabığıdır. Buna görə də ana uşağın əsas həyat qaynağıdır. Xüsusilə, körpə doğulduğu zaman ananın döşünü əmərək südünü içir və beləcə ananı içmiş kimi olur. Uşağın ana südünü ala bilməyini təmin edən ananın sinəsi isə, körpə üçün bir əyləncə qaynağı olur; ana övladına südü vermədiyi

zaman uşağının psixoloji problemlərinə səbəb ola bilər (Ring 1988: 30).

"Takryu"da Chobong, qızı Songheeni narahat edən Hyungbonu qəzəbindən öldürür. Bir çox insan səbəbindən fəlakət yaşayan Chobong, qarşılaşdığı faciəvi duruma bir müqavimət göstərmədən öz qədərini qəbul edir, amma onun analıq duyğusu həyat boyunca boyun əydiyi dərdin və qəzəbin "partlamağı"na yol açır.

"Chobong dərhal özünü topladı və onu qucaqlayan Songheeyi qucaqlamağa çalışarkən bir an qorxdu. İnsan öldürən əliylə uşağını qucağına almaq istəmədi. Fəqət Songhee anası nə düşünürsə düşünsün, anasının qucağına girərək döşünü əmməyə başladı." (Che 1988: 519).

Qadına xas bədənin bir qismi olan süd vəzi çoxalmağın "partlamağı" və uşağa veriləcək südlə təmsil edilən analıq simvoludur. Chobong gerçəkdə qarşı durduğu şərtlər altında daim əziyyət çəkərkən onun analıq duyğusu qəzəbin bir anlıq coşub partlamağıyla problemi həll etmiş olur. Onun üçün burada süd vəzi (döş) motivi, həm analıq, həm də qəzəbin çölə vurulmağının bir nümunəsidir.

1.2. Cinsiyyət baxımından bir obyekt olmaq

Qadının və kişinin əlaqəsi, ancaq onların dərilərinin təması halında mümkün olur. Dəri nə qədər yumşaq bir maddə olsa da iki insanı ayıran divardır. Çünki insanın bədəni dəri ilə örtüldüyü üçün iki insanın sarılmış halda da "bir" olmağı mümkün deyildir. Dəri bədənin içini və çölünü ayıran bir sərhəd olaraq bədənin içini qoruyur. Təzyiq altında edilən və ya istənməyən şəkildə zorla olan cinsi münasibət, bədənin daxili və xarici arasındakı sərhədi dağıdaraq qadının bir obyekt halına düşməsinə səbəb olar. Bu vəziyyətdə dəri qadının təzyiq altında olduğunu göstərən gerçək bir simvoldur.

İnsan aşiq olanda cinsi münasibətdə olduğu zaman bədənin sərhədi itirilməkdədir. Bunun kimi müsbət bir cinsi münasibətdə dəri bir-birinə duyulan sevgiyə görə sıyrılmış bir maska kimidir. Eşqin özündə maskanı atdıran sevgi dolu bir güc vardır. Çünki eşq insanın özünü olduğu kimi, çılpaq bir şəkildə görünməyini təmin etməkdədir (Dorkin 1990: 57).

İstənməyən cinsi əlaqə isə, sevginin ifadəsi deyil, insanlıqdan kənar heyvanca bir hadisədir. Zorla olan münasibətdə kişi cinsi baxımdan fəth etmə sevincini dada bilər, amma qadın həzz və sevincə deyil, qorxu, utanc, incimə kimi duyğulara qapılır. Bu, kişinin tək tərəfli instinktiv cinsi istəyinə görədir. Bunun kimi tək tərəfli cinsi münasibət və sadəcə kişinin haqqı olmağı, qadının maddə və obyekt halına düşməsinə səbəb olur (Song 1988: 94).

"Hyungbo artıq bir dəfə gülümsədi və Chobongun otağına girərək qapını səs çıxarmadan bağladı. Chobongun ona qarşı savaşacağını görən Hyungbo özünü hazırladı. Hyungbo bir daha yuxuya getmiş Chobongun üzünə baxdı, işığı söndürdü.

...

Chobong təəccüblə oyandı və qışqırmağa çalışdı. Hyungbonun sərt əli Chobongun ağzını bağladı. Sonra tələsik qulağına fısıldadı.

"Sus! Qışqırsan Tesunu öldürəcəm. Tesu indi oteldə başqa bir qadınla yatır. Əgər mən onun ərinə bunu danışsam, Tesu əri tərəfindən öldürüləcək. Onun ölməyini istəmirsənsə, sus!"

Chobong bu vəziyyətdə nə edəcəyini bilmədi. Lüzumsuz olduğunu bilə-bilə əl-qol ataraq özünü qorumağa çalışdı, fəqət tərpənməyə belə halı yox idi. Qışqırmağa çalışarkən ürəyi getdi.

Chobong yenidən oyananda gecə saat 12 idi. Öncəki hadisəni yuxuda gördüyünü sandı.

...

Chobong qaranlıq içində də sanki öz vücudunun göründüyünü hiss etdi və titrədi. Özünü pis və iyrənc hiss etdi. Qusmaq istədi (Che 1994: 266).

"Takryu" adlı romanda Chobong ailəsinin tövsiyəsilə Tesuyla evlənir. Fəqət Chobong Hyungbonun hiyləsilə ərini itirir və təcavüzə məruz qalır. Çarəsiz qalan Chobong Jehonun yoldan çıxarmağı ilə onun aşnası olur, atasının kim olduğunu bilmədiyi bir qız uşağı dünyaya gətirir.

Bu halı canlandıraraq yazar sevilən bir insan kimi deyil, fəth edilməyi gərəkən bir obyekt kimi mövcud olan qadının faciəvi halını təsvir etməkdədir. Yazarın məqsədi istənməyən bir şəkildə bədənini itirməsinin, qadının həyatını məhv edən bir faciə olduğunu oxucuya bildirməkdədir.

"Əczacı Kimin qızları"nda da qayınatası tərəfindən təcavüzə uğrama təhlükəsini adladan Yongokun çətin bir həyat yaşamağı mövzu olaraq işlənmişdir:

"Soyuq rüzgarla birlikdə qapı yavaş açıldı.

"Kim, kimdi o?"

Qaranlıqda kölgə durdu. Yongok qalxdı və küncə çəkildi.

"Kim, Kimdi o?"

Sanki ağlayan kimi idi. Kölgə ona yaxınlaşdı və ağzını əlilə bağladı.

"A.., ata!"

Qonşu otaqda olan qayınatasını çağırmağa çalışdı, fəqət heç cür səsi çıxmadı.

"Hər şeyi apara bilərsən!" - Demək istədi, fəqət yenə səsi çıxmadı. Kölgə Yongoku yerə yıxdı və sinəsini əlləməyə başladı.

"Aaaah!"

Yongok yumruqla kölgənin sinəsinə vurdu. Artıq Yongok qışqıra bilərdi, fəqət səsini çıxara bilmədi. Kölgə qayınatası idi.

Dişi tülkü ilə qoca canavarın savaşı saatlarca çəkdi. Yongok sobadakı külü onun üstünə atdı.

"Aaah!"

Yongok qapını açıb qaçdı." (Park 1993: 354).

Otağa girənin oğru olduğunu düşünən Yongok qayınatasını çağırmaq istəyir. Sonradan otaqdakı kölgənin oğru deyil, onun vücudunu istəyən qayınatası olduğunu anlayır. Beləcə, ailəvi əlaqənin və əxlaq dəyərinin sərhədini keçən bir dişi tülkü ilə yaşlı erkək canavarın savaşı başlayır. Burada sadəcə kişinin instinktiv istəyini təmin edəcək varlıq olaraq heyvan səviyyəsinə enən qadının hücuma uğramış bədəni göstərilmişdir:

"Evin qapısından girən kimi Hevanın paltarını cırmağa başladı. Bir neçə dəfə yanağına vurdu. Hevan ayağını açdı, şiddətindən qorxduğundan deyildi. İçindən artıq "bitdi" deyə qərar verdiyi üçün edə bilmişdi.

Hevanın vücudunu və könlünü param-parça etdikdən sonra yatmağa başladı. Hevan hamama qaçdı və ağlayaraq aynaya baxdı. Və mızıldanmağa başladı.

"Bəli, anlayıram. Hələ ki gənc yoldaşının öz məktəb dostuyla sanki əvvəlki kimi danışdığını görmək istəməmişdir. Bu səbəblə göstərmək istəmişdir. Sən mənimsən. Onu izah etmək üçün cinsi əlaqə-

dən daha yaxşısını tapa bilməmişdi. Belə olmaz! Olmaz!" (Gong 1993: 8).

Ümumən kişi qadına qarşı hakimiyyət qurmaqdadır. Bu səbəbdən cinsəllik qadına qarşı kişinin öz gücünü tətbiq etdiyi bir məkan olmaqdadır (Darkin 1990: 203).

"Öküzün buynuzu kimi təkcə gəzin" romanında Hevana əri tərəfindən təcavüz edilməyini əks etdirən sitatda Hevanın cırılan paltarı onun cırılan dərisidir, nəzakətli və sevgi dolu bir kişinin deyil, sərt və əsəbi bir ərin məcburiyyəti altında zorla olan cinsi əlaqəsi, qarşılıqlı qovuşma deyil, tək tərəfli hücumdur. Bu davranış səbəbindən qadın asan yaralanır. Çünki zorla olan cinsi münasibətdə qorunması gərəkən bədənin sərhədi itirilir və keçmiş halına qayıdış yoxdur (Darkin 1990: 225).

Ər-arvad arasındakı cinsi münasibətdə qadının yaralanmağı, kişinin cinsi istəyi sevginin ifadəsi olaraq deyil, istəyini ödəmək üçün bir mal və ya obyekt olaraq istifadə etdiyi zaman meydana çıxır:

"Bu davranış mənim üçün təcavüz edilməkdən başqa bir şey deyildi. O an üçün onun birlikdə olmaq istədiyi qadın mən deyildim. O corabını çıxardarkən gördüyü Myungheyi düşünürdü. Yəni, o Myungheylə sevişirdi. Bu, ən pis bir təcavüz hadisəsi idi. Myunghenin ayağını gördüyü zaman həyəcanlandı və mən istəyini qarşılayacaq bir maddə halına düşdüm! Ola bilməz. O mənim ərim deyil, ikiüzlü bir insan idi." (Kim 1988: 85).

"Üç bacının hekayəsi"ndə Yonge, qayınanasının hər tələbini qəbul edərək bədbəxt bir evliliyi davam etdirərkən rəfiqəsi Myunghe sayəsində öz sonunu anlamağa başlayır. Bir gün hələ subay olan Myunghenin öz evinə gəldiyi zaman onun corabını çıxaranda ərinin üzündə hiss etdiyi instinktiv dəyişikliyi fərq edir. Myunghe evinə döndükdən sonra dərhal əri tərəfindən zorla gerçəkləşən əlaqə sonunda Yonge özünü istifadə olunmuş "bir mal" kimi hiss edir və utanc duyğusuna qapılır.

Bunun kimi bədənin itirilməsi ikinci dəri olan "paltarın"ın öz funksiyasını yaxşı icra etmədiyi üçün dərinin görünməsində də ola bilər. Paltar kişinin təbəqəsi, iqtisadi vəziyyəti və zövqünü göstərən sosial bir ölçü daşımaqdadır (Han 1992: 214). Zövqü göstərən paltar bədəni həm örtür, həm də göstərir; eyni zamanda ruhu həm canlandırır, həm də öldürə bilir:

"Çörək almağa gedirdi. Dükanının ta arxalarındakı dəzgahının başındaydı sələmçi. Filiz vitrinə yaxınlaşmış, neylon alt paltarlara, Grandüşe corablara, köynəklərə, ətəklərə baxırdı. Ürəyi gedirdi. Heç bir zaman sahib ola bilməyəcəkmiş kimi hiss edirdi özünü . Sahib ola bilməyəcəkdi həqiqətən də. İşsiz idi artıq, atası arabasını, pulları yemişdilər. Onun üçün sahib ola bilməyəcəkdi. sahib ola bilməyəcəkdi bütün bunlara. Allah bəlasını versin! Sahib olmaq istəyirdi amma. Neylon alt paltarlar, ən yaxşı neylon corablar, ətəkliklər, köynəklər…" (Kemal 1995: 23).

"Bir Filiz vardı" adlı əsərdə Filiz bir gün çörək almağa gedərkən gözü geymək istədiyi paltarlara sataşır. Vitrində gördüyü Grandüşe corablar, ətəklər, köynəklər Filiz üçün əlçatmaz zənginliyin və yuxarı təbəqənin simvoludur. Bunlara çata bilməməsi isə onun yoxsulluğunu təmsil etməkdədir. Öz şəxsiyyətini və zövqünü göstərməyən paltar isə, ikinci dəri kimi öz funksiyasını tam şəkildə yerinə yetirə bilmədiyini göstərməkdədir. İnsan kimi bir həyat sürmək, doğru paltarla vücudunu qorumaq mənasında da ola bilər. Filiz kənardan gələn təhlükədən özünü qoruya bilməyəcək vəziyyətdədir.

Təcavüz edilən qadın, pul səbəbilə satılan qadın və doğru qiyafəti geyə bilməyən qadın üçün vücud, çöllə bir sərhəd ola bilmək funksiyasını itirir və kənardan gələn təzyiqlə hücuma məruz qalan bir məkan halına düşür.

Hər insanın bədənini qorumağa haqqı vardır. Bədən qorunmadığı zaman əzilmə təhlükəsi altına girir. Xüsusilə, istəmədiyi cinsi münasibətə görə qadın əzilir. Burada məsələ olan, bu halın "əzilmək" deyil, normal bir "istifadə" kimi anlaşılmağıdır. Sevdiyi insanla xoşbəxt birlikdəliyi olmayan və sonsuz şəkildə "bir" ola bilməyən dəriyə sahib qadının bədəni dəyərini itirən bir "mal" halındadır.

Kişilərin baxış bucağına görə düzənlənən dilemmada qadın özünün iki rolundan sadəcə birini edə bilməkdədir: Birincisi, "ana" olaraq namuslu, ev xanımı, bir çox uşağı olan və ev işlərinə baxan qadındır. Digəri isə "fahişə" olaraq anlaşılan bir obyekt olan qadındır. Bir ana, xoş rəftarlı, nəzakətli və itaətkar bir qadın olduğu üçün gözəldir. Əksinə fahişə, çəkici, azad və başdan çıxardıcı qadını təmsil etdiyi üçün ona yaxşı münasibət bəslənilmir, amma kişinin istədiyi qadın tipidir (Japoniqeus 1984: 14).

Qadın bədənindən iki dodağın, əsasən, bir olması kimi qadının müqəddəs özəlliyi ilə şeytani özəlliyi də birlikdə olmaqdadır. Buna baxmayaraq kişi tərəfindən edilən dəyərləndirməyə görə, qadının müqəddəsliyi və şeytanlığı "bir içində iki" olmayıb biri-birinə təzad təşkil etməkdədir (Yi 1988: 374).

"Mən artıq alçaq və yoxsul bir günahkar oldum. Mən artıq tarixin lənətləmiş insanı Yehudaya bənzədim. Yehuda dünyanın necə çox sevilən bir şəxsini, əfəndisini bir neçə dinar üçün satdısa, mən də dünyanın məni ən çox sevmiş bir ruhunu, o ruhun sərhədi olmayan güvənini; sevgisini satdım; dünyada ən çox sevdiyi şeyin qəlbini ondan oğurladım. Açığı oğurlamaq üçün bir şey etmədim; qəlbimdə o qədər zaman gizlənən marağı da heç aşkar etmədim. Fəqət sevdim. Mən Nərimanın ərini sevdim." (Adıvar 1995: 194).

"Xəndan" adlı əsərdə qadın xarakteri olan Xəndan, əmisi qızı Nərimanın ərinə aşiqdir. Yuxarıda göründüyü kimi, Xəndan instinkt ilə ağıl arasında daxilən qarşıdurmadadır. Burada instinkt Nərimanın ərinə qarşı özünü tuta bilməyən sonsuz eşqi vurğulamaqdadır. Ağıl isə, əxlaqdan kənar bu eşq üçün daim vicdan əzabı çəkir və özünü günahkar və mənfi bir insan olaraq kiçildir:

"...İkinci bir parıltıda dodaqlarının mənə yaxınlaşdığını gördüm. İlk eşq öpüşümüzü o qaranlıqlar və şimşəklər içində, İtaliyanın atəşli, ehtiraslı gözləri qarşısında aldıq. Ruhumu bu qəribə və xoşbəxt işgəncə, bu öpüşlə artıq, tamamilə, Xəndanın gözləri, saçları, əlləri içində möhürlədi." (Adıvar 1995: 182).

Burada "dodaq", iki insanın sevgi dolu birləşməsini təmin edən detaldır. Eyni zamanda, ağıl və instinkt təzadlı-paralelli münasibət tamamilə, instinkti dəyişdirən dönüm nöqtəsi olmuşdur. Kişi tərəfindən hazırlanan dilemma; cin / cadugər; müqəddəslik / şeytanlıq; yaxşı / pis kimi qadın haqqında sabitləşmiş fikirdən uzaqlaşmış, qadının instinktiv duyğusunu da qəbul etmişdir.

Bu əsərdə Xəndanın yaşadığı təzad belədir:

	Müqəddəs qadınlıq (təmizlik)	Şeytani qadınlıq (instinkt)
Yaşanan hadisələr	Özünü aldadan Hüsnü Paşaya dözmək və namusunu qorumaq Evliliyini müqəddəs hesab edərək davam etdirmək Bacısı saydığı Nərimanın ərini sevdiyi üçün vicdan əzabı çəkmək	Evlənmədən öncə Nazimlə olan münasibəti Rəfiq Camalın önündə Hüsnü Paşanın dodağını oxşamağı Rəfiq Camalla olan evlilikdən kənar platonik əlaqəsi
Mənalar	Ağıl Vəzifə Vicdan Ailəvi bağ Əxlaq Məsuliyyət	Eşq İnstinkt Sərbəstlik Şəxsi istək Duyğu

Ev içindəki qadın / evdən kənardakı qadın; başdan çıxardan qadın / namuslu qadın; sevgili / yoldaş kimi təzadlar, saflıq / instinkt dillemmasını yaradır. Çünki qadın "bir içində iki" ola bilmək xüsusiyyətini daşımaqdadır. Həmçinin evdən kənarda başdan çıxaran bir qadın və evin içində namuslu bir həyat yoldaşı olaraq qadın təzadı düşünülməyi gərəkən bir nöqtədir.

"İlanı öldürsələr" adlı romanda Əsmə əslində analıq vəzifəsini yaxşı yerinə yetirən müqəddəsliyi daşımağına baxmayaraq evlənmədən öncə aşiq olduğu adama görə axırda öz uşağı tərəfindən öldürülür. Əsmə ailəsi və toplum tərəfindən namussuz və başdan çıxaran bir qadın olaraq tanınmasına rəğmən öz övladına həyatını fəda edən və ölüm təhlükəsini belə gözə alan cəsur bir ana olmuşdur. Əsmənin həm müqəddəs, həm də şeytani qadınlığı daşıyan ikili xüsusiyyəti belə sıralana bilər:

	Müqəddəslik	Şeytanlıq
Yaşanan hadisələr	- Həsəni dünyaya gətirmək - Həsənə görə Abbasla qaça bilməmək - Həsənə görə Çuxurovadan qaçmaqdan əl çəkərək ölümü gözə almaq - Həsənlə qaçmağı sınamaq	- Abbasa aşiq olmaq - Abbasla görüşmək
Təzad	Evin içindəki qadın Həyat yoldaşı / ana Analıq sevgisi Məsuliyyət Əlaqə	Evdən kənardakı qadın Sevgili Eşq İnstinkt Gözəllik

Yuxarıdakı cədvəldən müqəddəs qadın ilə şeytani qadının yaratdığı təzaddan qadına baxış bucağının qadını nə qədər təzyiq altında saxladığı çox açıqca görünməkdədir. Müqəddəs bir qadın, cin – arvad olmaqla birlikdə, itaət – vəzifə – fədakarlıq – təmizlik xüsusiyyətini daşımaqdadır. Şeytani qadın isə cadugər – sevgili – ögey ana olmaqla baş qaldırıcı haqqı – azadlıq – instinkt kimi mənaları daşımaqdadır. Bunun kimi ikili ölçüyə görə qadını ayırmağın qadınları təzyiq altında tutumağa məcbur edən bir dəyər biçimi olduğunu burada görməyimiz mümkündür.

2. QADIN XARAKTERLƏRİN DİLLƏRİ VƏ ÜSLUBLARI

2.1. Susma və daxili monoloq

Qadınlar üçün ən uyğun dil, danışmamaq və ya susmaqdır. Özlərinə görə dili tapa bilməyən qadınlar kişilərinkini işlətmək məcburiyyətindədirlər, fəqət kişilərin diliylə öz düşüncələrini çatdıra bilməyəcəklərini bildikləri üçün susmağı üstün tuturlar. Yaralanmaq istəmədikləri üçün öz durumlarını ifadə etmirlər. Həmçinin, qadınların sözlərini arada kəsən kişi dili olduğu üçün "susmaq" savaşının mümkün olduğunu göstərir. Susmaq dilin qarşıdakı insana çatdırılmadığı təzyiq halını xatırladır, çünki qadın

şüurlu olaraq qışqırmaq istəyini yatırtmaqdadır. Qadın dili ilə iç dünyasının rəsmi hala çevrilməsindən çəkindiyi üçün öz dilini içinə qapalı tutmuşdur.

"Üç bacının hekayəsi"ndə Yongenin qayınanasına qarşılıq verməden susmağı, patriarxal ideologiyanı zorla qəbul etmək məcburiyyətində qalan qadının halını əks etdirmişdir:

"Öncədən təxmin etdiyim kimi ailəsi məndən iki şeyə söz verməmi istədi. Birincisi, daha artıq oxumağa çalışmamağım, digəri də, evlənmədən öncə işdən çıxmağım idi.

...

Mən anasının durmadan dəqiq bir cavab almağa çalışmağına qarşı sadəcə gülümsədim və dərhal ifadəmi dəyişdirdim..." (Kim 1988: 62).

Bu əsərdə Yonge "qadının yalnız evdə qalması" gərəkdiyini vurğulayan qayınanasının sözünə sadəcə susmaqla cavab verməkdədir. Sənət sahibi olmağın maddi və mənəvi baxımdan xeyirini bilən və bir müəllim kimi bir gün müdür olmağı ümid edən Yonge üçün qayınanasının bu tələbi özünə görə əsla qəbul edilməz bir şeydir. Fəqət onunla mücadilə etsə belə nəticədə, sadəcə, özünün yaralanacağını bilən Yonge susmaqla nə müsbət, nə də mənfi bir cavab verməkdədir.

"Takryu" adlı əsərdəki Chobongun susmağı isə, kişiyə qarşı susaraq itaət edən tipik qadın dilinin quruluşunu göstərir:

"Chobong kənarda otuuraq sadəcə yerə baxdı.

"Bəli? Chobong?"

"..."

"Chobong?"

"..."

"Edə bilməzsən, elə. Sən necə olsan da bu yeni bir həyatın anası!" (Che 1994: 323).

Chobang Hyungbo tərəfindən ləkələnərkən onun hiyləsilə ərini də itirir. Bu vəziyyətdən istifadə edən yaşlı Jeho Chobongu ikinci arvad olaraq alır. Sonradan hamilə olduğunu anlayan Chobong uşağın atasının kim olduğunu bilmədiyi üçün intihar etmək istəyir. Bunu öyrənən Jeho onu şirin bir dillə yola gətirməyə çalışarkən Chobong qarşısında günahkar olduğunu anlayır. Chobong həmişə susmaqla təcavüz edilən özünün faciəvi halından

günahkar vəziyyətə düşür, artıq Jehonun aşnası olduğu üçün onun sözünə itaət etmək məcburiyyətində qalır.

Chobong sonradan meydana çıxan Hyungboya görə yenidən Jehodan ayrılmaq məcburiyyətində qalır, artıq Hyungbonun arvadı olmuşdur. Chobong daim arxasınca gəzərək onu narahat etməyə çalışan Hyungboya bir dəfə olsun müqavimət göstərmir, sadəcə öz-özünə deyinib durur:

"Şikəst…"

"Qozbel…"

"Eşşək oğlu eşşək."

"Sırtıq sifət…" (Che 1994: 358).

Chobongun həmişə içində danışıb kənara bildirməməsi, onu ikinci arvad olaraq alan Jehonun oyununu öyrəndiyi zamanda da davam edir:

"Aha, indi anlayıram. Bu adam yalan söyləyərək məni başdan çıxartdı. Boşanacağını söyləyərək mənə hiylə qurdu."

"Oğru!" (Che 1994: 298).

Üzə deyilməyən sözlərin, sadəcə öz-özünə deyinməyin, susmaqdan çox fərqli bir şey olmadığı bəllidir. Chobongun şikayətlərini və problemlərini həmişə içinə ataraq susmağı ondakı qəzəbi bəlli etmir.

"Öküzün buynuzu kimi təkcə gəzin" romanında görünən qadın xarakterinin monoloqu isə, qadının kişinin şiddətinə qarşı reaksiyasını göstərən digər tipik bir nümunədir:

"Hevanın vücudunu və ruhunu paramparça yaraladıqdan sonra artıq yatmağa başladı. Hevan hamama qaçdı və aynaya baxdı. Aynadakı qadın ağlaya bilmədi belə. Nəfəs almağa çalışarkən mızıldanmağa başladı.

"Bəli, anladım. Gənc bir qadının digər məktəb yoldaşları ilə söhbət etməsini istəməmişdi. Bu səbəblə göstərmək istəmişdir: Sən mənim arvadımsan! Onu bacarmaq üçün cinsi münasibətdən daha gözəl bir şey tapa bilməmişdir." (Gong 1993: 81).

Hevan bir gün fakültə yoldaşları ilə yeməyə çıxanda aralarında kişilərin də olduğu söhbətdə iştirak etməsi səbəbindən əri əsəbiləşir. Evə dönəndə onu döyərək münasibətə girir. Bu durumu heyvanca gördüyü halda Hevan yaşadığı şokdan müqavimət göstərə bilmir, sadəcə, öz-özünə deyinir. Kişi öz üstünlüyünü sübut etmək üçün qadının öz sözünə kiçicik bir müqavimət belə göstərməməyini

təmin edir. Bu səbəblə qadını susdurmaq, onu gücsüz etmək mənasına gəlir. Qadının gücsüz olması üçün kişi onu susdurmağa çalışır (Rose 1988: 111).

Susmaq bəzən etiraz bildirmək demək ola bilər. Susmaq həqiqəti və ya keçmiş quruluşla barışıq dünyanı rədd etmək üçün də istifadə oluna bilər (Felski 1989: 146). Fəqət yuxarıda gördüyümüz əsərdəki qadın xarakterlərin susmaları, etiraz bildirmək mərhələsinə qədər inkişaf edə bilməmişdir. Yəni susmaq dil ola bilməyən dil səviyyəsindədir. Çünki qadın, kişinin şiddəti və çevrədən gələn təzyiq səbəbindən içindəkiləri kənara bildirmədən həmişə içində sıxılan haldadır.

Qadın adətən idealları və gerçək dünyası arasında iç konflikt halındadır. Bu səbəblə qadın tərəddüdü ilə özünə güvənsizliyini və özünü alçaltmağını göstərə bilər (Henry 1980: 91).

Bu baxımdan tərəddüd dili psixoloji axımı göstərməyə uyğun olan daxili monoloq və şüur axımı yöntəmləri ilə birləşə bilər. İkisi də çox məntiqli olmadığı və ideal düşüncələri olduğu kimi göstərdiyi üçün qadına xas duyğusallığı və ya şüuru ifadə etməyə uyğundur. Qadın dili fəlsəfi iddia və ya dramatik hadisələri ifadə etməkdən daha çox psixoloji hadisələrin axışıyla bağlı olduğu üçün qadın dilini romana tətbiq etmədə ən uyğun yöntəmin daxili monoloq və şüur axımı olduğu söylənməkdədir (Donnovan 1988: 95).

Özünə güvənən və bilmiş kimi görünən dil kişi dilinə yaxındır. Bunun tərsi olaraq tərəddüd içində olan dil qadın dilinə daha uyğundur. Qadın dili isə, patriarxal quruluşa əsaslanan nüfuzu və qadının yaratdığı maddəyə qarşı narahatlığı göstərməkdədir (Donnovan 1988: 95).

Bu səbəbdən "tərəddüd dili", qadının düşdüyü böhranı və onu keçməyə çalışan qadının səyini birlikdə verməkdədir. Qadının bunun kimi tərəddüd dilindən istifadə etməsinin səbəbi, sadəcə mövcud vəziyyətin qarışıqlığından deyil, insanlarla olan əlaqələrinə və vəzifəsinə önəm verməsindən qaynaqlanır. Qadını daim tərəddüdə sövq edən səbəb onun ətrafı ilə olan əlaqəsinə önəm verməsidir:

"Əcaba Sunayı itirdiyi günlərdə hamilə qala bilsəydi, bir uşaq dünyaya gətirsəydi, yaşamaq başqa cür görünərdimi gözünə? Yeni dərddən qurtulmuşdumu? İndi göbəkli, yüksək pərdədən qəh-

qəhələri yüksəldikcə yüksələn, içkili restoranların eşqbaz Vedatını əlində saxlamaq necə bir hiss verirdi içinə?" (Kutlu 1993: 80).

"Cadugər ağacı"nın qadın xarakteri Nilufərin bədbəxt evliliyinin nəticəsində yaşadığı iç savaşını göstərən daxili monoloqdur. Buradakı daxili monoloq tərəddüd dilini əks etdirməkdədir. Qadın qarşıdurmanın və problemin içində olduğu zaman təkbaşına əzab çəkməkdədir. Bu vəziyyətdə qadın şübhə və güvənsizliyi adətən təxmin və ya şərt formasında ifadə edir (Yahgelo 1994: 42).

"Qadın azadlığı yoxdur da, kişi azadlığı vardırmı? Bu cür azadlıqların lazımlılığı belə mübahisəlidir… Elə ola bilsəydi, Vedatla bir-birlərinə dözərdilər. İkisi də zəifdir, yalnız qala bilmirdilər. Yenə də evlilikləri həll olmuş, ikisi də əsaslarını öz dostlarında tapmışdılar…" (Kutlu 1993: 78).

Qadının tərəddüdü, əxlaq və eşq arasında konflikt kimi dramatik bir halda daha aydın olur. Çünki öz eşqinin toplumdakı insanların dəyər ölçülərinə görə tənbeh olunması qadını daha da stressə salır.

"Cadugər ağacı"nda Nilufər evli bir adamı sevməkdədir. Ağılla düşündüyü və əxlaqi dəyər məhkəməsinə görə hərəkət etdiyi zaman Nilufərin təbii ki, ondan ayrılmağı lazımdır. Çünki evli bir adamı sevmək əxlaqdan kənar və duyğusal bir vəziyyətdir. Fəqət Nilufər, özünü tamamilə duyğusuna təslim edir. Eşq / əxlaq, xəyal / gerçək, şəxs / toplum, duyğu / ağıl arasında mübarizədə olan Nilufərin böhranı romanda belə ifadə edilməkdədir:

"Münasibətlərini hər kəsə çəkinmədən danışırdı Nilufər. Evliliyini, bərabər olduğu kişiləri, lağ etdiklərini, uğursuzluqlarını, bəyəndiklərini, hamısını. Xəlildən söz edə bilməzdi. Onu nəyin saxladığını bilmirdi…" (Kutlu 1993: 96).

Yuxarıda gördüyümüz kimi, qadının yatırda bilməyəcəyi duyğuları, təzyiq altında qalan instinktləri, qərar verə bilmədiyi qarışıq vəziyyəti, şüur axımı və ya tərəddüd diliylə ifadə edilməkdədir.

2.2. Məktub, avtobioqrafiya və ironiya

Susmaq, monoloq və tərəddüdləri ilə içinə qapanıb duran qadınlar, artıq yavaş-yavaş ağzını açıb danışmağa başlayır, öz təcrü-

bələrini ortaya qoya biləcək müxtəlif dillərə müraciət edərək var olduqlarını bildirməyə çalışır.

Ümumi olaraq məktub yazmaq, kişidən daha çox qadına uyğun görüldüyü üçün kişi yönümlü ədəbiyyat nümunələrində önəmi çox da vurğulanmamışdır (Miles 1987: 68). Qadın kişiyə nisbətən rəsmi olaraq yazmağa qatılma fürsəti olmadığı üçün şəxsi yazı vasitəsilə özünü ifadə edərək dünya ilə əlaqə qurmuşdur (Goldsmith 1989: 12). Bu səbəbdən məktubda istifadə edilən dildə qadının günlük yaşayışını görməyimiz mümkündür. Bu baxımdan qadının özünü ifadə etməsinə və yetkinləşməyini göstərməyinə uyğun olan məktub dilidir (Walte 1988: 13).

Həmçinin, məktub hadisənin meydana çıxmağının tam ardından yazıldığı üçün şəxsin psixologiyasına və duyğularına daha çox təsir edir. Bu səbəblə qadınlar özünü kəşf etmək və ya birbaşa təmasda olmaq istəyini məktub diliylə birüzə verirlər (Perry 1980: 94). Məktub dili, hər hansı bir yazı tərzindən daha çox davranışı açıqlamağa və psixoloji təcrübəyə uyğundur. Bu özəlliklər səbəbindən məktub dili şəxsin daxili sıxıntısı, sirrin etirafı, hadisə haqqında açıqlama və ya bəhanə kimi xüsusiyyətləri əhatə etməkdədir.

Xalidə Ədib Adıvarın "Xəndan" adlı əsərində bu özəllik çox açıqca görünməkdədir. Rəfiq Camalın Parisdə olan Sərvərə yazdığı və evlənəcəyini bildirdiyi məktubla başlayan əsər, Nərimanın Rəfiq Camala Xəndanı tanıtmağı; Xəndanın Nərimana yazdığı məktubla, Xəndanla Nəriman arasında olan səmimiyyət; Nazimdən Xəndana göndərilən məktubla Nazimlə Xəndan arasında olan münasibətləri; sonra Rəfiq Camalın Sərvərə yazdığı məktubunda Xəndanın bədbəxt evliliyi və Xəndanla olan sevgi münasibəti etiraf edilmişdir. Həmçinin Xəndan məktubları ilə Hüsnü Paşadan qaynaqlanan psixoloji böhranını danışarkən, eşq və evlilikdən gələn sıxıntı və əzabı çox açıq bir dillə ifadə olunmuşdur:

"Xəndandan Hüsnü Paşaya
London, 1 fevral 1906

Üçüncü ayın sonlarındayıq, Hüsnü. Arada gələn kiçik məktublarının dilindən anlayıram ki, sən bu ortaq yoldan artıq dəqiq olaraq çıxdın. Sənin arxamdan qışqıran ruhunu bu son unuda bilməyəcəyim kədərlərə artıq bu münasibətin bədduasını çəkir. Bəli, bu kədər… Ölüm kədəri, can ayrılıb gedərkən hiss edilən ağrı.

…

Bilirsən ki, bəlkə ruhundan bu cinayət çıxacaq. Fəqət sən onu bir xəstə nöqtə deyə müalicə etməyi bilməyəcəksən, sən o bütün gizlilik və təmizliyi ilə bəmbəyaz olan şeyə palçıqlı ayaqlarınla basaraq kirlədəcəksən…" (Adıvar 1995: 127-129).

Hüsnü Paşa tərəfindən uzun müddət aldadıldığı halda sıxıntısını həmişə içində çəkən Xəndan artıq Hüsnü Paşaya əsəb və yalvarış dolu bir dillə içini belə tökməkdədir:

"Xəndandan Hüsnü Paşaya
London, 15 mart 1906

...

Xeyr, yaxşı söyləmədim, səni bilmir deyiləm, məni sevib-sevmədiyini bilmirəm. Çünki səni məndən iyrənən, mənə düşmən dəqiqələrdə gördüm. Bəzən xəstəliklərimdə, hətta sağlam zamanlarımda öldüyümü gözlədiyin anlar olduğunu bilirdim." (Adıvar 1995: 132).

"Xəndandan Hüsnü Paşaya
London, 20 mart 1906

... İndi artıq özümdən də qorxuram. Bu tarazsız, bu qızdırmalı sayıqlamalar, coşqunluğumda bir dəlilik ünsürü var. Xəstəyəm, Hüsnü, xəstəyəm. Çevrəmdəki hər şeyi parçalamaq, qırmaq həvəsi var." (Adıvar 1995: 134).

Ümumiyyətlə, məktub tərzindəki roman, bədii yöndən ön plana çıxmadan kənara atılan bir janr tipi olmuşdur. Fəqət məktub tərziylə yazılan əsər insanların duyğusal və psixoloji vəziyyətini daha canlı bir şəkildə oxucuya çatdırır. Məktub dilinin birinci şəxs baxış bucağıyla təhkiyədən, gündəlik və xatirə, avtobioqrafiya kimi janrlardan ayrılan nöqtəsi, alıcının ümumən hadisə hörgüsü içində olmasıdır (Altman 1982: 18). Burada alıcı oxucu rolunu da oynayarkən məktubun başında "nə" deyə göstərilir. Zaman-zaman alıcının passiv olduğu və ya sadəcə adının bir olduğu hallar da olur, amma yenə də alıcının mətndə inkar edilməz bir yerinin olmağı məktub tərzində yazılan romanın özəlliyidir. Məktub dilində göndərici və alıcı qarşılıqlı oturub danışırmış təsiri əldə edilir. Bu səbəbdən məktub dili, məsafə olaraq uzaqda oturan göndərici və alıcı arasında münasibəti təmin edən bir vasitə olmaqdadır. Bu vasitə sayəsində də qarşılıqlı olaraq kənarlaşdırma və yalnızlıq paylaşılır.

Məktub dilinin işlədilməsinin romana çox duyğusallıq gətirməsi, hadisə hörgüsünün axıcı olmaması və ya açıq qoyulması təh-

lükəsi də vardır. Fəqət bəzi özəllikləri səbəbindən məktub, qadının iç dünyasını göstərən bir dəlil, ya da özünü müdafiə etmək üçün uyğun bir dil ola bilir. Ümumi mənada işlədilən dillə ifadə edilməyi çətin olan qadının daxili dünyasını əks etdirə bilmək üçün ən uyğun dil də məktub dilidir.

Buna qarşı olaraq etiraf özəlliyini daha artıq ön plana çıxaran dil, avtobioqrafiq roman dilidir. Avtobioqrafik roman dilində təhkiyəçi yazarın özüdür və romanın məzmunu da yazarın həyatıyla əlaqəlidir. Etiraf xüsusiyyətli yazmağın qəhrəmanın şəxsiyyət axtarışı ilə böhrandan qurtulmağı və ya məsələni həll etmək cəhdilə də əlaqəsi vardır. Etiraf şəxsin özüylə yaxınlaşmağını və daxili dünyasını "nəzərdən keçirməyi" təmin edir (Felski 1989: 92).

Roman bir "qurmaca" halında, bir əhvalat kimi nəql edildiyi zaman, yazar romandan kənarda qala bilər. Amma roman yazarın gerçək həyatından alındığı və ya yeni bir həyat yaradılışı olaraq dərk olunduğu zaman, yazar romanın mərkəzində olur (Kwan 1992: 413).

Beləcə avtobioqrafik romanda görünən "nəzərdən keçirmə" dili, qadın üçün daxili sıxıntısına əsaslanan günlük və şəxsi təsvirləri etməyə uyğun görünən dil ola bilər (Park 1978: 217). Təcrübə sahibi ilə təhkiyəçinin eyni olmağı ilə birlikdə öz həyatını dəyərləndirmək və təhlil etmək – nəzərdən keçirmək, avtobioqrafik dilin funksiyasıdır.

Fəqət burada diqqət edilməsi gərəkən nöqtə, patriarxal toplumda qadın və kişinin avtobioqrafik dilindən fərqli şəkildə istifadə olunmuşdur. Kişinin avtobioqrafik dili, adətən sosial səviyyə daşımaqla birlikdə fərdin daxili dünyasını təhlil etməyin nəticəsində yazılanlardan əmələ gəlir. Amma qadınların avtobioqrafik dili, patriarxal mədəniyyət və şəxsi həyat arasındakı daxili qarşıdurmaların nəticəsidir (Yi 1995: 47).

Həmçinin, qadınlar avtobioqrafiyalarında kişilərə görə daha az tipik olan və daha sərbəst dili tətbiq etməkdədir (Kim 1988: 228). Qadın romandakı həyatı ilə gerçək həyatının ayrılmayacaq qədər yaxın olmağı, özünün yaşam hekayəsini yazmağa məcbur qalmağı, çoxfərqli bir texnika işlətməməyi kimi səbəblərlə avtobioqrafik roman yazmaqdadır. Bu səbəbdən avtobioqrafik dili təhlil etmək, bir növ özünü ifadə etmək istəyən qadın dili ilə maraqlanmaq deməkdir.

Rəşad Nuri Güntəkin "Çalıquşu" adlı romanında, qadın xarakter Fəridənin gözüylə Anadolunun gerçəyini dilə gətirərək bürokratizmi tənqid etməkdədir. Burada yazar öz təcrübəsinə əsaslanan yaşantıları, Bursa, Çanaqqala, İzmir, Quşadasındakı insanları və ənənələri təsvir edir, ictimai problemlərə toxunmaqla realizmə yol açır. Anadolunun baxımsızlığı, yoxsulluğu, geriliyi, xalqın mənasız inanclara bağlılığı, təhsil və tədris işləri, xüsusilə Məşrutiyyət dövründə iş həyatına atılan qadının qarşılaşdığı cürbəcür çətinlikləri Fəridə adi danışıq diliylə oxucuya çatdırmaqdadır.

Burada əsərin baş obrazı Fəridənin gündəlik diliylə yazmağı diqqət çəkicidir. Təhkiyəçinin özünün hekayə içərisində olmağını təmin edən ən uyğun dil isə xatirə və ya gündılık dilidir. Beləcə, təhkiyəçi hadisənin mərkəzində yerini alıb oradan ətrafına baxa bilir. Bu romanda Fəridənin uşaqlıq dönəmi və eşq macərası kimi şəxsi həyatı hadisənin hörgüsündə ağırlıq qazanır, amma Fəridənin Anadolu həyatı daha çox ictimai səviyyə daşımaqdadır.

Həmçinin, bədbəxt bir evlilik nəticəsində boşanmış bir qadın romançının həyatını canlandıran "Öküzün buynuzu kimi təkcə gəzin" adlı əsərin baş qadın xarakteri olan Hevan, yazarın öz həyatını əks etdirməkdədir.

Kişiyə yönəlik hazırlanan toplumu tənqid etmək üçün istifadə olunan bir digər forma da "ironiya dili"dir. Qadınlar ironiya diliylə gerçək və ideal arasındakı fərqliliyi tənqid etməkdədir. Sadəcə qadına aid bir dil olmadığı halda kişinin açıqlığı və qadının özünün sərhədini göstərməyinə uyğun bir dil də ironiya dilidir (Walker 1990: 4). Bu səbəbdən qadının istifadə etdiyi ironiya, kişininkindən məqsəd baxımından fərqlidir.

"Kim haraya gedərsə getsin, bizə nə. Toplum nədir e… Kleopatranın vaxtında yaşasaydıq, qardaşımızla da evlənsək toplumun səsi çıxmazdı…" (Kutlu 1986: 76).

"Cadugər ağacı"nın qadın xarakteri kimi canlandırılan Nilufər fakültədə Xəlil hocanı sevməkdədir. Bu səbəblə toplum tərəfindən kənarlaşdırılır, istədiyi kimi fakültədə qala bilmir və müayinəxana açıb qadın həkim olmağın çətinliyini yaşayır. Nilufər özünün düşdüyü vəziyyətin toplumun yanlış dəyərlərindən irəli gəldiyini ironiya diliylə tənqid etməkdədir.

"Axmaq burjuaziya sinfi! Özündən razıdır və bununla həyatın yalnızlığından qaçmağa çalışır. O yaşda birinə seksual alt paltarları və çəhrayı günəş çətiri yaraşırmı?" (Kang 1988: 48).

Heejungun məndən istədiyi sadəcə cinsi əlaqədirmi? Mənim ondan istədiyim vaxt öldürməkdirmi? "Meal" bəy isə intellektual və xoş düşüncəli bir insandır, amma sıxıcı olur. Kimsə üçün darıxmıram…" (Kang 1988: 92).

"Meşə içindəki otaq" əsərində qadın xarakteri olan Soyangın tutduğu gündəliyin bir hissəsidir. Soyang Koreyanın 80-ci illərindəki qarışıq siyasi bir vəziyyətdə öz mövqeyini tapa bilmədən daim konflikt içində və şəxsiyyət axtarışında olan bir gəncdir. Soyanga görə, bu qədər qarışıq bir vəziyyətdə, sadəcə, bəzib-düzənib gəzməklə məşğul olan yaşlı nənəsi lazımsız bir varlıqdır. Həmçinin insan münasibətlərində isti bir əlaqə tapmayan Soyangın darıxdığı bir kimsə tapa bilməməyi, Soyangın nə qədər yalnızlıq içində olduğunu göstərməkdədir. Soyangın gözüylə ətrafındakı insan və əlaqələri ironiya diliylə tənqid edilməkdədir.

"Övladım böyüyəndə çalışmağa başla! Onda mən sənə mane olmayacağam."

"Bəli, övladımı böyüdüb qırx yaşımda filan olanda bütün dünya məni işə götürmək üçün gözləyəcək! Elə deyilmi? İndiyə kimi nə qədər yoruldun deyə alqışlayacaqlar…!" (Gong 1993: 123).

Yuxarıdakı sitat "Öküzün buynuzu kimi təkcə gəzin"də baş obraz Hevan ilə əri arasında onun çalışmağı mövzusunda olan mübahisəni göstərməkdədir. Hevanın əri çalışmağına razı olmayan, daim ona maneçilik törətməyə çalışan insandır və Hevan da onunla mücadilə etməkdədir. Hevan qadın və kişi arasındakı bərabərsizliyi tənqid edərkən ironiya dilindən istifadə etməkdədir. Bu mənada ironiya, ağızı açıb danışmağa başladan "açılış dili" ola bilməkdədir. Eyni zamanda, kiçiltmək, lağ etmək, nifrət etmək kimi xüsusiyyəti də özündə əks etdirən ironiya "çəkici dil" də ola bilməkdədir (Wuecke 1980: 29).

3.QADIN XARAKTERLƏRİN QARŞILAŞDIQLARI HALLAR VƏ XÜSUSİYYƏTLƏR

3.1. Dünya ilə tanış olmaq

3.1.1. Ev və təzyiq

İnsan bir sığınacaq məkanı olan evdə xoşbəxtlik və sağlamlıq duyğusuna qapılır. İnsanın əsas evi deyə bildiyimiz ananın bətnindən kənara çıxanda digər bir yer olan evdə oturur və öldükdən sonra yenə məzar deyilən evə sahib olur (Cambel 1985: 16). Bu səbəbdən ev kənardan gələn kobud və bezdirici təsirlərdən özünü qorumaq üçün sığınacaq bir yer ola bilməkdədir.

Fəqət belə qoruma xüsusiyyətinə sahib xoşbəxt bir məkan olan ev, zaman-zaman qadın üçün zindan olan qapalı bir yerə çevrilir. Bu səbəbdən qadın ədəbiyyatında belə bir məkandan qaçmaq önəmli bir mövzu olmuşdur. Qadın üçün xoşbəxtlik gətirən və ya sığınacaq bir yer ola bilməyən evdə, qadın həm kişi ilə bərabər bir vəziyyətdə sevgini paylaşmaq imkanına sahib ola bilmir, həm də öz mövcudluq səbəbini anlamaq fürsəti tapmır.[(1)]

Üç bacının hekayəsi"ndə Yongenin evliliklə birlikdə yeni yaşamağa başladığı evdə hiss etdiyi təzyiq belə dilə gətirilməkdədir:

"Mən təlaş içində idim. Çirkli subay evim mənə rahatlıq və xoşbəxtlik verirdi. Amma yenidən qurulmuş tərtəmiz bu evdə boşluq məni doldururdu. Heç cür öz evim kimi isnişə bilmədim." (Kim 1988: 64).

"Evliliyim getdikcə sıxıcı bir televizor proqramı halına düşürdü. Buna qarşı olaraq mən kiçik bir evdə həbs olunmuş bir cinayətkar kimi idim. Qışı zorla keçirməkdə olan bitki kimi bir şey idim." (Kim 1988: 66).

İngilis dili müəllimi olan Yonge qayınanasının istəyi səbəbindən evləndikdən sonra işdən uzaqlaşır, evdar qadın olur. Bütün işini-gücünü buraxıb sadəcə ərinin istədiyi kimi yaşayan Yonge özünü "bir ev heyvanı" olaraq dəyərləndirir. Yonge üçün evliliklə birlikdə yaşamağa başladığı bu ev nə sığınacaq, nə də xoşbəxtlik gətirən bir məkandır.

---

(1) Bax. Kim 1989.

"Öküzün buynuzu kimi təkcə gəzin" romanında Hevan yol qəzasında övladını itirmişdir. Uşağın ölümündən bir il keçdikdən sonra əri birdən-birə Hevanı döyməyə başlayır. Hevan hər axşam evə gec qayıdan ərini video seyr edərək və gülər üzlə qarşılayır. Hevan ərinin pencəyini götürərək belə deyir:

"Birlikdə izləyək, çox gülməlidir"

O, on dəqiqə boyunca daim Hevanı döydü. Özünə gələndə əri dedi:

"Övladını öldürdükdən sonra necə gülə bilirsən? Buna dözə bilmərəm!" (Gong 1993: 18).

Hevanın çalışmaq istəyinə görə daim əriylə dalaşdığı zamanlarda olan qəzaya görə uşağı ölür. Bu səbəbdən uşağın ölümünün məsuliyyəti Hevana yüklənir. Əri də, ailəsi də daim Hevanla günahkar kimi davranmağa başlayır. Nəhayət, əri döyərək Hevanı cəzalandırmağa çalışır. Bu halda "ev" Hevan üçün bir təzyiq və həbsxana demək olur.

Evləndikdən sonra daim fədakarlıq edən Hevanın dostu Yeongseon "ev" haqqındakı düşüncəsini belə izah etməkdədir:

"Koreyaya döndükdən sonra bir neçə dəfə köçəndə daim düşünmüşəm. Yeddinci mərtəbəyə köçəndə balkondan çölə dalğındalğın baxarkən buradan özümü aşağı atsam öləcəyəmmi? On ikinci mərtəbəyə köçəndə düşündüm. Bəli, burdan düşsəm həqiqətən ölərəm…" (Gong 1993: 113).

Sadəcə, ərinin xidmətçisi rolunda olub öz şəxsiyyətini tapa bilməyən Yeongseon ev içində çox sıxılır. Evdən qaçmaq istəyi onu "intihara" qədər aparır. Yeongseonun daxili çöküşü nəticədə gerçəkdən intiharla bitir.

"İlanı öldürsələr"də Əsmə evlənmədən öncə aşiq olduğu Abbasın ərini öldürməsi səbəbilə ondan əl çəkməyən ölüm təhlükəsi ilə yaşamaqdadır:

"Bu kənddən çox qaçmaq istəyirdi. Həftədə bir, iki gündə bir qarşı tərəfə keçir, o biri kəndlərə qədər yeriyir, sonra nədənsə, bəlkə də qorxudan, geri dönürdü…" (Kemal 1996: 11).

Bu vəziyyətdə Əsmə üçün ev edam gününü gözləyən məhkumun kamerasına çevrilir. Psixoloji olaraq rahatlıq tapmadığı bu məkanda Əsmə əziyyət çəkməkdədir.

Evin mənfi faktor olmasını rədd etmək, qadının inkişafı üçün önəmli bir dönüm nöqtəsidir. Təzyiqdən qurtulmaq üçün qadın bu məkandan xilas olmaq məcburiyyətindədir.

3.1.2. Yolçuluq və hərəkət

Səfər insanın bağlı olduğu cəmiyyətdən qurtulmağı və yeni bir dünyayla tanışlığı baxımından psixoloji bir qaçış ola bilər. Ancaq burada "səfər" termini evdən qaçış, çölə çıxmaq və gəzmək kimi mənaları da əhatə etməkdədir. Qadın ədəbiyyatında bu səfər yeni bir həyat axtarışı içində yeni bir həyat kəşf etməkdir. Ümumilikdə qadın xarakterlər şəxsiyyət axtarışı üçün yola çıxırlar və öz daxili dünyalarındakı ehtimalları kəşf etməyə çalışırlar. Buna görə bu hərəkət, sadəcə bir məkandan digər bir məkana geçiş deyil, keçmiş düşüncə quruluşundan da qurtulmaq mənasına gəldiyi üçün psixoloji ölçüdə böyük önəm daşımaqdadır.

Qadın üçün səfər, evdən qaçış və çölə çıxmaq isə, "ayrılığın" (seperation) qaçılmazlığını simvolizə etməkdədir. Qadın fərd olaraq özü ola bilmək üçün gərəkən bir şərt olan ayrılmaq təcrübəsinə ehtiyac duyur və təzyiqli bir məkan olan evdən qaçmağa cəhd edir.

"Çalıquşu" adlı əsərdə qadın xarakter Fəridənin uşaqlıq illərindən sonra yaşadığı və öyrəşdiyi bir məkan olan İstanbuldan qaçış, Fəridənin sadəcə bir qadın olaraq var olmağını deyil, oxumuş və topluma yararlı bir fərd olmağını təmin edir.

"O gecə, süd nənəmin otağında, lampamı söndürmüş, qaranlığa baxa-baxa uzun bir plan hazırlamışdım.

Şkafımın bir küncündə qırmızı lenti ilə ağır-ağır solub saralmaqdan başqa bir şeyə yaramayacaq zənn etdiyim diplomum gözümdə bir əhəmiyyət almışdı. Bütün ümidim çox məqbul olduğunu söylədikləri bu kağız parçası idi." (Güntekin 1996: 103).

İstanbul şəhərində məhdudiyyət içində qalmış Fəridə üçün bu ayrılıq həm göz açmağa kömək olur, həm də həyatın həqiqətlərini tanıyaraq yetkinləşməyini təmin edir. Bu baxımdan bu səfər həqiqi və təlimləndirici məna kəsb edir. Eyni zamanda, yeni bir dünyanı kəşf etmək üçün bir hərəkət nöqtəsi olmaqdadır.

Burada vacib olan Fəridənin Anadoluda müəllimlik etmək fikridir. Bu düşüncə, onun İstanbuldan ayrılığının sadəcə bir qadının "uğursuz eşqlə bağlı çəkdiyi əziyyətdən qaçmağı" olaraq

deyil, "bir ziyalının ictimai səyi" səviyyəsində dərk olunmağını təmin etməkdədir.

Bundan fərqli olaraq "İlanı öldürsələr"də Əsmənin evdən qaçışı, təzyiq altındakı həyatdan və ölüm təhlükəsindən qurtulmaq istəyini göstərməkdədir.

"Bir gecə yatağın içində yenə saçını darıyırdı Əsmə. Əlləri dayandı, daraq saçında asılı qaldı. Həsənə döndü baxdı. Həsən də ona baxırdı. Göz-gözə gəldilər. Əsmə yataqdan atıldı. Onsuz da geyimli idi. Birbaşa sandığa getdi, açdı. Həsən də anasıyla birlikdə qalxmış, geyinmişdi… Anası tələm-tələsik sandıqdan aldıqlarını bir boğçaya doldurdu, dərhal yola düşdülər.

Səhərə qədər yeridilər. Boz quyunu keçmişdilər. Tikanlığa düşsəydilər, iş tamam idi, meşədə gizlənərdilər. Meşədə onları heç kim tapa bilməzdi." (Kemal 1996: 37).

Əsmə ətrafda günahkar vəziyyətinə düşüb kənarlaşdırılmış olduğu halda, oğlu Həsənə görə kənddən qaçmağa cəsarət edə bilir. Tutulsa yenə ölümə doğru sürüklənə bilərdi. Fəqət hər şeyi gözə alıb qaçmağa çalışır, dəfələrlə etdi cəhdlərinin nəticəsində Mustafa tərəfindən ələ keçməsilə qaçışı uğursuz olur. Burada bu qədər böyük təhlükəni göz altına alaraq Əsmənin evdən qaçışı isə, yanlış hörgülərlə davam edən, "keçmişi"ndən qaçaraq yeni bir həyat yaşamaq istəyən "bir qərar"ın işarəsi kimi mənalanır.

3.1.3. Geriyə baxmaq və kəşf etmək

Geriyə baxmaq əslində özünün hazırkı halını kəşf etmək ehtiyacına görə edilməkdədir. Bu vəziyyətdə xatırlamaq şəxsin daxili və xarici dünyasında qarşıdurmada olan keçmişə aid təcrübəsinin daha çox konkretləşməsini təmin etməkdədir.

Burada qadın xarakterlərin geriyə baxaraq ağıllarına gətirdikləri adətən öz duyğularını da əhatə etməkdədir. Geriyə baxmaqla indiki zamana çevrilən keçmiş isə, qadının içində olduğu hazırkı halı kəşf etməsinə yardımçı olur. Çünki keçmişin yenidən açıqlanması, qadının şəxsiyyət arayışında önəmli bir nəsnə olmaqdadır (Shin 1991: 100). Bu mənada anlamaq, qadının fərd olmağını və şəxsiyyət axtarışı yönümlü yazmağını təmin edən mühüm bir element olmaqdadır. Geriyə baxmaqla patriarxal

ideologiyanın təsiri altında oxumuş intellektual bir qadının acizliyini göstərən roman "Ölməyə yatmaq"dır.

Universitetdə dosent olan Aysel, bir oteldə özünü öldürmək qərarına gələrkən doğulduğu Anadolu qəsəbəsini, Dündar müəllimi və Atatürkü xatırlayır. Atatürkə bənzəmək istəyi onun yetərincə uğura çatmağına yardım edir. Həm bir qadın, həm də ziyalı bir şəxs olaraq duyduğu acizlik içərisində özünü tapır.

Ayselin xatirələrilə inkişaf edən romanın süjet xəttini zaman axışına görə belə ümumiləşdirə bilərik:

SSıra	Hadisələr	Zaman
1	Bir otel otağında ölməyə getmək	İndi 1
2	Bir tələbə ilə yatmaq	Keçmiş 1
3	Müəllim Dündarla keçən uşaqlıq dönəmi	Keçmiş 2
4	Atatürkdən təsirlənmə	Keçmiş 3
5	Oteldən ayrılmaq	İndi 2

Zaman axışına görə 1 → 2 → 3 → 4 → 5 sırasıyla hadislər nəql olunur, amma süjet xətti 2 → 3 → 4 → 1 → 5 sırasına görədir. 1-in indiki zamanından keçmişə çevrilmək üçün Aysel geriyə baxır; yenidən indiki zamana dönüşü isə 4-dən 5-ə keçiddə olmuşdur. Roman əslində təxminən bir saat yarım içərisində baş verir, ancaq Ayselin xatirələri Türkiyə Cümhuriyyətinin tarixini göstərməkdədir.

Bu romanın sujet xətti belə inkişaf edir:



Bu romanda görə bildiyimiz kimi, qadın keçmişi xatırlamaqla birlikdə indiki vəziyyətin mənfiyə doğru getdiyini kəşf etməkdədir. Keçmişə doğru səyahət romantik nostalgiya oyandıran xoşbəxt bir

yolçuluq olmaqdan əlavə, acizlik hiss edilən hazırkı vəziyyətin araşdırılmasına səbəb olan sıxıntılı bir yolçuluq olmaqdadır. Passivlik və böhran içində özünü daha da müsbət və güclü bir varlıq halına çevrilmək arzusu üçün də bu səyahət vacibdir.

3.2. Dünya ilə təmas qurmaq və konflikt

Qadın evin onun inkişafına əngəl olduğunu anladıqdan sonra ona qalib gəlmək üçün səyahətə çıxır. Bu yolçuluq zamanı geriyə baxmaqla yeni dünyaya girəndən sonra yeni təcrübələrə sahib olur. Burada qadının hansı təcrübələrə sahib olduğu önəmlidir. Bu təcrübəylə qadın dünyanı tanıyır və öz şəxsiyyətini formalaşdırmağa çalışır. Xüsusilə, eşq və evlilik qadını şəxsiyyət axtarışına sövq edən önəmli səbəblər olmaqdadır.

Əvvəl qadının həyatında tək məqsəd, ya da çatılacaq ən son nöqtə kimi qeyd olunan evlilik və eşq günümüzdəki romanlarda məsələnin başlanğıcı və qadının yetərsiz şərtlərini göstərən bir simvoldur (Felski 1989: 128). Bu səbəbdən qadın yazarlar ümumən eşq və evlilikdən kənarlaşdırılan qadının halını təsvir edərək yazmağa başlayırlar. Çünki qadın evliliyin qapısını açmağıyla birlikdə içində olduğu halın nə olduğunu anlamağa başlayır. Xüsusilə, evlilik və eşq ənənəvi patriarxal sistemin təsiri altında gerçəkləşdirildiyi zaman qadının bu təcrübəsi daha da ciddi bir əhəmiyyət daşıyır (Baruch 1992: 98).

Qadının dünya ilə təmas qurmağıyla və mübarizə aparmağıyla meydana çıxan problemlərin və qarşıdurmaların əsasları bunlardır: Müsbət analıq və məcburi analığın qarşıdurması; Qadınlıq və kişiliyin yanlış dəyərləndirilməyi; Eşq və cəmiyyət arasında konflikt

3.2.1. Müsbət analıq və məcburi analığın qarşıdurması

Qadına mövcudluğunun anlamını ən aydın şəkildə verən onun analıq statusudur. Analıq vəzifəsi, eyni zamanda qarşılıqsız sevgini və fədakarlığı zəruriləşdirir. Zaman-zaman analıq kişiyə qarşı daha üstün yetkinliyi göstərir və sadəcə qadına aid özəl bir haqq olaraq qəbul edilir. Analıq və atalıq arasındakı fərqlilik belə ümumiləşdirilir:

Atalıq	Analıq
Axtarış	Gözləmə
Məntiqli	Məntiqli
Ələ almaq	Sahib olmaq
Ayrılıq	Münasibət
Kəmiyyətə yönəlik	Keyfiyyətə yönəlik
Gerçəyə əsaslanan əxlaq	Məsuliyyətə əsaslanan əxlaq
Doğruluğa əsaslanan ələ alma məntiqi	Psixoloji münasibətə əsaslanan məntiq

(Rich 1995: 320-326).

Fəqət burada məsələ analıq vəzifəsinin qadının müstəqil həyatını yaşamağının qarşısını almağıdır. Analıq ideologiyası da "Qadının yeri ev içidir; qadının vəzifəsi də ailə üzvlərinə xidmət etmək və psixoloji rahatlığı verməkdir" qanununa əsaslanır. Bu düşüncə qadının fədakarlıq etməsinin ardından gələn boşluğu və özünü yox sayma duyğusunu təbii qarşılamağını təmin etməkdədir. Bu yanlışlığı dərk edən qadın analıq rolundan şüphələnməyə başlayır.

Bu səbəbdən qadın üçün analığın şəxsiyyət axtarışında müsbət bir rol oynaya bilməyi və əksinə əngəl olub təzyiq göstərən bir faktor ola bilməyi kimi iki yönü olduğunu qəbul etməyimiz lazımdır:

"Uşağın doğulmağı dəyişdirmişdi onu. Övladından başqa heç kimi düşünmür, uşaqdan başqa dünyada heç kimi gözü görmürdü. Gülür, əylənir, çalışırdı. Kənddə onu hər kəs sevməyə başlamışdı. Hər kəsə necə gəldi kömək edirdi." (Kemal 1996: 26).

"İlanı öldürsələr"də Əsmə ona aşiq olan Xəlil tərəfindən zorla qaçırılmışdır. Evlənmədən öncə aşiq olduğu Abbası unuda bilməyən Əsmə, bir il nə əriylə, nə də kənddə kimsə ilə danışır. Ancaq Əsmənin oğlu doğulduqdan sonra, onu evliliyə bağlayan və məcburi düşdüyü vəziyyətə öyrəşə bilməyən qadına dözüm gücü verən analıq duyğusudur. Sonra Xəlil Abbas tərəfindən öldürüləndə öz həyatı da təhlükədə olduğu halda Əsmə oğlu Həsənə görə kənddən qaça bilmir.

Burada görə bildiyimiz kimi, qadın analıqla birlikdə böyük gücə sahib olur. Bu səbəblə qadının doğum etməsi öz qadın şəxsiyyətini tanımağına yol açır. Qadın ana olmaqla ən böyük xoşbəxtliyə qovuşa bilir (Chodorow 1987: 149).

Fəqət ana da ana olmadan öncə insan və insan olmadan öncə bir qadındır. Bu baxımdan qarşılıqsız fədakarlıq etmək məcburiyyəti ilə şəxsi həyatını davam etdirmək arzusu arasındakı konflikt, qadının yaşamını çətinləşdirə bilər. Analığı rədd etmək "şeytani bir hadisə" olaraq qəbul edilmişdir. Amma qadınları qarşılıqsız fədakarlıq etməyə məcbur etmək məcburi bir ideologiya ola bilər (Suleiman 1985: 352).

"Mən istəmirəm uşaq. İndi ixtisas imtahanına hazırlaşa bilmərəm də. Uşaq doğulanda büsbütün çətin olacaq, bunu da bilirəm. Hamısından önəmlisi odur ki, ana olmağa hazır deyiləm." (Kutlu 1986: 44).

"Cadugər ağacı"nda Nilufərin danışığından analıq və öz həyatını qurmaq istəyi ziddiyyət təşkil etməkdədir. Nilufər ixtisas imtahanına hazırlanarkən bilmədən hamilə qalır, özünün analıq üçün hazır olmadığını düşünür. Burada önəmli olan Nilufərin bir ana olmağı rədd etdiyi üçün deyil, analıq məsuliyyətini daşıya biləcək şərtlər altında olmadığı üçün stressdə olmasıdır.

Bunun kimi analığın qadın üçün həm müsbət həm də mənfi təsiri ola bilər. Müsbət yönüylə analıq sevgiyə əsaslanan fədakarlıqla ətrafını dəyişdirə bilər. Fəqət mənfi yönüylə, analığın yaratdığı təzyiq, qadının intellektual bacarığından əlavə instinktini; şəxsiyyət axtarışından əlavə fədakarlığını; fərd olmaqdan əlavə başqa insanlarla münasibətini ön plana çıxartmağa zorlamaqdadır (Showalter 1995: 33). Bu səbblə önəmli olan analığın gerçək dünyasında qadının nə kimi şərtlər altında olduğunu və nə kimi funksiyaları olduğunun anlaşılmasıdır. Qadın üçün analıq hələ ki "qeyd olunacaq" və "sıxıntılı" iki durumun arasındadır.

3.2.2. Qadınlıq və kişiliyin yanlış dəyərləndirilməsi

Qadın və kişi arasında xüsusi bir fərq olmamasına baxmayaraq adətən kişilik və qadınlıq mədəni baxımdan önəm qazanan bir növ faktdır. Qadınlıq və kişiliyin bir neçə nümunəsi belə səciyyələndirilə bilər:

Kişilik	Qadınlıq
Kişi yönümlü	Qadın yönümlü
Aktiv	Passiv
Var olmaq	Yox olmaq

Qəbul edilmək	Kənarlaşdırılmaq
Birinci	İkinci
Azad	Asılı
Uyğunluq	Çeşidlilik
Quruluş	Çözüm
Məntiq	Məntiqsizlik
Müəyyən	Qeyri-müəyyən
Güvən	Ərköyün
Beyin	Sinə
Ruh	Bədən
Obyektiv	Subyektiv
Sərt	Yumşaq
Göy	Yer
Gündüz	Gecə
Hava	Su
Şəkil	Öz
Mədəniyyət	İnstinkt
Ağıl	Duyğu

(Kim 1984: 186)

Yuxarıda göstərilən özəlliklər patriarxal ideologiyaya görə müəyyənləşmişdir. Çünki "qadın yönümlü" özəlliklər zəif və dəyərsiz olmalarına qarşı "kişi yönümlü" özəlliklər güclü və dəyərlidir. Bu səbəblə kişi yönümlü və ya qadın yönümlü özəlliyə qarşı mədəni inkişaf kişi üstünlüyünə əsaslanaraq gerçəkləmişdir (Kim 1994: 186).

Ənənəvi olaraq qadın passiv, itaətkar, qərarsız olaraq ümumiləşdirildiyi üçün buna uyğun qadın tipi tələb olunmuşdur. Arxa planda qalaraq kişinin uğuru üçün yardım etmək və nəslin davam etməsini təmin edəcək oğlan övladı dünyaya gətirmək, qadının mühüm bir vəzifəsidir. Həmçinin cinsi istəyi və duyğunu açıq bir şəkildə ifadə etməməsi, qadından istənilən tərbiyə olmuşdur.

Bu ənənə içərisində qadın şəxsiyyətinin yanlış dəyərləndirilməsi təbii bir şeydir. Burada kişinin və qadının özləri üçün fədakarlıq etmələrini təbii qarşılamaq lazımdır.

"Həqiqətən də əsəbi idi.

"Onlar mənim məktəb yoldaşlarımdır. Sən bəlkə hər gün onları görmüsən, amma mən həmişə evə qapanıb qaldım. Üç ildən

bəri görmürəm. Bu gün yemək yemişkən onlarla da söhbət etdimsə günahım nə?"

"Sən evli bir qadınsan! Başqalarının etdiklərinə bax, lütfən! Sənin onlardan fərqin nədir? Sonra evin qapısını açar-açmaz o dəqiqə Hevanın paltarını cırdı. Hevan bir neçə dəfə yumruğunu sıxdı və ayağını açdı. Hevanın bunu etməyi şiddətindən məğlub olduğundan deyil, "son" deyə düşündüyü üçün idi." (Gong 1987: 81).

"Öküzün buynuzu kimi təkcə gəzin" romanında Hevan bir gün əriylə və fakültə yoldaşlarıyla birlikdə axşam yeməyinə çıxır. Hevan uzun müddətdir görüşə bilmədiyi bu kişilərin halını soruşur və onlarla söhbət edərək əylənir. Özü də eyni çevrəyə daxil olduğu halda əri bu vəziyyətə dözə bilmir. Hevanın davranışını tənqid edərək onu döyməyə başlayır. Burada kişinin qadını özünə aid bir mal olaraq dəyərləndirməsi görünür. Yəni kişi qadını bir insan kimi deyil, sadəcə özünün sahiblənəcəyi bir obyekt olaraq görməkdədir.

Qadını kişiyə aid bir hissə və ya sahibləniləcək bir mal olaraq dəyərləndirən ənənə "İlanı öldürsələr"də görünməkdədir.

"... Əsməyə aşiq olmuşdu Xəlil, Əsmə özünü istəməyincə bir gecə onu altı kişiylə atasının evindən zorla qaçırdı. Əlini-ayağını bağlayıb sahib olmaq istədi. Əsmə dirəndi. Bir həftə sonra idi ki, ona dərmanlı şərbət içirdi beləcə muradına çatdı. Ayıldığında Əsmə hər şeyi anladı. Başı döndü, çox qusdu. Özündən utandı. Eləcə qanayırdı. Xəlil onu götürüb öz evinə gətirdi, bir imam çağırıb tezcə onu orada nikahladı." (Kemal 1996: 26).

Əsmə başqa birini sevmişdir. Əsməyə aşiq olan Xəlil də muradına çata bilməyəcəyini anlayanda zorla onu qaçırmışdır. İstəmədiyi bir mühitdə olduğunu Əsmə ayılanda anlamışdır, amma artıq edəcək heç bir şey yoxdur, illərcə davam edəcək bir mühit içərisində ümidsiz bir həyat yaşamaqdan və bu vəziyyəti qədər olaraq qəbul etməkdən başqa Əsmənin əlindən bir şey gəlməmişdir.

Burada uzun müddət davam etməkdə olan qadının yaşamını dramatikləşdirən namus anlayışıdır. Bu ənənəvi qadınlıq çərçivəsində qadın öz həyatını davam etdirməkdədir. Bu durumu "Mujeong"dakı Yeongche təmsil etməkdədir:

"Hyungsik Yeongchenin etdiyinin doğru olduğunu içindən düşündü. Namus demək qadın üçün həyat deməkdir. Bu səbəbdən bir qadın ləkələndimi, ölmək məcburiyyətindədir. Bunu düşündü-

yüm zaman Yeongchenin doğru bir qadın olduğu çox aydın idi." (Yi 1987: 153).

Yeongche iflas edən ailəsini qurtarmaq üçün gecə barında çalışır, amma atasının özünə kürəkən olaraq seçdiyi Hyungsikdən öz namusunu qoruyur. Bir gün Yeongche Baehakgam tərəfindən təcavüzə uğrayanda özündən utanır və intihar etməyə cəhd edir. Bu durumu öyrənən Hyungsik Yeongchenin hərəkətini doğru hesab edir, namusunu qoruya bilməyən qadının intihara cəhdinin düzgün qərar olduğunu düşünür. Yeongche üçün də Hyungsika qarşı aşiq deyil, namuslu bir qadın olmağı önəmlidir.

"Takryu"dakı Chobongun dramatik yaşamının əsil səbəbi də namus ideologiyasıdır:

"Artıq ləkələnmiş bir qadın."

"Sahibi olmayan qadın"

Jeho bunu düşündüyü müddətcə orta yaşlı bir kişinin subay bir qıza göstərməli olduğu diqqət yox oldu.

"Yanlış evlənmiş və axırda kimin payı olacağı bəlli olmayan qadın! Bəli, kim olursa olsun, onu alan sahibi olur." (Che 1988: 287).

Chobong ailəsinin tövsiyəsinə əsasən Tesuyla evlənir, amma ona göz qoyan Hyungbonun hiyləsilə ərini itirir. Sonradan evindən ayrılıb Seula gedərkən qatarda əvvəllər birlikdə çalışdığı əczaçı Jehonu görür. Chobongun vəziyyətindən xəbərdar olan Jeho, namusunu itirmiş Chobonga dəyəri düşmüş bir mal kimi baxar. Chobong namus qavramına əsaslanan konfutsiçiliyi və feodal ideologiyasını qəbul edir, Jehonun uzatdığı əli tutub onun aşnası olmağa razı olur.

"Əczaçı Kimin qızları"nda anadan qızlarına, nəsildən-nəslə davam edən faciə də bu namus ideologiyasından qaynaqlanır. Evlənmədən öncə aşiq olduğu kişinin evinə getdiyi üçün ananın namussuz olmağından şübhələnilir. Bu dedi-qodular səbəbindən ana intihar etmək məcburiyyətində qalır. Gəlini Hansil isə, qızları ilə eyni qədəri paylaşır, bədbəxt həyatı isə, üçüncü qızının taleyi ilə tam fəlakətə çevrilir. Ailənin üçüncü qızı Yongranın ərinin hər ikisini öldürməsi ilə sona çatar. Dördüncü qızı Yongokanın qayınatası tərəfindən təcavüz edilməsi, romandakı faciəvi ünsürü iki qat artırır.

Qəhrəmanı kişi olaraq canlandırılan romanlarda qadın adətən qorunması gərəkən bir varlıq olaraq xarakterizə edilərkən kişinin qadından tək üstün yönü ön plana çıxarılır.

"Qanlı göz yaşı"nda Okryeon kiçik yaşda anasız-atasız qalır, amma bu durumdan onu bir yapon həkim qurtarır. Yapon həkimin ölümündən sonra evdən qaçan Okryeona da Gu Vanseo yardım edir, öz pulu ilə onu Amerikaya aparır və oxudur. Qadının arxasında onu aydınladıb tərbiyələndirən bir kişi liderin olmağı, həqiqi mənada qadının passiv olduğunu göstərir. Kişi dünyanı dəyişdirərkən, qadın ona yardım edir. Bu durumda qadın ikinci şəxs olaraq əngəl, yardımçı, ya da artıq olaraq qəbul edilir.

Yuxarıda gördüyümüz kimi, qadınlığın yanlış dəyərləndirilməsi kişini eqoistləşdirir. Özünə uyğun bir şəkildə durumu dəyərləndirməsi; məsələn toplum şüuru baxımından inkişaf etmiş və modern bir insanın ailə sistemi və qadına baxış bucağının son dərəcə mühafizəkar olması; sadəcə qadından fədakarlıq istəməyi kimi hallar yarada bilir. Bu kişilərin ucbatından qadın xarakterlərin çəkdiyi acıları da qat-qat artırır.

Qadınlıq və kişilik bir-birindən ayrılaraq dəyərləndiriləcək şey deyildir. Çünki bunlar qarşılqlı olaraq bir-birini tamamlayır, qadınlığın yanlış dərk olunması sadəcə kişiyə görə deyildir. Bunu qəbul edən passiv qadınlar daha böyük təsirə malikdir. Qadınların passivliyi, itaət edişləri kişilərin eqoistliyi və nüfuz asılılığını təşviq edir. Eyni zamanda, şiddətli patriarxal düşüncəsinin formalaşmağına yol açır.

3.2.3. Aşiq və toplum arasındakı konflikt

Ümumilkdə kişilər ictimai və əxlaqi təcrübələrini gerçək həyatlarında yaşaya bilərlər. Fəqət qadınlar "romantik aşiq" deyilən daxili dünyaları vasitəsilə xarici dünyanı tanımaqdadırlar. Qadınlar üçün cəmiyyətlə birbaşa təmas qura bilən ictimai təcrübələrin imkanları çox sərhədliolmaqdadır. Bu səbəbdən qadınlar üçün "eşq" demək bir növ "dünya" deməkdir. Qadınlar eşqlə dünyanı və gerçəyi tanımağa başlayarkən azadlıq və canlılıq gözləyə bilərlər, amma axtarışın sonu boşluq və yoxluq ola bilər. Eşqdə təcrübə sahibi olmaqla özlərini inkşaf etdirməyə fürsət tapmaqları ilə bərabər qarşısında qatı adətlərin divarının olduğunu anlayarlar (Pearson 1981: 40).

Qadın xarakterin özünü dərk etməsilə toplum quruluşu arasında da konflikt ola bilər. Bu səbəbdən də eşqin nə şəkildə inkişaf edib keçmiş ənənəvi əxlaqla qarşıdurma yaşadığına baxmaq önəmli bir məsələdir:

Romantik eşq qadın üçün hər zaman xoşbəxtlik gətirən səbəb olmaya bilər. Çünki eşq toplumla toqquşduğu zaman ənənəvi əxlaq sisteminə görə başarısız ola bilir:

"Mən artıq alçaq və yoxsul bir günahkar oldum. Mən artıq tarixin lənətlənmiş kişisi Yehudaya benzedim….

Mən Nərimanın ərini sevdim. Bacımın ərini sevdim! Və bunları düşünərkən ruhunda sonsuz bir uyuşuqluq var. Özünün pisliyinin sərhədsizliyi, kirliliyi qarşısında gücsüzlükdən heç olan bir neçə ruhun qırıqlığı, uyuşuqluğu var!" (Adıvar 1995: 194)

Xalidə Ədib Adıvarın "Xəndan" adlı əsərinin qadın xarakteri Xəndan evli bir adam olan Rəfiq Camalı sevməkdədir. Romana daha dramatik bir ünsür qatan da Rəfiq Camalın Xəndanın dayısı qızı Nərimanın əri olmasıdır. Əxlaqdan kənar münasibətə girdiyi üçün Xəndan vicdan əzabı çəkməkdə və ağrılar içərisində çırpınmaqdadır. Əri tərəfindən aldadılmasıyla başlayan psixoloji böhran içində olan Xəndanı bu eşq daha da incidir. Roman Xəndanın ölümü ilə tamamlanır.

"Özünü nəyə inandırmış olursa-olsun, əgər Xəlil ölmüş olmasaydı, Pərizad xanım qısqanclığını çevrəsinə tor kimi saçıb təsirləndirməsəydi, Nilufər müayinəxana açmağı ağlına gətirməyəcəkdi. Bir dəfə girişilmiş və bitmiş təcrübə olardı müayinəxana açmaq. Fakültədə qalardı, Təhsin kimi. Dostlarının hamısı professordur." (Kutlu 1986: 20).

"Cadugər ağacı"nda təsvir olunan Nilufər evli bir adamı sevdiyi üçün çevrədən kənarlaşdırılır və istədiyi səviyyəyə heç cür yüksələ bilmir. Burada yazar cadugərin ənənəvi əxlaq dəyərləri ilə qarşıdurmasını göstərməklə qadının romantik eşqini üstələyən toplumun böyük bir güc olmağını tənqid etməkdədir.

"Hamilə qaldığım üçün onun bir əsir yerinə düşməyini istəmirəm. Hamiləyəm deyə "Mənimlə evlən" deyə bilmərəm. Əgər məni sevərsə razılaşmaq məcburiyyətindədir. Elə deyilmi? Amma bir şey deyəmmədi. Əgər mən zəngin biri olsaydım, o bu fürsəti qaçırmazdı…" (Kim 1988: 89)

Üç bacı hekayəsi"ndəki Myunghe obrazı yaşadığı eşq münasibətindən dolayı hamilə qalmışdır. "Bəlli bir müddət içində evlənə bilmərəm" deyən kişinin məsuliyyətsiz davranışı, Myunghenin eşq və evliliyə qarşı ümidini və gözləntisini yox edir. Myunghe dərin bir şəkildə yaralanır.

Feodal əxlaq və ənənələri səbəbindən meydana çıxan eşq – cəmiyyət qarşıdurmasından başqa eşqin son dərəcə şəxsi və özəl bir hadisə olaraq kiçildilməsi ilə rəsmi və ictimai quruluşla qarşıdurması da romanlarda görünməkdədir:

"Mən eşq və ya evlilik kimi bir məsələni düşünəcək qədər rahat vəziyyətdə deyiləm. Mən indi Cheongseokgolda bir məktəb inşa etdim və gecə-gündüz çalışıram. Birisigün də açılış mərasimi var. Ölməyə belə vaxt tapa bilmirəm." (Shim 1986: 208)

"İynə yarpaqlı ağac" adlı əsərdəki qadın xarakter Yeongsin "kənd aydınlatma hərəkatı"na özünü həsr etmiş gənc bir qızdır. Sadəcə millətin gələcəyini düşünən bu gənc aydına eşq və ya evlilik çox lüks görsənməkdədir. Onun sevdiyi insan Donghyukla bölüşdüyü münasibət də eşqdən ziyadə "məsləkdaş" olaraq bir-birini dəstəkləmək mənası daşıyır.

Burada qadın və kişi arasındakı eşqin ictimai səviyyədə fədakarlıq istəniləndə asanca keçilə bilən bir şey olaraq dəyərləndirilməsi yazarın eşqə qatı bir baxış bucağıyla yanaşdığını göstərməkdədir.

Ədəbiyyatda qadını təhlil edərkən eşq mövzusuna ağırlıq verilməyi, qadınların ictimai səviyyədə öz statuslarını tanımalarına yol açmaqdadır.

Əski quruluş və ənənəyə qarşı çıxan eşq, qadının şəxsiyyət axtarışına yardımçı ola bilər. Amma bu romantik eşq qadını mənfi yönləndirdiyi zaman qadın üzərində təzyiq yaranmasına səbəb ola bilər.

Qadının eşqi, iki yöndən cəmiyyətlə qarşıdurma yarada bilər: Birincisi, eşq keçmiş feodal quruluşu tənqid edən bir funksiya ola bilər, ikincisi də qadının ictimai həyatdakı yerini darlaşdıraraq topluma girməsinə əngəl ola bilər. İdealist düşündüyümüz zaman bu iki qavramın zidd olmağı vacib deyil, çünki qadın üçün eşq həm tələ, həm də inkişafın bir fürsəti ola bilər.

3.3. Xarici dünyadan geri dönmək

Dünya ilə təmas qurduğu zaman bir çox böhran və qarşıdurmalarla üzləşdikdən sonra qadın xarakterlərin dünyadan geri qayıtdıqlarında nə kimi nəticə aldıqlarını anlamaq üçün romanların finalını səciyyələndirmək lazımdır. Çünki romanın finalı yazarın dünyaya baxış bucağını göstərmək üçün uyğun bir qism ola bilər (Kim 1986: 74).

3.3.1. Öz şəxsiyyətini kəşf etmə və inkişaf

Zaman-zaman romandakı qadın xarakterləri, uzun axtarış səyahətləri əsnasında özlərindəki xəzinəni tapırlar. "Gerçək eqo"nu kəşf etməklə dəyişik bir dünyanı kəşf edirlər. Həmçinin daha konkret bir şəkildə patriarxal ideologiyanı rədd edirlər. Bu vəziyyətdə onlar evliliyi, analığı və eşqi təzyiq göstərən və fədakarlıq istəyən bir şey olmaqdan çıxarır, öz istəklərinə uyğun seçirlər. Beləcə, qadın yaradıcılıq, azadlıq və güvəni əldə etmiş olur.

"Sinəkli baqqal" əsərində Rabia analıq duyğusunu dada bilmək üçün ölüm təhlükəsini gözü altına almaq məcburiyyətindədir. Hər kəs onu doğuş qərarından döndərməyə çalışır, amma Rabia içindəki böyük qorxuya baxmayaraq uşağı dünyaya gətirməyə qəti qərar verər:

"İsrar, yalvarmaq, təhdid… Bunların hamısı boşuna olacaq. Rabianın qırtlağını parçalaya-parçalaya çıxan laqqırtılarda elə bir qərarlılıq var. Ən yaxşısi onu sakitləşdirmək, ovutmaq olacaq…" (Adıvar 1994: 278).

Burada öz iradəsiylə həyat mücadiləsini verən Rabianın görüntüsü onun analığının ənənə və təzyiq məcburiyyətindən deyil, öz seçimiylə olan analıq olduğunu göstərməkdədir. Bu halda analıq, müsbət qadınlığı təmsil etməkdədir.

"Ölməyə yatmaq"da Aysel ölmək üçün getdiyi otel otağında xəyalən keçmişə dönərək uşaqlıq dönəmindən indiyə qədər yaşadığı otuz illik həyatı düşünür. İntellektual bir qadın olmağın acizliyini hiss edən Aysel, uzun axtarış nəticəsində patriarxal ideologiya və namus ideologiyasından çıxır. Kimdən olursa olsun, öz vücudu içində gəzdirdiyi yeni həyatı dünyaya gətirməyə və beləcə yeni bir həyat yaşamağa qərar verir, ölməyə yatdığı otel otağından çıxır:

"Bir müddət daha mübarizə aparıb övladımı böyütmək istəyirəm. Uşaq istər saat təmirçisi Rzanın oğlundan olsun, istər Ömərdən… Bəlkə də uşaq yoxdur. Bəlkə də özümün yenidən böyütmək istədiyim; saxsısını çatlatmışam." (Ağaoğlu 1994: 317).

"Takryu"dakı qadın xarakter Chobong, kişilərin oyunları səbəbindən sürüklənir. Chobong Tesuyla evlənərkən Hyungbonun hiyləsilə ərini itirir. Jehonun oyunuyla onun aşnası olarkən təkrar Hyungbo uşaq bəhanəsilə Chobongu alır. Beləcə, öz istək və iradəsindən kənarda baş verən həyat macərası səbəbindən Chobong dərd və ağrı çəkməkdədir. Yaşadığı bütün faciənın ardınca məsələ heç gözləmədən bir partlayışla açılır, Chobong qızını narahat edən Hyungbonu qəzəblə öldürür. Chobongu mənfi yöndən istiqamətləndirməyə davam edən qadınlığı, işlədiyi cinayətlə yönünü dəyişdirir, Chobong zəif və passiv qadın olmaqdan sıyrılıb çıxır.

"Üç bacının hekayəsi"ndə Yonge və Myunghe həyatın mənasını evlilik və ya sevgidə axtarmağın nəticəsinin boşluq olduğunu anlayırlar. Myunghe, əldə tutula bilinməyəcək aşiq üzündən öz həyatını sərf etməyin nə qədər ağılsız olduğunu düşünür. Yonge də sadəcə kişinin cinsi istəyini qarşılamaq üçün var olmaqdan qurtulmaq lüzumunu düşünür:

"Qarşımızda açılan yola baxarkən mən o yolun belə bitmədən davam etməyini dilədim və Myungheylə getdim. Bir an bir kişini tərk etməkdə olduğumu və tərk edə biləcəyimi anladım." (Kim 1988: 98).

Yonge və Myunghe qadının şəxsiyyətini kiçildərək onu bir aksesuar ya da kölə halına düşürən həyatdan qurtulmağa qərar verirlər. Bu qərarda "qadın" şəxsiyyəti ilə deyil, bir "insan" olaraq yaşama arzusu vardır.

Burada görə bildiyimiz kimi, qadının şəxsiyyət axtarışında vacib olan cəmiyyətlə birləşmək deyil, öz daxili dünyasında olan bir digər "gerçək eqo"nu kəşf etməkdir. Çünki qadınlar üçün toplumla birləşməyin nəticəsində əldə edilən bilgi və zənginlik deyil, sadəcə anlayış və kənarlaşdırılma olmaqdadır (Felski 1989: 142).

Qadın öz daxili dünyasının istəyinə cavab verə bilmək üçün bütün təhlükəni gözə alaraq eşq və ya azadlıqdan gələn gerçək xoşbəxtliyə qovuşa bilmir. Bu səbəbdən cəmiyyətə girmədən öncəki bir səviyyə olaraq qadının daxili-mənəvi axtarışını göstərən romanlarda

qadın xarakterlərin daxili ziddiyyəti önəmli bir məsələ kimi diqqəti çəkir.

Bu baxımdan qadının öz şəxsiyyətini dərk etməsinin daxili sıxıntısının bədii həllini tapdığı romanlar, qadın xarakterin inkişafı ilə nəticələnir. Daxili dünyasını təhlil etmək və dəyərləndirmək nəticəsində qadın dünyayla necə təmas quracağını öyrəndiyi üçün nəticə müsbət ola bilər.

Romanlar inkişaf nəticəsində qadının keçmiş halından, keçmişdəki qaranlıq və hüznlü vəziyyətindən qurtularaq müsbət gələcəyə yönəlməyini göstərməkdədir. Çünki onların psixoloji yetkinlik və ruh axtarışları vacib bir hədəfdir. Qadınlar öz daxili dünyalarında gizlənməkdə olan "gerçək eqo"larına qovuşduqları zaman özlərinin nə qədər dəyərli olduqlarını anlayırlar, sadəcə, başqalarının yönləndirdiyi şəkildə sürünməyə icazə verməyəcəklərini düşünürlər.

3.3.2. Vazkeçmə və məğlubiyyət

Qadın xarakterlər ideal və qanuni şərtlər altında şəxsiyyət axtarışlarına çata bilərlər, amma gerçək şərtlər altında uğursuz ola bilərlər. Bu halda qadınlar şəxsi dəyər daşıyan daxili egosu ilə ictimai səviyyə olan xarici egosu arasındakı məsafəni qəbul etmək məcburiyyətində qalır (Rosowski 1983: 90).

Qadın xarakterlər axtarış müddətində özlərini bir çox dəyişiklik içində tapırlar və bünövrədən dəyişikliyin mümkün olduğunu düşünürlər, amma nəticədə özlərini əvvəlki haldan çox da fərqli olmayan vəziyyətdə tapırlar və nəhayət, gerçəyi qəbul etmək məcburiyyətində qalırlar.

Qadın xarakterin yola çıxanda hara getməsindən asılı olmayaraq, heç bir yerdə şərtlərin dəyişməyəcəyini, sadəcə olduğu məkanın dəyişəcəyini, gerçək həyatın əsasının köklü bir həll yolu olmayacağını dərk etməsilə birlikdə roman məğlubiyyətlə nəticələnir. Bu halda qadın, "ayrılma" və "səyahət"in bir gün evə dönüşü zəruriləşdirən keçici bir ayrılıq olduğunu və gerçək həyatdakı məsələlərin asanlıqla həll ola bilmədiyini anlayır.

"Xəndan" adlı əsərdə qadın xarakter, evli bir adamı sevdiyi üçün xəstələnərək ölür. "İlanı öldürsələr"dəki Əsmə ətrafdan kənar-

laşdırılmağa və ölüm təhlükəsinə axıra qədər müqavimət göstərir, nəticədə oğlu tərəfindən öldürülür.

"Əczacı Kimin qızları" romanında qadın xarakterlərin nəsildən-nəslə davam edən faciəsi romanda belə əks olunur:

"Atam yetim kimi böyüdü. Nənəm intihar etdi, babamın da cinayətdən sonra haraya qaçdığı bəlli olmadı. Atamın beş qızı vardı. Böyük qızı dul qaldı, körpəsini öldürdüyü üçün həbsxanada belə yatdı. Mən evdə qaldım. Kiçik bacım dəli oldu. Bizim böyütdüyümüz qulluqçunu sevdi. Hər kəs buna qarşı çıxınca, afyoncu (morfin təsirli dərman) bir zənginin oğluyla evləndi. Sonra əri anamla o qulluqçunu öldürdü. Yazıq bacımın ağlı getdi, dəli oldu. Bu səfər bir sonrakı bacım öldü, mindiyi gəmi batıbmış…" (Park 1987: 381)

Yuxarıdakı romanlarda yazarlar qadın xarakterlərin yaşadığı faciələrlə patriarxal toplum quruluşunun əsla yıxılmayacaq və keçilə bilinməyəcək qüvvətli bir divar olduğunu göstərmək istəyiblər. Bu səbəbdən mövcud quruluşdan kənara çıxanda üzləşəcəyi nəticə bəllidir. Qadın xarakterlər keçmiş quruluş və bəsitləşmiş əxlaq qavramından çıxmağa cəhd edirlər, amma sadəcə onların kənarlaşdırılmalarına yol açan topluma görə bu sınaq uğursuz olur.

"Meşə içindəki otaq"da qadın xarakter Soyang gənc bir ziyalı şəxs olaraq cəmiyyətlə öz şəxsiyyət arayışı arasında qalır. Özünə görə doğru bir yol tapa bilməyən Soyang üçüncü yaşayışı axtararkən özünü öldürməyi çarə bilir:

"Başımı Myungjuya verirəm, ayağımı da Kyungoka vermək istəyirəm. Ağla hörmət bəsləyirəm, amma duyğu daha asandır. Uğurlu olmağımı öncədən insani bir şey deyə qəbul edirdim, amma daha ayaq üstə durmağa gücüm qalmadı…" (Kang 1987: 101).

"Öküzün buynuzu kimi təkcə gəzin" romanının ən bədbəxt şəkildə yaşayan qadın xarakteri Yeongseon, rejissor olaraq məşhurlaşan ərinin arxasından özünü kənarlaşdırılıb, kiçildilmiş kimi hiss edir. Özünə sahib çıxa bilməyən Yeongseonun intihar etməsi ilə roman bitir. Bu nəticə Yeongseonun özünün olduğu vəziyyətə qalib gəlmə cəhdinin məğlubiyyətlə nəticələndiyini göstərir.

Burada Soyangun intiharı ilə Yeongseonun intiharı arasında məna fərqliliyi olduğunu anlamağımız mümkündür. Hər iki romanın da intiharla bitməsi baxımından nəticə eyni ola bilər,

amma məna tamamilə fərqlidir. "Meşə içindəki otaq"da Soyangun intiharı üsyana qalxan və toplumu tənqid etməyi ehtiva edən, müsbət gələcəyə istiqamətlənmiş bir ölüm olmasına qarşı, Yeongseonun intiharı qadının mübarizədən əl çəkməyini göstərən acı məğlubiyyəti ifadə etməkdədir.

Qadının doğru inkişafı bacarmamağı, onlara müsbət yöndə yol göstərəcək ideal qadın modelinin olmamağından da qaynaqlana bilər. Toplum ağıllı, qüvvətli və cəsur bir qadının kənarlaşdırılmağa və həyatda məğlubiyyətə uğramağa hazır olduğunu düşünür. Bu səbəbdən qadın xarakterlər daxili dünyalarındakı gerçək üzlərilə xarici dünyada göstərmələri gərəkən digər üz arasındakı məsafəni anladıqdan sonra böhrana düşürlər. Bu vəziyyətin keçilməyəcək bir gerçək olmağı, qadınlar üçün daha çox müqavimət yaradan bir ünsür ola bilir.

3.3.3. Xoşbəxtliyə qovuşma

Bəzi romanlarda qadın xarakterlər yaşanan bütün faciələrin və həyat macərasının nəticəsində xoşbəxtliyə qovuşurlar.

"Çalıquşu"nda Fəridə nişanlısının başqa qadınla olan münasibətini öyrəndikdən sonra, Anadoluda müəllimlik edərək Anadolu gerçəyini, qadın üçün həyatın nə qədər ağır şərtlər ehtiva etdiyini fərq edir. Çəkdiyi daxili sıxıntıların və yaşadığı təcrübələrin nəticəsində həyatı boyunca həsrət duyduğu Kamrana qovuşur.

Fəridə uğursuz eşqin sonunda özünü ictimai həyata sürükləyən bir yolda tapır, sonunda da xoşbəxt bir yuvaya sahib olur. Fəridənin etdiyi bu uzun yol səyahəti və ayrılığı evə dönüşlə nöqtələnərkən burada yazarın dünyaya baxış bucağını da görməyimiz mümkündür. Yazar, patriarxal quruluşda qadının əvvəl-axır bir yuva və "ev"ə sahib olmağı gərəkdiyini göstərmək istəmişdir.

"Bir Filiz vardı" adlı əsərdə də yoxsul bir ailədə böyüyən gənc qız Filizin çəkdiyi sıxıntılar, onun oxumuş bir gəncə qovuşmağı ilə sona çatar. Bu nəticə qadının daima kişilər tərəfindən qorunması gərəkən zəif bir varlıq olduğunu göstərməkdədir.

"Qanlı göz yaşı"nda Okryeon üçün də eyni hal keçərlidir. Yetim qalmış Okryeon Guvanseonun köməyilə Amerikada oxuyur, atasını da tapır, sonda Guvanseo ilə evlənir.

Yazıçılar əsərlərində qadın üçün çatılmağı gərəkən məqsədin eşq ya da evlilik olduğunu göstərirlər. Həmçinin "ev"in kənarına çıxanda qarşılaşacağı problemləri və təhlükələri qadının təkbaşına həll edə bilməyəcək vəziyyətdə olduğunu vurğulayırlar.

Beləcə qadınların məsələlərinə həll yolu gətirilmədən və həll etməyə də səy göstərmədən qadın xarakterlərin xoşbəxtliyə qovuşmaları ilə romanlar yekunlaşır.

4. ROMANDAKI QADIN XARAKTERLƏRİN ARADA QALMAQLARI VƏ "ARA POETİKASI"

Türkiyə və Koreya romanlarında görünən qadın xarakterlər fiziki özəllikləri, dil-üslubları və yer aldıqları vəziyyətləri olmaq üzrə üç səviyyədə təhlil etdik.

Qadın bədəni sayəsində dünyayla rabitə qura bilir. Bunu, bədənin duyarlı və konkret xüsusiyyətləri təmin edir. Qadına xas orqan olan uşaqlıq, süd vəziləri, dəri və dodaqlar bolluq, zənginlik və gözəlliyin simvolu ola bilər. Uşaqlıq orqanının çoxaltma özəlliyi, döşün süd verməsi, dərinin tamlıq, bütövlük xüsusiyyəti və dodağın yumşaqlığı qadının dəyərini artıran ünsürlərdir. Fəqət zaman-zaman patriarxal ideologiyanın təzyiqi altında bu ünsürlər "əskiklik", ya da "zəiflik ola bilir. Bu zəiflik uşaqlıq orqanı üçün qısırlıq, süd vəzi üçün südsüzlük, dəri üçün deformasiya olmaq üzrə göstərilir.

Qadına xas dil isə, indiyə qədər "dil olmayan dil" xüsusiyyətinə sahib olmaqdadır. Romanlarda susmaq, tərəddüd dili, məktub və ya avtobioqrafiya, daxili dünyasını göstərən, istəyini birbaşa söyləyə bilməyən, dolayı yoldan tənqid edən ironik üslub isə qadının az da olsa baş qaldırırşını göstərməkdədir. Qadın üçün nəyi nə qədər məntiqli danışdığı önəmli deyildir; söyləmək istədiklərini söyləyə bilməsi önəmlidir. Ümumilikdə qadın özünə xas qadın dilini işlətdikdə tənqid olunur. Kişi dilindən istifadə etdikdə isə etirazla qarşılana bilər. Bu səbəbdən qadının dili hələ ki bilinməzlik və axtarış içindədir.

Qadın dünyanı tanıma və məsələləri dərk etmə nəticəsində öz iradəsiylə bunu keçərsə, inkişafı təmin olunar. Çətin şərtlərə görə mübarizədən əl çəkərsə, məğlubiyyətə uğrayar. Qadın xarakterin inkişafı ilə bitən romanda qadın şəxsiyyət axtarışını bacara bilər. Buna qarşı məğlubiyyətlə bitən romanlar, sadəcə qadının olduğu

vəziyyətin obyektiv olaraq dəyərləndirilməsi və tənqid edilməsi ilə kifayətlənir. Konkret bir nəticəyə gəlmədən, açıq bir finalla tamamlanan romanlar da görünməkdədir, çünki qadının problemi tək yönlə və asanlıqla həll edilə bilməz.

Beləcə üç səviyyədə təhlil etdiyimiz qadın xarakterlərin hər baxımdan "arada qalmaları" önəmli bir nöqtə təşkil etməkdədir. Buna "ara poetikası" deyilə bilər. Çünki qadın fiziki özəllikləri, dil-üslubu və düşdüyü situasiya baxımından müsbət və mənfi iki halın arasında yer almaqdadır. Bu hal iki ölkədə də, xüsusilə, qadın yazarlar tərəfindən vurğulanmışdır.

Qadın, təmin olunmaq, azad olmaq və inkişaf etmək istəyir, amma gerçəkdə məhdudiyyət, təzyiq və toplum içində ölüm-qalım mücadiləsi altında yaşam təcrübəsi qazanmaq məcburiyyətindədir. Bu halda qadının olduğu qeyri-müəyyənliyi və arada qalmaları göstərən "ara poetikası"dır. Romanlarda qadının aralarında sıxışıb qaldığı iki qütbün uzlaşmasının və ya bu ikisinin zorla bir araya gətirilməsinin anlamı olmadığı aşkarlanır.

Çünki qadının iki qütb arasında qalmasını olduğu kimi göstərmək daha da anlamlıdır. Qadının təzyiq və azadlıq olmaq üzrə dilemma arasında yer alması, "ara poetikası"nın mümkün olduğunu göstərir. Burada aranın dilemmasını təşkil edən gerçək/ideal, təcrübə/bilgi, təzyiq/azadlıq, passiv/aktiv, hissə/bütün, ölüm/qalım, fərd/cəmiyyət kimi ünsürlərdir. Beləcə bir-birinə zidd olmaqla birlikdə, arada böyük məsafə buraxmaqda olan ikili ünsürlərin aralarında qadının yeri olmaqdadır. Qadın məsələləri təbliğat, ya da nəzəri çalışmalarla həll ediləcək səviyyədə olmadığı üçün qadınlar zaman-zaman təhlükəli addımlar atmaqdadır.

NƏTİCƏ

Bu kitabda Türkiyə və Koreya olmaq üzrə iki fərqli mədəniyyətə əsaslanan ədəbi əsərlərdəki qadın xarakterlərini təhlil etdik. Zaman içində iki ölkənin də yazarlarının qadına baxış bucağının dəyişdiyi və bunun yazardan-yazara fərqlilik göstərdiyi bir gerçəkdir. Ədəbiyyat cəmiyyətin bir parçası olduğu üçün əsərin qələmə alındığı dönəmdəki özəllikləri qadın xarakterlərdə görməyimiz də mümkündür.

İki ölkənin qərbliləşmə dönəmində yazılan romanlarda qadının gerçək dünyasını göstərmək, ya da problemlərini çözmək yerinə daha çox yazarların ideal qadın xarakterlər yaratdıqları və ictimai şüuru əks etdirdikləri görünməkdədir.

"Xəndan" və "Qanlı göz yaşı" romanlarında məkan olaraq əksərən xaricdə yaşamasına, təhsil görməsinə, yabançı mədəniyyəti mənimsəmiş olmalarına baxmayaraq qadın xarakterlər istehsalçı deyillər. Qadının oxuması ön plandaykən çalışma haqqına hələ ki önəm verilmədiyi görünməkdədir. Qadın sadəcə həyatını sevgilisi, və ya ərinə yönləndirməkdə, tamamilə onlar tərəfindən idarə olunmaqdadır. Ancaq "Sinəkli baqqal" və "Mujeong"dakı qadın xarakterlər kişinin mülkiyyəti olmaqdan çıxmış haldadırlar. Həyat şəraitini ətrafına və ərinə – sevgilisinə əsaslanaraq deyil, öz iradəsinə görə idarə etməkdədir. Ancaq bu hal "Çalıquşu" və "İynəyapraqlı bir ağac"da daha da ciddi səviyyəyə sahib olan qadın xarakterin yaradılması ilə müəyyənləşir. Qadının tamamilə evdən kənara çıxmağıyla birlikdə çalışan qadın şəxsiyyəti müəyyənlik qazanmaqda və xüsusilə müəllimlik peşəsiylə ictimai səviyyəyə qalxmaqdadır.

Sonrakı dönəmdə – Türkiyənin Cümhuriyyət dövrü və Koreyanın Yaponiya tərəfindən istilasının son illəri və Koreya savaşından sonra yazılan əsərlərdə toplumun ənənəvi patriarxal quruluşu qarşısında öz şəxsiyyətinə sahib çıxa bilməyən qadın xarakterlər işlənmişdir. Qadının qorunmağı gərəkən bir varlıq olmağı, qadın xarakterlərin şəxsiyyətə sahiblənməsini ictimai dəyərlərə bağlamışdır. Bunu göstərən də Türkiyə romanlarından "Bir Filiz vardı" və "İlanı öldürsələr", Koreya romanından "Takryu" və "Əczaçı Kimin qızları"ndakı qadın xarakterləridir.

Türk yazarları bu dönəmdə ucqar təbəqə yaşamından nümunələrdə şəxslərə və olaylara ənənə, adət, mentalitet kimi toplumun və çevrənin şəxsə qoyduğu ölçülər və vərdişlər baxımından yanaşırlar. Şəhərdə, yaxud da ucqar bölgələrdə yaşayan qadınların problemləri, ictimai yaşayışın sinfi və məhəlli problemləri ilə iç-içədir və onlarla birlikdə gerçəklik qazanmışdır.

Eyni dönəmdə Koreya yazarları da Koreya Savaşından sonra yoxsul qalan şəxslərin həyatını dilə gətirmiş, sənayeləşmə və şəhərləşmədən törəmiş toplum və insan psixologiyasını göstəriblər.

Ancaq hər nə qədər qadın xarakterlərin yaşadığı fəlakəti və toplumun şəxslərə qoyduğu yanlış ölçüləri tənqid etmiş olsalar da, yazarlar qadınların bu ölçülərə qarşı etirazların gərəkli olduğunu dilə gətirmirlər.

Türkiyədə və Koreyada belə etirazlar 80-ci illərin əvvəlində və sonrasında yazıb-yaradan müəlliflərin əsərlərində görünür. İki toplumda da xüsusilə qadın yazarlar istər kəmiyyət, istərsə də yaratdıqlarının keyfiyyəti baxımından önəmli bir irəliləyiş göstərməkdədir. Həmçinin əksər qadın yazıçılar əsərlərində qadınların istər daxili dünyalarını araşdırmaqları, istərsə də bütün yönlərilə qadına xas problemləri ətraflı və anlayışlı bir şəkildə önə çəkmişlər. Qadın yazarların fərqli bir tərzdə qadın problemlərinə toxunmalarını və doğru mənada gördüyü işləri, onların ideallarını xarakterizə etdikləri əsərlərdə də görmək mümkündür. Bu özəlliklər: fiziki keyfiyyətləri, dil – üslubları və düşdüyü vəziyyət olmaq üzrə üç ayrı ölçüdə daha konkret və dəqiq bir şəkildə bəlli olmuşdur.

Qadının analığını simvolizə edən uşaqlıq (orqan) motivini qadın yazarlar çoxalmaq və həyat ünsürü olmaqdan çox qısır uşaqlığı vurğulamaqla dərd çəkməkdə olan qadın xarakterinin məsələlərinə toxunmuşlar. Həmçinin yazarlar cinsi bir obyekt yerinə qoyulan qadının vəziyyətini tənqid etməkdədirlər. Kişilər tərəfindən müəyyənləşdirilən müqəddəs və şeytani özəlliklərlə qadının iki qrupa ayrılması və onun patriarxal ideologiyaya asılı qalması ehtiyacını da vurğulamaqdadırlar.

Dil - üslub ölçüsündə isə, qadın xarakterlərin susmaları və daxili monoloqları onların təcrid olunmaları və zəif vəziyyətdə olmalarını göstərdiyini görmək mümkündür. Beləcə içinə qapanıq qadın xarakterlərin məktub, avtobioqrafiya və ironiya kimi üsullardan istifadə edərək danışmaq istədikləri görünməkdədir.

Qadın xarakterlərin olduğu vəziyyət; bu ölçüdə isə, ilk öncə rahatlıq və xoşbəxtlik verməsi gərəkən "ev" bir məkan olaraq qadını zaman-zaman təzyiq və asılılıq içində saxlayır. Bu səbəbdən qadın öz həyatında yeni məqsəd və ümid axtarmaq üçün yola çıxır. Yolda da daxili səsinə geri dönərək keçmişini bir daha nəzərdən keçirir və həyatındakı problemləri kəşf edir.

Qadın xarakterlərin içində olduğu vəziyyətə baxıldığında, onların daxili qərəzini meydana gətirən və dünyayla qarşıdurmasının səbəbi olan amillərin qaçılmaz analıq vəzifəsi, ənənəyə əsaslanan qadınlıq, gələcəyə ümid və sevgi gözləyən romantik mifoloji kimi faktorlar olduğu görünür.

Qadından öncəliklə analığı mükəmməl bir şəkildə yerinə yetirmək üçün qarşılıqsız fədakarlıq etməsi gözlənir. Bu fədakarlığı qadının öz həyatını yaşamağına əngəl olan bir ünsürdür. Qadının passivliyi, itaətkarlığı kişiləri eqoistliyə və nüfuzlu olmağa bağlı qalmağa təşviq edir və qadının kişiyə yönəlik ideologiyasını yarada bilir. Romantik eşq qadının dünyanı tanımağına və şəxsiyyət axtarışına girməyinə səbəb ola bilməklə birlikdə, qapalı toplumda qadının cəmiyyətə girməyini əngəlləyən bir səbəb ola bilir.

Dünyayla təmas qurub gerçək dünyanı tanıdıqdan sonra qadın xarakterlərin köhnə patriarxal quruluşdan və yaralarından sıyrılaraq güclü bir həyat yaşamağa doğru bir addım atmaqlarıyla romanların bitməsi, onların şəxsiyyət axtarışına yüksəlmələri mənasını verir. Bunun əksinə, gerçək dünyadakı ağır həyat şərtləri ilə patriarxal ideologiyanı qəbul etmələri ilə qadın xarakterlərin şəxsiyyət axtarışı cəhdlərindən əl çəkmələri romanların məğlubiyyətlə bitdiyini göstərir.

Burada əsas olan qadınların çırpınışlarının nəticəsində çarəsiz qalaraq dünyanın gerçəklərini qəbul etmək məcburiyyətində qalmalarıdır. Qadın nə qədər çalışıb mübarizə aparsa da, inkişafını məhdudlaşdıran və keçə bilməyəcəyi qədər qalın bir divar önündə dayanmaqdadır.

Yaşadığı çətinlik, macəra və bütün sıxıntılardan sonra istədiyi sevgi və ya evliliklərinə qovuşmalarına baxmayaraq bəzən qadınlar gerçəkdə davam etməkdə olan problemlərinə göz yummuş vəziyyətdədir. Həmçinin burada qadının həyatda ən son nail olması gərəkən məqsədin sevgi və ya evlilik olduğunu göstərən yazarların

dünyaya baxış bucağı diqqət çəkicidir. Bu dünyaya baxış bucağını adətən kişi yazarlar göstərməkdədir.

Kişi yazarlar qadının azadlığına və özünü tapmağına tərəf-darmış kimi görünərkən, bunun ancaq qadının ənənəvi toplum dəyərinə və bu dəyərlərin qadına biçdiyi rola sahib çıxaraq gerçəklə-şəcəyini bildirmişlər. Təbii ki, kişi yazarlar tərəfindən qələmə alınmış qadın haqlarını müdafiə edən və qadın məsələlərinə toxunan əsərlər var, amma onların yanaşması daha mücərrəd, səthi olmuşdur. Bunun əksinə olaraq qadın yazarlar qadının bu dünyada içində ol-duğu vəziyyəti daha konkret bir şəkildə bildirməyə çalışırlar, onların məsələlərinə dərindən toxunurlar, yanlış formalaşan "qadınlıq" qavramını tənqid edirlər. Yazarlar qarşılaşdıqları dəyər məhkəmələri, bu dəyər məhkəmələrindən yararlanaraq qadınların üstündə hakimiyyət qurmaq istəyən kişiləri, ailə mənsublarını və toplumun yanlışlıqlarını tənqid etməkdədir. Beləcə, patriarxal ideologiyanın qadını dərd çəkməyə zorladığını vurğulayırlar.

Qadın yazarların əsərlərində toxunduqları məsələlər də zaman keçdikcə dəyişikliyə uğramışdır. Patriarxal ideologiyanı tənqid edərək qadının haqqını və dəyərini qorumağa çalışdıqları hərəkət, bu gün zidd münasibətdən uzaqlaşaraq qadının öz dəyərini yenidən kəşf etməyə yönəldiyi görünür. Beləcə, qadınlar müsbət və doğru mənada qadınlığı kəşf edib, ictimai səviyyədə özünü dərk etməyi bacaracaqlar.

Həmçinin bu mübarizə ilə birgə, doğru və gözəl bir şəkildə xarakterizə edilmiş, uyğun və ideal qadın xarakterini yaratmaqla qadınlara doğru yol göstərmək irəlidə qadın yazarların yerinə yetir-mələri gərəkən böyük bir vəzifə olacaqdır.

QAYNAQLAR

ABADAN - UNAT, Nermin (der.) (1978), "İktisadi ve Sosyal Değişmeler Karşısında Türk Kadını". Türkiye Kadın Yılı Kongresi, Ankara: Ayyıldız Matbaası.

ABADAN – UNAT (1981), *Women in Turkish Society*, Leiden, The Netherlands: E.J.Brill.

ABADAN - UNAT (1982), "Toplumsal Değişme ve Türk Kadını". Türk Toplumunda Kadın, Ankara: Türk Sosial Bilimler Derneği.

ACAR, Feride (1983), "Turkish Women in Academia: Roles and Careers", *ODTÜ Gelişme Dergisi*, Cilt 10.

ADIVAR, Halide Edip (1956), "Reşad Nuri Güntekin", *Yeni İstanbul,* 17 Aralık.

ADIVAR, Halide Edip (1995), *Handan*, İstanbul: Atlas Kitabevi.

ADIVAR, Halide Edip (1994), Sinekli Bakkal, İstanbul: Atlas Kitabevi

ADIVAR, Halide Edip (1936), İstanbul: Atlas Kitabevi.

AFET İNAN, A. (1968), *Atatürk ve Türk Kadın Haklarının Kazanılması*, İstanbul: Milli Eğitim Basımevi.

AĞAOĞLU, Adalet (1994), *Ölmeye Yatmak*. (1973), İstanbul: Yapı Kredi Yayınları.

AĞAOĞLU, Samet (1942), "Sinekli Bakkal", *Yücel*, No. 85-86-87. s. 5-9.

AKAY, Sadiye (1973), *Cümhuriyet Dönemi Türk Edebiyatı Antolojisi*, İstanbul: Bateş yayınları.

AKSOY, Nazan ve diğerleri (1997), *Berna Moran'a Armağan. Türk Edebiyatına Eleştirel Bir Bakış*, İstanbul: İletişim Yayınları.

AKYÜZ, Kenan (1957), "Çalıkuşu", *Hisar,* No. 75 Ocak.

ALANGU, Tahir (1965), *Cumhuriyetten Sonra Hikaye ve Roman*, İstanbul: İstanbul Matbaası.

ALTINDAL, Aytunç (1977), *Türkiye'de Kadın*, İstanbul: Havass Yayınları.

ALTMAN, Janet Gurkin (1982), *Epistoarity: Approches to a Form*, Columbus: Ohio State University Press.

AHN, Sonae (1995), Türk Kadınının 1876-1942 yılları Arasında Geçirdiği Sosyal-Kültürel Değişme Sürecinin 3 Türk

Romanında İncelenmesi, Ankara: Hacettepe Üniversitesi (Basılmamış Yüksek Lisans tezi).
AHMET, Köksal (1962), "Sinekli Bakkal", *Yeditepe*, Nr. 70. 1-15 Eylül s. 8.
AHMET, Oktay (1993), *Cümhuriyet Dönemi Edebiyatı 1923 – 1950*, Ankara: Kültür Bakanlığı.
AMİNUDDİN, B. (1938), "Womens Status in Islam: A Moslem View", *Muslim World* Vol. 28: 153-163.
ANDAÇ, Feridun (1990), "1980'li Yıllarda Romancılığımızın Görünümü", *Varlık*. Sayı 999 s. 4-6.
ANDAÇ, Feridun (1994), "Yılanı Öldürseler", *Edebiyat ve Eleştiri*, Yıl 2, Ocak-Nisan: 59-69.
ARAT, Necla (1991), *Feminizmin ABC'si*, İstanbul: Simavi Yayınları.
ARAT, Necla (1993), *Kadın ve Cinsellik*, İstanbul: Say Yayınları.
ARAT, Necla (1996b), *Türkiye'de Kadın Olmak*, İstanbul: Say Yayınları.
ARAT, Necla (1996b), *Kadın Gerçekleri*, İstanbul: Say Yayınları.
ARAT, Necla (1997), *Kadınların Gündemi,* İstanbul: Say Yayınları.
ARAT, Necla (1998), *Aydınlanmanın Kadınları*, İstanbul: Cümhuriyet Kitapları.
ARAT, Yeşim (1991), "1980'ler Türkiye'sinde Kadın Hareketi: Liberal Kemalizm'in Radikal Uzantısı", *Toplum ve Bilim* S.53.
ARAZ, Nezihe (1956), "Çalıkuşunu Uçurduk", *Havadis*. 8 Aralık.
ARBEL, Bedi (1944), "Sinekli Bakkal", İstanbul, I. nr. 7. 1 Mart.
ARIBURUN, Perikan (1973), *Cümhuriyetin 50. Yılında Türk Kadını*, Ankara: Türk Tarih Kurumu Basımevi.
ARIKAN, Türkan (Der.) (1985), Atatürk'ün Türk Kadını Hakkındakı Görüşlerinden Bir Demet, Ankara: T.B.M.M.
ARYANPUR, Manoacher, "Yaşar Kemal'in Anadolu Hikayeleri", *Yeni Edebiyat*. s. 11. Eylül, s. 27-28.
ATASÜ, Erendiz (1995), "Edebiyatımızda Kadın Duyarlılığı", *Varlık,* Mart S. 1050: 2-6.
ATASÜ, Erendiz (1996), "Çağdaş Türk Yazınına Bir Baxış", *Varlık*, Mart S. 1062: 10-12.

ATEŞSOY, Yaşar (1980), "Emine Işınsu ile Bir Mülakat", *Yeni Divan,* 3 Temmuz: 6-8.

AY, Behzat (1964), "Kanlı Topraklar", *Varlık*. 15 Eylül.

AYDIN, Süleyman (1995), *Tenzimat Dönemi Romanında Kadın*, Kayseri: Erciyes Üniversitesi (Basılmamış Yüksek Lisans tezi).

AYKUT, İmren (1984), "Türk Kadınına Siyasi Hakların Tanınmasının 50. Yılı Uluslararası Konferansı", *Çalışan Kadınların Karşılaştıkları Sorunları*, Ankara.

AYTAÇ, Gürsel (1980), *Çağdaş Türk Romanları Üzerine İncelemeler*, Ankara: Gündoğan.

AYTAÇ, Gürsel (1985), "Günümüz Türk Romanlarında Gerçek ve Gerçeklik", *Çağdaş Eleştiri*. Sayı: 5, s. 16-21.

AYTAÇ, Gürsel (1987), Karşılaşdırmalı Edebiyat Bilimi, Ankara: Gündoğan.

AYTAÇ, Gürsel (1990), "Adalet Ağaoğlu'nun Yazısonu", *Türk Dili*.

BADAWI, Gamal A. (1971), "Status of Women in İslam", *Al-Ittihad* Vol. 8, no. 2: 7-15.

BAE, Miyeong (1988), *Yi İncik romanlarında obrazların münaqişəsi*, Seul: Hankuk Universiteti (Yayınlanmamış magistr diss.).

BAEK, Ji Hyun, *Park Kyungrinin roman incələməsi*, Seul: Kyunghee Universiteti. (Yayınlanmamış magistr diss.).

BAKHTIN, M. (1984), *Rabelais and Hiss Worlds*, Bloomington: Indiana University.

BAKHTIN, M. (1986), *Speech Genre & Other Essays*, Austin: University of Texas Press.

BAKHTIN, M. (1992), *Sənətin metod axtarışı*. (Çev: Yi Denkje), Seul: Munye nəşriyyatı.

BANARLI, Nihad Sami (1956), "Reşad Nuri", *Hürriyet*. 15 Aralık.

BANARLI, Nihad Sami (1971), Resimli Türk Edebiyatı Tarihi, İstanbul: Milli Eğitim Bakanlığı Yayınları.

BANPERSON, C.A. (1985), *Bədən – Ruh – Psixologiya* (Çev: Son Bongho ve diğ.), Seul: Seogwangsa.

BARAZANGİ, Nimet Hafez (1976), "The Position of Women in the Contemporay Muslim World", *Al-Ittihad* Vol. 13: 18-26.

BARUCH, Elaine Hoffman (1992), *Women*, *Lore and Power*, New York: New York U.P.

BAŞKUT, Cevat Fehmi (1956), "Reşad Nuri İçin", *Cümhuriyet*. 8 Aralık.

BAYDAR, Mustafa (1960), *Edebiyatçımız Ne Diyorlar*, İstanbul.

BAYDAR, Nasuhi (1956), "Çalıkuşu Muharriri Reşad Nuri", *Tan*. 8 Aralık.

BEAUVOIR, Simone de (1994), *La deuxiéme Sex*, (Çev: Jo Hengsik), Seul: Liyomunwhasa.

BEBEL, August (1987), *Die Frau un der So Zialismus*. (1978) (Çev: Yi Suarye), Seul: Qaçi Keulbang.

BECK, Lois (və b.) (1978), *Women in the Muslim World*, Massachusettes: Harvard University Press.

BEHRAMOĞLU, Ataol (1976), "Yılanı Öldürseler", *Siyaset*, İstanbul: Cem Yayınları.

BEK, Kemal (1985), "Türk Romanının Başlangıcında Karakter Sorunu", *Çağdaş Eleştiri,* S. 2, Yıl. 4.

BELLE, Tansu (1998), *Kişi Yazında Kadın*, İstanbul: Kaynak Yayınları.

BEZİRCİ, Asım, (1984), *Orhan Kemal*, Ankara: Tekin Yayınları.

BOZOK, Hüsamettin (1962), "Çalıkuşu", *Yeditepe,* 31 Ekim.

BURHAN, Orhan (1937), "Yeni Halide Edip (Sinekli Bakkal)", *Yücel*. Nr. 31, Eylül, s. 20-24.

CAMBEL, Joseph (1985), *Min üzlü qəhrəman*. (Çev: Yi Yunki), Seul: Pyungdan Yayınevi.

CAPORAL, Bernard (1982), *Kemalizm'de ve Kemalizm Sonrasında Türk Kadını (1919-1970)*, Ankara: Türkiye İş Bankası Yayınları.

CHARLTON, Sue Ellen M. (1984), *Women in the Third World Development*, Boulder, Co: Westview press.

CHE, Mansik (1988), *Takryu*, Seul: Munhakkgue Hyunsilsa.

CHİZCO, Hyene (1994), *Ataerkil quruluşu və kapitalizm*. (Çev: Yi Seunghee), Seul: Nokdu Yayınevi.

CHO, Hyejeong (1985a), *Koreyada antropoloji,* Koreya Antropologiya Qurumu, C. 17.

CHO, Hyejeong (1985b), "Koreya toplumunun dəyişikliyi və ailə sistemi", *Koreya Antropologiyası,* S. 17.

CHO, Hyejeong (1988), *Ataerkil ideoloji və yenmələri,* Koreya Qadın Araşdırmaları, S. 1.

CHOI, Sukhyang (və b.) (1994), *Koreya qadın tarixi (Əski – Coseon dönəmi)*, (1972) Seul: İwha Univ. Yayınları.

CHOI, Yeonggu (1990), *Yi İncikin romanlarında qərbləşmə düşüncəsinə dair araşdırmalar,* Pusan: Dong-a Uni. (Yayınlanmamış magistr diss.).

CHOİ, Jeongyun (1994), *Che Mansikin romanlarında obrazlar aləmi,* Gwangin: Jeonnam Uni. (Yayınlanmamış magistr diss.).

CHODOROW, Nancy (1987), "Qadın kimliyi ilə ana – qız münasibətləri", *Qadın sosiolojisi və fəlsəfəsi,* Koreya Qadın Araşdırma Mərkəzi, s. 149-158.

COURNOT, Michel (1984), "Yılanı Öldürseler", *Cümhuriyet*, 8 Aralık.

ÇAKIR, Serpil (1996), *Osmanlı Kadın Hareketleri*, İstanbul: Metis Yayınları.

ÇALIŞTIRMA BAKANI 2. ODA (1997), 1998 – 2002 1. Kadın Politikası Temel Planı.

ÇANDARLIOĞLU, Gülçin (1956), "Türk Toplumunda Kadın", *Hayat Tarihi Mecmuası,* C. I, Sayı 4, Mayıs, s. 22.

ÇANKAYA, Erol (1982), "Edebiyat ve Çukurova", *Yazko Edebiyat*. Haziran s. 107-111.

ÇERİ, Bahriye (1996), *Türk Romanında Kadın (1923 – 1938 Dönemi),* İstanbul: Simurg Yayınları.

ÇİFTÇİ, Oya (1978), "Türk Kamu Yönetiminde Kadın Görevliler", *Türk Toplumunda Kadın,* Ankara: Türk Sosyal Bilimler Derneği.

ÇİFTLİKÇİ, Ramazan (1997), *Yaşar Kemal Yazar-Eser-Üslup,* Ankara: Türk Tarih Kurumu Basımevi.

DAVER, Bülent (1968), "Kadınların Siyasi Hakları", Siyasi Bilgiler Dergisi, C. XXII: 121-130.

DEMİRAY, M. Güner (1979), "Yılanı Öldürseler", *Varlık,* S. 864 Eylül: 22.

DEVECİOĞLU, Ayşegül (1990), "Kadın Herekatı Üzerine Bazi Düşünceler", *Birikim,* Mart S.11.

DOĞAN, Şerif (1981), "Ölmeye Yatmak", *Batı Edebiyatları Araştırma Özel Sayısı*, S. 5-6.

DOĞRAMACI, Emel (1993), *Atatürk'ten Günümüze Sosyal Değişmede Türk Kadını*, Ankara: Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Atatürk Araşdırma Merkezi.

DOĞRAMACI, Emel (1997), *Türkiye'de Kadının Dünü ve Bugünü,* Ankara: Türkiye İş Bankası Yayınları.

DONOVAN, Josephine (1988), "Feminist təhlil". (Çev: Kim Yeolkyn), *Feminizm və ədəbiyyat,* Seul: Munye Yayınevi.

DONOVAN, Josephine (1991), "Style and Power", *Feminism, Bakhtin and the Dialogic,* Albany: State U.P. of New York.

DONOVAN, Josephine (1998), *Feminist Teori. (*Çev: Aksu Bora), İstanbul: İletişim.

DOREEN, Ingrams (1971), "The Position of Women in The Middle Eastern Society", *The Middle East-Hand Book,* New York: Praeger Publishers.

DORKİN, Andria (1990), *Qadın nə ilə yaşar?* (Çev: Hong Yeongyı), Seul: Munhakkgwan.

DUMAN, Zarife (1973), *Yaşar Kemal Romancılığı,* Ankara: Ankara Üni. DTCF TDE Böl. (Basılmamış Lisans Tezi).

DURAKBAŞI, Ayşe (1988), "Cümhuriyet Döneminde Kemalist Kadın Kimliğinin Oluşumu", *Tarih ve Toplum*, Mart.

DUYĞU, Süleyman (1973), "Türk Sosyal Hayatında Kadın", *Türk Kültürü*, C. XI, Sayı 128:612-61.

DUYĞUN, Filiz (1974), *Yaşar Kemal Romanlarındakı Tipler*, Ankara: Ank. Üni. DTCF TDE Böl. (Basılmamış Lisans Tezi).

ELDENİZ, Perikan Nacı (1956), *Atatürk ve Türk Kadını*, Ankara: Türk Tarih Kurumu Basımevi

EBCİOĞLU, Hikmet Münir (1941), "Reşad Nuri Hakkında Ne Diyorlar", *Yedigün*. 10 Şubat, C. XVI, 414, s. 16.

EBCİOĞLU, Hikmet Münir (1956), "Reşad Nuri Güntekin", *Zafer*. 8 Aralık.

ELLMANN, Marry (1968), *Thinking about Woman*, New York: Brace and World.

EMİL, Birol (1984), *Reşad Nuri Güntekin'in Romanlarında Şahisler Kadrosu,* İstanbul: İstanbul Üniversitesi Yayınları.

EMİL, Birol (1989), *Reşad Nuri Güntekin*, Ankara: Kültür Bakanlığı.

EMRE, Samih (1965), "Bir Filiz vardı", *Yön*. 23 Nisan.

ENGİNÜN, İnci (1974), "Cümhuriyet Dövründe Kadın Edebiyatçılar", *Cümhuriyetin 50. Yılında Çalışma Sahasında Türk Kadını,* İstanbul, s. 79-86.

ENGİNÜN, İnci (1975), "Kadın Yılı Dolayısıyla Türk Kadın Romancıları (2)", *Hisar*, 138 Haziran: 25.

ENGİNÜN, İnci (1977a), "Halide Edip Adıvar" maddesi, *Türk Dili ve Edebiyatı Ansiklopedisi*, C. I, İstanbul, s. 36-37.

ENGİNÜN, İnci (1977b), "Ziya Gökalp ve Halide Edip Adıvar", *Milli Kültür*. nr. 9. Eylül, s. 10-16.

ENGİNÜN, İnci (1978), Halide Edip Adıvar'ın Eserlerinde Doğu Meselesi, İstanbul: Dergah Yayınları.

ENGİNÜN, İnci (1979), "Feminizm" maddesi, *Türk Dili ve Edebiyatı Ansiklopedisi*, C. III, İstanbul, s. 186-187.

ENGİNÜN, İnci (1982a), "Kadın" maddesi, *Türk Dili ve Edebiyatı Ansiklopedisi*, C. V, İstanbul.

ENGİNÜN, İnci (1982b), "Milli Mücadilede Türk Kadını", *Türk Kültürü*, Sayı 232, Ağustos, s. 618-625.

ENGİNÜN, İnci (1983), "Halide Edip ve Halk Kültürü", *Şükrü Elçin Armağanı*. H.Ü. Edebiyat Fakültesi, Armağan dizisi: 1, Ankara, s. 167-183.

ENGİNÜN, İnci (1984), *Halide Edip Adıvar,* Ankara: Kültür Bakanlığı Yayınları.

ENGİNÜN, İnci (1991), *Yeni Türk Edebiyatı Araştırmaları*, (1983), İstanbul: Dergah Yayınları.

ERCİLASUN, Bilge (1986), "Mehmet Akif'in Şiirlerinde Kadın ve Aile", *Hacettepe Üni. Edebiyat Fakültesi Dergisi*, C. V, Sayı 1, Aralık, s. 34-40.

ERGİN, Muharrem (1996), *Dede Korkud Kitabı,* İstanbul: Boğaziçi Yayınları.

ERGİN, Osman Nuri (1940), *Türkiye Maarif Tarihi*, İstanbul, C.I-V.

ERİŞİRGİL, Mehmet Emin (1956), "Çalıkuşunu Yaratan Adam", *Dünya* 14 Aralık.

ERKUT, Sumru (1982), "Dualism in Values Toward Education of Turkish Women", *Sex Roles*, *Family and Community in Turkey*, Bloomington: Indiana University Turkish Studies.

ESCARPIT, Robert (1988), *Edebiyat Sosyolojisi.* (Çev: Ali Türkay), İstanbul: Remzi Kitabevi.

ESMER, Yılmaz (1991), "İstanbul'da Kadın", *İstanbul Dergisi* No.3, Nisan.

FATIMA, Mernissi (1976), *The Moslem World: Women Excluded From Development,* New York: Overseas Development Council.

FELSKİ, Rita (1989), *Beyond Feminist Aesthetics,* Massachusetts: Harvard U.P.

FRIEDAN, Betty (1978), *Feminine Mystigue.* (Çev: Kim Hengja), Seul: Pyungminsa.

FOUCAULT, Mishel (1990a), *The History of Sexuality I, (*Çev: Yi Kyuklyeun), Seul: Nanam.

FOUCAULT, Mishel (1990b), *The History of Sexuality II, (*Çev: Mun Kyungia və b.), Seul: Nanam.

FOUCAULT, Mishel (1990c), *The History of Sexuality III, (*Çev: Yi Hsesuk və b.), Seul: Nanam.

GİLİGAN, Carol (1994), *Psixoloji nəzəriyyə və qadının inkişafı.* (Çev: Heo Ranju), Seul: Cheolhakkgwa Hyeonsilsa.

GONG, Jiyong (1997), *Öküzün buynuzu kimi təkcə gəzin.* (1993), Seul: Hunye Madang.

GÖKALP, Altan (ve diğ.), *Yaşar Kemal'ı okumak*, İstanbul: Adan Yayınları.

GÖKALP, Gonca (1998), "XX. Yüzyılın İlk Çeyreğinde Türk Romanına Yansıyan Kadın İmajı (1900 – 1925)", *Evrenselliğe Yolçuluk*. (Hacettepe Üniversitesi'nin Emel Doğramacı'ya Armağanı). Ankara, 1.

GÖKALP, Ziya (1986), *Türkçülüğün Esasları,* Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları.

GÜMÜŞ, Semih (1994), *Yazının ve Tarihin Bilinci*, Ankara: Yapı Kredi Yayınları.

GÜNAY, Umay (1989), "Kaf Dağının Ardından", *Türk Edebiyatı* 187, Mayıs: 42.

GÜNEL, Burhan (1977), "Romanda Otobiyografi", *Varlık*, Sayı: 832.

GÜNTEKİN, Reşad Nuri (1972), *Çalıkuşu*, İstanbul: İnkılap Kitabevi.

GÜNYOL, Vedat (1942), "Sinekli Bakkal", *Yücel*. Nr. 85-86-87, Mart-Nisan-Mayıs, s. 3-4.

GÜR, R. (1941), "Sinekli Bakkal", *Yeni Edebiyat Dergisi*. 1 Ağustos.

GÜZEL, Şehmuz (1985), "Tenzimattan Cumhuriyete Sosyal Değişim ve Kadın", *Tenzimatdan Cumhuriyete Türkiye Ansiklopedisi*, C. III, İstanbul, s. 867-874.

GÜZEL, Şehmuz (1996), *Kadın*, *Aşk ve İktidar,* İstanbul: Alan Yayıncılık.

HAN, Heseon (1992), Çağdaş Koreya romanlarında surətlər aləmi, Seul: Iwha Universiteti (Yayınlanmamış doktorluq diss).

HAN, Myungsuk (1986), *Coseon xanədanında konfutsiçiliyin qadına baxışı,* Seul: İwha Universiteti (Basılmamış doktorluq diss).

HANÇERLİOĞLU, Orhan (1957), "Reşad Nuri", *Varlık*, 10 Ocak, C. III, Nr. 445, s. 5.

HANÇERLİOĞLU, Orhan (1957), "Reşad Nuri Güntekin", *Türk Dili*. 1 Şubat, Nr. 65, s. 252-255.

HATEMİ, Hüsey (1995), *İlahi Hikmette Kadın,* İstanbul: İşaret Yayınları.

HAYBER, Abdülkadir (1993), *Halide Edip*, *Yakup Kadri ve Reşad Nuri'nin Romanlarında Nesil Çatışmaları*, İstanbul: M.E.B. Araştırma – İnceleme Dizisi.

HENRY, Nency (1990), *Bədənin dilbilimi,* Seul: Iwalseogak.

HOMANS, Magaret (1986), *Bearing the Word,* Chicago and London: The University of Chicago Press.

IŞINSU, Emine (1995), *Kaf Dağının Ardında,* (1988), İstanbul: Ötüken.

İÇLİ, Tülin (1992), *Atatürk ve Türk Kadını,* Ankara: Atatürk Araştırma Merkezi Dergisinden Ayrıbasım.

İLERİ, Selim (1973), "Ölmeye Yatmak", *Yeni Dergisi*, S. 10.

İNAN, Afet (1968), Atatürk ve Türk Kadın Haklarının Kazanılması: Tarih Boyunca Türk Kadınının Hak ve Görevleri, İstanbul.

İNAN, M. Rauf (1991), *Atatürk ve Türk Kadını; Tarihte Türk Kadını*, İstanbul: Akın Kitabevi.

İPŞİROĞLU, Zehra (1985), "Türk Yazınında Kadın İmgesi", *Çağdaş Eleştiri*, Mart, S. 3.

İZGİ, Özkan (1975), "İslamiyetten Önceki Türklerde Kadın", *Türk Kültürü Araştırmaları* II: 1973-75 Ankara, S. 149-157.

JAPONIGOUS LTD. (1984), *Ana və fahişə,* Seul: Jiyin Yayınları.

JEON, Bangji (1999), "Uluslararası statistika və Koreyanın cinsiyyət ayrımı", *Qadın və toplum* S. 9.

JEON, Hyeja (1982), "Koreya qadın yazarlarının romanlarında feminizm", *Asiya qadın araşdırmaları,* S. 21.

JEON, Jeok (1997), *İslamda qadın,* Seul: Yeyeon Yayınları.

JEONG, Eun Kyung (1988), *Park Kyungli romanlarındakı surətlərin təhlili,* Seul: Hanyang Universiteti (Yayınlanmamış magistr diss.).

JEONG, Hyoseop (1984), *Koreya qadın hərəkatları tarixi,* Seul: İljogak.

JEONG, Sunjin (1992), *Koreya ədəbiyyatı və feminist təhlil*, Seul: Kukhakjaryousen.

JEONG, Yeongja (1988), *Koreya qadın ədəbiyyatının təhlili: 1920-1930-cu illər* (Basılmamış doktorluq diss.), Seul: Donga Universiteti.

JEONG, Yeongja (1989), "Çağdaş qadın yazarların romanlarının özəllikləri və qadın sorunu", *Qadın və ədəbiyyat,* S. 1.

JEONG, Yeongja (1990), "Koreya feminist romanının inkişafı və gələcəyi", *Qadın və ədəbiyyat,* S. 2.

JO, Dongil (1997), *Ədəbiyyatımızda qadın,* Seul: Semi.

JOHN, Esposito (1975), "Womens Right in İslam", *Islamic Studies* Vol. 14, No. 2.

JOHNS, And Rosaline (1990), "Bədənlə yazmaq", *Qadının özgürləşmə məntıqı,* Seul: Changjakgua Biyungsa.

KABACALI, Alpay (1994), *"An"ların Uzun Soluklu Yazarı Adalet Ağaoğlu,* Ankara: Yapı Kredi Yayınları.

KABAKLI, Ahmet (1974), *Türk Edebiyatı, C.3,* İstanbul: Türk Edebiyatı Yayınları.

KABAKLI, Ahmet (1984), *Türk Edebiyatı, C.5,* İstanbul: Türk Edebiyatı Yayınları.

KABAKLI, Ahmet (1991), *Türk Edebiyatı*, İstanbul: Türk Edebiyatı Vakfı.

KAHREMAN, Bülent (1985), "1984'ün Roman ve Öyküleri", *Varlık Yıllığı*, Sayı: 26, s. 47-53.

KANBOLAT, Yahya (1984), Halide Edip Adıvar'ın Romanlarında Feminizm Sorunu, İstanbul.

KANDİYOTİ, D. (1977), "Sex Roles and Social Change: A Comparative Appraisal of Turkeys Women", *Signs*, Cilt 3: 57-73.

KANDİYOTİ, D. (1988), "Slave Girls, Temptresses, and Comrades: Images of Women in the Turkish Novel", *Feminist Issues*, Cilt 7: 35-49.

KANG, İsu (1998), *"İstatistiklere Göre Kore'li Kadının Statusu*", Kadın ve Toplum, S. 923-939.

KANG, Seokyung (1987), *Ormandakı otaq,* Seul: Mineumsa.

KANSU, Muhammad (1996), "İslamın Kadına Bir Bakışı", *İslamiyet Derneği* 4. Cilt: 68.

KAPLAN, Mehmet (1957), "Öğretmenler ve Memurlar Romancısı: Reşad Nuri", *İstanbul*. Şubat, s. 4-7.

KAPLAN, Mehmet (1996), *Türk Edebiyatı Üzerine Araştırmalar,* İstanbul: Dergah Yayınları.

KARAALİOĞLU, Seyit Kemal (1986), *Resimli – Motifli Türk Edebiyatı Tarihi*, İstanbul: İnkılap ve Aka Kitabevleri.

KARAALİOĞLU, Seyit Kemal (1989), *Örnekli Türk Romanları*, İstanbul: İnkılap Kitabevi.

KARAOSMANLIOĞLU, Yakup Kadri (1922), "Çalıkuşu", *İkdam,* 25 Mart.

KARAOSMANLIOĞLU, Yakup Kadri (1957), "Reşad Nuri İçin", *Varlık*, 1 Ocak, Nr. 445, s. 3.

KARPAT, Kemal (1962), *Çağdaş Türk Edebiyatında Sosyal Konular*, İstanbul: Ekin Basımevi.

KAVCAR, Cahit (1972), "Çalıkuşu ve Türk Eğitimindeki Yeri", *A.Ü. Eğitim Fakültesi Dergisi*. C. V, Nr. 1-2, s. 167-187.

KAZGAN, Gülten (1978), "Türkiye'de Kadın Eğitimi ve Kadın Çalışması: Nedenler, Etkiler, İlişkiler ve Sonuclar", *Toplum ve Bilim,* S. 5.

KEHDE, Suzanne (1991), "Voices from the Margin", *Feminism*, *Bakhtin*, *and the Dialogic,* Albany: State U.P of New York.

KEMAL, Orhan (1965), "Bir Filiz Vardı", *Yeni İnsan*, Nisan.
KEMAL, Orhan, (1995), *Bir Filiz Vardı,* İstanbul: Tekin Yayınevi.
KEMAL, Yaşar, (1996), *Yılanı Öldürseler,* (1976), İstanbul: Adam.
KERMAN, Zeynep (1990a), "Romancılarımızın İdeal Kadın Tipleri", *Gösteri,* S.113 Nisan.
KERMAN, Zeynep (1990b), "Romancılarımızın İdeal Kadın Tipleri 2", *Hürriyet Gösterisi*, S. 114: 80-82.
KEUM, Jangte (1990), *Modern Koreyada konfutsiçilik,* Seul: Seul Universiteti Yayınları.
KEUM, Jangte (1995), *Konfutsiçilik düşüncəsi və kültürü,* Seul: Ənənəvi Kültür Araşdırma Qurumu.
KİM, Duwhan (1985), *Che Mansikin romanları üzərində araşdırmalar,* Taegu: Kyungbuk Universiteti, (Yayınlanmamış magistr diss.).
KİM, Jeangja (1991), Koreya qadın yazarlarının romanlarının təhlili, Seul: Mineumsa.
KİM, Jihyun (1991), *Koreya çağdaş feminist ədəbiyyatının təhlili.* (Yayınlanmamış magistr diss.), Pusan: Pusan Universiteti Koreya Qadın Yazarların Romanlarını İncələmə Qurumu.
KİM, Jihyun (1995), Feminizm və roman təhlili, Seul: Hangilsa.
KİM, Juhee (1978), *Koreyada antropologiya,* Seul: Psixoloji Araşdırmalar Mərkəzi.
KİM, Juhee (1983), "Koreya ənənəvi toplumunda ikinci qrupun özəlliyi", *Koreya Antropoloji Araşdırmaları,* S. 1.
KİM, Kyungsu (1988), *Koreya qadın yazarlarının romanları*, Seul: Kabin Yayınevi.
KİM, Kyungsu (1994), Feminizm və ədəbi tənqid, Seul: Koryenoon.
KİM, Mihyun (1996), Koreya qadın yazarların romanları və feminizm, Seul: Singu Munhuasa.
KİM, Miyeong, (1983), *Che Mansikin "Takryu" araşdırmaları,* Cheongju: Choogunk Uni. (Yayınlanmamış magistr diss.).
KİM, Myunghee (1990), *Park Kyungli romanda tragik ünsürlər,* Jeonju: Jeonju Universiteti (Yayınlanmamış magistr diss.).
KİM, Myunghe (və b.) (1994), *Seks – əlaqə – kültür*, Seul: Nanam Yayınları.

KİM, Seongon (1992), "Koreya ədəbiyyatında qadın", *Munhakje-onsin,* May.
KİM, Subok (və b.) (1995), *Çağdaş Koreya romanı,* Seul: Hanrim Yayınevi.
KİM, Tejun (1993), *Konfutsiçilik nədir?*, Seul: Jiyeongsa.
KİM, Yeolgyu (1989), *Ev və ailə,* Seul: Seogang Universiteti Yayınları.
KİM, Yeong Deok (1972), "Çağdaş Koreyada qadın və ədəbiyyat", *Koreya qadın tarixi II,* Seul: İwha Universiteti Yayınları.
KİM, Yeong Deok (1976), *Koreyada qadın,* Seul: Jeageumsa.
KİM, Yeong Deok (1978), *Müasir Koreyada qadın və ədəbiyyat,* Seul: İwha Universiteti Yayınları.
KİM, Yeondeok (ve b.) (1993), *Koreya qadın tarixi* (Qərbləşmə – 1945-ci il dönəmi), Seul: İwha Universiteti Yayınları.
KİM, Yeonghe (1991), "Koreya feminist ədəbiyyatının təhlili", *Munhakjeongsin* Sentyabr.
KİM, Yeonghe (və b.) (1988), "Feminist ədəbiyyat nəzəriyyəsini oluşdurmaq üçün bir metod", *Qadın hərəkatları və ədəbiy-yatı*, S. 1.
KİM, Yeonghe (1993), "Postmodern feminizmin dilemması", *Qadın və toplum,* S. 3
KİM, Wonu (1988), *Üç bacının hekayəsi,* Seul: Munhak guajisengsa.
KOÇER, Hasan Ali (1972), "Türkiye'de Kadın Eğitimi", *Ankara Üni. Eğitim Fakültesi Dergisi* C. V, Sayı 1-2, S. 81-124.
KOÇER, Hasen Ali (1974), Türkiye'de Modern Eğitimin Doğuşu ve Gelişmesi (1773-1923), İstanbul.
KOREYA QADIN İNKİŞAFI İNSTİTUTU (1996), *1987 Qadın statistik illiyi.*
KÖKSEL, Behiye (1992), *Peyami Safa'nın Romanlarında Kadın,* Malatya: İnönü Üniversitesi (Basılmamış Yüksek Lisans Tezi).
KRİSTEVA, J. (1991a), "Əslində sevgi vardı", *Yazar Dünyası*, Bahar.
KRİSTEVA, J. (1991b), "Eşq hekayələri – Üzgün Məryəm Ana", *Yazar Dünyası*, Bahar.

KRİSTEVA, J. (1994), "Qadın zamanı", *Çağdaş ədəbiyyat tənqidi,* Seul: Hansin Yayınevi.

KUDRET, Cevdet (1987), Türk Edebiyatında Hikaye ve Roman I (Meşrutiyetten Cumhuriyete kadar:1911-1922), İstanbul: İnkılap Kitabevi.

KUDRET, Cevdet (1990), Türk Edebiyatında Hikaye ve Roman II (Cümhuriyet Dönemi: 1923-1959), İstanbul: İnkılap Kitabevi.

KURNAZ, Şefika (1990), *Cümhuriyet Öncesinde Türk Kadını (1839-1923),* Ankara: T.C. Başbakanlık Aile Araştırma Kurumu Yayınları. İlim Serisi, 4.

KUTLU, Ayla (1986), *Cadı Ağacı*, Ankara: Bilgi Yayınevi.

KUTLİ, Ayla (1986), "Çağdaşlık ve Türk Romanı", *Hürriyet Gösteri*. Sayı: 67, s. 26-27.

KÜÇÜMEN, Zihni (1956), "Reşad Nuri Güntekin", *Dünya,* 14 Aralık.

KWAK, Wonseok (1990), *Che Mansikin "Takryu" incələməsi,* Seul: Yansei Universiteti (Yayınlanmamış magistr diss.).

KWEON, Tekyeong (1981), "Feminist təhlilin dünəni və bu günü", *Çağdaş şeir düşüncəsi,* Bahar: Koreowon.

KWEON, Yeongmin (1992), "Roman və Eqonun kölgəsi", *Roman və qədər dili,* Seul: Hyundaeseseolsa.

LEAHY, Margaret E. (1986), *Development and Status of Women,* Boulder Co: Lynne Rienner Publishers.

LEVEND, Agah Sırrı (1937), "Eserler ve Hadiseler: Sinekli Bakkal", *Yeni Türk*, nr. 51, Mart, s. 831-834.

MA, Uryeom (1984), *Çin fəlsəfə tarixi,* Seul: Uyungseol Yayınevi.

MICHAELSON (və b.) (1971), "Female Roles and Male Dominance among Peasants", *Southwestern Journal of Anthropoloyg*, 27: 300-352.

MILES, Rosalind (1974), The Fiction of Sex: Themes and Funtions of Sex Difference in the Modern Novel, New York: Bames & Noble Books.

MİLLES, Sara (və b.) (1991), "Feminizm Terimi Sözlüğü", *Çağdaş Şeir Düşüncesi*, Kış.

MİLLET, Kate (1970), *Sexual Politics,* New York: Garden City.

MİNİBAŞI, Türkel (1994), *Çağ Atlatma Serüveni (1453-1980),* İstanbul: Bağlam Yayınevi.

MİNİBAŞI, Türkel (1995), "Siyasi Partiler Yelpazesinde Kadının Konumu", *Kadın Gerçekleri,* İstanbul: Say Yayınları.

MOERS, Ellen (1976), *Literary Woman,* New York: Doubleday Company.

MOGDAHAM, Valentine, M. (1993), *Modernizing Women: Gender and Social Change in the*, *Middle East,* Colorado: Lynne Rienner Publisher.

MOHAMMED, Siddigi (1959), *Women in Islam,* Lahore, Pakistan: Institute of Islamic Culture.

MOI, Taril (1987), *French Feminist Thought,* Oxford: Basil Blackwell.

MOI, Taril (1994), *Sexual/Textuel Politics.* (Çev: Yim Okhi və b.), Seul: Hansin Munushasa.

MORAN, Berna (1976), "Sinekli Bakkal'da Siyasi Problem", *Birikim*, 21, Kasım, s. 7-10.

MORAN, Berna (1983), *Edebiyat Kuramları ve Eleştiri,* İstanbul: Cem Yayınları.

MORAN, Berna (1988), "Tenzimat Romanında Karşıt İki Kadın Tipi", *Murat Sarıca Armağanı*, İstanbul: Aybay Yayınları, s. 287-293.

MORAN, Berna (1991a), *Türk Romanına Eleştirel Bir Bakış I,* İstanbul: İletişim Yayıncılık.

MORAN Berna (1991b), *Türk Romanına Eleştirel Bir Bakış II,* İstanbul: İletişim Yayıncılık.

MORAN, Berna (1991c), "Feminist Eleştiri Kuramı I-II", *Hürriyet Gösteri*, 123-124, Şubat-Mart, s. 7-11, 8-11.

MORAN, Berna (1994), *Türk Romanına Eleştirel Bir Bakış III,* İstanbul: İletişim Yayıncılık.

MORKAN, D. (1979), *Antik dövr*. (Çev: Chai Dalgon və b.), Seul: Hyunansa.

MUHAMMED, Qutb (1967), *Islam and Women,* Kuwait: Ministry of Awgaf and Islamic Affairs.

MUN, Dongwhan (1992), *Che Mansikin romanlarında qadın xarakterlərin təhlili,* Gwangju: Jeonnam Universiteti (Yayınlanmamış magistr diss.).

MUN, Sunhong (1995), "Eko feminizm nədir?", *Kadın ve Toplum,* S. 6.
MUTLUAY, Rauf (1977), "Yılanı Öldürseler". *1977de Roman ve Hikayemiz*, Varlık Yıllığı, İstanbul: Varlık Yayınları, 36-37.
MÜNİR, Hikmet (1956), "Reşad Nuri Güntekin", *Zafer* 8 Aralık.
NACİ, Fethi (1973), "Ölmeye Yatmak", *Yeni Dergi*, S. 107.
NACİ, Fethi (1976), *Edebiyat Yazıları,* İstanbul: Gerçek Yayınevi.
NACİ, Fethi (1981), "Türkiye'de Roman ve İctimai Değişme", İstanbul: Gerçek Yayınevi.
NACİ, Fethi (1986), "Değişen Romancılar, Değişen Romanlar", *Hürriyet Gösteri*. Sayı: 66, s. 4-5.
NACİ, Fethi (1989), "Eleştiri Günlüğü, Romanın ve Hikayenin Dili", *Hürriyet Gösteri*. Sayı: 104, s. 13-16.
NACİ, Fethi (1990), Hikayeci: Sait Faik - Bir Romancı Yaşar Kemal, İstanbul: Gerçek Yayınları.
NACİ, Fethi (1994a), *Tehlilde Kırk Yıl,* İstanbul: Oğlak Yayıncılık.
NACİ, Fethi (1994b), *40 Yılda 40 Roman,* İstanbul: Oğlak Yayıncılık.
NACİ, Fethi (1995), *Reşad Nuri'nin Romancılığı,* İstanbul: Oğlak Yayıncılık ve Reklamcılık.
NAHİD, Sırrı (1937), "Sinekli Bakkal", *Ülkü*. nr. 53, Temmuz.
NAYIR, Yaşar Kemal (1937), "Sinekli Bakkal", *Ülkü*. nr. 53, 1 Temmuz.
NAYIR, Yaşar Kemal (1953), Edebiyatçımız Konuşuyor, İstanbul.
NECATİGİL, Behçet (1978), *Edebiyatımızda İsimler Sözlüğü,* İstanbul: Varlık Yayınları.
NECATİGİL, Behçet (1989), *Edebiyatımızda Eserler Sözlüğü,* İstanbul: Varlık Yayınları.
NORRİS, Christopher (1986), *Deconstruction.* (Çev: Yi Giwu), Seul: Inoang Yayınları.
OH, Hangeun (1990), *Che Mansikin romanları haqqında araşdırmalar,* Seul: Yonsei Universiteti (Yayınlanmamış magistr diss.).
OKTAY, Osman (1974), "Yazar Emine Işınsu ile Bir Danışma", *Dövlet* 244 Temmuz: 3-8.

ORAKÇI, Adem (1990), *Reşad Nuri Güntekin'in Romanlarında Maarif Teşkilatı ve Müellim,* Ankara: Gazi Üniersitesi (Basılmamış Yüksek Lisans Tezi).

ORHAN, Tahsin (1974), "Sinekli Bakkal", *İnci – Tercüman*. 30 Eylül.

ORHON, Orhan Seyfi (1956), "Reşad Nuri Güntekin", *Zafer,* 11 Aralık.

ORHONLU, Cengiz (1968), "Türkiye'de Kadın Haklarının Kazanılması Meselesi", *Türk Kültürü*, S. 72, Ekim: 936-942.

ORKUN, Hüseyn Namık (1936), *Eski Türk Yazıtları I,* Ankara: TDK Yayınları.

ORTAÇ, Yusuf Ziya (1956), "Reşad Nüri Güntekin", *Akbaba*. 19 Aralık. C. 10, Nr. 249, s. 6.

ÖNERTOY, Olcay (1972), "Türk Romanında Milli Mücadile", *Böyük Zaferin 50. Yılına Armağan*, İstanbul: MEB.

ÖNERTOY, Olcay (1974), "Reşad Nuri Güntekin ve Anadolu", *A.Ü.D.T.C.F. Türkoloji Dergisi* C. VI. Nal.

ÖNERTOY, Olcay (1981), "Reşad Nuri Güntekin'in Yazımızdaki Yeri", *Türk Dili* Aralık, C. VIII.

ÖNERTOY, Olcay (1983a), "Reşad Nuri Güntekin", *T.D.K. Yayınları*, Aralık.

ÖNERTOY, Olcay (1983b), "Yaşar Kemal ve Çukurova", *Türk Dili*, s. 375, Mart, s. 147-53.

ÖNERTOY, Olcay (1984), *Cümhuriyet Dönemi Türk Roman ve Öyküsü*, Ankara: Türkiye İş Bankası Yayınları.

ÖNERTOY, Olcay (1991), Reşad Nuri Gündekin: Yaşamı, kişiliği, romancılığı, öykücülüğü, oyun ve gezi yazarlığı ile yapıtlarından seçme, İstanbul: Altın Kitapevi.

ÖZBAY, Ferhunde (1979), "Kırsal Yörelerde Kadının Statusu İşgücüne Katılımı ve Eğitim Durumu", *AİTİA Yönetim Bilimleri Fakültesi Dergisi,* Vol. 1: 201-234.

ÖZBAY, Ferhunde (1991), "Türkiye'de Kadın ve Çocuk Emeği", *Toplum ve Bilim,* S. 53

ÖZCAN, Yasemin (1992), *Yaşar Kemal'in 12 Romanında Kadın Tipleri.* (Basılmamış Lisans tezi), Elazığ: Fırat Üniversitesi, Fen Edebiyat Fakültesi TDE Bölümü.

ÖZKIRIMLI, Atilla (1976), "Bir Roman: Yılanı Öldürseler", *Cümhuriyet* 31-7.

ÖZKIRIMLI, Atilla (1977), "Yılanı Öldürseler". (*1976'da Öykü ve Roman*, *Nesin Vakfı Yıllığı* İstanbul: 59-69.

ÖZLÜ, Deniz (1965), "Bir Filiz Vardı", *Yeni Ufuklar*. Ekim.

PANG, Yeongi (1992a), *Çağdaş Koreya romanında görünən qadın şüuru*. (Basılmamış doktorluq diss.), Jeonju: Jeonbuk Universiteti.

PANG, Yeongi (1992b), "Qadın şüuru və feminist tənqid", *Koreya dili və ədəbiyyatı,* S. 30.

PARK, Gungja (1990), "Yeni feminist ədəbiyyatın özəlliyi", *Alman feminist ədəbiyyatı,* Seul: Samyongsa.

PARK, Hyeran (1987), *Cinsiyyət baxımından qadın: 80-ci illərdə yazılmış hekayələrin incələnməsi.* (Yayınlanmamış magistr diss.), Seul: İwha Universiteti.

PARK, İnsuk (1994), *1930-cu illərdəki qadın yazarların romanında qadın məsələləri.* (Yayınlanmamış magistr diss.), Seul: Hanseong Universiteti.

PARK, Kapsu (1978), "Qadın yazarların üslub incələməsi", *Asiya Kadın Araşdırmaları*, S. 17.

PARK, Kyungri (1997), *Əczaçı Kimin qızları,* Seul: Nanaum Yayınevi.

PARK, Yongok (1975), *Çağdaş Koreya qadın tarixi,* Seul: Joengeumsa.

PARK, Yongok (1988), *Koreya qadın araşdırmaları,* Seul: Cheongha Yayınları.

PARLATIR, İsmail (1973), "Cümhuriyet Dönemi Türk Romanında Konular", *Türk Dili*. (Cümhuriyetin 50. Yılında Türk Dili ve Yazını Özel Sayısı), S. 266, s. 124-131.

PEARSON, Carol (və b.) (1981), *The Female Hero in American and British Literature,* New York & London: R.R. Bewker Company.

POYRAZ, Türkan – ALPBEK, Muazzez (1957), Reşad Nuri Güntekin. Hayatı ve Eserlerin Tam Listesi, Ankara.

PÜSKÜLLÜOĞLU, Ali (1987), *Yaşar Kemal Sözlüğü,* İstanbul: Toros Yayınları.

PYUN, Sinwon (1991), "Feminist təhlil", *Simunhak*: 4-5

RADO, Şevket (1956), "Çalıkuşu Muharriri Öldü", *Akşam*, 8 Aralık.

RANEYA, Saleh (1972a), "Women in Islam: Their Status in Religious and Traditional Culture", *International Journal of Sociology of the Family,* Vol. 2 No. 1: 34-42.

REUBEN, Levy (1965), "The Status of Women in Islam", *The Social Stucture of Islam,* New York: Cambridge University Press.

RİCH, Adrianne (1995), *Artıq ana yox.* (Çev: Kim İnseong), Seul: Pyungminsa.

RİNG, Charlle Albert (1988), "Psixoanilizm və feminizm", *Dünya ədəbiyyatı*, Qış.

ROSOWSKİ, Susan (1983), "The Novel of Awakening", *Voyage In,* Hanover & London: U.P of New England.

ROUX, Jean-Paul (1990), "Orta Çağ Türk Kadını". (Çev: Könül Yılmaz), *Erdem*, C. 6, Eylül.

SADIK, Tural (1978), "Halide Edip'in Kültür Değişmelerimizdeki Yeri Üzerine Bir Çalışma", *Türk Kültürü*. C. XVI, nu: 192, Ekim, s. 25-33.

SAVCI, Kemal (1973), *Cümhuriyetin 50. Yılında Türk Kadını*, Ankara: Cihat Matbaası.

SAZYEK, Hakan (1990), "Seksenli Yılların Türk Romanına Kazandırdığı Yeni Yazarlar". *Türk Dili*: 465, Eylül: 137-153.

SEO, Jeongja (və başqaları) (1987), "Çağdaş qadınların ədəbi fəaliyyətləri", *Çağdaş Koreya qadın araşdırmaları,* Seul: Sukmyung Universiteti Asiya Qadın Məsələləri İnstitutu.

SERPİL, Savcıoğlu (1973), "Bir Filiz Vardı'da Teslim Olmayan İnsan Tipi", *Yeni Ortam* 13-7.

SEVİG, Vasıf Raşid (1942), "Yeni Bir Görüşle Sinekli Bakkal", *Cümhuriyet*, 23 İkinci Teşrin.

SEVÜK, İsmail Habib (1942), "Bugünkü Romanlarımız: Sinekli Bakkal", *Cümhuriyet,* Nr. 6349, Nisan.

SHIN, Gun Kyung (1991), "Qadın özəlliklərini üzə çıxarmada qadın mətn və üslubu", *Munhakjeongsin*, dekabr

SHİN, Eunkyung (1991), "Qadınlıq arayışı olaraq qadın üslubu", *Munhakjeongsin*, dekabr.

SHİN, Seonghun (1990), *Shim Hunun romanına dair araşdırmalar,* Seul: Korea Uni (Yayınlanmamış magistr diss.).

SHİM, Hun (1986), *Bir iynə yapraqlı ağac.* (1935), Seul: Sam Jungdang.

SHOWALTER, Ellaine (1977), *The Literature of Their Own,* New Jersey: Princeton Univ. Press.

SHOWALTER, Ellaine (1985), "Towards a Feminist Poetics", *The New Feminist Criticsm,* New York: Pantheon Books.

SHOWALTER, Ellaine (1988), "Çöldəki feminist təhlil", (Çev: Kim Yeolgyu), *Feminizm və ədəbiyyat,* Seul: Munye Yayınevi.

SİRMAN, Nükhet (1989), "Feminsm in Turkey: A Short History", *New Perspectives on Turkey* Vol. 3 No. 1, Fall.

SOHN, Bongsuk (1994), *Women of Japan and Korea Continuty and Change,* Philadelpia: Temple University Press.

SONG, Ji Hyun (1991) 1*930-cu illərdə Koreya romanında qadınların kimlik axtarışları.* (Yayınlanmamış doktorluq diss.), Gwangju: Jeonnam Üniversiteti.

SONG, Ji Hyun (1995), Təkrar yazılmış qadın və ədəbiyyat, Seul: Pyungminsa.

SONG, Ji Hyun (1996), Feminist tənqid və Koreya romanı, Seul: Kukhakjaryowon.

SONG, Jihyan (1992), "1930-cu illərdəki feminist ədəbiyyat incələməsi", *Koreya dili və ədəbiyyatı* s. 30.

SONG, Junho (1983), "Koreyada ailə və tarixçəsi", *Tarix araşdırmaları*, Cild 87.

SONG, Junho (1987), "Coseon dönəmində sinif sistemi", *Koreya tarixi*, Cild 4.

SONG, Junho (1997), *Feminist romanları oxumaq,* Seul: Bemyungsa.

SONG, Myunghi (1988), *Feminizm və ədəbiyyat,* Seul: Jipyung.

SONG, Myunghi (1994), *Ədəbiyyat və cinsəllik ideologiyası,* Seul: Semi.

SÖNMEZ, Emel (1973), "Türk Romanlarında Kadın Hakları", *Türk Kültürü Araştırmaları*, IV-V-VI 1966+969:1970.

STOWASSER, E.D. (1994), *Women in the Quran*, *Traditions*, *and Interpretation,* Oxford: Oxford University Press.

SU, Mükerrem Kamil (1956), "Reşad Nuri Güntekin", *Zafer* 23 Aralık.

SULEİMAN, Susan Rubin (1985), "Writing and Motherhood", *The Mather Tongue,* London: Cornell U.P.

SÜREYA, Camal (1975), "1975 Kadın Yılı (5): Edebiyatta Kadın", *Milliyet Senet* 15 Nisan. S. 128.

ŞAKAR, Kutluay (1982), "Yılanı Öldürseler", *Olgu* Mayıs.

ŞENER, Sevda (1990), "Tiyatro Eserlerimizde Kadın Örneği", *Gösteri* 101. Nisan.

TAHİR, Alangu (1966), "Bir Filiz Vardı", *Varlık Yıllığı*: 55-59.

TANPINAR, Ahmet Hamdi (1969), *Edebiyat Üzerine Makaleler,* İstanbul: Dergah Yayınları.

TANPINAR, Ahmet Hamdi (1970), "Sinekli Bakkal", *Yaşadığın gibi*, 304-307.

TAŞÇIOĞLU, Muhaddera (1958), *Türk Osmanlı Cemiyetinde Kadının Sosyal Durumu ve Kadın Kıyafetleri,* Ankara: Kadının Sosyal Hayatını Tetkik Kurumu.

TAŞKIRAN, Tezer (1973), *Cümhuriyetin 50. Yılında Türk Kadın Hakları,* Ankara: Başbakanlık Kültür Müsteşarlığı.

TEKELİ, Şirin (1979), "Türkiye'de Kadının Siyasal Hayattaki Yeri", *Türk Toplumunda Kadın,* Ankara: Türk Sosyal Bilimler Derneği.

TEKELİ, Şirin (1986a), "Emergence of the Feminist Movement in Turkey", *The New Womens Movement,* London: Safe Publications.

TEKELİ, Şirin (1986b), "Emergence of the New Feminist Movement in Turkey", *The New Womens Movement* London: 178-199.

TEKELİ, Şirin (1989), "1980'lerde Türkiye'de Kadınların Kurtuluşu Harekatının Gelişmesi", *Birikim* No. 3, Temmuz.

TEKELİ, Şirin (1990), "Women in the Changing Political Associations of the 1980s". *Turkish State*, *Turkish Society,* London, Rentledge.

TEKELİ, Şirin (1995), 1980'ler Türkiye'sinde Kadın Bakış Bakımından Kadınlar, İstanbul: İletişim Yayıncılık.

TEKİN, Talat (1988), *Orhon Yazıtları,* Ankara: TDK Yay. 540.

TONG, Rose Mary (1995), *Feminizm – Toplu baxış.* (Çev: Yi Soyeong), Seul: Hansin Munashasa.

TÖRE (1982), Emine Işınsı Özel Sayısı, *Töre*, 139 Aralık.
TÜMERDEM, Yıldız (1986), *Atatürk ve Çağdaş Türk Kadını,* Ankara: Türk Tarih Kurumu Basımevi.
TÜRE, Fatma (1994), *Bir Usta Bir Dünya: Adalet Ağaoğlu,* Ankara: Yapı Kredi Yayınları.
TÜSİAD (1991), "Türk Toplumunun Değerleri", Ankara
UĞROL, Barlas (1963), *Halide Edip Adıvr*, *Hayatı ve Eserleri,* İstanbul: Yurttaş Yayınları.
UNAT, Faik Reşad (1964), Türkiye Eğitim Sisteminin GelişmesineTarihi Bir Bakış, Ankara
URAZ, Murat (1937), Reşad Nuri, Hayatı, Eserleri ve Eserlerinden Parçalar, İstanbul.
UŞAKLIGİL, Halid Ziya (1938), "Bir Eser Vesilesiyle (Çalıkuşu)", Peyam-ı Sabah, 29 Mart.
UYGUNER, Muzaffer (1967), *Reşad Nuri Güntekin'in Hayatı – Sanatı – Eserleri,* İstanbul: Varlık Yayınları.
UYGUNER, Muzaffer (1975), "Kitaplar: Halide Edip Adıvar", *Türk Dili*, 289, Ekim, s. 594-595.
UYGUNER, Muzaffer (1979), "Halide Edip Adıvar ve Batı Sorunu", *Türk Dili*, 328, Ocak, s. 62-66.
ÜLKÜTAŞIR, M. Şakir (1967), "Türk Toplumunda Kadının Yeri", *Hayat Tarihi Mecmuası*, C. 1, 4 Mayıs: 46-51.
ÜNLÜ, Mahir (ve diğ.) (1987), 20. Yüzyıl Türk Edebiyatı: Cümhuriyet Öncesi Meşrutiyet Dönemi (1900-1923), İstanbul: İnkılap Kitapevi.
ÜNLÜ, Mahir (ve diğ.) (1988), 20. Yüzyıl Türk Edebiyatı: Cümhuriyet Kuruluş Dönemi (1923-1940), İstanbul: İnkılap Kitapevi.
ÜNLÜ, Mahir (ve diğ.) (1990), 20. Yüzyıl Türk Edebiyatı: Cümhuriyet Yeniler Dönemi I (1940-1960), İstanbul: İnkılap Kitapevi.
ÜNLÜ, Mahir (ve diğ.) (1991), 20. Yüzyıl Türk Edebiyatı: Cümhuriyet Yeniler Dönemi II (1940-1960), İstanbul: İnkılap Kitapevi.
WALKER, Nancy A. (1990), Feminist Alternatives: Irony and Fantasy in the Contemporary Novel by Women, Londan: U.P of Mississipi.

WELLEK, Rene Warren (1983), *Edebiyat Biliminin Temelleri.* (Çev: Ahmet Edip Uysal), Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları.

WON, Jongin (1988), *1930-cu illərdə qadın yazarların romanları.* (Yayınlanmamış magistr diss.), Seul: Sukinyung Universiteti.

XENAKIS, Françoise (1982), "Yılanı Öldürseler, Yaşar Kemal'in En Yalın Eseri", *Cümhuriyet* 4.11.182.

YAĞCI, Öner (1995), "Romanda Arabesk mi Senetin Vezifesi ve Berci Kristin Çöp Masalları Üzerine Notlar", *Yarın*: 44, Nisan: 13-14.

YALÇIN, Alemdar (1978), "Türk Edebiyatında Kadın Romancılar ve Emine Işınsu", *Töre*, 139 Aralık: 74-80. (1998, *Cümhuriyet Dönemi Türk Romanı*, Ankara: Günce Yayınevi.

YAZAR, Mehmet Behçet (1941), "Reşad Nuri Güntekin", *Yedigün*. C. XVI, Nr. 410, s. 16.

YENER, Cemil (1979), "Sinekli Bakkal, Türkçülüğün Esasları", *Ulusal Kültür*. Nr. 4, Nisan, s. 135-149.

YILDIRIM, Aysel (1999), *Sıradan Şiddet,* İstanbul: Boyut Kitapları.

YIM, Kyungseon (1976), *1930-cu illərdə qadın yazarların romanları* (Yayınlanmamış magistr diss.), Seul: İwha Universiteti.

Yİ, Eunkyung (1984), *Məktub diliylə yazılmış romanların özəllikləri,* Seul: Seogang Universiteti (Yayınlanmamış magistr diss.).

Yİ, Gwangsu (1997), *Mujeong*, Seul: İlsin nəşriyyatı.

Yİ, Hangtak (1986), *Qadın sosiologiyası,* Seul: Beopmunsa.

Yİ, Hyoje (1996), *Koreyada qadının statusu,* Seul: İusha Universiteti Yayınları.

Yİ, Hyoje (1989, *Koreyada qadın hərəkatları,* Seul: Jeongusa.

Yİ, İncik (və digərləri) (1996), *Yeni roman*, Seul: Dusan Doug.

Yİ, Jaeseon (və digərləri.) (1990), "Koreya ədəbiyyatı və feminizm", *Hyundae Munhak*, Ağustos.

Yİ, Jeong Mi (1982), *Shim Hun araşdırmaları,* Cheongju: Choongbuk Universiteti (Yayınlanmamış magistr diss.).

Yİ, Jeongok (1988), *Koreya qadın yazarların romanlarının incələnməsi: 1920-1930-cu illər.* (Yayınlanmamış magistr diss.), Seul: Seokang Universiteti.

Yİ, Jeseon (və b.) (1990), "Koreya ədəbiyyatı və feminizm", *Çağdaş ədəbiyyat,* Avqust.

Yİ, Sangwoo (1988), *Yi Gwangsunun Mujeong araşdırmaları,* Taejeon: Hannam Universiteti (Yayınlanmamış magistr diss.).

Yİ, Sohee (1995), "İngilis ədəbiyyatında görünən qadın sayağı yazmaq", *İngilis dili və ədəbiyyatı*. II, s. 5.

Yİ, Soyong (və digərləri) (1992), *Feminizm və postmodernizim,* Seul: Hansin Munushasa.

Yİ, Sunye (1990), "Feminist ədəbiyyatın inkişafı və problemləri", *Qadın hərəkatları və ədəbiyyatı,* S. 2.

Yİ, Won (1988), *Yi İncikin yeni romanlarının incələnməsi,* Gwangju: Jeonnam Universiteti (Yayınlanmamış magistr diss.).

Yİ, Yeongsuk (1988), *1930-cu illərdə qadın yazarların qadın məsələlərini əks etdirməsinə dair bir incələmə.* (Yayınlanmamış magistr diss.), Seul: İusha Universiteti.

YİM, Gichul (1991), *Shim Hunun romanlarının təhlili,* (Yayınlanmamış magistr diss.), Taegu: Yeongnam Universiteti

YU, Jeong (və digərləri) (1996), *Oğrunun gündəliyi,* Seul: Donga nəşriyyatı.

YU, Namok (1993), *1920-ci illərdəki hekayələrdə feminizm.* (Yayınlanmamış doktorluq diss.), Seul: Sukmyung Universiteti.

YURDANUR, Cengiz (1982a), "Kadın" maddesi, *Türk Dili ve Edebiyatı Ansiklopedisi*, C. V, s. 77, İstanbul.

YURDANUR, Cengiz (1982b), "Kadınlar Alemi" maddesi, *Türk Dili ve Edebiyatı Ansiklopedisi*, C. V, s. 80, İstanbul.

YURDANUR, Cengiz (1982c), "Kadınlar Dünyası" maddesi, *Türk Dili ve Edebiyatı Ansiklopedisi*, C. V, s. 80, İstanbul.

YÜCEL, Erdem (1971), "Osmanlı Tarihinde Vakıf Yapan Kadınlar", *Hayat Tarihi Mecmuası*, Il: 7, C. I, Sayı 1, Şubat.

YÜCEL, Hasan Ali (1956), "Çalıkuşu", *Cümhuriyet*, 17 Aralık.

ZEBA, Sittigui (1973), "The Rol of Muslim Women in Society", *Al-İttibad* Vol. 10 No. 4: 15-20

M Ü N D Ə R İ C A T

Ədəbiyyatların müqayisəsi
feminist təhlil fonunda (*Vaqif Sultanlı*) 3
Azərbaycan nəşrinə ön söz 7
Türkiyə nəşrinə ön söz..... 9
GİRİŞ..... 12

1.İKİ ÖLKƏDƏ ƏNƏNƏVİ VƏ İCTİMAİ BAXIMDAN
QADININ STATUSU 12
1.1.Türk qadınının ənənəvi və ictimai statusunun
tarixi inkişafı..... 12
1.2. Koreya qadınının ənənəvi və ictimai statusunun
tarixi inkişafı..... 15

2. MÜASİRLƏŞMƏ VƏ QADIN STATUSU 18
2.1. Türkiyə 18
2.1.1.Müasirləşmə və Türkiyədə edilən yeniliklər 18
2.1.1.1. Tənzimat dönəmində edilən yeniliklər 18
2.1.1.2.Atatürkün etdiyi inqilabla qadına verilən haqlar 19
2.1.2. Türkiyədə qadın statusu..... 19
2.1.2.1. Hüquqda qadın 19
2.1.2.2. Təhsildə qadın 20
2.1.2.3. Əmək həyatında qadın..... 22
2.1.2.4. Siyasətdə qadın..... 24
2.2.Koreya 27
2.2.1. Müasirləşmə və Koreyada edilən yeniliklər 27
2.2.1.1. Kabo fərmanı 27
2.2.1.2. Qadın cəmiyyətlərinin fəaliyyətlərilə
gətirilən yeniliklər 28
2.2.2. Koreyada qadın statusu..... 29
2.2.2.1. Hüquqda qadın 29
2.2.2.2. Təhsildə qadın 31
2.2.2.3. Əmək həyatında qadın..... 32
2.2.2.4. Siyasətdə qadın..... 34

I BÖLÜM
TÜRKİYƏ VƏ KOREYA ROMANLARINDA QADIN.....36

1. TÜRKİYƏ ROMANINDA QADIN.....36
1.1. Xalidə Ədib Adıvar – "Xəndan" 36
1.1.1. Özət 36
1.1.2. Qadın xarakterlər.....37
1.1.2.1. Xəndan.....37
1.1.2.2. Nəriman 43
1.2. Rəşad Nuri Güntəkin – "Çalıquşu" 45
1.2.1. Özət 45
1.2.2. Qadın xarakterlər.....46
1.2.2.1. Ərəbistan illəri: uşaqlıq dönəmi 48
1.2.2.2.İstanbul illəri: Tələbəlik dönəmi və eşq həyatı.....49
1.2.2.3. Anadolu illəri: müəllimlik həyatı 50
1.2.2.4. İstanbula dönməyi: Kamrana qovuşmağı 54
1.3. Xalidə Ədib Adıvar – "Sinəkli baqqal".....56
1.3.1. Özət 56
1.3.2.Qadın xarakterlər.....58
1.3.2.1. Rabia.....58
1.3.2.2. Əminə 65
1.4. Orxan Kamal – "Bir Filiz vardı" 67
1.4.1. Özət 67
1.4.2. Qadın xarakterlər.....68
1.5. Ədalət Ağaoğlu – "Ölməyə yatmaq".....73
1.5.1. Özət 73
1.5.2. Qadın xarakterlər.....74
1.6. Yaşar Kamal – "İlanı öldürsələr" 79
1.6.1. Özət 79
1.6.2. Qadın xarakterlər.....80
1.7. Ayla Kutlu – "Cadügər ağacı".....84
1.7.1. Özət 84
1.7.2. Qadın xarakterlər.....85
1.8. Əminə İşınsu – "Qaf dağının arxasında" 89
1.8.1. Özət 89
1.8.2. Qadın xarakterlər.....91

2. KOREYA ROMANINDA QADIN 96
2.1. İncik Yi – "Qanlı göz yaşı" 96
2.1.1.Özət 96
2.1.2. Qadın xarakterlər 97
2.1.2.1. Okryeon 98
2.1.2.2. Jeongsang xanım 103
2.2. Gvangsu Yi – "Mujeong" 104
2.2.1. Özət 104
2.2.2. Qadın xarakterlər 105
2.2.2.1. Yeongche 105
2.2.2.2. Seonhyung 109
2.3. Hun Shim– "İynəyapraqlı bir ağac" 112
2.3.1. Özət 112
2.3.2. Qadın xarakterlər 113
2.4. Mansik Che – "Takryu" 117
2.4.1. Özət 117
2.4.2. Qadın xarakterlər 117
2.4.2.1. Chobong 118
2.4.2.2. Kebong 121
2.5. Kyungri Par– "Əczaçı Kimin qızları" 123
2.5.1. Özət 123
2.5.2. Qadın xarakterlər 124
2.5.2.1. Hansil və Yongok 126
2.5.2.2. Yongsuk, Yongbin, Yongran 127
2.6. Seokyung Kang – "Meşə içində otaq" 130
2.6.1. Özət 130
2.6.2. Qadın xarakterlər 130
2.6.2.1. Soyang 130
2.6.2.2. Miyang 134
2.7. Vanu Kim – "Üç bacının hekayəsi" 136
2.7.1. Özət 136
2.7.2. Qadın xarakterlər 137
2.7.2.1. Yonge 137
2.7.2.3. Myunghe 141
2.8. Jiyong Gong – "Öküzün buynuzu kimi təkcə gəzin" 143
2.8.1. Özət 143
2.8.2. Qadın xarakterlər 144
2.8.2.1. Hevan 144

2.8.2.2. Kyunghi 146
2.8.2.3. Yongseon 148

3. TÜRK VƏ KOREYA ROMANINDA QADIN XARAKTERLERİN QARŞILAŞDIRILMASI 150

II BÖLÜM
TÜRK VƏ KOREYA ROMANLARININ QADIN XARAKTERLƏR BAXIMINDAN DƏYƏRLƏNDİRİLMƏSİ 157

1. QADIN XARAKTERİNİN FİZİKİ XÜSUSİYYƏTLƏRİ 165
1.1. Ana olmaq 165
1.2. Cinsiyyət baxımından bir obyekt olmaq 170
2. QADIN XARAKTERLERİN DİLLƏRİ VƏ ÜSLUBLARI 177
2.1. Susma və daxili monoloq 177
2.2. Məktub, avtobioqrafiya və ironiya 181
3. QADIN XARAKTERLƏRİN QARŞILAŞDIQLARI HALLAR VƏ XÜSUSİYYƏTLƏR 187
3.1. Dünya ilə tanış olmaq 187
3.1.1. Ev və təzyiq 187
3.1.2. Yolçuluq və hərəkət 189
3.1.3. Geriyə baxmaq və kəşf etmək 190
3.2. Dünya ilə təmas qurmaq və konflikt 192
3.2.1. Müsbət analıq və məcburi analığın qarşıdurması 192
3.2.2. Qadınlıq və kişiliyin yanlış dəyərləndirilməsi 194
3.2.3. Aşiq və toplum arasındakı konflikt 198
3.3. Xarici dünyadan geri dönmək 201
3.3.1. Öz şəxsiyyətini kəşf etmə və inkişaf 201
3.3.2. Vazkeçmə və məğlubiyyət 203
3.3.3. Xoşbəxtliyə qovuşma 205
4. ROMANDAKI QADIN XARAKTERLƏRİN ARADA QALMAQLARI VƏ “ARA POETİKASI” 206

NƏTİCƏ 208
QAYNAQLAR 212

EUNKYUNG OH

XX YÜZİL TÜRKİYƏ VƏ KOREYA ROMANLARINDA QADIN

Feminist təhlil

Səhifələyici:
Fəxri Vəliyev

Çapa imzalanmışdır: 22.07.2020.
Ölçü: 60x90 1/16. Çap vərəqi: 15,0. Sifariş: 093/20. Say: 500 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

Eunkyung Oh

Tanınmış Koreya türkoloqu Eunkyung Oh Dongduk Qadınlar Universitetinin professoru, Avrasiya Türk Araşdırmaları İnstitutunun direktoru, YUNESKO-nun Orta Asiya ölkələri üzrə təmsilçisi, Özbəkistan Elmlər Akademiyasının üzvü, nazir səviyyəsində Koreya prezidentinin müşaviridir.

Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü olan müəllifin nəşr olunmuş elmi araşdırmaları içərisində "Türk ədəbiyyatında Koreya savaşı" (türkcə), "XX yüzil Türkiyə və Koreya ədəbiyyatında qadın" (türkçə), "Örtü içində islam qadını", "Psixo analitik baxımdan islamda qadın kimi yaşamaq" (Koreya dilində), "Türkiyə və Koreya qəhrəmanlıq dastanlarının müqayisəli təhlili: "Alpamış" və "Jumong" (özbəkcə və rusca) kitabları xüsusi yer tutur.

Eunkyung Oh, Yaşar Kamalın "İlanı öldürsələr", "Ağrı dağı əfsanəsi", "Minboğalar əfsanəsi", "İncə Məmməd", Murad Tuncelin "İnanna" romanlarını, Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasını Koreya dilinə çevirmişdir.

"XX yüzil Türkiyə və Koreya ədəbiyyatında qadın" monoqrafiyası müəllifin Azərbaycanda nəşr olunan ilk kitabıdır.

NURLAR

9 789952 528541